Şahbaz Balakişiyev

ELLƏROYUĞU HƏQİQƏTLƏRİ

Kitab Qərbi Azərbaycan İcmasının
tövsiyəsi ilə hazırlanmışdır.

Bakı - 2024

İdeya rəhbəri:
Abel Məhərrəmov,
akademik, QAİ-nin Amasiya rayon icmasının sədri

Baş məsləhətçi:
Zahid Xəlilov,
şair-publisist,
QAİ-nin Ellərоyuğu icmasının sədri

Elmi redaktoru:
Aslan Bayramov,
filologiya elmləri doktoru, professor, QAİ-nin Təpəköy icmasının sədri

Rəyçilər:
Fərrux Rüstəmov,
pedaqoji elmlər doktoru, professor
Əməkdar elm xadimi, QAİ-nin Ziyalılar Şurasının sədr müavini
Avtandil Ağbaba,
filologiya elmləri doktoru, professor,
QAİ-nin Ziyalılar Şurasının üzvü
Nazim Mustafa,
tarix üzrə fəlsəfə doktoru, dosent,
Dövlət mükafatı laureatı, QAİ-nin İdarə Heyətinin üzvü

Şahbaz Balakişiyev. Ellərоyuğu həqiqətləri
"Letterpress" nəşriyyatı, Bakı – 2024, 296 səh.
İSBN 978-9952-452-00-6

Kitab tarixi-bioqrafik vəsait kimi 1989-cu ildə erməni faşizmin növbəti təcavüzünə məruz qalmış Qərbi Azərbaycanın Ağbaba mahalının Ellərоyuğu (Ellərkənd) kəndinin həqiqətlərini geniş ictimaiyyətə çatdırmaq məqsədilə hazırlanmışdır.

MÜNDƏRİCAT

Ön söz (*prof. Aslan Bayramov)*.....4
Qərbi Azərbaycan həqiqətləri 11
Ağbaba və Şörəyeldə tarixi izlərimiz..... 16
Ağbaba nahiyəsi – Amasiya rayonu 1921-1989-cu illərdə 18
Ellərоyuğu kəndinin mədəniyyəti və məişəti...24
Kəndimizin sosial-iqtisadi həyatı və məşğuliyyəti.....42
Kəndimizdə yaşamış tayfa və nəsillər.....45
Kiçik akademiya – Ellərоyuğu (*Ellərkənd)* 8-illik məktəbi.....127
Kəndimizdən pərvazlanan ziyalılar.....155
Kəndimizin məşhurları.....164
Həmyerlilərimiz II Dünya Müharibəsi illərində.....200
Qarabağ uğrunda şəhid olanlarımız.....209
Kəndimizin saz-söz çələngi.....215
Ellərоyuğu və yaxın ərazilərdə işlənən şivə sözləri.....239
Kəndimizdə işlənmiş mikrotoponimlər.....265
Yaddaqalan və maraqlı xatirələr.....280

TARİXİ YADDAŞ

İtirilmiş yurd yerlərimiz, onun tarixi-coğrafiyası, maarif və mədəniyyəti, iqtisadi-siyasi həyatı, etnokulturoloji məişəti haqqında kitab yazmaq həm çətin, həm də şərəfli bir işdir. Çətindir ona görə ki, gərək elə tarazlıq yaradasan ki, heç kəs inciməsin: biri deyəcək, bizim nəsil haqqında məlumat azdır, o birisi söyləyəcək ki, mənim fəaliyyətim ətraflı yazılmayıb və s. Şərəflidir ona görə ki, doğulub boya-başa çatdığın öz doğma kəndinin flora və faunasını, tanıyıb bildiyin qohum-qonşuları, sıravi əmək adamlarını, görkəmli ziyalıları, ağbirçək nənələrimizi, ağsaqqal babalarımızı, böyük ənənəsi olan tayfa və nəsilləri bir daha xatırlayıb, tarixin yaddaşına köçürəcəksən.

Bununla belə, dəfələrlə repressiya və deportasiyaya məruz qalmış, rus-alman savaşında *(1941-1945-ci illər)* həlak olan və ya itkin düşən kənd sakinləri, eləcə də Qarabağ uğrunda döyüşlərdə qazilik göstərən və ya şəhid olan igidlərimizin portretini yaratmaq da şərəfli bir işdir. Bu həm də hər bir ziyalının xalq qarşısında mənəvi borcudur.

Bu baxımdan Ağbaba elinin *(Amasiya rayonu)* Ellərоyuğu *(Ellərkənd)* kəndində uzun müddət – 1989-cu ilədək müəllimlik etmiş, hazırda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elmi-praktiki, metodiki orqanı olan "Peşə təhsili və insan kapitalı" jurnalının baş redaktoru, filologiya elmləri üzrə fəlsəfə doktoru Şahbaz Balakişiyevin canyanğısı ilə ərsəyə gətirdiyi **"Ellərоyuğu həqiqətləri"** kitabı maraq doğurur. Maraqlıdır ona görə ki, kitabda erməni tapdağında qalıb inildəyən bir kəndimizin qan yaddaşı əks olunur. Hər bir kəndin tarixi Azərbaycan tarixinin bir hissəsidir.

Kitabın quruluşu müxtəlif başlıqlardan *(bölmələrdən)* ibarətdir. Müəllif kitabın "Qərbi Azərbaycan həqiqətləri" adlanan bölməsində Qərbi Azərbaycanın Azərbaycan türklərinin tarixi vətəni olması barədə müxtəlif faktlara – xalqımızın etnokulturoloji mədəniyyətinin bir hissəsi olan və ərazilərin kimə, hansı xalqa aid olmasını bildirib, təsdiq edən toponimlərə üz tutur. Doğru da eləyir. Toponimlər dil faktı olaraq arxeoloji abidələrdən də qiymətli mənbədir.

Müəllif ermənilərin zaman-zaman car hökuməti, daha sonra bolşevik Rusiyası tərəfindən Cənubi Qafqaza məqsədli şəkildə gətirilmələrini statistik rəqəmlərlə, xronoloji ardıcıllıqla təqdim edir. Rus-alman savaşından sonra *"köçürmə"* adı ilə Azərbaycan türklərinin doğma yurdlarından deportasiya olunmaları qeyd olunur. Daha sonra Qərbi Azərbaycandan azərbaycanlıların 1988-89-cu illərdəki deportasiyaları, o vaxtkı Azərbaycan rəhbərinin buna biganə yanaşması, Amasiya rayon kəndlərinin Türkiyə sərhədində mitinqləri və nəhayət əhalinin qaçqın düşməsi, min bir əzabla yaradılan kolxoz və sovxozların talan edilməsi və s. məsələlər geniş şərh olunur. Bununla belə Azərbaycan Qaçqınlar Cəmiyyətinin, daha sonra Qərbi Azərbaycan İcmasının qaçqınların yerləşdirilməsi yönümündə apardığı işlərə münasibət bildirilir. Qaçqınların keçmiş yurd-yuvalarına qayıtmaları haqqında "Dövlət konsepsiyası"nın hazırlanması işlərinin başa çatdırılması və bu işə dövlət dəstəyinin olması geniş şərh edilir.

Şahbaz Balakişiyev kitabın "Ağbaba və Şörəyeldə tarixi izlərimiz" adlanan bölməsində göstərilən ərazilərin tarixi-etnik coğrafiyası, Rusiya-Osmanlı, İran və Rusiya arasındakı müharibələr nəticəsində Azərbaycan türklərinin dəfələrlə deportasiya, repressiya və soyqırıma məruz

qalmalarını, qaçqınlıq və köçkünlük hadisələrini, gəlmə ermənilərin İrəvan xanlığı ərazisində dövlət yaratmalarını tarixi faktlarla göstərir.

"Ağbaba nahiyyəsi – Amasiya rayonu 1921-1989-cu illərdə" adlanan bölmədə Ağbaba bölgəsinin keçmişdə Qars vilayətinin tərkibində nahiyyə kimi, 1921-ci ildə isə Aleksandrapol qəzasına qatılması, 1929-1989-cu illərədək nahiyyənin sərhədləri daxilində Amasiya rayonunun fəaliyyəti, Ağbaba toponimləri haqqında geniş məlumat verilir, onun etnokulturoloji və linqvistiq məqamları açıqlanır. O da qeyd edilir ki, Qars müqaviləsindən sonra Ağbaba bölgəsindəki qarapapaqlar yaşayan bir çox kəndlərin əhalisi (*Ördəkli, Qönçəli, Söyüdlü, Baxçalı, Mustuqlu, Sultanabad, Mumuxan, Suanx, Tezbahar, Kiçik Təpəgöy, Şiştəpə, Təzəköy*) etiraz əlaməti olaraq, həm də erməni hakimiyyətini istəməyərək Qars tərəfə gedib, o ərazilərdə məskunlaşırlar.

Əlbəttə, əhalisi 100% azərbaycanlı olan böyük bir ərazinin əvvəla car hökuməti, daha sonra bolşevik Rusiyası tərəfindən icad edilən "*Ermənistan"a* verilməsi saxtakarlıqdan başqa bir şey deyildir. Müəllif düzgün olaraq XX əsrin 30-cu və 50-ci illərində Amasiya rayonundan Qazaxıstana və digər yerlərə sürgün olunanların əzab-əziyyətini, sürgün vaxtı bitəndən sonra da kəndlərə buraxılmadıqlarını ətraflı yazır. Bununla belə müəllif yazır ki, Amasiya rayonunda azərbaycanlıların çox olması həmişə ermənilər narahat edirdi. O dövrlərdə bir neçə rayonun gəlmə ermənilər yaşayan Qızılqoç *(1935 – Kukosya)* rayonu ilə gah birləşdirilməsi, gah da ayrılmasının səbəblərini müəllif doğru olaraq rayon rəhbərliyinə can atan ermənilərin millətçilik azarlarında və vəzifəpərəstliyində görür.

Müəllif haqlı olaraq qeyd edir ki, 1989-cu ilədək Amasiya rayonunun 22 kəndində yaşayan azərbaycanlıların statistik sayı 20 min olduğu halda, həm də bu qədər azərbaycanlı yaşayan rayonda elə məsul vəzifələr vardır ki, başqa və ya ucqar rayonlardan ermənilərin gətirilib həmin vəzifələrə yerləşdirilməsi məqsədli şəkildə həyata keçirilirdi. Halbuki kəndlərdə yaşayan azərbaycanlılar arasında hər cür ixtisas sahibləri vardır.

"Ellərоyuğu kəndinin mədəniyyəti və məişəti" adlanan bölmədə müəllif Amasiya rayonunun lap ucqarında yerləşən Ellərоyuğu adının – oykoniminin müxtəlif variantlarda işlədildiyini yazır.

Fikrimizcə, Ellərоyuğu forması düzgün variantdır. Rus və türk mənbələrində həmin variantda yazılmış mənbələr də vardır. E.Muvrayev "*oyuq*" onomastik terminin türk xalqları yaşayan ərazilərdə *tayfa, tirə, nəsil* mənalarında işləndiyini yazır.

Müəllif kəndin relyefi, coğrafi yerləşməsi, flora və faunası haqqında ətraflı məlumat verəndən sonra Ellərkəndin mədəni-məişəti, iqtisadi həyatı, əhalinin sosial durumu, milli-etnik mənşəyi haqqında da geniş və əhatəli məlumat verir. Kənddə uzun müddət sürücü və mexanizator işləyən həmkəndlilərini – Bəxtiyarov Şükür, Alıyev Kazım, Alıyev Qasım, Gülməmmədov Abuzər, Balakişiyev Dünyadər, Mustafayev Fahralı, Alıyev Surəddin, Bayramov Vidadi və s. kimi sənətkarları da unutmur. Onların bir çox tərifəlayiq əməllərini xatırlayır, onlar haqqında xoş sözlər deməyi də yaddan çıxarmır. 1930-1940-cı illərdə Ellərоyuğudan olan bir neçə nəfər ziyalının rayon rəhbərliyində təmsil olunmasını da xüsusi qeyd edir. Bununla belə, müəllifin nəinki rayonda, eləcə də Qərbi Azərbaycanda bacarıqlı təsərrüfat işçisi kimi

tanınan, uzun müddət – 20 ildən çox Güllücə və Qönçəli sovxozlarında direktor işləyən Mürsəlov Qulu haqqında geniş məlumat verməsi təbiidir. O, bir rəhbər kimi bu işə layiq təsərrüfat rəhbəri idi. Kəndin yetirməsi olan Qədirov Vaqifin də Dürkənd sovxozunun direktoru kimi fəaliyyət göstərməsi kitabda qeyd edilir. Kitabda kənd şənliklərini və toyları idarə edən sənətkarlar barədə də müəllif məlumat verir. Həm rayonda, həm də Ellərkənddə toyları aparan zurnaçı və toyçuları bir daha xatırlayır.

Kitabın "Kəndimizin sosial-iqtisadi həyatı və məşğuliyyəti" adlanan bölməsində kənddə kolxoz quruluşu, kolxoza rəhbərlik edən sədrlər, daha sonra kəndin Güllücə sovxozunun bir məntəqəsi olması xüsusi olaraq qeyd edilir, əkinçilik barədə yığcam məlumat verilir.

"Kəndimizdə yaşamış tayfa və nəsillər" başlığı ilə verilən hissədə müəllif Ellərkənddə yaşayan, böyük ənənəsi və tarixi keçmişi olan tayfa və nəsillərin soykökü barədə ətraflı məlumat verərək onların şəcərəsini bərpa etməyə çalışmış və belə çox çətin bir işin öhdəsindən gələ bilmişdir. O, eyni zamanda tayfa və nəsillərin qədim ənənəyə söykənən kirvəlik əlaqələri barədə də ətraflı məlumat vermişdir. Bu, etnoqrafiq gələnək insanları dostluğa çağıran bir münasibətdir.

Kitabda "Kiçik akademiya – Elləroyuğu *(Ellərkənd)* kənd 8-illik məktəbi" başlığı ilə verilən hissədə böyük bir ənənəsi olan Ellərkənd məktəbi haqqında geniş və ətraflı məlumat verilir. Doğrudan da, Ellərkənd 8-illik məktəbi rayonda seçilən məktəblərdən idi. Təlim-tərbiyənin düzgün təşkili, şagirdlərin fəallığı, müəllimlərin pedaqoji ustalığı və digər kriteriyalarına görə bu, tanınan məktəblərdən hesab edilirdi. Necə deyərlər, "*görünən*

dağa nə bələdçi”. Bəli, kəndin fəxr ediləsi ziyalıları məhz bu məktəbdən pərvazlanmışdır.

“Kəndimizdən pərvazlanan ziyalılar” və “Kəndimizin məşhurları” adlanan bölmələrdə kənddə doğulub-böyüyən ziyalılar haqqında kiçikhəcmli oçerklər də yer almışdır. Onların çoxu yaxından tanıdığım insanlardır. Uzun müddət dövlət qulluğunda çalışan şair Zahid Xəlilov, Bakı şəhərində 35, daha sonra 159 saylı tam orta məktəblərdə direktor işləmiş Vahid Xəlilov, ADNA-da uzun müddət çalışan fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Ələmdar Həsənov tanıdığım ziyalılardandır. ADPU-da uzun müddət dekan, kafedra müdiri vəzifələrində çalışmış professor Buludxan Xəlilov (*Allah rəhmət eləsin)* yaddançıxmaz ziyalı olmuşdur. Onunla düz 10 il bir yerdə işləmişəm. O, Sumqayıt Dövlət Universitetinin filologiya fakültəsində 2003-2008-ci illərdə dərs demiş, magistr və aspirantların yetişməsində böyük əməyi olmuşdur. Elləroyuğu kənd 8-illik məktəbindən pərvazlanan ziyalılar haqqında müəllif ətraflı yazdığı üçün bunlarla kifayətlənirəm.

Kitabda eyni zamanda 1930-1950-ci illərdə repressiyaya məruz qalanlar — NKVD-nin caynağından xilas olub Türkiyəyə üz tutanlar və ya qolçomaq adı ilə Qazaxıstana sürgün edilənlər haqqında da məlumat verilir. “Həmyerlilərimiz II Dünya Müharibəsi illərində” adlanan bölmədə Elləroyuğu kəndindən rus-alman savaşına gedənlərdən 26 nəfərin itkin düşməsi və ya həlak olması, müharibənin dəhşətlərini görərək geri qayıdanlarla da bağlı məlumat verilir. Bir çoxlarının dəfn olunduğu ölkə (*kənd, qəsəbə, xutor*) göstərilir. Bunlar maraqlı faktlardır. Heç olmazsa bir çox ailələr həlak olan adamlarının dəfn olunduğu yeri öyrənməklə, az da olsa təsəlli taparlar.

“Qarabağ uğrunda şəhid olanlarımız” adlanan hissədə Birinci Qarabağ savaşında həlak olanlar haqqında oçerklər verilir. 1989-cu ildən sonra ermənilər daha da azğınlaşaraq şəhər və kəndlərimizdə əliyalın insanlara rus silahının gücü ilə qətliyam törətdilər. Birinci Qarabağ savaşı belə başladı. Hələ 80-ci illərdə Ellərоyuğu 8-illik məktəbinin aşağı siniflərində oxuyan gənclər qaçqın kimi bura gəldikdən sonra milli qeyrət çələnginə bürünərək Azərbaycanın ayrılmaz bir hissəsi olan Qarabağ uğrunda savaşa qatılıb şəhid oldular. Müəllif Qarabağ şəhidlərinin hər biri haqqında ayrıca oçerk yazıb. Onlar 4 nəfərdir: Balakişiyev Habil (*1974-1994-cü illər),* Qədirov Mahir (*1966-1994-cü illər),* Əliyev Akif (*1973-1992-ci illər),* Mustafayev Faiq *(1977-1998-ci illər).*

Kitabın “Kəndimizin saz-söz çələngi” adlanan bölməsində Ellərоyuğu kəndində yaşayıb-yaradan el şairlərinin, eləcə də Ağbabanın azman aşıqlarından olan Aşıq İsgəndər Ağbabalının şeirlərindən seçmələr verilmişdir. Şeirlərin ana xəttini təbiət təsviri, vətən həsrəti, yurd niskili, qaçqınlar və s. motivlər təşkil edir.

Kitabın sonunda Ellərоyuğu və ona yaxın olan ərazilərdə işlənən şivə sözləri, xörək, bitki adları, mikrotoponimlər və s. haqqında lüğət verilmişdir. Bunların hamısı bizim Ağbabada olan etnomədəni və tarixi irsimizdir. Bu etnomədəni irsimizi gələcək nəsillərə ötürmək üçün müəllif diqqətəlayiq və maraqlı bir kitab ortaya qoymuşdur. Ona uğurlar arzu edirəm.

Aslan Bayramov,
SDU-nun professoru, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü

QƏRBİ AZƏRBAYCAN HƏQİQƏTLƏRİ

Qərbi Azərbaycan hazırkı Ermənistan Respublikasında 1989-cu ilə qədər yaşamış azərbaycanlıların tarixi ata-baba yurdudur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, bütün təzyiq və təqiblərə baxmayaraq Qərbi Azərbaycanın bizim tarixi torpağımız olduğunu bir çox tarixi sənədlər, xəritələr və bizim uzun illik tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər həmişə bu tarixi silməyə, hər şeyi öz adlarına çıxmağa çalışıblar, bəzi hallarda buna nail də olublar. Onlar Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan edərək dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər. Ancaq XX əsrin əvvəllərinə təsadüf edən xəritə və digər tarixi faktlar bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, burada nəinki şəhərlərin, kəndlərin adları, həm də sayı məlum olmayan 100 minlərlə mikrotoponimlər Azərbaycan mənşəlidir. Bu faktlar sübut edir ki, Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb.

Ayrı-ayrı dövrlərdə – həm çar Rusiyası, həm də bolşevik Rusiyası zamanında dünyanın müxtəlif yerlərindən köçürülərək bu yurd yerlərimizə məqsədli şəkildə yerləşdirilən ermənilər həmişə uydurma "*erməni dövləti*" yaratmaq xəyalları ilə öz istəklərinə nail olmağa çalışıblar. XIX əsrin əvvəllərindən etibarən dünyanın müxtəlif yerlərinə dağılmış və xüsusən də Türkiyədə erməni üsyanlarının yatırılması nəticəsində on minlərlə erməni ölkəni tərk edərək Cənubi Qafqaza axışmışdır. Qaçqın ermənilər daimi məskunlaşdırmaq məqsədilə yerlərdə

qırğınlar törədilmiş, azərbaycanlıların xeyli hissəsi ya məhv edilmiş, ya da evlərindən didərgin salınmışdır. 1896-cı ildə Cənubi Qafqazda 900 min erməni yaşadığı halda, 1908-ci ildə bu rəqəm 1.301 minə qədər artmışdır. 1914-1916-cı illərdə Cənubi Qafqaza daha 350 min erməni Türkiyədən gətirilərək yerləşdirilmişdir.

1947-ci il dekabr ayının 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" Qərar qəbul etmişdir. Xaricdən Ermənistana məqsədli şəkildə köçürülən ermənilərin məskunlaşdırılmasına xidmət edən bu qərar kənd rayonlarında yaşayan azərbaycanlı əhaliyə şamil edilməli olduğu halda, fürsətdən istifadə edən Ermənistan rəhbərliyi azərbaycanlıların əksəriyyətinin kütləvi şəkildə deportasiya edilməsinə nail olmuşdur.

1980-ci ilin axırında sovetlər birliyi rəhbərliyində olan boşluqlardan istifadə edən ermənilər yenə də Azərbaycan xalqına qarşı torpaq iddiasında oldular. 1988-ci il hadisələri isə bu deportasiyaların ən yüksək zirvəsi – kuliminasiyası oldu. Ermənilərin Sumqayıtda törətdikləri hadisələrdən sonra öz havadarlarına güvənərək lap quduzlaşmış erməni quldurları açıq-açığına təzyiqlərə başlamışdılar. Bunun ilkin təsirlərini yaşadığımız Ağbaba mahalında da (*Amasiya rayonu*) gördük. İrəvan şəhərində doğulub, orada formalaşan, Amasiya Rayon Partiya Komitəsinin birinci katibi, mərhum İldırım Bağırov erməni xislətinə yaxşı bələd olduğundan 1988-ci il Sumqayıt hadisələrindən sonra yerli azərbaycanlıları daha ayıq olmağa çağırır və özü də rayonda asayişin qorunmasına şəxsən nəzarət edirdi. Birinci katibin bu ayıq-sayıqlığı ermənilərı razı salmırdı və açıq şəkildə elə ilk təzyiqi də

ona etdilər. Onu ləkələmək üçün iyrənc və özlərinə layiq hərəkətlərlə İldırım müəllimin işdən azad olunaraq cəza almasına nail ola bildilər. Ancaq qədirbilən xalqımız o ağır günlərdə İldırım Bağırovu tək buraxmadı və günlərlə rayonun İbiş kəndinin qardaş Türkiyə ilə sərhədinə toplaşaraq birinci katibin azad olunmasını tələb etdilər.



O günlərin canlı şahidi kimi deyə bilərəm ki, xalqımızın bu təpkisi qarşısında dözüm gətirməyən Zaqafqaziya Hərbi Komandanlığının birbaşa müdaxiləsi nəticəsində İrəvan şəhərində saxlanılan İldırım Bağırov hərbçilərin müşayiəti ilə camaatla görüşə gəldi və onun sərbəst buraxılması müqabilində insanların sərhəddən çəkilərək evlərinə qayıtmalarını xahiş etdi. Bu, belə də oldu. Biz geri çəkildik və İldırım Bağırov Azərbaycana getməsinə icazə verilmək şərti ilə azadlığa buraxıldı. Sonralar – 1990-1993-cü illərdə mən işlədiyim redaksiyanın *(Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr*

Cəmiyyətinin orqanı olan "Novruz" qəzetində məsul katib işləyirdim - Ş.B.) tapşırığı ilə İldırım müəllimlə bir neçə dəfə görüşdük. O zamanlar erməni dilini və onların xarakterik xüsusiyyələrini yaxşı bildiyindən onu Xankəndində yaradılmış müvəqqəti idarəetmə işlərinə cəlb etmişdilər. Onun iş yeri M.F.Axundov kitabxanasının yanındakı binada yerləşirdi və mən də işlədiyim redaksiyanın ora yaxınlıq imkanından istifadə edərək onunla tez-tez görüşə bilirdik. Son illər rayonun Güllücə sovxozunda direktor vəzifəsində işləmiş mərhum Telman Ramazanov da İldırım müəllimlə sıx əlaqədə olduğundan bəzi hallarda birlikdə görüşürdük. O söhbətlər zamanı İldırım Bağırovun o ağır günləri xatırlayaraq Ağbaba camaatına necə ağızdolusu minnətdarlıq etdiyini indi də yaxşı xatırlayıram.

Yeri gəlmişkən, eloğlularımızın o ağır günlərdə niyə məhz qardaş Türkiyə sərhədini seçməsinin böyük siyasi və mənəvi məna daşıdığı Qarabağ hadisələri zamanı Türkiyənin bizə necə arxa-dayaq olması ilə bir daha sübut olundu ki, biz ağbabalılar o günlərdə üzümüzü qardaşlarımıza tutmaqda haqlıymışıq. Çünki bizim ümid yerimiz, arxa-dayağımız ancaq Türkiyə ola bilərdi.

Əgər o dövrdə – 1988-ci ildə Ermənistanın böyük bir hissəsini ağuşuna alan (*bəlkə də bu, onlara etdikləri haqsızlığa görə Allahın qarğışı, divanı, biz azərbaycanlılara isə Allahın dəstəyi idi)* zəlzələ olmasa, bəlkə də daha böyük insan itkiləri ilə üzləşəcəkdik. Beləliklə, ermənilərin "*başı özlərinə qarışdı*" və biz elə öz haylarında olan (*öz dərdləri ilə məşğul olmaq*) ermənilərin yaşadığı ərazilərindən qaçaraq canımızı qurtara bildik. Amma Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyinin səbatsızlığı üzündün qaçqınların Qarabağda yer-

ləşdirilməsinə icazə verilmədi. Bu səhv idarəetmə nəticəsində 1 milyondan artıq qaçqınımız dədə-baba yurdlarından qovuldular.

Ölkə Prezidentinin xeyir-duası ilə 2022-ci ildə mütəşəkkil formada fəaliyyətə başlayan Qərbi Azərbaycan İcmasının məqsədi də məhz müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqla, onların hüquqlarının beynəlxalq müstəvidə bərpası, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması, bu gerçəkliklərin dünyaya çatdırılması və tam məhv olunmasının qarşısının alınması, həmin insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsi və birgə yaşayışa nail olunmasından ibarət olmuşdur.

Bu məqsədlə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci ilin dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olmuş və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşərək İcmanın yol xəritəsinin istiqamətlərini bəyan etmişdir. Artıq respublikamızda qərbi azərbaycanlıların problemi ilə yaxından məşğul olan və onların haqq səslərini dünyaya çatdıran bir qurum vardır. Bu qurum – Qərbi Azərbaycan İcması 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir.

**** Kitabın bu bölmələrinin hazırlanmasında tarix üzrə fəlsəfə doktoru, dosent Nazim Mustafayevin araşdırmalarından istifadə edilmişdir.***

AĞBABA VƏ ŞÖRƏYELDƏ TARİXİ İZLƏRİMİZ

Xalqımızın milli-mənəvi, tarixi yazılı abidəsi olan "Oğuznamə"lərdə və "Kitabi-Dədə Qorqud" dastanında çəkilən yüzlərlə yer-yurd adları Qərbi Azərbaycan (*indiki Ermənistan)* ərazisində bu günlərə qədər yaşamaqdadır ki, bu da oğuzların həmin ərazilərdə hələ İslama qədərki dövrlərdən yaşadığını sübut edir.

"Oğuznamə"lərdə və "Kitabi-Dədə Qorqud" dastanında işlənən toponimləri – hidronim, oronim və oykonimləri təhlil etməklə bir daha sübut etmək mümkündür ki, bu ərazilər tarixən oğuzların yaşadıqları ərazilər olmuşdur. Belə ərazilərdən bir qismi indiki Ermənistanla Türkiyə arasındakı sərhəd boyunca iki yerə bölünən Ağbaba, Şörəyel nahiyələri və Qayqulu *(Qızılqoç)* elidir.

Tədqiqatçı alim, tarix üzrə fəlsəfə doktoru, dosent Nazim Mustafanın araşdırmalarına görə, Ağbaba nahiyəsinin Ermənistan tərəfdə qalan hissəsi sonralar Amasiya rayonu adlandırılmış, Şörəyelin Ermənistanda qalan hissəsində – Şərqi Şörəyeldə sonralar Axuryan *(Düzkənd),* Ani (*Ağin)* və Artik *(Ərtik)* rayonları təşkil edilmişdir. Qızılqoç nahiyəsini isə ermənilər sonralar Qukasyan (*hazırda Aşoşk*) rayonu adlandırmışlar. Tədqiqatlar göstərir ki, bu ərazilərdə hər addımda əski oğuzlarla bağlı toponimlərə rast gəlmək mümkündür.

"Kitabi-Dədə Qorqud" dastanında Dirək, Qaran, Məlik, Dölək Uran kimi pəhləvanların adları çəkilir. Şörəyeldə Düzkənd *(Axuryan*) rayonu ərazisində Dirəklər və Təpə-Dölək kəndləri, Ərtik *(Artik)* rayonu ərazisində isə Qıpçaq kəndi mövcuddur. Dirəklər kəndi 1968-ci ildən

Karnut, Təpədölək kəndi 1945-ci ildən Arevik, Qıpçaq kəndi isə 1946-cı ildən Haric adlandırılıb.

Əsrlər boyu Osmanlı imperiyasının tərkibinə daxil olan Ağbaba ərazisinin böyük bir qismi 1921-ci il Qars müqaviləsi əsasında Ermənistana qatılmışdır.

Amasiya rayonunun 594 kv km, Qukasyan rayonunun 547 kv km, Ani rayonunun 429 kv km, Artik rayonunun 634 kv km, Axuryan rayonunun isə 576 kv km ərazisi olmuşdur.

Ümumiyyətlə, hazırda Ermənistan ərazisində qalan Ağbaba, Şörəyel və Qızılqoç nahiyələrinin birgə ərazisi 2680 kv km təşkil edir ki, vaxtilə bu ərazilərdə 200-dən artıq türk kəndləri mövcud olmuşdur.

Tarixi faktlara görə, indiki Ermənistanın Türkiyə ilə sərhədi olan Arpaçayın yuxarı sərhədi boyunda yerləşən Ağbaba bölgəsi 1877-1878-ci illər rus-türk müharibəsindən sonra hərb təzminatı əvəzinə üç sancağın *(Qars, Ərdahan, Batum*) tərkibində Rusiyaya birləşirilmişdi. Ağbaba nahiyəsi Qars vilayətinin hərbi-inzibati ərazi bölgüsü daxilində Qafqaz Canişinliyinə tabe edilmişdi.

XX əsrin əvvəlində Ağbaba nahiyəsində olan 39 kənddən cəmi ikisində – Qaraməmməd və Bəzirganda **"qaxdağan"** (*köçkün)* ermənilər yaşamışlar.

1915-1916-cı illərdə Türkiyənin içərilərindən köçüb gələn ***"qaxdağan***" ermənilər daşnaksutyun partiyasının proqramına uyğun olaraq Ağbabanın Gümrüyə *(Leninakan*) yaxın aran kəndlərinə hücumlar edib, onları Türkiyənin içərilərinə doğru qaçqın düşməyə məcbur etmişdilər. Ümumiyyətlə, ermənilər dəfələrlə Azərbaycan türklərinə qarşı soyqırım törətmişlər.

AĞBABA NAHİYƏSİ – AMASİYA RAYONU 1921-1989-CU İLLƏRDƏ

"Ağbaba" sözünün etmologiyası barədə onu qeyd edə bilərik ki, istər bu bölgədən olan alim-tədqiqatçılar, istərsə də ümumən toponimlərin tədqiqi ilə məşğul olan xalqımızın digər nümayəndələri də müxtəlif fikirlər söyləyərək toponim haqqında müəyyən fikir yarada bilmişlər. Filologiya elmləri doktoru, professor Avtandil Ağbabanın fikirləri orijinallığı ilə seçildiyindən onu oxucuların diqqətinə çatdırmağı məqsədəuyğun hesab etdik: "Ağbaba toponiminin tərkibindəki *"ağ"* sözünün ən uca, yüksək mənasında işlənməsi ehtimal ki, buranın Ağbaba yaylasının coğrafi mövqeyi, dəniz səviyyəsindən xeyli yüksəkdə yerləşməsi və qarlı uca dağlarla əhatə olunması ilə əlaqədardır. Düzdür, burada müəyyən qədər həqiqət vardır. Bildiyimiz kimi, əsgi türklər uca dağlara dədə, baba\ Babadağ, Qarababa, Sarı baba, Hacıxəlil baba, Bağırbaba və s.\ demişlər. Ancaq dağlara baba deyilməsi, həm də onların zirvəsindəki övliyaların, müqəddəslərin ziyarətgahları ilə əlaqədardır. Buradakı "*baba*" sözündə hörmət, ululuq, müqəddəslik çalarları vardır. Tərkibində *"baba", "dədə"* sözləri olan əksər dağlarda, həm də ziyarətgahlar var".

1918-ci ilədək 39 kəndi özündə birləşdirən və Qars vilayətinin tərkibində olan Ağbaba nahiyəsinin ərazisinin böyük qismi əvvəlcə Gümrü *(1920-ci il*), sonra isə Moskva və Qars (*1921-ci il*) müqavilələrinə əsasən Ermənistanın tərkibinə qatılmış, yenə də nahiyə kimi Aleksandropol (*Gümrü*) qəzasının tərkibinə daxil edilmişdi. Yeni sərhəd xəttinə görə, nahiyənin Köhnə İbiş, Bəzirgan, Dəvələr kəndləri Türkiyə tərəfdə qalmışdı. Ermənistan hakimiyyətini qəbul etməyən əhaliyə Qars müqaviləsinə əsasən öz əmlakları ilə birlikdə Türkiyəyə köçməyə icazə verilmişdi.

Bundan sonra Ağbabanın Sınıx, Mumuxan, Köhnə Qızıldaş, Qönçəli, Ördəkli, Seldağılan, Mustuqlu, Baxçalı, Söyüdlü, Kiçik Təpəköy, Təzəkənd və Şiştəpə kəndlərinin türkləri elliliklə Türkiyəyə köçmüşdülər. Ağbaba nahiyəsinin Qars vilayətinin tərkibindən ayrılıb Ermənistana qatılmasının səbəbi guya bu ərazinin dağlıq nahiyənin Aleksandropola daha yaxın məsafədə yerləşməsi olmuşdur. Türkiyə Böyük Millət Məclisinin qərarına əsasən Türkiyə tərəfinin blokhauzları (*çöldə tikilən hərbi istehkamları*) Arpaçay boyunca Aleksandropol-İrəvan dəmiryol xəttindən 8 verst məsafədə (*bir vest = 1,07 km)* geri çəkməsi ilə əlaqədar olmuşdur. Beləliklə, Ağbaba nahiyəsinin 594,75 kv verst ərazisinin 450 kv versti – 34 kənd Ermənistana qatılmışdı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra nahiyənin mərkəzi yenə də Hamasa (*Amasiya)* kəndi olmuşdur. Amasiya miqrativ toponimdir. Türkiyədəki Amasiyadan gələn türklər o adı Ağbabada yaşatmışlar.

20-ci illərin əvvəllərində nahiyədə ermənilər yeganə olaraq Qaraməmməd kəndində yaşayırdı. Ermənilərin sayını artırmaq məqsədilə Arpaçayın sol sahilində yerləşən, əvvəllər Aleksandropol qəzasına daxil olan, Türkiyədən köçürülmüş ermənilərin yerləşdikləri Cələb və Bəndivan, sonralar assimilyasiya nəticəsində ermənileşmiş yunanların yaşadığı Baytar kəndini də nahiyənin tərkibinə daxil etmişdilər. Bundan sonra nahiyə mərkəzində erməni məmurları məskunlaşmağa başlamışlar.

1918-1920-ci illərdə erməni-türk müharibələri zamanı Qars vilayətindən gəlib, Gümrü ətrafında yerləşən ermənilərin bir qismi 20-ci illərin əvvəllərində, əsasən Sınıx, Mumuxan, Təzə Qızıldaş, Tezbahar, Çaxmaq və Qönçəlidə (*Qoncalı)* yerləşdirilsə də, sonradan emənilər həmin kəndləri tərk etmiş və Gümrüyə köçmüşlər.

1930-cu il sentyabrın 30-da Ağbaba nahiyəsinin əsasında Amasiya rayonu təşkil edilmişdi. Kollektivləş-

mənin ilk illərindən Ağbabanın qara günləri başlamışdı. Şəxsi mal-qarasını kolxoza təhvil verməyənlər **"*sinfi düşmən*"** adı ilə həbs edilir və ya Qazaxıstana sürgün edilirdilər.

1936-1938-ci illər repressiyası zamanı daşnak törtöküntülərinin əlinə gözəl fürsət düşmüşdü. Kommunist maskası taxmış daşnak komandirlərindən olan Hayrapetyan Gümrüdə "NKVD"-nin rəisi idi. Hayrapetyan Amasiyanın bütün kəndlərində xalq arasında nüfuzu olan, az-çox savadlı sayılan türkləri Türkiyədə qohumları olması və onlarla gizli əlaqə saxlamaları bəhanəsi ilə həbs etdirmiş, onlara siyasi dustaq damğası vurduraraq Sibirə və Qazaxıstana sürgün edilmələrinə nail olmuşdu (*Məni də 1983-cü ildə Türkiyədə yaxın qohumlarımın yaşamasını bəhanə gətirərək Sov.İKP sıralarına qəbul etmədilər - Ş.B.).* Tutulanların bir çoxları məhkəmə edilməmiş güllələnmişdi. Təkcə 1936-1938-ci illərdə həbs edilən və sürgünə göndərilənlərin hesabına rayonun azərbaycanlı kəndlərinin əhalisi yarıbayarı azalmışdı.

1950-ci illərin ortalarınadək siyasi dustaqları və sürgündən qayıdan ailələri nəinki öz kəndlərinə, hətta Qarakilsədən (*Kirovakan*) o tərəfə buraxmırdılar. Onu bəhanə gətirirdilər ki, Amasiya rayonu sərhəd zonasında yerləşir. Bu səbəbdən də Qazaxıstanda sürgündən qayıdan ailələrin bir çoxu Gürcüstanın Marneuli rayonunda yerləşməyə məcbur olmuşdu. Repressiyadan canını birtəhər salamat qurtaranların çoxu 1939-1945-ci illər müharibəsində həlak oldular. Ümumiyyətlə, Amasiya rayonundan 1767 nəfər bu müharibədə iştirak etmiş, onlardan 800 nəfəri həlak olmuş, ya da itkin düşmüşdür. Yüzlərlə ağbabalı əsirlikdən qaçıb Türkiyəyə getmiş, uzun illər boyu orada da qorxu içərisində yaşamışdılar.

Müharibə illərində Amasiyanın kəndlərində dəhşətli aclıq hökm sürmüşdür. Kəndlərdə yalnız qadınlar, körpə uşaqlar və əlsiz-ayaqsız qocalar qalmışdılar. 13-15 yaşlı uşaqlar acından ölməmək, bir torba taxıl və ya qarğıdalı

gətirmək üçün həftələrlə Gürcüstanın aran kəndlərində yer belləyir, kərənti çəkməyə məcbur olurdular.

Türklərin Ermənistandan 1948-1953-cü illər köçürülmələri dağlıq Amasiya rayonundan da yan keçməmişdi. Çünki Türkiyə sərhədi boyunca yaşayan türkləri təmizləmək üçün ermənilərin əlinə fürsət düşmüşdü. 1948-1950-ci illərdə rayonun Sultanabad (*Şurabad*), Qarabulaq, Qızılkisə *(Qızıl kənd)* və Daşkörpü kəndlərinin əhalisini Azərbaycana köçürmüşdülər. Qalan kəndlərin camaatına isə tapşırılmışdı ki, köç üçün hazır vəziyyətdə olsunlar. Ucar və Göyçay rayonlarına köçürülən ağbabalılar isti iqlim şəraitinə uyğunlaşa bilməmiş, onların bir qismi qızdırmadan və yatalaq xəstəliyindən tələf (*xəstəlikdən ölmək)* olmuşdu. Sonradan onların bir qismi oradan da Daşkəsən və Balakən rayonlarına köçmüşdülər. Aran rayonlarına köçürülənlərin hamısı İ.Stalinin ölümündən sonra tədricən Amasiyaya – öz kəndlərinə qayıda bilmişdilər. Yuxarıda göstərilən kəndlərin adamları 1989-cu ildə yenidən qaçqın oldular.

1940-cı illərin sonlarında isə kəndləri və təsərrüfatları təmərküzləşdirmək bəhanəsi ilə Xançallı və Bozqala kəndlərinin əhalisini qonşu Balıqlı və İlanlı (*Çaybasar)* kəndlərinə köçürmüşdülər. Böyük Təpəköylə Kiçik Təpəköy kəndlərinin təsərrüfatlarını da birləşdirmişdilər. Rayonda türklərin artım sürəti Ermənistan hökumətini çox narahat edirdi. Moskvadan aparılan yoxlamların nəticəsində aydın olmuşdu ki, rayonda məsul vəzifələrdə işləyən ermənilərin sayı onların ümumi rayon əhalisinə nisbətində tərs mütənasiblik təşkil edir. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün 1951-ci il martın 19-da Ermənistan SSR Ali Sovetinin fərmanı ilə qonşu Qukasyan rayonu ilə Amasiya rayonu birləşdirilmişdi. Lakin türklər birləşmiş rayonda da sayca əksəriyyət təşkil edirdi. Bu birləşdirmə iqtisadi cəhətdən də özünü doğrultmamış və nəhayət, rayonları 1956-cı ildə yenidən

ayrılmışdılar. 1962-ci ildə bu rayonları bir daha birləşdirmiş və bir ildən sonra yenə də ayırmışdılar.

Qeyd etdiyimiz kimi, hər dəfə rayonlar birləşdirilən kimi, rayonda ermənilərin xüsusi çəkisinin artmasını bəhanə edərək, məsul vəzifələrdə işləmək üçün İrəvandan ***millətçilik azarına*** yoluxmuş ermənilər göndərilirdi. Rayonlar ayrıldıqdan sonra isə həmin vəzifələrdə yenə də ermənilər qalırdılar. 1930-cu ilədək *(Ağbaba nahiyə olduğu zaman)* və Amasiya rayonu təşkil ediləndən sonra da həm rayon partiya komitəsinin birinci katibi, həm də rayon soveti icraiyyə komitəsinin sədri vəzifələrində türklər işlədikləri halda, 40-cı illərin əvvəllərindən etibarən bir qayda olaraq bu iki vəzifədən birinə mütləq erməni təyin edilirdi.

1987-ci ilin əvvəllində rayonun 22 min nəfərlik əhalisindən təqribən 20 min nəfərini türklər təşkil edirdi. Belə ki, 27 kənddən 21-də sırf türklər (*azərbaycanlılar)*, 5 kənddə ermənilər, rayon mərkəzində isə türklərlə ermənilər qarışıq yaşayırdılar. Buna baxmayaraq, rayonda məsul vəzifələrin çoxunu ermənilər tutmuşdular. O cümlədən, rayon soveti icraiyyə komitəsinin sədri, rayon prokuroru, milis rəisi, hərbi komissar, DTK-nın sədri, xalq nəzarəti komitəsinin sədri, aqrar-sənaye birliyinin sədri, istehlak cəmiyyətinin sədri və s. kimi məsul vəzifələrə İrəvanda xüsusi təlim keçmiş millətçi kadrlar yerləşdirilmişdi. Bu kadrların əli ilə istənilən vəzifəli türkü (*azərbaycanlını)* ləkələyib aradan götürürdülər. Məhz bu kadrların və İrəvandan göndərilmiş digər emissarların ciddi səyləri ilə 1988-89-cu illərdə Amasiya türklərinin deportasiya aksiyası həyata keçirildi və qədim Oğuz eli Ağbaba və Şörəyelin bir hissəsi türksüz əraziyə çevrildi. Erməni terroru ilə öz ata-baba yurdlarından qovulmuş, didərgin düşmüş ağbabalılar əsasən doğma Azərbaycanın Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində, digər rayon və kəndlərdə məskunlaşdılar. Eyni zamanda, Krım, Rusiya, Ukrayna, Qazaxıstan

və digər ölkələrə üz tutan soydaşlarımız hələ də orada qaçqınlıq həyatı yaşayırlar.

Ağbaba mahalında 1989-cu ilin sonuna qədər tam azərbaycanlılar yaşayan Qönçəli (*Qoncalı)*, İbiş, Düzkənd, İlanlı *(Çaybasar),* Təpəköy (*Təpəkənd),* Sultanabad *(Şurabad)*, Göllü, Qaranamaz *(Yeniyol*), Balıqlı, Öksüz, Güllücə, Elləroyuğu *(Ellərkənd),* Quzukənd, Qarabulaq, Çivinli kəndləri, Şörəyeldə isə – Oxçoğlu, Güllübulaq, Çaxmaq, Mağaracıx, Qaraçantey *(Əzizbəyov)*, Daşkörpü kəndləri mövcud olmuş, Amasiya rayon mərkəzində də azərbaycanlılar çoxluq təşkil etmişdir.

...1989-cu il deportasiyasından sonra kənd camaatının çox böyük əziyyət, həm də həvəslə qurub-yaratdıqları evləri, mülkləri mənfur erməni quldurları tərəfindən qovulduqdan sonra yiyəsiz-sahibsiz qaldı, viran oldu.



El köçdü, dağlar qaldı,
Sinələr dağlar qaldı.
Türk mahalı, Ağbabam
Türksüz ağlar qaldı (A.Rüstəmov).

ELLƏROYUĞU KƏNDİNİN MƏDƏNİYYƏTİ VƏ MƏİŞƏTİ

"Ellərоyuğu", yoxsa "Elləryoğu"?

Ağbaba mahalının təəssübkeş oğlu, hələ sovetlər birliyi dönəmində Ağbaba mahalını özünün tədqiqat obyektinə çevirən araşdırmaçı alim, professor Aslan Bayramov "Qədim oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimlər)" adlı kitabında yazır: "Ağbabada Ellərkənd kimi qeyd edilən kənd adı "Elləryoğu" formasında qeyd olunmuşdur. Yaşlı adamlar da *"Elləryoğu*" deyərdilər. Göründüyü kimi, oykonimin ikinci hissəsindəki "*oyuq"* termininin birinci hecası *o-y* yerdəyişməsi, ikinci hecadakı *u* saitinin düşməsi, həm də dialekt ahəngdarlığı nəticəsində "*Elləryoğu"* kimi tələffüz edilmişdir. Mürəkkəb söz formasında olan oykonimin ikinci tərəfindəki "*oyuq"* bir çox türk dillərində *"sərhəd", "işarə", "nişan"* mənasını bildirir. Qeyd edək ki, qıpçaqların da *"oyuq"* adlı tayfaları olmuşdur.

1903-cü ilin hərbi xəritələrində göstərilir ki, Samux rayonu ərazisində – Sığnaq qəzasında Ellərоyuğu adlı dağ olmuşdur. Qərbi Azərbaycanın İrəvan yaxınlığında Ellər (*Abovyan)* rayon mərkəzi və Elli kəndləri də mövcud olmuşdur. Amasiya rayonundakı İlli kəndinin də mənbələrdə Elli kimi yazıldığı məlumdur.

Həmin kənd Ağbabanın ən uca yerindədir. Bütün Ağbaba oradan baxanda ayaq altında görünür. Xakasiyada, Tuvada, Türkmənistanda və Azərbaycanda da bu coğrafi nomenlə – oyuqla formalaşan toponimlər çoxdur".

Mənim də bir ziyalı kimi kəndimizin adını daşıyan *"Ellərоğlu" – "Elləryoğu" – "Ellərоyuğu"* sözlərinin et-

mologiyası haqqında öz fikirləri var. "Həmkarlarımın fikirlərinə hörmətlə yanaşaraq onu əlavə etmək istəyirəm ki, bu sözlər kəndimizin adı kimi müxtəlif mənbələrdə ayrı-ayrı forma və leksik-qrammatik quruluşlarda ifadə edilərək, bəzən daşıdığı mahiyyətdən uzaqlaşdırılmışdır. "*Elləryoğu*" nə deməkdir və hansı mənanı daşıyır? "*Oyuq*" hər hansı təbiət hadisələri nəticəsində yaranmış dəlik, deşik, yuva, şivəmizdə isə "*oytuq"* və s. anlamındadır. *"Oyuq",* həm də relyefi bildirən coğrafi termindir. Bu sözün "*ellər"* sözünə birləşərək daşıdığı məna isə tamamilə fərqli – nə kəndimizin yerləşdiyi əraziyə, onun yerləşdiyi coğrafi məkana, nə də xüsusiyyətlərinə uyğun gəlmir. Düşünürəm ki, bu ifadə (*Elləryoğu)* iki sözün birləşməsi olaraq mənsub olduğumuz tayfaların, kənd sakinlərinin şifahi nitqində, tələffüzündə özünə qismən yer etsə də, ümumən hamı tərəfindən belə tələffüz edilməyən sözdür. Belə ki, bu gün mən və mənim həmkəndlilərimin danışığında bu ifadə *"Elləryoğu*" yox, *"Ellərоyuğu"* (*bu,"Ellərоğlu" sözünün tələffüz hadisəsinə daha yaxın və uyğundur*) kimi tələffüz edilir. *"Ellərоyuğu"* və *"Elləryoğu"* sözlərindəki fərqi isə sadəcə olaraq tələffüz zamanı yaranan səslərin yerdəyişməsi hadisəsi kimi qəbul etmək lazımdır. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, kəndimizin adı tarixi mənbələrdə də məhz Ellərоyuğu kimi verilmişdir.

"El" sözünün izahına gəlincə "*el-yurd"* – Vətən, ***"el-gün"*** – xalq, camaat, ***"elli"*** – vətəni, yurdu, eli olan, ***"ellik"*** – hamılıqla, elliklə, bütün el birlikdə, bir yerin bütün camaatına, elinə məxsus olan kimi mənaları özündə ehtiva edən söz qrupuna daxildir. Yəni ***"Ellərоğlu***" – bir elə, bir məkana, bir yurda məxsus olan elimizin oğlu. Mənə görə, elə "*Ellərоyuğu*" da məhz "*Ellərоğlu"*

sözünün danışıq nitqində, tələffüzdə assimlyasiyaya uğramış formasıdır. Bu gün Türkiyədə inzibati ərazi vahidi kimi işlənən *"il", "ilçə"* də həmin "*el"in* fonetik formasıdır.

1931-ci ildən rəsmi olaraq Ellərkənd adlanan və Ermənistan SSR Amasiya (*Ağbaba mahalı)* rayonunda, rayon mərkəzindən 26 km şimal-qərbdə, Türkiyə, Ermənistan və Gürcüstan dövlətlərinin sərhədlərinin kəsişdiyi yerdə yerləşən və 1989-cu ilə qədər türklərin (*azərbaycanlıların)* yaşamış olduğu kənddir. Dəniz səviyyəsindən 2140 metr yüksəklikdə yerləşirdi və buna görə də işləyən hər kəsə yüksəkliyə görə (*havanın seyrək olması)* əmək haqqına 20 faiz əlavə ödəniş edilirdi. Kənddə yaşayan əhalinin sayı – 1905-ci ildə 286 nəfər, 1914-cü ildə 437 nəfər, 1931-ci ildə 294 nəfər, 1970-ci ildə 292 nəfər azərbaycanlılardan ibarət olmuşdur. 1914-1931-ci illərdə əhalinin təxminən 2 dəfə azalmasına səbəb isə 1918-1920-ci illərdə azərbaycanlılara qarşı törədilmiş soyqırım olmuşdur. Kənddə son 1988-ci ilə qədər 72 türk ailəsi – 532 nəfər əhali yaşamışdır. 1989-cu ilin tarixi etnik deportasiyası nəticəsində isə azərbaycanlılar tamamilə ata-baba yurdlarından qovulmuşlar. İndi orada ermənilər yaşayır.

Ermənistan hökumətinin qərarı ilə 19 aprel 1991-ci il tarixdən Ellərkəndin adı **Lorasar** kimi erməniləşdirilmişdir.

Araşdırmaçı professor Aslan Bayramovun gəldiyi qənaətə görə, "Ellərоğlu kəndinin adı Qafqazın 5 verstlik xəritəsində Elləroyuğu, erməni mənbələrində – İrəvan quberniyasının İrəvan qəzasında, indiki Ellər *(Kotayk, Abovyan)* rayonunda rayon mərkəzindən 11 km cənub-şərqdə yerləşən bir kəndin adı ilə üst-üstə düşərək Ellər

oğlu, Ellər, Elləroyuğu, Yelləryuğ, Elləryuğ formalarında olmuş və erməni mənbələrində də işlənmişdir".

Qaynaqlarda göstərilənlərə əsasən qeyd edə bilərik ki, kəndin qədim və düzgün adı Elləroyuğu olmuş, sonralar isə sənədlərdə Ellərkənd kimi rəsmiləşdirilmişdir. Bunu təsdiq edən bir fakt kimi 1906-cı ildə nəşr olunan **"Yaddaş kitabı"nda** *(Qars bölgəsinin təqvimi)* o illərdə Kars bölgəsinin Ağbaba nahiyəsinin tərkibində yeləşən Elləroyuğu kəndinin tarixi adı da öz əksini tapmışdır (*Arxiv materialı əlavə olunur*). Hətta o arxiv materialında kəndimizin o dövrlərdə yeganə dini təhsil *(ruhani*) almış və öz fəaliyyəti ilə camaatın nəzərində müqəddəsləşən, dini və dünyəvi elmlərdən xəbəri olan bir kənd sakininin **– *Molla Qasım Əfəndi Mamed*** oğlunun da adı çəkilir. Bu fakt bir daha sübut edir ki, kəndimizin tarixi adı Elləroyuğu olmuş və sonralar *(1930-cu il)* dəyişdirilmişdir.



3-Й ГОДЪ.

ПАМЯТНАЯ КНИЖКА

АДРЕСЪ-КАЛЕНДАРЬ

КАРСКОЙ ОБЛАСТИ

НА 1906 ГОДЪ.



Kars – 1906

Kəndimizdə yaşayan soydaşlarımız əsl Azərbaycan türkləri, həm oğuz, həm də qıpçaq (*qarapapaq)* kökənli idilər. Çünki onların danışığında oğuz və qıpçaq elementləri çox müşahidə edilirdi. Tarixi mənbələrə görə, bu türk tayfalarının bizim əraziyə XI -XII əsrlərdə Şimali Qafqazdan gəldikləri deyilir. Kənddə, əsasən, türklərin etnoqrafik qruplarından biri olan qarapapaqlar yaşamışdır. Qarapapaqlar elə Azərbaycan dilinin və Azərbaycan xalqının formalaşmasında əsas rol oynamışlar.

Aparılan araşdırmalara görə, Qədim Asya Hun Dövlətinin süqutundan sonra oğuz türkləri – qarapapaqlar (*türkmənlər)* XI əsrin sonlarından başlayaraq İran, Zaqafqaziya, Kiçik Asiya və Mesopotamiyaya yayılıblar. Köçəri həyat sürən türklərin bir hissəsinə tərəkəmə (*ərəbcə "tərakimə"- türkmənlər)* deyiblər. Bəzi mənbələrdə tərəkəmələri etnik qrup sayırlar. Amma bu belə deyil, tərəkəmələr ilk dəfələrdən sayına görə etnik qrup olub. Sonra isə sayları artdıqca millət kimi formalaşıblar. Tərəkəmələr Azərbaycan, Dağıstan, Türkiyə və Gürcüstanda yaşayırlar. Azərbaycanda Kür-Araz ovalığında, Mil-Qarabağ, Muğan və Şirvan düzlərində, Qərbi Azərbaycanın Göyçə mahalında yaşayan və icma halında yaylağa gedən tərəkəmələr, həm də əkinçiliklə məşğul olurdular. Tərəkəmələrin qalan hissəsi aranda biçini qurtarıb, payız əkininə hazırlıq görürdülər. Onlar əsasən heyvandarlıq məhsulları (*ət, yağ, pendir, yun və s.)* istehsal edir, eyni zamanda xalçaçılıq, toxuculuqla da məşğul olurdular. *"Tərəkəmə"* xalq rəqsi də məhz tərəkəmələrlə bağlıdır.

Amasiya rayonunun Göllü, Təpəkənd, Quzukənd, Sultanabad (*Şurabad),* Elləroyuğu *(Ellərkənd*) kimi yaşayış məskənlərində qarapapaqların əsil soyları yaşayırdı.

Elə kənddə yaşayan tayfaların adı və məşğuliyyəti, lüğət tərkibindəki sözlər də (*Kitabın "**Kəndimizdə işlənmiş mikrotoponimlər"** bölməsində bunlar geniş verilmişdir*) bunları bir daha təsdiq edirdi. Erməni mənbələrində də bu kəndlərdə yaşayan qarapapaqlı tayfası xüsusi bir xalq kimi qeyd edilir.

Dil və mənşəcə tərəkəmələr Azərbaycan türklərinə bağlı bir tayfadır. Azərbaycan dilində, özünəməxsus qərb ləhcəsində danışırlar. Elləoyuğuda (*Ellərkənd)* yaşayanların danışığında indiki zamanın *-or; -er ;-ör* variantları (*oturor, duror, gülör, biler və s.*) aktiv işlənir ki, bu da qarapapaqların morfoloji elementlərindən biridir. İsmin təsirlik halında -yı, -yi, -yu, -yü də çox işlənir. Məsələn, *qapıyı, bacıyı* və s.

Ellərkənd dediyin hər kənddən uca...

Elimizin azman sənətkarı Aşıq İsgəndər Ağbabalı şeirlərinin birində kəndimizi vəsf edərək *"Ellərkənd dediyin hər kənddən uca..."* söyləmişdir. Doğrudan da, Ellərkənd coğrafi məkanına görə rayon mərkəzindən ən uzaq məsafədə yerləşən, eyni zamana dəniz səviyyəsindən 2140 metr hündürlükdə olan yeganə və uca kənd idi. Kəndin bu coğrafi ucalığı onun sakinlərinin xarakterinə, mənəviyyatına, əxlaqına da hopmuşdu sanki. Kənddə ədəb-ərkan, əxlaqi tərbiyə, qonaqpərvərlik kimi mənəvi dəyərlər həmişə qorunar və bu dəyərlər ağsaqqalların sözündə-söhbətində daima tövsiyə edilər, cavanlar da bunları həmişə uca tutmağa çalışardı. Son illər kənddə cəmi 72 ev - ailə yaşayırdı. Bəlkə elə bu azlıq gənclərin, uşaqların bir ailənin, bir ocağın övladları xasiyyətdə, tərbiyədə böyüməsinin səbəblərindən biri idi. Qonşumuzun uşağı – hazırda 60 yaşı haqlamış polis pol-

kovnik-leytenantı Ziyatxan Alıyev məni bir tədbirdə iş yoldaşlarına təqdim edərkən söylədiyi *"Mən ta böyüyüb, özümü yaxşı tanıyana qədər elə bilirdim ki, Şahbaz müəllim mənim böyük qardaşımdır"* sözləri ürəkdən gələn, səmimi sözlər kimi həmişə məni duyğulandırır. Bu sözlər hər bir ailədən eşidiləsi ürək sözləridir. İnsanlar birbirilərinə o qədər isinişmişdilər ki, hər şey onlara özününkü kimi, doğma gəlirdi.

Ağbaba mahalının zirvəsi sayılan Ellərkəndi 72 ailədən ibarət olsa da, ərazi etibarı ilə bəlkə də mahalın böyük kəndlərindən hesab edilirdi. Əsasən dağlı-dərəli, çayırlı-çəmənli və güllü-çiçəkli bir kənd idi. Hər yay bəlkə də onlarla kənd ona yaxın olan yaylağa gələr, payız qayıdardılar.

Ellərkənd kürəyini ***Böyük Güney*** adlı dağ silsilələrinə söykəmişdi. Sanki ucalığını, gücünü o əzəmətli dağlardan alırdı. Bu silsilələr ta qonşu Güllücə kəndi ilə sərhəddə yerləşən uca dağa – ***Qalaça dağına*** qədər uzanırdı. Bu yüksəklikdən bütün Ağbabanın yuxarı kəndləri tam və aydın görünürdü. Kənd əhli yuxarı bölgələr, eyni zamanda Gürcüstan Respublikasının Axırkələk və Qocabəy (*Bağdanovka*) rayonları ilə əlaqəni Böyük Güney dağının köksündən açılmış ***Dolama Yol*** vasitəsi ilə saxlayardılar. Yaşlıların söylədiyinə görə, nəqliyyat vasitələrinin olmadığı dönəmlərdə *(dövrlərdə)* bu yol yeganə araba yolu kimi çox işimizə yarayardı. Bu yolla getmək çox kəsə (*qısa)* idi, vaxta qənaət olunurdu. Bu qədim araba yolunun bir tarixiliyi də ondadır ki, Qədim Gürcüstan ərazisində olan Ahıska, Varziya, Əsmincə, Orciya kimi yaşayış məskənlərində türk tayfaları yaşamış və həmin türk tayfalarının kəndimizə ilk köçləri və sonrakı əlaqləri də bu yol vasitəsilə mümkün olmuşdur. Mənim

mənsub olduğum Orciyalılar tayfası da məhz ordan köçmüş insanların formalşdırdığı tayfadır (*Bu barədə kitabın "**Kəndimizdəki tayfa və nəsillər**" bölməsində geniş danışılır).*

...Kəndin ağır və dözülməz qış şəraiti, çətin relyefi var idi. Belə ki, ilin 4 fəsli əsasən öz xüsusiyyətlərini saxlasa da, bəzən özünü doğrultmur və bir fəsilin hava şəraiti digər aylara qədər uzanar və nəticədə fəsillər qarışardı. Qış fəsli artıq noyabr ayından özünü göstərməyə başlayar və dekabr ayında ***"böyük çillənin"**("çillə – ərəbcə "soyuma" mənasını verir)* gəlişi ilə hava soyuyardı. Qışın ən əzəmətli dövrü isə yanvar, fevral aylarına düşər və yanvar ayının sonlarında ***kiçik çillə*** gəlişi bizi dözülməz hava şəraiti ilə üz-üzə qoyardı. Sular donar, buz, sırsıra bağlayar, bəzi hallarda qarın hündürlüyü 2-3 metrə qədər olardı. Boran nəfəs kəsər, şaxta 30 dərəcəyə qədər yüksələrdi. Amma bu çətin dağ relyefinə yaxşı bələd olan hər bir ailədə qışa hazırlıq işləri xüsusi ustalıqla həyata keçirilərdi: evlərdə ehtiyat su qabları doldurular, qış azuqəsini don və şaxtadan qorumaq məqsədilə axur və ya hovlularda yerdən quyular qazılar, qarlı-boranlı günlərdə mal-qaranı bəsləmək üçün ehtiyat anbarlar ot-ələflə doldurulardı ki, qarlı-boranlı günlərdə çöl-bayırla əlaqə olmasın.

Kənd camaatı qış azuqəsi üçün əsasən kəndə ərazicə yaxın bölgələrə – qonşu Gürcüstan Respublikasının Axırkələk və Qocabəy *(Bağdanovka)* rayonlarına kartof, kələm, yer kökü, çuğundur və s. almağa gedərdilər. Bəlkə də insanları ora çəkən türk tayfalarının vaxtı ilə orda yaşaması, onların izləri, eyni zamanda bu yerlərdə yaşamış türklərin zorla Orta Asiyaya köçürülməsindən sonra Türkiyə və digər ölkələrdən Gürcüstanın bu böl-

gəsinə yerləşdirilmiş ermənilərin türk dilində danışa bilməsi və onlarla əlaqə saxlamağın rahatlığı olmuşdur. Axırkələk kəndlərində yaşayan ermənilərin məişət dili türkcə, məktəbləri isə 1989-cu ilədək rus dilində idi. Onu da qeyd edim ki, tək bizim kənd yox, qonşu Güllücə, Balıxlı, Öksüz, Quzukənd, Civinli, Qarabulaq və s. kəndlər də Axırkələkdən bazarlıq etməyə üstünlük verərdilər.

Kəndin relyefi əsasən dağlıq olduğuna görə yuxarıda adını çəkdiyim kənd təsərrüfatı məhsulları çətin yetişirdi. İnsanların əsas məşğuliyyəti qoyunçuluq, maldarlıq, əkinçilik idi. Ərazi zəngin bitki örtüyü ilə örtüldüyündən maldarlıq və qoyunçuluq üçün yaxşı şərait var idi. Ümumiyyətlə, Ağbaba ərazisi Alp çəmənliyi ilə örtülürdü. Aprel ayının sonlarından ta dekabr ayına qədər, necə deyərlər,*"heyvan öz ağızı ilə yerdən ot qopara bilirdi"*.

Kəndimizin fərqli coğrafi relyef və landşaft müxtəlifliyi, zəngin su mənbələri, əkinçilik üçün yararlı olan tarlaları və mal-qaranın ilin 7-8 ayını otlaması üçün geniş örüş sahələri də var idi. Bol və soyuq sulu ***Abdullanın bulağı, Qara bulaq, Göy bulaq, Sərin bulaq, Güllüoğlunun bulağı, Elləzoğlunun bulağı*** kimi çeşmələrin əhatəsində yerləşən kənd sudan heç korluq çəkmirdi (*Son illərdə Abdullanın bulağı kəndə çəkilərək məhəllələrə bölünmüşdü – Ş.B).* Kəndimiz dağ silsilələrinin ətəyində yerləşdiyindən ətrafı müxtəlif təbii bitkilərlə sarılmışdı.

Kənd qonşu Güllücə, Çivinli, Quzu kəndləri, respublikanın kəndimizdən təxminən 100-150 kilometr uzaqlığında yerləşən Düzkənd *(Axuryan*), Ellər *(Abovyan)* kimi erməni rayonlarına məxsus yaylaqlarla həmsərhəd idi. Yaz-yay aylarında həmin yaylalara erməni kənd-

lərinin kolxoz-sovxozlarının mal-qarasını saxlamaq üçün köçlər gələrdi.

Kəndimiz sərhəd bölgəsində yerləşirdi və qardaş Türkiyənin Doğu Anadolu mahalının – Qars, Çıldır, Ardahan ərazilərini bizdən ayıran tikanlı məftillərlə üzü-üzə yaşamaq məcburiyyətindəydik. Yeri gəlmişkən onu da qeyd edim ki, ərazicə belə yaxınlığımız səbəbindən kəndimizin hər evində televizorlarda türk kanallarını rahatca seyr edə bilirdik. Əvvəllər – 1970-1980-ci illərdə sovetlər birliyinin həmin sərhəddə yerləşən sərhədçi əsgərləri (*el içində onlara **"göy şapkalılar**" deyilirdi*) buna qadağa qoymağa çalışsa da, kəndimizin ziyalısı, radiotexnik Rza Alıyevin səyi nəticəsində biz davamlı olaraq türk qardaşlarımızla ***"onlayn"*** da olsa təmasda ola bilirdik. Rza Alıyev televizorlara xüsusi detal qoşmaqla buna nail ola bilmişdi.

Kəndimiz kiçik bir **təhsil akademiyası** idi sanki. 72 evlik hər ailədə təhsilli, savadlı gənclər yetişmişdi. 1989-cu ilə qədər kənddə ali və orta ixtisas təhsili olan ziyalılarımızın sayı 60-ı keçmişdi (*siyahı əlavə olunur*). Kiçik bir kənd üçün bu, böyük uğur, nailiyyət hesab olunurdu. Ali təhsili olmayanlar da işinin peşəkarı, sənətinin ustası idi. Hələ Sovet hakimiyyətinin ilk illərində (*1930-1940-cı illər)* rayonun idarə edilməsində, mərkəzi aparatlarda kəndimizin ilk ziyalıları olan Əhməd Balakişiyev, Daşdan Balabəyov, Gülməmməd Bəxtiyarov kimi şəxslər təmsil olunurdular. Sonralar da bu ənənə davam etdirilmiş, həmyerlilərimiz istər Rayon Partiya Komitəsində (*mərhum Allahverən Qədirov – təlimatçı*), Rayon Polis Söbəsində (*Novruz Alıyev - mühafizə üzrə rəis müavini)*, istərsə də qonşu sovxoz-kolxozlarda direktor *(mərhumlar Qulu Mürsəlov, Vaqif Qədirov)* vəzi-

fələrində işləmişlər. Kəndimiz kiçik, əhalisinin sayının az, rayon mərkəzindən uzaq (*bu, həmişə inkişafdan, sivilizasiyadan uzaq olmaq kimi qəbul edilib)* olsa da, bu qədər ziyalının yetişməsi və rayon miqyasında idarəetməyə cəlb edilməsi, bəli, **kəndimizin ucalığı, uğuru idi.**

Kəndimizdə geniş və işıqlı klub fəaliyyət göstərirdi. Əvvəlcə uyğun olmayan bir köhnə evdə yerləşən klub 1977-ci ildə nisbətən müasir tipli binaya köçdü. Yeni inşa olunmuş bu binada klubun fəaliyyət istiqamətlərinə uyğun şərait var idi. Kəndimizdə klub müdiri kimi ilk illərdə Qulu Mürsəlov, Dünyamalı Balakişiyev işləmiş, sonrakı illərdə İsmayıl Abbasov, Mirzə Hümmətov və Rövşən Müstafayev bu missiyanı davam etdirmişlər. Son illərdə klubun fəaliyyəti daha da genişlənmişdir. Belə ki, klubda tez-tez tədbirlər təşkil olunur, görüşlər keçirilirdi. Xüsusilə klubun nəzdində fəaliyyət göstərən özfəaliyyət dərnəklərinin gücü ilə teatr tamaşaları, konsertlər təşkil olunurdu. Bu da uzun qış axşamlarında gərgin fiziki işdən sonra camaatın asudə vaxtlarının xoş keçməsinə səbəb olurdu. Rayonumuzun yeganə və azman aşığı olan Aşıq İsgəndər Ağbabalının da məhz bizim kənddən olması işimizə daha çox yarıyırdı. Müəyyən bayram günlərində onun və onun sıx əlaqəsi ilə kəndimizin qonaqları olan digər aşıqların söz-söhbətlərinin çox dinləyicisi olmuşduq.

Kəndimizin mədəni inkişafında xüsusi yeri olan klubun çox böyük üstünlükləri var idi. Ucqar dağ kəndinə hər həftə gəlişini xüsusi həyəcanla gözlədiyimiz kino verilişləri də məhz klubda təşkil olunurdu. Qışın qarlı-boranlı günlərində də kinosuz qalmırdıq. Xüsusilə Azərbaycan filmləri – "Nəsimi", "Babək", "Qarlı aşırım",

“Qanun naminə”, eyni zamanda hind filmlərinin tez-tez gətirilməsini çox istəyirdik.

Klubun nəzdində zəngin kitabxana (*kitabxanaçı İpək Mürsəlova idi)* fəaliyyət göstərirdi. Ucqar dağ kəndində belə bir kitabxananın mövcudluğu sayəsində ziyalılarımızın sayı ildən-ilə artırdı. Tez-tez keçirilən kitab müzakirələri zamanı daha çox kitab oxuyanlara elə kitabxanadaca kitab hədiyyə edilər və bu da gənclərin oxumağa marağını artırardı. Sanki gənclər arasında “*çox kitab oxumaq”* yarışı var idi. Mənim ürəyimi ağrıdanlardan biri də o ata-baba yurdlarımızı itirməyimizlə bərabər, 1989-cu il deportasiyasının o ağır, məşəqqətli günlərində imkan tapıb götürə bilmədiyim o kitabların orda qalması və mənfur düşmənlərimizin ayaq altında tapdanması oldu. Onlar bizim mənəvi zənginliyimiz idi.



Ucqar dağ kəndi olmasına baxmayaraq kənddə həkim məntəqəsi də fəaliyyət göstərirdi. Savadlı və mehriban həkim **Şəfiqə Bəxtiyarova** öz xidmətilə hamının sevimlisinə çevrilmişdi.

Kəndin maddi-mədəniyyət nümunələri haqqında da danışmaq istəyirəm. Yaşlı sakinlərin söylədiyinə görə, hələ qədim dövrlərdən kənddə İdrisovlara məxsus torpaq sahəsinin içində tarixi bilinməyən və onların gözlərini həyata açdıqları vaxtlardan daima həmin yerdə gördükləri at-qoç heykəlləri mövcud olmuşdur. Say etibarı ilə bir neçə ədəd olan o daş heykəllərini mən də görmüşəm və bizim daima gözümüzün qarşısında və hər gün rastlaşdığımız, eyni zamanda müxtəlif ölçülü və formalı bu tarixi əsərlər son illər (*1970-ci illəri nəzərdə*

tuturam-Ş.B.) rayon rəhbərliyinin diqqədini cəlb etmişdir. Bir neçə dəfə rayon mədəniyyət şöbəsinin erməni əməkdaşlarının həmin at-qoç heykəllərinə baxış keçirdiklərinin şahidi də olmuşduq. Amma sonra qəflətən, yerli sakinlərin xəbəri olmadan həmin at-qoç heykəlləri mərkəzdən gəlmiş və heç kimin tanımadığı insanlar *(ermənilər)* tərəfindən harasa aparıldı və sonralar heç bir məlumat ala bilmədik. Mən bu hadisəni də ermənilərin orada yaşayan azərbaycanlıların tarixi-mədəni irslərinin silinməsinə xidmət edən kampaniyanın tərkib hissəsi hesab edirəm.

El-oba içində xüsusi seçilənlərdən biri də həmişə peşə-sənət adamları olub. Kəndimizin də belə sənətkarları olub və onlar həmişə ***ellərоyuğulu*** olmaqları ilə fəxr edərək həm özlərinin, həm də kəndimizin adını uca tutublar. ....Uca bir dağ kəndində ***sürücü*** peşəsi hər işi əl əməyi ilə edən, zəmətlə dolanan sakinlər üçün həm "*göydən düşmə"* hesab edilər, həm də çox ağır iş sayılardı. Bəxtiyarov Şükür, Balakişiyev Dünyadər, Gülməmmədov Abüzər kəndin ilk sürücüləri kimi rayon miqyasında tanınardılar. Rəhmətlik Şükür kişi həm sürücü, həm də maşın ustası kimi ad çıxarmışdı. İlkindən bir maşını yığıb təhvil vermək bacarığına sahib sənətkar idi. ... Dünyadər kişi son vaxtlara qədər sevimli peşəsindən əl çəkmədi. Çox intizamlı və peşəkar sürücü idi. Həyatı boyunca bir dəfə də olsun iş başında cərimə olunmamışdı. Maşını həmişə saz saxlayar, yolda qalmazdı. ...Rəhmətlik Abuzər kişi çox həlim, ürəyiyumşaq adam idi. Onun maşını həmişə kəndin cavanlarının "*ixtiyarında"* olardı. Elə buna görə də sonrakı dövrlərdə böyüyən cavanlar bu peşəni ondan öyrəndiklərini deyərdilər. Sonralar Murad, Mamed,

Sürəddin, Fahralı, Vidadi kimi gənclər bu şərəfli peşəni layiqincə davam etdirdilər.

Sürəddin sonralar yetişən ən bacarıqlı sürücü kimi tanınırdı. Həm də çox mehriban qonşu idi. Hamının köməyinə gələr, kömək əli uzadardı. Fahralı da son dövrlərdə sürücülük peşəsi ilə hamının hörmətini qazanmışdı. Ünsiyyətcil, bacarıqlı idi.

Balakişiyev Güləhməd, Alıyev Kazım və Qasım qardaşları kimi mexanizatorlar da nəinki kəndimizin, mən deyərdim ki, qonşu kəndlərin də ilk mexanizator kardları hesab edilirdilər. Kazım və Güləhməd kişi dünyalarını dəyişiblər. Qasım kişi isə ömrünün 92-ci baharını yaşayır. O, da peşəsini, traktorunu – *"dəmir atını"* çox sevən idi. Hər hansı bir iş üçün üstünə gedəndə, Allah rəhmət eləsin, xanımı Tovuz yengəmi onun *"üstünə salmasaq*" yola gəlməzdi. Bəlkə bu da bir intizam, dövlət malına sədaqət nümunəsi idi. Sonralar onun peşəsini oğlu Ələddin davam etdirdi.

Hümmətov David də öz peşəsi ilə yaddaşlarda yaşayan sənətkarlardan olub. Yaxşı dülgər idi. Necə deyərlər *"qızıl əlləri"* var idi. Onun ocağında Mirzə, Rza, Məcnun kimi sənətkarlar da yetişdi. Mirzə universal usta idi. Kəndə xas olan hər işin öhdəsindən gəlirdi. Son vaxtlar kəndimizin incəsənətinin inkişafında bir uğura da imza atmışdı. ...Yaxşı yadımdadır. 1980-ci ildə dayımoğlu, mərhum Fərmana toy edirdik. Ağbabada barmaqla sayılası toy sənətkarları-zurnaçı, toyçu var idi: Göllüdən İsa kişi, Çivinlidən Elbəyi kişi, Güllücədən Əsədulla kişi, Təpəköydən Əhməd, Süleyman, Toyçu Sultanəli, Sultanabaddan (*Şurabad)* Toyçu Xəlil, Şahbəndər kişi və s. Toylar da eyni günə düşəndə kəndlərdə *toyçu* problemi yaşanırdı. Belə bir hadisə də bizim başımıza gəldi. Fər-

manın toyunu çalan sənətkar tapa bilmədik. Bu çətin vəziyyətdən bizi rəhmətlik Aşıq İsgəndər Ağbabalı, Mirzə və Murad çıxartdılar.



Hazırlıqsız, məşq etmədən bu üçlük toy mağarını ələ ala bildi. O gündən bu missiya Mirzənin başçılıq etdiyi dəstənin – Məhərrəm kişi və Muradın şərəfli peşəsinə çevrildi. Getdikcə kamilləşən bu dəstə artıq qonşu kəndlərdəki xeyir işlərə də dəvət olunurdular.

* * *

Kəndimizin gözəl toy adətləri var idi. Təzə evlənənlərə – bəy və gəlinin hər birinə onların **toy qardaş-**



bacıları (“*sağdış”* və “*soldış*”) tərəfindən **şah** (*müxtəlif meyvə və şirniyyatlardan hazırlanmış və ağacdan düzəldilmiş hədiyyə)* hazırlanar və toydan sonra onların evinə çox böyük təmtəraqla aparılardı.Təzə evlənənlər də bu şahdakı nemətlərdən istifadə edər və sonda onu *“pozardılar”* ki, o şirinlik evlərinə dağılsın, həmişəlik olsun.





Kəndimizin şən günləri

Murad təcrübəli sürücü olmaqla bərabər, eyni zamanda kənd təsərrüfatı təhsili alaraq, əvvəlcə kənddə çölçülük briqadiri, sonra isə sovxozun baş aqronomu işlədi. Uzun illər bu vəzifələri layiqincə yerinə yetirən Dünyamalı kişinin qoyduğu ənənə Muradın fəaliyyəti dövründə uğurla davam etdirildi (*O,kəndin bütün təsərrüfat sahələrini, toponimlərini yaxşı yadında saxlayıb*). Son illər Cavanşir Daşdanov da gənc kadr kimi briqadir işini layiqincə yerinə yetirə bilirdi.

Müzəffər də kənddə sevilib-seçilən sənətkar idi. Kənddə işsizlik problemi onu Gürcüstanın Samtreti şəhərinə aparsa da, kəndi ilə heç vaxt əlaqəsini kəsmədi. Orda yaxşı suvaqçı kimi ad-san qazanmışdı. Bunun canlı şahidi kimi Məcnunla onun qonağı da olmuşduq. O da kəndin toponimləri haqqında çox məlumatlıdır. Odur ki, kəndimiz haqqında olan bəzi tarixi məlumatları Sürəddin, Murad, Müzəffər və Xalidin köməkliyi ilə yaddaşlara köçürə bildik.



Mürəstə, Hilal, Narxanım, Gülənaz, Familə, Narın və Şəkər. 1987-ci il

Yurdumuzun kişiləri ilə yanaşı, xanımları da kəndin ictimai-siyasi həyatında fəal olmuş, öz zəhmətləri ilə daima hörmət qazanmışdılar. Düşünürəm ki, yuxarıda belə zəhmətkeş xanımlarımızın bəzilərini təqdim etməklə o günləri bir daha xatırlamış olarıq.

...Camaatımız çox qonaqpərvər idi. Yaz ayları başlayandan kəndimizin soyuq, səfalı bulaqları (*bunlar Allahın bizə verdiyi bir nemət idi*) qonaq-qarasız olmazdı. Qonşu kəndlərin heç birində belə bulaqlar yox idi. Odur ki, rayon mərkəzindən, qonşu kəndlərdən bulaq başına tez-tez gələnlər çox olardı. Bakı, Gəncə və digər şəhərlərdən kəndimizə gələn qonaqlar da günlərini bulaq başında keçirər, o bulaq sularını dünyanın ən yaxşı neməti bilərdilər. Keyfiyyətli su həyatdır, sağlamlıq və uzunömürlülükdür. İndi o sulardan ötrü *"burnumuzun ucu göynəyir"* desəm məni qınamazsınız yəqin ki. O bulaq sularını yuxularda görürük indi. Vaxt gələcək ki, biz yurdumuza qayıdaraq o sulardan yenə içəcəyik. İnşallah!



1974-cü ildə kənddə toy mərasimi

KƏNDİMİZİN SOSİAL - İQTİSADİ HƏYATI VƏ MƏŞĞULİYYƏTİ

Rəsmi olaraq 1931-ci ilin 19 aprelində Ellərkənd kimi qeydiyyata götürülən kəndimizin ilk idarəetmə forması kolxoz olmuşdur. Şura hökuməti çox çətinliklərlə də olsa, yerlərdə yeni iqtisadi formasiyaların yaranmasına başlamışdı. Belə ki, artıq yerlərdə insanlar kolxoza üzv yazılır və onun formalaşmasında könülsüz də olsa, iştirak edirdilər. İmkanlı şəxslərin mal-qarası zorla əllərindən alınır, kolxozun tərkibinə qatılırdı. Razılaşmayanları isə uzaq Sibirə ***kulak*** (*qolçomaq)* etmək kimi cəza gözləyirdi.

Kənd sakinləri arasından kolxozu idarə etməyə kəndin hörmətli və o dövr üçün qaneedici səviyyədə savadı olan şəxslər sədr seçilirdi. Verilən məlumatlara görə, kolxoza ilk dəfə 1941-1945-ci illərdə həmyerlimiz Mikayıl Alıyev sədrlik etmişdir. Onu sonralar qonşu kənddən Hüseyn kişi əvəz edib. Sonra həmkəndlimiz olan Alı Qədirov 2 il kolxoza sədrlik etmiş və Hüseyn, Daşdəmir kişi də 1969-cu ilə qədər bu vəzifədə işləmişlər.

1969-1970-ci illərdə kolxozun sədri Qulu Mürsəlov olmuşdur. Elə həmin illərdə də kolxoz sovxoza çevrilmiş və əvvəlcə 4 kənd – Güllücə, Ellərkənd, Quzukənd və Çivinli bir sovxozda birləşmişlər. Daha sonra Güllücə süd-heyvandarlıq sovxozu iki kənddən – Güllücə və Ellərkənddən təşkil olunmuş, 1989-cu ilə qədər də belə davam etmişdir.

Kəndimiz Güllücə sovxozunun tərkibində olsa da, onun ayrıca iqtisadiyyatı olmuşdur. Belə ki, kəndin 1000 hektara yaxın ümumi sahəsinin təxminən 200 hektara yaxını əkinə yararlı olduğundan hər il əkilərdi. Təxminən 300 hektar sahəsi isə biçinəcək sahələri idi ki, hər il bu

sahələrdən təbii ot biçilərək sovxozun heyvanlarının qış tədarükünə yığılardı. Yerdə qalan 400-500 hektar sahə isə əkin-biçinə yararlı olmadığından ancaq mal-qara və qoyun-quzunun otlaq sahəsi kimi istifadə edilirdi. Əkin sahələrindən hər il orta hesabla 250-300 ton taxıl (*arpa, vələmir)* istehsal edilərdi. Kəndin bu sahələrinin cəmi 8 hektarında isə yem çuğunduru üçün yer ayrılmışdı. Bunlarla yanaşı, kəndin özündə iri tövlələr və qoyun komları, anbarlar da yaradılmışdı.

Payızda məhsul yığımı zamanı kəndin təsərrüfat sahəsindən ən azı 7-8 ot tayaları yığılardı ki, bunlar da qış fəslində mal-qaranın azuqəsi üçün idi. Eyni zamanda, sovxozun xırmanında kombayn vasitəsilə yığılmış taxıl tədarük edilərək qışa hazırlanardı. Yaxşı yadımdadır ki, bəzi illərdə məhsulun çox olması ilə əlaqədar olaraq qonşu Qocabəy (*Bağdanovka)* rayonundan rus qadınları da bu məhsul yığımına cəlb edilərdi. Bir sözlə, məhsul yığımı dövründə əli iş tutan hamı bu işə səfərbər olunardı.



Son illərin uğurlu cəhətlərindən biri də ondan ibarət idi ki, artıq sovxozda məhsul yığımının daha məh-

suldar keçməsi üçün yeni ***layihə – podrat üsulu*** tədbiq edilmişdi. Bu layihəyə ilk səs verənlər də müəllimlər oldu və biz (*Şahbaz Balakişiyev, Uğurlu Abbasov, Nizami Daşdanov*) ailəliklə bu kampaniyaya qoşularaq biçin dövründə topladığımız məhsulun müəyyən hissəsini əldə etməklə ailə təsərrüfatımızı da xeyli artırmış olurduq.

Biçin vaxtı məzuniyyət dövrünə düşdüyü üçün, xüsusilə müəllimlər bu kampaniyada fəal iştirak edərdilər. Hər məhsul yığımının sonunda ***"Məhsul bayramı"*** tədbiri kəndin stadionunda keçirilərdi. Bu kampaniyada iştirak edən hər kəs bu şənliyə qoşular, toy-düyünlü bir bayramın işitirakçısı olardı.



Məhsul bayramı. 1983-cü il

KƏNDİMİZDƏ YAŞAMIŞ TAYFA VƏ NƏSİLLƏR

Tayfa – ərəb mənşəli söz olub "*təriqət birliyi*" mənasını ifadə edir. İlk dəfə insanlar hər hansı bir din, dil və təriqət ətrafında birləşmiş, tarixən sinifli cəmiyyətdən əvvəlki dövrdə adamların qohumluq münasibətinə, dil və ərazi ümumiliyinə əsaslanan birlik ətrafında yaşamışlar.

Azərbaycan dilində isə tayfa bir neçə başqa mənada işlədilir: *xalq, millət, qohum, qohum-əqrəba, nəsil, tirə və s.*

Tayfa üzvləri qan qohumluğu ilə bir-birinə bağlı olur və tarixən tayfanın əsas şərti ümumi ərazinin, müəyyən iqtisadi birliyin, qarşılıqlı yardım ənənələrinin, vahid dilin (*dialektin*) və s. olmasıdır. Getdikcə iqtisadi formasiyalar, insanların yaşayış tərzləri dəyişdikcə bu şərtlər dəyişsə də, ancaq bəzi əlamətlər həyatboyu qohumları müşayiət etmişdir.

Ellərkənddə yaşayan tayfa, nəsil və tirələrin tarixinin araşdırılması və təhlili də onu deməyə imkan verir ki, kəndimizdəki tayfalar əsasən qohum-əqrəbaların birliyi ətrafında yaranmış, bir-biri ilə sıx əlaqədə yaşamışlar. Kənddəki tayfaların əksəriyyəti, adətən, kəndin müəyyən bir tərəfində yığcam şəkildə, bir-birinin qonşuluğunda yaşayardılar. Bu da ondan irəli gəlirdi ki, həmin evlərdə ilk dəfə tayfaların ağsaqqalları məskunlaşmış və sonradan yaranan ailələr də o ətrafda yaşamağa üstünlük vermişlər. Məsələn, orciyalılar kəndin "***Otay"*** deyilən yerində, dəlləklər ***Dərə məhəlləsində***, güllələlilər və gümrülülər kəndin mərkəzində, abdurahmanlılır kəndin yuxarı hissəsində - ***Çelli təpənin*** ətəyində və s. yaşayırdılar. Son illər kəndin

inkişafı və yeni gənc ailələrin artması ilə əlaqədar olaraq bu prinsiplər pozulmuş və ailələr qaynayıb-qarışmışdılar.

Əziz həmyerlilərim, dəyərli eloğlularım! Kəndimizdə yaşamış tayfa, nəsil və tirələrin tarixini araşdırmaqla mənsub olduğumuz şəcərənin tarixini, keçmişini taleyin amansız zərbələrindən qorumağı, onları unutmamaq və gələcək nəsillərin bu haqdakı təsəvvürlərini yaddaşlara köçürmək missiyasını qarşıma məqsəd qoyaraq aşağıdakı məlumatları diqqətinizə çatdırmağı özümə borc bilirəm.

1989-cu ilə qədər ***orciyalılar, güllələlilər, dəlləklər, gözəldərəlilər (həsənovlar, mürsəlovlar), avdırahmanlılar, qazax alılar, gümrülülər, qədirlilər, dəmirçilər adlı*** tayfalar və ***cabbarovlar, bayramovlar, lətifovlar*** kimi nəsillər Ellərоyuğuda ***(****Ellərkənd)* yaşamış və onların bütöv ailələri də hamı kimi deportasiyaya məruz qalmışlar.

Həsənov və *Mürsəlov* soyadı daşıyanların babaları İrəvanın Ələyəz *(Abaran*) qəzasının Gözəldərə kəndindən 1920-ci illərdə Ağbabaya gəlmişdilər. Ona görə də onlar, eyni zamanda, *gözəldərəli* kimi də çağırılırdılar.

Bu tarixi məlumatların əldə edilməsində, toplanılaraq sistemə salınmasında mənə kömək edən hər bir kəsə təşəkkür edir və ümid edirəm ki, bundan sonra da unudulan, yaddan çıxan məlumatların yığılaraq kitabın təkrar nəşrində çap edilməsində həmişə yanımda olacaqsınız.

Müəyyən illərdə repressiyaya məruz qalaraq kəndimizdən köçən tayfalar

Kəndimizdə uzun illər yaşamış tayfalarla bərabər, sonradan bizim kənddə yaşamağa üstünlük verərək bura köçən ailələr də (*cabbarovlar, lətifovlar və s.)* olmuşdur. Eyni zamanda, müəyyən problemlərinin həlli ilə bağlı qonşu kəndlərə köçərək orda daimi məskunlaşanlar da var idi. Məsələn, **Kərim, Ələkbər və Bayram kişi** qonşu Balıxlı kəndinə köçmüş və ailələri 1989-cu il deportasiyasına qədər orada yaşamışdır.

Erməni qırğınları zamanı hələ Qardaş Türkiyə ilə sərhədlər tam formalaşmayan dövrlərdə Türkiyəyə, qonşu Gürcüstana, Qazaxıstana, Azərbaycana və s. köç edənlər də olmuşdur.

Allahverdiyev Şahalı Allahverdi oğlunun mənsub olduğu ailə - atası və ailənin digər üzvləri: Güləbatın, Bəsti və Sona bacıları XIX əsrin əvvəllərində müəyyən təqiblər nəticəsində Ellərоyuğunu özünə əbədi yurd yeri seçərək qonşu Gürcüstandan bu kəndə köçmüşdür. Ailənin böyük oğlu Şahalı kişi kənddə böyümüş, elə burda da avdırahmanlı tayfasının qızı Sədət xanımla ailə qurmuşdur. Ailə sonradan rayonun Daşkörpü kəndinə köçmüşdür. Son illər tez-tez erməni təzyiqləri ilə üzləşən oğulları - Əhmədalı və Tanrıverdi Azərbaycanın Qax rayonuna, ortancıl oğlu Sultanəli isə Gürcüstan Respublikasının Marneuli rayonuna köçmək məcburuyyətində qalmışdır.

Əlavə olaraq onu da qeyd edim ki, Ellərоyuğuda tarixən bu tayfalarla yanaşı, əsasən XIX əsrin əvvəllərində - sovet hakimiyyətinin qurulduğu ilk illərdə bəzi tayfalar imkanlı olduğuna görə var-dövləti əlindən alınaraq sürgün

edilmiş və ya qonşu Türkiyəyə qaçaraq canlarını qurtara bilmiş, bəziləri də əsrin əvvəllərində türk tərəfi ilə müəyyən əlaqələri olduğuna görə təqiblərə məruz qalmış və qonşu Türkiyəyə qaçmaq məcburiyyətində qalmışdır. Məsələn, kəndin çox imkanlı şəxslərindən olan Babaş ağa **Sarallılar tayfasının** böyüyü kimi 1921-ci ilə qədər Ellərоyuğuda yaşamış və sonradan Qarsa köçmüşdür. Hazırda bu tayfanın davamçıları Qars ili, Susuz ilçəsinin Çamçavuş köyündə (*kəndində)* yaşayırlar.

Babaş ağa XIX əsrin əvvəllərində Qarsda qurulan Cənub-Qərbi Kafkaz Cümhuriyyəti ilə sıx əlaqədə olmasına və deyilənlərə görə, o cümhuriyyətin qonşu Sultanabad (*Şurabad)* kəndində yerləşən nümayəndəliyində çalışdığına görə təqiblərə məruz qalaraq 1914-cü ildə Sibirə sürgün edilmiş, 1917-ci ildə təkrar Ellərоyuğuna dönsə də, təkrar təqib olunmuş və Qarsa köçmək məcburiyyətində qalmışdır. Babaş ağa kənddə yaşadığı illərdə həmişə Ellərоyuğunun qayğısını çəkmiş və hətta 1900-cü illərin əvvəllərində quberniyadan qonşu Güllücə kəndi ilə sərhəd-torpaq bölgüsünün aparılması üçün gələn nümayəndə ilə *"danışıq"* apararaq kənd torpağının sərhədini özünün istədiyi kimi çəkdirə bilmişdir. Onun bu köməkliyi nəticəsində elə sovetlər birliyi dövründə kəndimizi ərazisi bu hesaba genişlənmişdir. 1989-cu il deportasiyasına qədər də Babaş ağaya məxsus mülklər (***geniş və hündür evlər, yer adları - Babaşın bulağı, Babaşın çökəyi, Babaşın çayırı*** *və s.)* kənddə qalmaqda idi.

Həmin illərdə yaşayan digər tayfalar da belə təqiblərə məruz qalaraq ata-baba yurdlarını məcburi tərk edərək Türkiyəyə qaçmışlar. Hazırda onların Qars vilayətinin Çamçavuş kəndində - ***Koğalar, Bayramqullar, Parıltılar, Zoruğlar, Hacı Musalar***, eyni zamanda qonşu

Səlim Baykara köyündə isə ***Elləzoğlu sülaləsinin*** törəmələri yaşamaqdadırlar. Məsələn, 1921-ci ildə Ellər-oyuğudan Qarsa köç etmiş **Parıltılar tayfasından** Alıosman, qardaşları Halit (*Xalid)* və Veysəl də sovet imperiyasının ilk təqiblərinə məruz qalanlardandır. Hətta onların kiçik qardaşı Mürsəl bu köç vaxtı ermənilər tərəfindən öldürülmüşdür. Deməli, rus imperiyanın əlaltıları olan ermənilər o dövrdə də yaranmış vəziyyətdən sui istifadə edərək öz mənfur niyyətlərini həyata keçirə bilmişdilər. Bu ailənin babası Sehri *(Sıhı*), onun qardaşları Qəhrəman və Nəbi də Ellərоyuğudan təqiblər nəticəsində köçənlərdəndir. Hazırda onların Çamçavuş kəndində çoxlu törəmələri yaşayır və onlar hələ də ata-baba yurdlarından qaçaq düşmüş qohum-əqrəbalarını axtarmaqdadırlar.

Qarapapaq kökənli qədim türk tayfasının sülalələrindən olan **Ürsənoğulları *(Qanlı Ürşəni)* tayfası** da kəndin qədim və ilk sakinlərindən olmuşdur. Belə ki, onlar Dağıstandan (*Dərbənd)* Gürcüstanın Bolnisi rayonunun Darvaz kəndinə, oradan da Ellərоyuğuya gəlmiş, XIX əsrin əvvəllərində erməni təqibləri nəticəsində Qarsa köç edərək orada da daimi məskunlaşmışlar. Bu tayfa Türkiyədə sonralar artmış, daha da genişlənərək ***Şeyda, Hamarat və Deprem*** soyadlı nəsillərə ayrılaraq geniş yayılmışlar. Bunların babaları Abdulla kişi olmuşdur.

Kəndimizdə çox qədim tarixi olan tayfalardan biri də **Defkalılar** olmuşdur. Onların ulu babası Gürcüstandan *(Borçalı mahalı)* Ellərоyuğu kəndinə köçən Murat kişi qarapapaq türk tayfalarındandır. Bunun da bir səbəbini onların erməni təqiblərinə məruz qalmasında axtarsaq da, ikinci səbəb isə Ağbabanın geniş otlaq sahələrinə malik olması olmuşdur ki, araşdırmalarımıza görə Ellərоyuğu kəndinə pənah gətirənlərin əksəriyyəti varlı olmuş və mal-

qarasını saxlamaq üçün məhz bu məkana üz tutmuşlar. Murat kişinin oğulları Defka və Məmməd olmuşdur. Məmmədin oğulları Bədəl, Aslan, Kamil və Şamil də Elləroyuğuda yaşamışlar. Sonralar onlar da Elləroyuğudan Türkiyəyə köçmək məcburiyyətində qalmış, ailədən Kamilin qızı Məmmədova Niyar kənddə qalmışdır. Həmin Niyar da kənddə Gülləli tayfasının böyüklərindən olan Balabəy kişiyə ərə getmiş və Elləroyuğuda ömür-gün sürmüş Əbdürrəhman, Ağabəy, Daşdan, Mürəstə və Miyasanın anasıdır. Son illərə qədər Mustafayev Hacıkərimin yaşadığı evlər də onlara məxsus olmuşdur.

Kamilin Elləroyuğuda qalan ikinci qızı Yetər isə həmkəndlisi - ***Eminililər tayfasının*** nümayəndəsi Osmana ərə getmişdir. Onun Həsrət, Alxas, Qərib və iki qız övladı olmuşdur. Bu tayfa da sonralar müəyyən təqiblər nəticəsində qonşu Gürcüstana köçmək məcburiyyətində qalmışdır.

Kəndin ən gur sulu bulağı – ***İmanqulunun bulağı*** və ***İmanqulunun təpəsi*** kimi yer-yurd adlarında tarixləşən və o tayfanın babalarından olan **İmanqulu kişi** Gürcüstan Respublikasının Marneuli rayonunun Hasanxocalı kəndində doğulub və müəyyən yaş dövrünə qədər də orada yaşayıb. Verilən məlumatlara görə, varlı bir şəxs kimi Borçalıda ad-san qazanmış İmanqulu kişi öz ailəsində himayəyə götürdüyü bir yetim qızın namusunu qoruyaraq ona təcavüz edən şəxsi öldürmüş və ailəsini də götürərək Türkiyəyə *(təxminən 1850-ci illərin sonu)*, yəni Ağbaba mahalının Elləroyuğu kəndinə (*o dövrdə Ağbaba bir nahiyə kimi Qarsın tabeliyində olduğuna görə belə adlanırdı)* köçməli olur. Bildiyimiz qədər, İmanqulu oğulları **— Dursun** və **Novruzala** bu kənddə yaşamağa davam etmiş və mahalda varlı ağalardan biri kimi

tanınmışdır. **Dursun ağanın** birinci evlilikdən 3 uşağı – Namaz (*1882-1982-ci illər),* Adil *(1910-1944-cü illər)* və qızı Sənəm olmuşdur. Oğlu **Namaz** kənddə Gülxanım Gülməmməd qızı *(1902-1942-ci illər)* ilə evlənmiş, onların 7 övladı – Məhərrəm, Qələndər, Məmiş, Cahangir, Fatma, Sünbül və Püstə olub. Namaz kişinin ailəsi 1938-ci ildə azərbaycanlıların deroptasiyası zamanı Ellərоyuğudan Borçalıya – Hasanxocalı kəndinə köçmək məcburiyyətində qalmışlar. O, 1946-cı ildə ailəsi ilə birlikdə Sibirə sürgün edilsə də, 1953-cü ildə - Stalinin ölümündən sonra bəraət alaraq yenidən Hasanxocalıya qayıdır.

Dursun ağa arvadı rəhmətə gedəndən sonra ikinci dəfə həmkəndlisi Tükəzban xanımla evlənir və bu evlilikdən onların tək övladı – sonradan Borçalı mahalında el aşığı kimi məşhurlaşan **Ramazan** dünyaya gəlir. O, ailəsi köçdükdən sonra Ellərоyuğuda tək qalmış, sonradan qardaşı Namaz onu yanlarına – Borçalıya aparmışdır. Ramazan ömrünün sonuna qədər arvadı Qarayeva Bəyaz Məmmədalı qızı *(o, kəndimizdəki Avdırahmanlı nəsilindən idi*) və övladları – Şəfiqə, Nizam, Gülşən, İntizam, Xanlar və Laçınla Borçalının Alget üzümçülük sovxozunda yaşamışdır.

Dursun ağanın ikinci oğlu **Adil** sonradan kənddə Güllələlilər tayfasından olan Hilal Bəxtiyar qızı ilə evlənərək 3 uşaqları dünyaya gəlir: Qurban *(Borçalının Baydar kəndində yaşamışdır*), Hidayət *(Qazaxıstanda yaşayır)* və Mərdan (*uşaq vaxtından itkin düşüb*). Adil Böyük Vətən Müharibəsində həlak olmuşdur.

İmanqulu kişinin ikinci övladı **Novruzun** yeganə oğlu İmanov Həmid *(1910-1970-ci illər)* olmuşdur.

Araşdırmalarımızın nəticəsi olaraq o qənaətə gəlirik ki, sonralar Borçalıda Dursun ağanın adı ilə tanınan

bu **Dursunlu** tayfası Elləroyuğudan müəyyən təqiblər nəticəsində köç edən qarapapaq türk tayfalarındandır. Təəssüflər olsun ki, hazırda bu gün yuxarıda adı çəkilən və ya müəyyən səbəblərdən məlumat ala bilmədiyimiz bəzi tayfaların heç bir nümayəndəsi Elləroyuğuda qalmamış və onlar haqqında da heç bir məlumat ala bilməmişik. Amma sağ olsun elimizin dəyərli övladı, Dursun ağanın törəmələrindən olan Ramil Ramazanovu. O, cavan olsa da (*22 yaş*), böyük cəfakeşlik nümunəsi göstərərək ata-baba yurdunun tarixini araşdırmaq kimi bu missiyanı öhdəsinə götürmüşdür. Onun bizə verdiyi məlumata görə, ulu babaları İmanqulu kişi Gürcüstanın Bolnisi rayonunun Hasanxocalı kəndində yaşamış və çox güman ki, onlar da bu kəndə köçən qarapapaq türk tayfalarındandırlar.

Sonralar - 1970-ci illərdə tayfanın oğullarından Namaz kişi hər il Elləroyuğuya gələr və ata-baba yurdunu yad edərdi. Mən həmişə onun qonaq olduğu rəhmətlik Abuzər kişinin evində onunla həmsöhbət də olmuşam. Abuzər kişi deyərdi ki, o, hər səhər gedər İmanqulunun bulağında yuyunub gələrdi ki, bu, mənim babamın bulağıdır.




Tayfanın davamçılarından olan Ramazan Dursun oğlu haqqında ayrıca danışmaq istəyirəm.

Ramazan Dursun oğlu Ramazanov 1930-cu ildə Elləroyuğuda anadan olmuşdur. O, hələ uşaqkən sazın-sözün sehrinə düşmüş və Ağbabanın ünlü sənətkarlarından olan Aşıq İsgəndər sənətdə ona örnək olmuşlar. Ancaq məkrli erməni siyasəti

ilə üzləşən Ramazan da qohumları kimi Borçalıya köçmək məcburiyyətində qalmış və ömrünün sonuna qədər də Marneuli rayonunun Alget üzümçülük sovxozunda yaşamışdır. Aşıq Ramazan öz ifası ilə neçə-neçə dastan, rəvayət, qaravəlli və klassik ustadların şeirlərinə həyat verən bir el aşığı kimi ellərоyuğulуların qəlbində daima yaşayacaqdır.

Öz sənəti ilə nəinki ailəsinə, eyni zamanda doğulub boya-başa çatdıdığı həmyerlilərinə - ellərоyuğulуlara da başucalığı gətirən Aşıq Ramazanın o sədəfli sazı qiymətli bir xatirə kimi bu gün də Bakı muzeyində qorunub saxlanılır.



1989-cu il deportasiyasına qədər kənddə yaşayan tayfa və nəsillər (*tirələr)*

Orciyalılar tayfası

Orciyalılar tayfası ailələrinin sayına görə kəndimizdə böyük tayfalardan hesab olunur. Əsasən kəndin ***"Otay"*** deyilən hissəsində, öz mənbəyini çox uzaqlardan, dağların arxasında yerləşən bulaqlardan alan dağ çayının kənarında, kəndin şərq hissəsində - Böyük Güneyin ətəklərinə doğru yerləşmişdi. 1989-cu ilə qədər kənddə tayfanı təmsil edən 12 ev (*ailə),* 45 nəfər yaşayırdı. Elə məhəlləyə də "***Orciyalılar məhəlləsi"*** deyirdilər.

Orciyalılar kim olub? Babalarımızdan bizə verilən məlumata görə, bu tayfa türk kökənli, əslən XVIII əsrin sonlarında İndiki Gürcüstan Respublikasının Axırkələk şəhəri yaxınlığındakı Qulafçı və Orciya (*Əsmincə rayonu*) kəndlərindən Ağbabaya - Elləroyuğuna köçənlərdir. Türk arxiv materiallarına görə**, Orcia** – indiki Gürcüstan Respublikasının ərazisində yerləşən Klarceti (*Axırkələk)* quberniyasında yerləşən və *"iki quyu*" mənasını verən bir köy (*kənd)* adıdır. Osmanlılar 16-cı yüzillikdə bu kəndi ələ keçirərək öz ərazilərinə qatmış, hətta kənd 1835-ci il sənədlərində Orci adı ilə rəsmi qeydiyyata da alınmışdır. 1921-ci ildə yenidən Gürcüstan Respulkikasının sərhədləri daxilinə keçmiş və sovetlər ölkəsinin ərazisi kimi qəbul edilmişdir. Tarixi gerçəkliklərin təsdiqini tapan bir fakt kimi onu da əlavə edim ki, məhz bu bölgədə yaşayan türk kökənli tayfalar da əsasən Asya Hun Dövlətinin süqutundan sonra ulu babaları Orta Asiya, Türkiyə, Gürcüstan və Qərbi Azərbaycana və s. yerlərə köçən oğuzların - qarapapaqların (*tərəkəmə)* nəslindəndir.

Eyni zamanda, o dövrlərdə Əsmincə rayonunda (*Aspinza)* Qəmze, Aşağı Oşora, Van, Qoyundərə, Varxan kimi türk kəndlərində yaşayanlar indiki Gürcüstan ərazilərində yığcam yaşayan bir türk topluluğu kimi leksikonda Axısqa türkləri adlandırdığımız Ahıska, Adıgün, Aspinza, Axırkələk bölgələrində məskunlaşmış türklər olmuşdur.

Sovet hakimiyyəti qurulandan sonra Axısqa qəzasında vəzifə başına keçən ermənilər və gürcülər yerli türkləri sıxışdırmağa başlamışdılar. Erməni millətinin hakimiyyətdə olan nümayəndələri türklərin savadlı, qabaqcıl təmsilçilərini müxtəlif bəhanələrlə ya həbsxanalara saldırır, ya da Uzaq Sibirə sürgün etdirdilər. 1944-cü ilin noyabrında *(A.Mikoyanın təhriki və İ.Stalinin əmri ilə)* bu xalq öz ata-baba ocaqlarından deportasiya edilərək, sovet (*rus*) əsgərinin tüfəngi altında vaqonlara doldurulub, Orta Asiyaya, Ural dağlarına (*Qazaxıstan, Qırğızıstan, Özbəkistan çöllərindəki sərt iqlim şəraiti olan ərazilərə)* sürgün edilirdilər. Orta Asiyaya yetişənəcən onların çoxu elə yolda həyatla vidalaşardı. Sonralar gürcülər də o kəndlərin adını dəyişdirmişdilər.

Orciyalılar tayfasının ilk nümayəndələrinin türk kökənli olduğunu təsdiq edən bir fakt da ondan ibarətdir ki, tayfanın böyüklərindən olan Xıdır, Elləz və Məhəmməd kişinin 3 bacı olan arvadları – ***Alıyeva Sona Namaz qızı, Alıyeva Güləsər Namaz qızı*** *və* ***Alıyeva Dönə Namaz qızı*** da məhz həmin bölgədən – Əsmincədən *(Orciya kəndindən)* 1900-cü illərin əvvəllərində kəndə bir tayfanın 3 oğluna gəlin gəlmişdilər. Deməli, o dövrlərə qədər bu tayfanın Əsmincə ilə qohumluq əlaqələri mövcud olmuşdur. Sovetlər birliyinin o bölgədə yaşayan türk tayfalarının Orta Asiyaya köçürülməsi nəticəsində bu əlaqələr qırılmış, tayfa Ellərоyuğuda öz ətrafı ilə ya-

şamağa davam etmişdir. Yeri gəlmişkən onu da qeyd edim ki, kənddə yaşayan Dəlləklər tayfasının nümayəndəsi olan Elləzov Əziz də Ahısqadan gəlmiş türk kökənli idi. Bu səbəbdən də babam Məhəmməd Nəbiyev ilə Əziz Elləzovun bir-birini *"əmioğlu"* deyə çağırdıqlarının çox şahidi olmuşam.

Əldə olunan məlumatlara görə, Orciyalılar tayfasının böyükləri də həmişə kəndin "***Otay***" deyilən hissəsində, çayın kənarında yaşamışlar və son illərə qədər ulu babalarımızın yurd yerləri orda qalmaqda idi.




Tayfanın ulu babaları **Nəbi** və **Ələsgər** qardaşları olmuşdur.

Nəbi kişinin oğlu Balakişidir və ona görə də sonrakı nəsil ***Balakişiyev*** soyadını daşıyır. **Balakişinin** övladları - Məhəmməd, Məmməd, Xəmməd, Sarı, Hümmət (*Türkiyə ilə əlaqəsi olduğuna görə sürgün edilmişdir)* və Nabat olmuşdur.

Balakişi mahalda öz zəhməti ilə ad qazanmış və son illərə qədər kəndin ərazisində onun adını daşıyan torpaq sahələri, bulaq da qalmaqda idi. Geniş ailəsi olan

Balakişinin qohumlarının bir hissəsi qonşu Türkiyədə məsul işlərdə çalışar və sovet ölkəsinin sərhədi çəkilməyənə qədər bu qohumlar bir-biri ilə sıx əlaqə saxlayardılar.



Məhəmməd kişinin *(1880-1994-cü illər)* övladları: Qəndab (*Gülsabah*) və Şəmməd.



Şəmməd, Xanımzər və Nərgiz

Şəmməd kişi *(07.01.1930-29.01.2018)* daima öz zəhməti ilə yaşayan şəxs kimi kənddə hamının hörmətini qazanmış və övladlarının *(Məhərrəm, Şahbaz, Knyaz, Laləzər, İlyas, Mehman)* hamısı da ali təhsil alaraq ailənin şərəfini uca tutmuşlar.



Türkiyədən qonaq gəlmiş Casım qohumlarının əhatəsində



Knyaz, İlyas və Mehman qardaşları

Məmməd kişinin övladları: Güləsər, Aydın, Qurban, Nərgiz və Xanımzər.



Balakişiyev Aydın 1923-cü ildə Ellərоyuğuda anadan olub. Böyük Vətən Müharibəsində iştirak edərək, sol qolunun fəaliyyətini itirmişdir. 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən 1-ci qrup Vətən müharibəsi əlili kimi Prezident təqaüdü ilə mükafatlandırılmışdır.

2011-ci ilin fevral ayında Bakıda vəfat etmişdir.

Övladları: Tellizar, Nuru, Sürəyya, Bənövşə *(Səmayə),* Rəşid, Şirvani, Təranə.



Aydın kişinin qızı Sürəyya xanım Türkiyədən qonaq gəlmiş Yolçu əmisi və xanımı, qohumları ilə Gəncə şəhərində olarkən. Gəncə, 1990


Aydın kişinin nəvəsi **Yaşar Balakişiyev** 1-ci Qarabağ Müharibəsinin iştirakçısı olmuş, tank briqadasında həmkəndlisi Sərrac Mustafayevlə birlikdə döyüşərək şücaət göstərən oğullarımızdan biri, həm də müharibə veteranıdır.





Balakişiyev Qurban *(1927-2006-cı illər)* ömrünün sonuna qədər el-oba içində hörməti və xatiri əziz olan bir qonşu, eyni zamanda hamının köməyinə çatan usta kimi yaşadı.

Övladları: Mahizər, Səriyyə, Ələmzər, Tərlan, Kəklik, Elnarə.







mehriban bacılar



Balakişiyev Güləhməd (*1932- 2011-ci illər)* zəhmətkeş, işgüzar, qohumcanlı və mehriban bir insan kimi qohumlarının istəklisi idi.

Övladları: Xalid, Sultan, Bakızər, Əziz, Sveta.



Ailənin böyük oğlu Xalid Balakişiyev bir ziyalı kimi kənddə həmişə sevilib-seçilirdi.

şəkildə:
Xalid qardaşı Əzizlə

Xəmməd kişinin övladları: – Dünyadər və Dünyamalı.

Şəkildə Xəmməd kişinin arvadı Güləbatın nəvəsi Rizvanla.





Dünyadər kişi (*10.09.1938-ci il)* kənddə bacarıqlı sürücü kimi hörmət qazanmış və məlum hadisələrdən sonra ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. O, həyat yoldaşı **Narın xanımla** *(14.10.1940-cı il)* birlikdə böyütdükləri Məxlüqə, Rəfiqə, Solmaz, Almaz, Rizvan və Ramin kimi tərbiyəli, qohumcanlı övladları ilə fəxr edə bilərlər.

Rizvan Balakişiyev ailənin böyük oğlu kimi tayfada xüsusi hörmətə layiqdir.






Narın və qohumu Nərgiz qızları ilə. 1979



Dünyamalı kişi (*10.03.1941-7.11.2001-ci illər)* kəndin ilk ziyalı qulluqçularından olmuş və ömür-gün yoldaşı **Gülxanım** *(27.12.1948-14.08.2022-ci illər),* övladları Ulduz, Şahin, Mələhər, Sədaqət, Habil və Eldənizlə birlikdə öz ata-baba yurdlarından qovulduqdan sonra Bakı şəhərində məskunlaşmışlar. Onlar kənddə nümunəvi, sayılıb-seçilən bir ailə kimi hörmətə sahib idilər.





Dünyamalı kişinin ailəsi

Balakişinin ortancıl övladı olan **Sarı babam** (Atbaş) 1931-ci ildə erməni təqibləri nəticəsində ailəsini də götürərək Ağbaba mahalı ilə həmsərhəd olan Türkiyə



Yolçu kişi xanımı və bacısı ilə

Respublikasının Qaraqala kəndinə pənah aparmış və oradan da Ağrıya keçmiş, sonralar - ömrünün sonuna qədər Qars vilayətinin Çamçavuş kəndində yaşamışdır. Onun Yolçu, Güllüzar, Gülüstan adlı övladları olmuşdur. Ailənin böyük övladı Güllüzar bibim 1927-ci ildə Ağbabada – Ellərоyuğuda dünyaya gəlmişdir. İkinci övladı 1931-ci ildə sərhədçilərdən qaçaraq Türkiyəyə getdiyi yerdə - yolda doğulmuş və ona görə də adını **Yolçu** qoymuşlar. Qızı Gülüstan bibim isə 1933-cü ildə Qarsda anadan olmuşdur.

Hazırda Yolçu kişinin ailəsi (***Qasım, rəhmətlik Yaşarın ailəsi, Casım, Abdurahman, Birgül və Qurban)*** Türkiyənin İstanbul şəhərində yaşayır və Azərbaycandakı doğmaları ilə müntəzəm olaraq əlaqə saxlayırlar.



İstanbulda yaşayan əmioğlular öz yaxınları ilə

Ələsgər kişinin oğlu **Allahverdi** olmuşdur və ona görə də ondan sonrakı nəsil ***Allahverdiyev*** soyadını daşıyır. Onun **övladları:** Nəbi, Xıdır, Elləz.



Nəbi kişinin övladları: Alışan və Bayram.

Alışanın övladları: Gülalı, Qiymat, Qiyafət.

Bayramın övladları: Məhərrəm, Dahar, Qotaz, Atlaz, Ulduz, İpək, Maya, Pürzə.

Xıdır kişinin övladları: Nəbi, Şahralı, Minə və Allahverdi (*Sinə adlı bir qızı da vəfat etmişdir*).



Nəbi kişi *(1924 - 03.04.1986-cı illər)* kəndlilərinin xatirində yaxşı qonşu, sözlü-söhbətli bir insan kimi yaşamış və həyat yoldaşı **Zöhrə xanımla** *(01.07.1936 - 23.02.2006-cı illər)* birlikdə Ziyəddin (*Məhərrəm),* İmamverdi, Mülkü, Nazəni, Hüsəməddin, Fəx-



rəddin, Elmar kimi övladlar böyüdüb, həyata hazırlamışlar.



Nəbi kişinin ailəsi



1981-ci ildə Amasiya rayon mərkəzində İmamverdini hərbi xidmətə yola salarkən: Nəbi, Allahverdi, Gülalı və Dünyamalı nəsilin cavanları arasında.



Allahverdi kişi *(1938-2007-ci illər)* kəndin ilk qulluqçu ziyalılarından biri kimi mühüm vəzifələrdə işləmiş və ömürgün yoldaşı **Səkinə xanımla** (*1936-02.12.1997-ci illər)* birlikdə ömür sürərək övladları Arif, Bənövşə, Cəmilə, İlqar, Şahmar və Çingizin təlim-tərbiyəsi ilə məşğul olmuşlar. Övladları bu gün cəmiyyət içərisində tutduqları mövqe və səviyyələrinə görə hamı tərəfindən sevilirlər.

Ailənin böyük oğlu Arif valideynlərini itirdikdən sonra öhdəsinə düşən ailə böyüyü missiyasını şərəflə yerinə yetirir.





Elləz kişinin övladları: Mötəbər, Bahar, Səkinə, Fahralı, Mehralı.

Onu da qeyd edim ki, Elləz kişi sonralar erməni təqibləri nəticəsində Gürcüstanın Başkeçid (*Dmanisi)* rayonunun Saja kəndinə köçmüş və ömrünün sonuna qədər ailəsi ilə orada yaşamışdır. Hazırda Elləz kişinin ailəsində onun ocağını yandıran, ailəyə şərəf gətirən təhsilli, tərbiyəli övladlar yetişmiş, geniş bir nəsil formalaşmışdır.

Nəsilin yetirməsi Qəzənfər Bayramlı uzun müddət hüquq mühafizə orqanlarında işləmiş və nəsilinin şərəfini uca tutan oğullardandır.



Elləz kişinin ailəsi

Elləz kişinin digər qızı **Mötəbər xanım** Ağbabanın Balıqlı kəndinə ərə getmiş və geniş bir ailənin nənəsi kimi həmişə hörmətli olmuşdur. Onun nəvəsi Məcdiyə Bayramov hazırda sahibkar kimi fəaliyyət göstərərək xeyirxah işlər həyata keçirir.

Elləz kişinin qızı **Bahar xanım** *(1922-1995-ci illər)* əri Qurban kişini Böyük Vətən Müharibəsində itirdikdən sonra öz həyatını iki qızına – Tamaşa və Zərnişan bacılarına həsr edərək, onlarla birlikdə Ellərоyuğuda həyatlarını davam etdirdilər.

Avdırahmanlı tayfası

Avdırahmanlı tayfasının tarixi dəqiq məlum olmasa da, onların kəndin ilk sakinlərindən olduğu deyilir. Onlar da hamı kimi əsasən əkinçilik və heyvandarlıqla məşğul olmuşlar. **Avdırahman** (*mahalda ona Əbdürrəhman yox, məhz Avdırahman dediklərinə görə, mən də elə olduğu kimi yazıram*) nəsilin ulu babasının adıdır.

Avdırahman kişinin **Alı, Binnət, İsgəndər** və **Hümmət** adlı övladları olub. Alı kişi Qazaxıstana sürülüb, Binnət isə kənddə yaşamışdır.

Hümmət kişi böyük təsərrüfat sahibi kimi varlanmış, ağsaqqalların dediyinə görə, çox səxavətli biri olmuş, xeyirxahlığı ilə hamının hörmətini qazanmışdır. Deyilənlərə görə, o kəndə ayaq basanlar kimliyindən asılı olmayaraq, mütləq Hümmət ağanın qonağı olarmış. Kənddə ikinci varlı olan Balakişi ilə kirvə olaraq, onlarla da kəndin eyni səmitində *(tərəfində*) yaşamışlar. Ermənistanda Sovet hakimiyyəti qurulanda Hümmət ağanın da varına əl qoyulur. Deyilənlərə görə, onun mal-qarası ilə qonşu Qarabulaq kəndində ilk kolxoz yaradılıb. Sonra o, həbs edilərək Gümrü şəhərinə, oradan da guya Sibirə sürgün edilir. Ondan sonra səs-sorağı çıxmır. Ümumiyyətlə, o dövrlərdə bizim mahaldan varlı olduqlarına görə "***kulak***" (*qolçomaq)* edilən azərbaycanlılar Sibir adı ilə aparılanlardan sonra onlardan heç bir məlumat alınmamışdır. Bu da onu deməyə əsas verir ki, deməli onlar Sibirə sürgün yox, elə Gümrü *(Leninakan*) şəhərindəcə ermənilər tərəfindən məhv edilirlərmiş.



Sonralar başsız qalan ailələrin yükünü hələ uşaq ikən **David** *(1927-1995-ci illər. O, hələ kiçik yaşlarında olarkən kotanla yer şumlayarmış),* ailə qurduqdan sonra isə həyat yoldaşı **Səadət xanımla** *(1920-2000-ci illər)* birlikdə daşımalı olurlar. Hansı ki, son günlərə kimi, **Cüt təpələr** deyilən dağın döşündəki əkin sahəsi onun adı ilə ***"Davidqıran"*** adlanardı. Yeddinci sinif təhsilli David kişi Ağbaba mahalının Qarabulaq kəndində ilk yaradılan dükana işə götürülür. Sonralar Sultanabadda (*Şurabad*) "*yeni selmaq*" deyilən dükana gətirilir. Son sənələrdə (*illərdə)* də Amasiya rayon tədarük kontorunda uzun müddət tədarükçü işlədi.




Davud kişinin 9 övladı olmuşdur: 5 qardaş (*Kamal, Mövlud, Mirzə, Rza, Məcnun*), 4 bacı (*Məleykə, Qızılgül, Şirin, Təzəgül).* Yeri gəlmişkən, Qızılgül xanım kəndimizin xüsusiyyətlərini və toponimlərini yaxşı bilən bir soydaşımız kimi məndə xoş hisslər yaratdı.

Bu ailə kənddə eyni zamanda sənətkar ailəsi kimi də ad çıxartmışdı. David kişi, həm də dəmirçi, dülgər peşələrinin mahir ustası idi. Odur ki, onun bu sənətkarlıq bacarıqları oğulları Mirzə, Rza və Məcnunda da formalaşmış və onların hər biri bu gün də öz peşələrinin layiqli icraçılarıdırlar.



Mövlud Alıyev (*1940-2022-ci illər)* ailənin ortancıl oğlu kimi həmişə tayfanın təəssübünü çəkmiş və həyat yoldaşı **Həcər xanımla** (*1940-cı il)* birlikdə boya-başa çatdırdıqları Səmayə, Elbəyi, Hamayə, Sürəyya, Şahmurad, Əntiqə, Almurad və Zaur kimi övladlarının nümunəvi tərbiyəsi ilə qonşuların rəğbətini qazanmışlar.





Kamal Əbdürrəhmanov (*1936-2017-ci illər*) kənddə öz zəhməti ilə dolanan həmyerlilərimizdən olmuşdur. O, həyat yoldaşı **Atlaz xanımla** (*1947-2011-ci illər)* birlikdə yaxşı qonşu, mehriban insan kimi daima xatırlanacaqdır.

Övladları: Lətifə, Mədəd, Bəhram, Firəngiz, Lütfiyyə.

Mirzənin əlindən gəlməyən iş yox idi. Kənddə gərək olan bütün işləri – dülgər, daş ustası, suvaqçı, sonralar isə musiqi alətlərində – qarmon və qara zurnada ifa etməyi bacarırdı. Son illər kəndin xeyir işlərini Mirzənin rəhbərlik etdiyi qrup – Məhərrəm kişi və Muradın dəstəsi həyata keçirirdi.



Rza elə kənddə ikən radiotexnika avadanlıqları ilə işləməyi çox sevərdi. Evlərdə televizorlarımız onun sayəsində işləyər və Türkiyə kanallarına sərbəst baxa bilərdik. Həm də süd emalı üzrə yaxşı mütəxəssis idi. Bu sahə üzrə Rusiyada təhsil almışdı.





Məcnun da ailənin sənətkarlıq işlərini yaxşı mənimsəmiş və bu gün öz sənətkar karyerası ilə məşğuldur. Hazırda ailənin kiçiyi olsa da, nəsildə hamı ona hörmət edir və onunla hesablaşır.


şəkildə:
Məcnun dostları Şahbaz və Xalidlə. 1979



Kəndin zəhmətkeş sakinlərindən olan və indi ömrünün 86-cı baharını yaşayan **Vəzir Binnətov** *(12.03.1938-ci il)* tayfanın ulu babası olan Avdırahman kişinin ortancıl oğlu Binnətin törəmələrindən biridir və onun soyadını daşıyır. Vəzirin ana babası Abbas kişi kəndin imkanlı şəxslərindən olmuş və kənddə onun adını daşıyan toponimlər qalmaqda idi. Hələ uşaq yaşlarında valideynlərini itirən Vəzir bibisi Aman xalanın himayəsində böyümüşdür. Aman xala Avdırahmanlı tayfasının qızıdır və qonşu Quzukəndə ərə getmiş, ömrünün sonuna qədər də orada yaşamışdır. O, Ağbaba mahalında kişi qeyrətli xanım kimi tanınar, böyük bir ailəyə ağbirçəklik etməklə hamının himayədarı və istəklisinə çevrilmişdir.



Vəzir Binnətov həyat yoldaşı **Zərnişan xanımla** *(1941-ci il*) birlikdə həmişə zəhmətləri hesabına ailələrinin təminatını ödəmiş və Abayət, Ziniyyət, Əfqan, Rahilə, Fəridə, Vüqar, Sevil və Kəmalə kimi mehriban, qohumcanlı, tərbiyəli uşaqları ilə həmişə sevinmişlər.



Verilən məlumata görə, Avdırahman kişinin böyük oğlu Alının iki oğlu olub: **Məmməd və İsrafil.** Məmməd Böyük Vətən Müharibəsində iştirak etmiş və vətənə qayıdandan bir ay sonra aldığı zədədən ölmüşdür. İsrafil kişi Ellərоyuğuda yaşamış və dörd oğlu, iki qızı olmuşdur. Kənddə uzun illər yaşamış **Əhmədov İsrafil** də *(1925-2001-ci illər)* onun törəmələrindəndir və

onun adını daşımışdır (*İsrafil kişi Gürcüstan Respublikasının Marneuli rayonunun İmircala kəndində vəfat etmişdir).* **Övladları:** Yaylagülü, Xeyrulla, Feyzulla, Əsəd, Zahidə, Zəkiyyə, Binəli, Maral.

Tayfanın ulu babalarından olan **Alı və İsgəndər** kişi qardaş olublar. İsgəndər kişinin **Məhəmməd və Binnət** adlı oğulları olmuşdur. "*Məşədi"* deyə çağırılan **Məhəmməd kişinin** – İsgəndər (*babasının adını daşımış),* Mahmud və Qurban adlı oğulları; **Mahmud kişinin** isə Tovuz, Lətif və Tamara adlı uşaqları olmuşdur.



Qurban kişi Böyük Vətən Müharibəsinə gedib qayıtmamış, həyat yoldaşı, Orciyalı tayfasının qızı olan **Bahar xanım** Zərnişan və Tamaşa adlı qızları ilə Ellərkənddə yaşamışlar.

İsgəndər kişinin isə Ələkbər adlı oğlu qonşu Balıxlı kəndində, qalanları – Calalı, Cahangir, Göyçək, Abagül, Əlvan, Telman və Elman isə Gürcüstan Respublikasında yaşamışlar.

Onlar heç vaxt Ellərоyuğuda yaşayan qohumları ilə əlaqəni kəsməmiş, bu gün də müntəzəm olaraq görüşürlər. Mənfur erməni siyasəti onları ayrı salmağa çalışsa da, istədiklərinə nail ola bilməmişlər.



Mahmud kişinin oğlu **Lətif** mühasib kimi orta ixtisas təhsili almış və uzun illər sovxoz və kolxozlarda baş mühasib vəzifəsində işləmişdir. O, sonralar bir vəzifə sahibi kimi erməni təqiblərinə məruz qalaraq Gürcüstan Respublikasının Marneuli rayonunun



Şulaver qəsəbəsinə köçmək məcburiyyətində qalmış və sonralar Bakı şəhərində öz millətinin içində yaşamağa üstünlük vermişdir. O, 1994-cü ildə Bakıda vəfat etmişdir. Umud, Mövlə, Teymur *(Elburus),* Elxan, Zülfü, Aybəniz, Arzu adlı övladları da hazırda Bakı şəhərində yaşayırlar.

Ailənin ortancıl oğlu Teymur Məmmədov (*kənddə hamı onu Elburus kimi çağırırdı)* bu gün sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq maliyyə imkanları daxilində həmişə öz həmyerlilərinə dəstək olmağa çalışır.




Ailənin nəvəsi **Elçin Məmmədov** hüquqşünas təhsilli ədliyyə işçisi kimi bu gün nəsilin adına şərəf gətirən gənclərdəndir.



Avdırahmanlı tayfasının bir tirəsi də **Hüseynov İsrafil Bayram oğlunun** *(1910-1997-ci illər*) başçılıq etdiyi ailədir. *Onun atası ilə Avdırahmanlı tayfasına mənsub Əhmədov İsrafilin ataları eyni kökdəndirlər.* İsrafil kişinin valideynləri erməni təqibləri nəticəsində Gürcüstan Respublikasının Dmanisi *(Başkeçid*) rayonunun Dağ Qarabulaq kəndinə köçmüş və 1918-ci ildə ailə yenidən Ağbabaya qayıtmış, burada da məskunlaşmışlar. İsrafil kişinin Vəli, Qəhrəman, Oruc adlı qardaşları, Güləbatın və Səkinə adlı bacıları da olmuşdur.

Övladları: Hidayət, Mamed, Bayram, Zöhrə, Allahverdi, Sona, Xudaverdi.







Bayramovlar ailəsi



İsrafil kişinin Qazaxıstanda yaşayan böyük oğlu Hidayət xanımı Zərri ilə



Kəndimizin köhnə kişiləri

Gülləlilər tayfası

Gülləli də kənddə qohumluğun əhatə dairəsinə görə böyük tayfa hesab olunur. Tayfa ulu babaları olan Gülləli kişinin adı ilə bağlıdır və Qarabağdan Azərbaycanın Qazax rayonuna (*hazırda bu tayfanın bəzi üzvləri orada yaşamaqdadır*), oradan isə Gürcüstanın Bolnisi rayonunun Daşlıqullar kəndinə köç edən türk (*qarapapaq*) tayfalarındandır. Bu günə qədər də həmin kənddə un dəyirmanı tayfanın böyüklərindən olan Bayram ağanın adını daşıyır. Bayram ağa çoxlu mal-qara sahibi olduğu üçün Ağbabanı yaylaq kimi seçərək Ellərоyuğuya gəlmiş və 1989-cu il deportasiyasına qədər də tafanın son nəsili burada yaşamışdır.

Bayram ağa öz xeyirxahlığı ilə Ellərоyuğuda da özündən sonra daima anılası bir xatirə qoyub getmişdir. Elə Gülləlilər tayfasının məskunlaşdığı məhəllədə - kəndin mərkəzində ta 1989-cu il deportasiyasına qədər, uzun illər hamının istifadə etdiyi və mənbəyini xeyli uzaqdan alan ***Güllüoğlunun bulağı*** da məhz Bayram ağanın dəstəyi ilə kəndə çəkilərək sakinlərin istifadəsinə verilmişdir.

Tayfa əsasən Bayram Gülməmməd oğlu ilə başlayaraq sonradan şaxələnmişdir.

Bayram ağanın övladları: Daşdan, Ağabəy, Əbdürrəhman, İsgəndər, Paşa, Məhəmməd, İdris, İsmayıl, Gülməmməd, Anaxanım, Ağça, Hürü. Onu da qeyd edim ki, tayfanın sonradan gələn övladlarına bu adların verilməsilə onların mənən yaşatmaq istəmişlər.


Daşdanın övladları – Balabəy, Müğdət, Bəsti.

Balabəyin övladları – Daşdan, Ağabəy, Əbdürrəhman, Mürəstə, Miyasa.

Daşdan kişinin yeganə övladı olan Xanımzər hazırda Gürcüstan Respublikasının Marneuli rayonunda yaşayır.

Ağabəy kişinin övladları: Zərri, Telman, Minayə, İnci, Salman, Fərman, Elman.


Bu ailə kənddə bir ziyalı ailəsi kimi məşhurlaşmış və ailə üzvləri əsasən pedaqoji təhsil alaraq atalarının peşəsini davam etdirmişlər.



Ailənin böyük oğlu **Telman Balabəyov** kəndimizin ilk ali təhsilli ziyalılarındandır və qonşu Öksüz və Quzu kəndlərində uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuşdur.



Əbdürrəhman kişi kəndin sayılıb-seçilən şəxslərindən olmuş və həmişə sovxozun məsul işlərində çalışmışdır. O, həyat yoldaşı **Səlbinaz xanımla** (*1940-1996-cı illər)* birlikdə Nizami, Qızdarxan, Gülümzər, Cavanşir, Şirvani, Mehman, Rakif, Zeynəb, Natiqə kimi nümunəvi övladlar böyüdərək onlara təhsil vermiş, həyata hazırlamışlar.



Müğdətin övladları – Rüstəm, Mahmud, Astan, Nazlı.

Rüstəm kişinin böyük oğlu Əhməd uzun müddət Amasiya rayonunun mərkəzi bankında məsul vəzifədə işləyən və işlədiyi dövrdə eloğullarına kömək edən bir şəxs kimi həmişə hörmətlə anılır.

Müğdət kişinin digər oğlu Mahmud Böyük Vətən Müharibəsində zədə alaraq ömrünün sonuna qədər əlil kimi o ağrı ilə yaşamışdır.

İdrisin övladları – Yolçu, Həmzə, Bayram, Əsgər, Camal, Kamal, Tükəzban.



Həmzə kişi *(1925-2009-cu illər)* kəndin hörmətli şəxslərindən olmuş və həyat yoldaşı **Əsli xanımla** (*1928-2018-ci illər*) birlikdə 1989-



cu il deportasiyasına qədər kənddə yaşamış, sonrakı ömürlərini də Şamaxı rayonunun Qızmeydan kəndində başa vurmuşlar.

Yeganə övladı olan Şair bu gün ailənin şərəfini uca tutaraq həmkəndliləri içərisində sevilib-seçilir.

Yolçunun övladları – Şahvələd, Mürvələd, Leylan.



İsmayılın övladı – Sinə (1927-2012)



Yolçu kişinin arvadı Eminə xala (1905-1981)




Şahvələd kişi *(1934-02.08. 2023-cü illər)* və həyat yoldaşı **Narxanım** *(1943- 27.02.2020-ci illər)* həmişə zəhmətkeş və mehriban, heç kəsə ziyanları dəyməyən bir qonşu kimi xatırlanırlar.



Övladları: Alxan, Süsən, Həqiqət, Bəylər, Xanlar, Kərəm, Nəzakət, Şahmurad, Elşən.

Ailənin ortancıl oğlu **Bəylər İdrisov** 1986-1990-cı illərdə Rusiyanın Vladiqavqaz şəhərindəki hərbi məktəbi qurtararaq polkovnik rütbəsi ilə xidmət etmiş və kəndimizə şərəf gətirən gənclərdəndir. O, hazırda Rusiyada yaşayır.





Mürvələd kişi *(01.03.1939-20.01.2020-ci illər)* və həyat yoldaşı **Tamaşa xanım** *(21.03.1940-25.06.2023-cü illər)*



həmişə zəhmətkeş və mehriban qonşu kimi xatırlanır, yad edilirlər.

Övladları: İsmixan, İslam, Təranə.

Paşanın övladı – Yetər.

Gülməmmədin övladları – Bilal, Bəxtiyar, Aişə.

Bilalın övladları – Gülməmməd, Güləhməd, Xanəhməd, Mehdi, Yusif, Telman, Həcər, Pürzə, Telli.

Onu da qeyd edim ki, XIX əsrin əvvəllərində yaşamış və kəndin tanınmış axundu olan Qasım Əfəndinin qızı Fatma Gülməmmədin arvadı olub.

Bəxtiyarın övladları – İsgəndər *(Aşıq İsgəndər Ağbabalı),* Şükür, Hilal, Məryəm.

İsgəndər kişinin (*Aşıq İsgəndər Ağbabalı*) övladları: Xurşud, Əsban, Mürtəza, Faxfur, Cümşüd, Sərdar.



İsgəndər kişi və Hənifə xanım




Ailənin kiçik oğlu **Aşıq Faxfur Ağbabalı** (*İsgəndər oğlu)* atasının yolu ilə gedərək bu gün Azərbaycanımızda aşıq sənətinin mahir ifaçılarından biri kimi məşhurdur.

Aşıq Faxfur Ağbabalı 1956-cı ildə Ağbaba mahalının Ellərkəndində anadan olmuşdur. O, hələ uşaqlıq illərindən saza böyük maraq göstərmiş, usdadı *(atası*) Aşıq İsgəndər Ağbabalıdan bu sənətin dərinliklərini öy-

rənmişdir. 1974-cü ildən etibarən aşıqlıq sənəti ilə məşğul olmuş, 1992-ci ildən də Azərbaycan Aşıqlar Birliyinin üzvüdür. Türkiyənin Sivas şəhərində təşkil olunan **"Aşıq Veysəl"** festivalında iştirak etmiş və qızıl medalla vətənə qayıtmışdır. Həmçinin Çıldırda "**Aşıq Şenlik"** festivalında da iştirak edərək qızıl medalla təltif olunmuşdur. Sonuncu dəfə Qarsda təşkil olunan "**Qarapapaq"** festivalında da Azərbaycan aşıqlarını təmsil etmişdir.

Aşıq Faxfur Ağbabalı Bakı şəhərindəki Adil İsgəndərov adına mədəniyyət evində saz kursuna müəllim-ustad kimi dəvət olunaraq orada bu sənəti sevənlərə dərs demiş, Aşıq Nəbi, Aşıq Sahib, Aşıq Familə kimi yetirmələrinin ərsəyə gəlməsində xüsusi xidmətləri olmuşdur.

Aşıq Faxfur Ağbabalının özünün də dediyi kimi, o, Çıldır-Qars aşıq havalarının günümüzdə yeganə davamçısı və ifaçısıdır. O, bu gün həm ifaçı, həm də yaradıcı aşıq kimi fəaliyyət göstərir və bir çox qoşma və gəraylıların müəllifidir.



İsgəndər kişinin nəvəsi **Dilqəm Xurşud oğlu Bəxtiyarov** Rusiya Federasiyasının Cənubi Qafqazın Vladiqafqaz şəhərindəki daxili qoşunların hərbi məktəbində (*1991-1996-cı illər)* motoatıcı bölmələr üzrə komandirlik və hüquqşünaslıq ixtisasını bitirmişdir. O, hazırda xidmətini davam etdirərək polkovnik hərbi rütbəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsində Əməliyyat şöbəsinin rəis müavini vəzifəsində işləyir.



Şükür Gülməmmədov *(1935-2019-cu illər)* kənddə bacarıqlı bir sənətkar (*maşın ustası)* kimi həmişə sevilib-seçilirdi. Ömrünün son illərində Gürcüstan Respublikasının Başkeçid *(Dmanisi*) rayonuna köçmüş, ömür-gün yoldaşı **Cahan xanımla** yaşayaraq sevimli peşəsini orada da yaşatmışdır. Böyük və nümunəvi bir ailəyə başçılıq edən Şükür kişi Bakı şəhərində rəhmətə getmişdir.

Övladları: Elburus, Zahid, Vahid və Əbülfət.



İsgəndər kişi və anası Bəsti xanım



İsgəndər kişi və qardaşı Şükür

***

...Tayfanın uzun illər Rusiyada yaşayan və hazırda isə Bakının Ramana qəsəbəsində məskunlaşan nümayəndəsi, Bilal kişinin oğlu Telmanın nəsilləri haqqında daha çox məlumatlı olduğunu eşidib, onunla görüşmək istədim. Sağ olsun əmim oğlu Xalid Balakişiyevi. Bu istəyimi həyata keçirdi.



Şahbaz, Telman və Xalid

...Telmanla danışdıqca az qala ömrünün yarı hissəsini qeyri-millətlər içərisində keçirən bir yurddaşımızın mənsub olduğu ailəyə, elə-obaya bu qədər bağlılığı məni çox sevindirdi. Telmanın bu missiyanı öz öhdəsinə götürüb, respublikanın müxtəlif yerlərinə dağılaraq bir-birindən uzaq düşən qohumlarının hamısını arayıb-axtarması, itirilmiş əlaqələri bərpa etməsi böyük fədakarlıq nümunəsidir. Onun sayəsində xeyli məlumat əldə edə bildik. Əhsən belə oğullara!

Dəlləklər tayfası

Tayfanın ***dəlləklər*** adlandırılmasının səbəbi – o dövr üçün yerlərdə insanların ən çox ehtiyac duyduğu və müsəlmanlar üçün xarakterik olan *dəllək* peşəsinin nümayəndələrinin məhz bu tayfadan olması ilə izah olunur. Tayfanın Türkiyədən Ağbabaya təxminən XVIII əsrin sonlarından köçdüyü deyilir. Tayfanın ulu babası **Dəllək İsmayıl** Qars mahalının Sarıqamış kəndində yaşamış və məqsədli şəkildə kəndə köçən ermənilərlə yaranan münaqişələrlə bağlı sonralar oğlu Alı kişi Ağbabaya (*Ellər-oyuğuna)* köçmüşdür. Alı kişinin Mikayıl və Cəbrayıl adlı oğulları ömürlərinin sonuna qədər bu kəndin ***Dərə məhəlləsi*** deyilən yerində, çay kənarında yaşamışlar.



Alı kişinin övladları – Mikayıl, Cəbrayıl, İsmayıl **(***babasının adını daşıyıb).*

İsmayıl Qarsda öz kəndlərində qalmış, Ağbabaya gəlməmişdir.

Mikayıl kişi kəndin ilk kolxoz sədri olmuşdur.
Övladları – İmdad, Mədəd, Gülxanım.
İmdad kişi (*1925-1987-ci illər)* Ellərоyuğu məktəbində ilk müəllim işləyənlərdəndir.



İmdad kişi və xanımı Salatın


Övladları — Murad, Novruz, Zərqələm, Əcəfnaz, Maxbulə, Qənirə.



Murad kəndin fəal sakinlərindən olmuş, əvvəlcə sürücü, sonra isə təhsilinə uyğun olaraq sovxozda briqadir və aqronom vəzifələrində işləmişdir. Çox həlim xasiyyətli, ünsiyyətcil, zarafatcıl bir qonşu kimi bu gün də sevilir. O, hazırda Abşeron rayonunun Ceyranbatan qəsəbəsində yaşayır.



Novruz ali təhsilini Rusiyada alaraq *(1984-cü ildə Novosibirski Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir)* doğma kəndinə polis *(o dövrdə **milis** adlanırdı)* kimi qayıtmış və son illər Amasiya Rayon Polis Şöbəsində mühafizə üzrə rəis müavini işləmiş polis polkovnikidir. O, 1989-cu il deportasiyasına məruz qalaraq, Sumqayıt şəhərinə köçmüş və orada şəhər mühafizə idarəsinin rəisi vəzifəsində işləmişdir. Hazırda təqaüddədir.




Mədəd kişi *(1927-1994-cü illər)* və həyat yoldaşı Şahzadə xanımla *(1929-2020-ci illər)* birlikdə 1950-ci ilə qədər Ellərоyuğuda yaşamış və Ermənistanda yaşayan azərbaycanlıların köçürülməsi zamanı o da ailəsi ilə birlikdə qonşu Qarabulaq kəndinə köçmüşdür.

Ailə 1989-cu il deportasiyası nəticəsində Bakı şəhərinə köçmək məcburiyyətində qalmışdır.

O, 1943-1948-ci illərdə Böyük Vətən Müharibəsinin iştirakçısı olub.

Övladları: Xudaverdi, Simuzər və Xurşud.



Cəbrayıl kişi *(1868-1986-cı illər)* və həyat yolodaşı **Sinə xanım** *(1875-1994-cü illər)* kəndin ən uzun-ömürlülərindən hesab edilirlər.



Övladları – Sona, Qasım, Kazım, Məsim, Yasın, Səməd, Əhməd.



Alıyev Kazım
(1931-2014)



Alıyev Məsim
(1935)



Alıyev Yasın
(1937)



Alıyev Əhməd
(1944-2008)

Cəbrayıl kişinin oğulları Kazım, Qələndər və qızı Sona rəhmətə getmiş, digər övladları isə hazırda Bakı şəhərinin Zabrat qəsəbəsində yaşayırlar.

Ailənin bütün üzvləri həmişə zəhmətlə dolanmış, övladları da bu gün o zəhmətin bəhrəsini görərək hər biri mükəmməl bir ailə sahibidir.



Qasım və Səməd qardaşları, Sürəddin və Şahbaz

...1932-ci il təvəllüdlü Qasım əmim və qardaşı Səmədlə söhbət məni uzaq ellərimizə – doğma kəndimizə apardı... Xatirələr çözələndi, böyüklər anıldı, gözlər yaşla doldu... Hələ gənc yaşlarında – hərbi xidmətdən sonra kəndə qayıtmayan və Moldova Respublikasında ailə quraraq orada yaşayan Səməd kişi (1940-cı il) ilə söhbət məni heyrətləndirdi. Ömrünün çox hissəsini doğma yurdundan kənarda keçirən bu şəxsin yaddaşının gücünə heyran qaldım. Heç nəyi unutmayıb – nə kəndimizin adət-ənələrini, nə uşaqkən qarış-qarış gəzdiyi kəndini, nə də ki, onun yer-yurd, dağ-dərə, çay-bulaq adlarını...bizdən yaxşı xatırlayır...yana-yana danışır...ora qayıtmaq arzusu ilə yaşadığını söyləyirdi.

Amma mən bu yaşlı insanların öz ata-baba yurdlarına qayıtmaq arzularının onların ən böyük istəkləri olduğunu eşitdikdə bir daha əmin oldum ki, o torpaqlara mütləq qayıdacağıq və Ali Baş Komandanımız İlham Əliyevin müdrik siyasəti nəticəsində bu insanlar da öz arzularına çatacaqlar. Artıq bu istiqamətdə müəyyən

tədbirlərin həyata keçirildiyini, ölkə prezidentinin tapşırığı ilə Qərbi Azərbaycan İcmasının fəaliyyəti, Qayıdış Proqramının tərkib hissəsi kimi aparılan işlər barədə məlumat verdikcə onların gözündə ümid, dədə-baba yurdlarına dönmək sevincini gördüm və Uca Tanrıdan bu istəklərimizi reallaşdırmaq üçün xalqımıza, onun qalib lideri İlham Əliyevə güc və can sağlığı arzulamaqla onlardan ayrıldım.

* * *



Dəlləklər tayfasının ikinci qolu *(tirə)* 1918-ildə Gürcüstanın Axısqa bölgəsində yerli erməni qulduru, milliyyətçi Andranikin dəstəsi tərəfindən valideynlərini, qohum-əqrəbasını itirmiş, 9 yaşında Ağbabaya (*Ellərоyuğuya)* üz tutmuş **Elləzov Əziz Gülməmməd oğlunun** başçılıq etdiyi ailə əsasında formalaşmışdır. Onlar 1989-cu il deportasiyasına qədər kəndin ***Dərə məhəlləsi*** deyilən yerində məskunlaşmış və 1989-cu ildə yenidən didərgin həyatı yaşamışlar.

Balaca Əziz Axısqada yaşayan qarapapaq türk tayfasına mənsub olduğuna görə kənddəki digər türk tayfaları ilə tez vaxt ərzində isinişmiş və bu kənddə yaşayıb formalaşaraq ailə qurmuş, geniş bir nəsil yarada bilmişdir. Onun mənim mənsub olduğum Oruciyalı tayfası ilə yaxınlığının bir səbəbi də məhz hər ikisinin Axısqa türklərindən olması idi.

Əziz kişinin övladları – Abuzər, Günəş, Mədinə, Əjdər, Müzəffər.



Abuzər kişi və ailəsi



Müzəffər kişi və ailəsi



Əjdər Gülməmmədov və Süleyman Həsənov ailələri ilə



Əjdər kişi övladları ilə



Ruslan Gülməmmədov

Gümrülülər tayfası

Gümrünün yerləşdiyi Şirak vadisi əski türk boylarından Şirak tayfalarının məskəni olmuşdur.

Qərbi Azərbaycanın şəhərləri arasında Gümrünün özünəməxsus yeri vardır. Belə ki, zaman-zaman müharibələr nəticəsində bu şəhər dəfələrlə əldən-ələ keçmiş, dağıntılara məruz qalmış, əhalisi yer-yurdlarından didərgin düşmüş, bir müddət sonra yenidən geri qayıtmışdır.

Cənub-Qərbi Qafqazda Ələyəz *(Alagöz)* dağının ətəklərindən tutmuş, Arpaçay boyunca uzanan və Arpa gölünün ətrafını əhatə edən ərazinin dağlıq hissəsi Ağbaba, aran hissəsi isə Şörəyel adlanır. Arpaçay Şörəyelin özünü də iki hissəyə ayırır. Qars vilayəti ərazisində qalan hissə Qərbi Şörəyel, bir hissəsi indiki Ermənistan ərazisində qalan ərazi isə Şərqi Şörəyel adlanır. Gümrünün yerləşdiyi Şərqi Şörəyel bölgəsi Ələyəz, Cacur, Qarakahya və Saqqızlı dağları ilə əhatə olunmuş, əsasən, düzənlik ərazidir.

Tədqiqatçıların fikrincə, *"gümrü"* sözü qədim türk dilində "*dağ başında yarğanlı, uçurumlu yer*" mənasında relyef bildirən coğrafi termindir.

Öz mövqeyinə görə hərbi-strateji əhəmiyyət kəsb etdiyindən Gümrü tarixən Rus-İran, Rus-Türk müharibələrinin qanlı meydanı olmuşdur .

Rusiyada 1917-ci il noyabr çevrilişindən sonra ermənilər Gümrü və onun ətraf kəndlərində yaşayan türkləri, həmçinin 29 aprel 1918-ci ildə Gümrüdən Axırkələk yolu ilə arabalarla Gürcüstana, oradan da Azərbaycana getmək istəyən 3000-ə yaxın türk köçkününü qadın, qoca və uşaq arasında fərq qoymadan yollarda qətlə yetirmişdir.

Gümrü qəzasından qaçqın düşən türklər Ağbaba, Zərşad və Çıldır nahiyələrində məskunlaşmışlar.

1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Gümrü Ermənistanın tərkibinə verilmişdir.

1924-cü ildə Gümrünün adı dəyişdirilərək Leninakan, 1990-cı ildə isə şəhərin adı yenidən dəyişdirilərək Kumayri adlandırılmışdır. Lakin bütün tarixi mənbələrdə şəhərin əski adı Gümrü kimi yazıldığından, ermənilər 1992-ci ildə yenidən şəhərin öz qədim adını bərpa etməyə məcbur olmuşdur.

V.İ.Leninin adına verilmiş bu qədim türk şəhərində əsasən türklər yaşamış və getdikcə başqa yerlərdən planlı şəkildə buraya da erməni əhalisinin köçürülməsi nəticəsində erməni əhalisinin artırılaraq şəhərdə yaşayan azərbaycanlıların məqsədli şəkildə sıxışdırılıb, şəhərdən çıxmalarına nail olunmuşdur.

Ermənilərin törətdikləri qırğınlardan canlarını salamat qurtaran Gümrülülərin törəmələrinin bir çoxu hazırda Türkiyədə, Azərbaycanda, Gürcüstanda, Rusiyada və Orta Asiya respublikalarında yaşayırlar. Gümrülülərin törəmələri içərisindən bir çox dövlət və ictimai xadimlər, alimlər, şairlər, yazıçılar və elm xadimləri yetişmişdir.



Sovet hakimiyyəti qurulmamışdan əvvəl Gümrü şəhərində azərbaycanlıların kompakt şəkildə yaşadığı məhəllələr mövcud olmuş və ***"Türk məhəlləsi"*** adlanan həmin məhəllədə yaşayan **Gümrülü Abbas ağa** da ailə üzvləri ilə birgə

erməni təqiblərindən sonra Ağbaba mahalına üz tutmuş və Ellәroyuğuda məskunlaşmışdır.

1920-ci ilin əvvəllərində onun qardaşı İsmayıl ağa erməni daşnakları tərəfindən, 1930-cu ilin əvvəllərində isə qardaşı Paşa ağa Sovet hökuməti tərəfindən güllələnmiş, bacısı Müğəddə xanım isə ailə quraraq Quzukəndə ərə getmiş və ömrünün sonunadək Quzukənddə yaşamışdır. 1937-ci ildə isə Abbas ağa "**kulak**" (qolçomaq) damğası vurularaq həbs olunmuş, uzaq Sibirə həbsə göndərilmiş, sonra Sibirdə güllələnmişdir. Böyük yaşlı övladları isə Orta Asiyaya sürgün edilmişdir. Həyat yoldaşı Kişvər xanım öz kiçik övladları ilə birgə Ellәroyuğuda yaşamışdır.



Abbas ağa ailə üzvləri ilə

Oğul övladları Heydər və Əziz bacıları ilə birgə analarının himayəsində böyümüşlər. Çox çətinliklərə sinə gərən ailənin üzünə Stalinin ölümündən sonra günəş doğmuşdur. Heydərin, Əzizin, Səttarın və bacıları – Anaxanımın, Fatimənisənin, Zübeydənin, Günnazın, Piruzənin və Bədirnisənin övladları ali təhsil alaraq müxtəlif

sahələrdə fəaliyyət göstərirlər. Kitabda onların bəziləri haqqında qısa məlumat verilir.



Səttar kişi *(1903-1983-cü illər)* atası Abbas ağa həbs olunduqdan sonra Orta Asiyaya sürgün olunmuşdur. O, 1956-cı ildə Gürcüstan Respublikasına köçmüş və ömrünün sonunadək orada *(Marneuli rayonu*) yaşamışdır.



Səttar kişi xanımı və oğlu ilə



Heydər kişi *(1922-1989-cu illər)* kəndə müxtəlif vəzifələrdə işləmiş və həyat yoldaşı Tovuz xanımla Fizzə, İsmayıl, Səmayə və Sabir adlı övladlarını böyütmüşlər. Heydər kişi 1941-1945-ci illər müharibəsində iştirak etmiş, bir sıra medallarla təltif olunmuşdur.



Heydər kişi ailə üzvləri ilə



Əziz kişi ***(1927-2008-ci illər)*** Ellərkənddə həyat yoldaşı Sona xanımla birgə ömür sürmüş və 1988-ci il deportasiyasının qurbanı olaraq, ailəsi ilə birlikdə Bakı şəhərində yaşamışdır. Əziz kişinin Uğurlu, Vahid, Adilxan, Zahid, Buludxan və Məzahir adlı övladlarının hamısı da ali təhsil alaraq müxtəlif vəzifələrdə işləmişlər.



Əziz kişi ailə üzvləri ilə

Əziz kişinin oğlu mərhum Buludxan Xəlilov tanınmış dilşünas, ictimai xadim, Azərbaycan dili və ədəbiyyatşünaslığın inkişafında xüsusi əməyi olan filologiya elmləri doktoru, professor kimi kəndimizin şöhrətini ucaldan ziyalılarımızdan olmuşdur.

Gümrülülər tayfasının davamçıları hazırda müxtəlif sahələrdə öz fəaliyyətlərini uğurla və şərəflə davam etdirirlər.



Ailənin böyük oğlu Uğurlu Abbasov şagirdləri ilə. 1985-ci il

Gözəldərəlilər (*Həsənovlar ailəsi)*

Həsənovlar kəndimizdə bir ziyalı kimi həmişə öz yeri və mövqeyi olan ailələrdən olmuşdur. Tayfanın başçısı **Rüstəm Həsənov** *(O, 1958-ci ildə,* həyat yoldaşı **Həsənova Tükəzban** *isə 1963-cü ildə Ellərkənddə rəhmətə gedib*) olmuşdur. Bu ailə 1905-ci ildə Qərbi Azərbaycanın İravan quberniyasının Ələyəz bölgəsindən (*Gözəldərə kəndi)* erməni qırğınından canlarını qurtararaq Türkiyə sərhədi olan Ağbaba mahalına pənah gətirmiş və Ellərоyuğuda məskunlaşmışlar.



Zəhmətsevər bir insan olan Rüstəm kişinin ailəsi geniş olmuşdur:


Həsənov Yunis Rüstəm oğlu (*1921-1943-cü illər)* Böyük Vətən Müharibəsində həlak olmuş və 3 övladı atasız, çətin şəraitdə böyümüşdür: İmran, Cahangir, Məsmə. Onlar öz aileləri ilə birlikdə 1989-cu il deportasiyası zamanı Bakı şəhərində məskunlaşıblar.



Yunis kişinin övladları: Cahangir, İmran və Məsmə



Həsənov Həsən Rüstəm oğlu *(1922-1943-cü illər)* Böyük Vətən Müharibəsində həlak olmuşdur. Ailənin tək övladı olan və heç vaxt zarafatından qalmayan, hamının sevimlisi **İsmayıl kişi** də Qarabağ hadisələri zamanı kəndlərindən qovularaq Abşeron rayonunun Ceyranbatan qəsəbəsini özünə yurd-yuva yeri seçmişdir.



İsmayıl kişi (1940) və həyat yoldaşı Leylan xanım (1937)

Övladları: Əmrah, Şövkət, Sohbət, Yaşar, Qəndab, Rəna, İradə, Kifayət, Natiq və Asiya.





Həsənov Süleyman Rüstəm oğlu *(1925-2005-ci illər)* və həyat yoldaşı **Həsənova Sara Qənbəralı qızı** *(1926-2010-cu illər)* Ağbaba mahalında 1940-cı illərdə müəllim kimi ilk fəaliyyət göstərən ziyalılarımızdan olmuşlar. Ailənin üç övladı – Gülxanım, Abbasəli, Ələmdar da 1989-cu ildə qaçqın taleyi yaşayan soydaşlarımızdandır. Onlar da Bakı şəhərində daimi məskunlaşıblar.





Süleyman müəllim ailəsi və qohumları ilə



Həsənov Bayram Rüstəm oğlu (*1926-1992-ci illər)* tayfanın sevimlilərindən olub və uzun müddət Rusiyada yaşasa da, heç vaxt doğma elindən əlaqəsini kəsməyib.



Hətta el-obasına bağlılıq qızı **Larisa xanımı** onun ata-baba yurduna qaytardı. Larisa xanım Ellərkənd 8-illik məktəbində *(1972-1982-ci illər)* müəllim kimi fəaliyyət göstərməklə sanki atasının doğma yurduna olan borcunu qaytarmış oldu. Bayram kişi, həm də Böyük Vətən Müharibəsi iştirakçısı idi.



Bayram kişinin oğlu və xanımı

Həsənov Məhərrəm Rüstəm oğlu *(1927-1946-cı illər)* Ellərоyuğu kəndində rəhmətə getmişdir.

Həsənova Minə Rüstəm qızı (*1936-2006-cı illər)* 1989-cu ildə qaçqın düşən soydaşlarımızdandır.

Həsənova Əprüz Rüstəm qızı *(1934-2019-cu illər)* 1989-cu ildə qaçqın düşən soydaşlarımızdır.

* * *

Əlavə olaraq onu qeyd edim ki, qərbi azərbaycanlıların həmişə fəxrlə danışdığı "*Biz ermənilərin içində din içində din, dil içində dilimizi qoruyub saxlaya bilmişik"* kimi haqlı fikirlərindən biri də o dövrdə sovetlər birliyinin qadağalarına baxmayaraq dini mərasimlərimizi islam dininə uyğun qaydalarla həyata keçirən din xadimlərimizin olmasıdır. Hətta o dövrün arxiv materiallarında rəsmi olaraq kəndimizin o dövrlərdə yeganə dini təhsil *(ruhani*) almış və öz fəaliyyəti ilə camaatın nəzərində müqəddəsləşən, dini və dünyəvi elmlərdən xəbəri olan bir əlviyya kimi kəndimizin sakini - **Molla Qasım Əfəndi Mamed oğlunun** da *(1900-cü illərin əvvəlləri)* adı çəkilir.


Onunla təxminən eyni dövrdə kəndimizdə dini mərasimlərin icraçısı kimi **Molla Sayadın** da adı bu gün eloğlulları tərəfindən hörmətlə xatırlanır. Hətta kəndin Dərə məhəlləsi deyilən ərazisində onunla bağlı olan ***Mollanın xırmanı*** adlanan toponim də qalmaqda idi.

Belə insanlardan biri də Həsənovlar ailəsinin yaxın qohumu, Sara xalanın atası Qənbəralı kişi olmuşdur.

Həsənov Qənbəralı Qafar oğlu (*1890-1958-ci illər)* 1905-ci ildə ermənilərin etnik təmizləmə siyasətinin nəticəsində Göyçə mahalının Cil kəndindən didərgin düşərək, Ağbaba mahalının Güllücə kəndində, sonralar isə Ellərоyuğuda məskunlaşmışdır. Ailə ömrünün axırına kimi bu kənddə yaşamışdır. Qənbəralı kişi güclü dini təhsilə malik olub. O, son illər kəndimizin, hətta qonşu kəndlərin də yas və digər qorunub saxlanılmış dini mərasimlərinin fəal, yeganə aparıcısı olmuş, öz fəaliyyəti ilə həmişə dini adət-ənənlərimizin keşiyində durmuşdur.

Qədirlilər tayfası

Qədirlilər kənddə uzun illər əvvəl köç salan tayfalardandır. Tayfanın ulu babası **Qərib kişi** XX əsrin əvvəllərində (*1924-cü ildə*) Türkiyənin Qars vilayətindən bölgədə ermənilərin törətdiyi qırğınlar nəticəsində ailəsini də götürüb həmsərhəd olan Ağbaba mahalının Ellərоyuğu kəndinə qaçmaq məcburiyyətində qalmışdır. O, uzun müddət kənddə yaşamış və burada da rəhmətə getmişdir. Ailənin böyük oğlu Alı Qədirov 1918-ci ildə Qarsda doğulmuş və ailəsinin Ellərоyuğuya köç etməsindən sonra bu kənddə böyüyüb boya-başa çatmışdır. Ailənin digər üzvləri – Mustafa *(1920-1941-ci illər),* Osman, İsmayıl, Züleyxa və Muxtar da ömürlərinin sonuna qədər bu kənddə yaşamağı seçmişlər.




Böyük Vətən Müharibəsi iştirakçısı olan **Alı Qədirov** *(1920-1993-cü illər)* uzun müddət qonşu Yeniyol, Quzukənd, İbiş, Güllücə kolxoz və sovxozlarında mühasib, Qarabulaq, Quzukənd və öz kəndlərində kolxoz sədri vəzifələrində işləmişdir. 1988-ci il deportasiyasına məruz qalaraq Bakı şəhərinə köçən Alı kişi ailəsi ilə birlikdə Zabrat qəsəbəsində daimi məskunlaşmışdır. Onun həyat yoldaşı **Məsmə xala** *(1924-2005-ci illər)* kənddə çox hörmət sahibi olmuş, həmişə qonşularının köməyinə çatan – *türkə çarə* yolu ilə insanlara təmənnasız yardım edən bir el həkimi - xanım kimi hamının sevimlisi olmuşdur.



Övladları: Şəkər, Simnaz, Allahverən, Qəndaf, Şirin və Cavanşir.




İsmayıl Qədirov (*1933-2010-cu illər*) 1989-cu il deportasiyasına qədər doğma kənddə müəllimlik etmiş və sonra Bakı şəhərində daimi məskunlaşmışdır. O, kənddə hamının istəklisi olan arvadı **Məleykə xanımla** (*18.01.1935 - 27.11.2003-cü illər)* birlikdə Vaqif, Səringül, Şükufə, Maral, Bəylər, Rəfail, Sönər, Mərcan, Mənsurə, Asif, Nazimə kimi kəndimizdə digərlərinə nümunə olan övladlar böyütmüşlər.



Ailənin ziyalılarından olan **Vaqif Qədirov** (*24.07.1954- 30.01.2022-ci illər*) ali təhsilli zootexnik kimi həm doğma kəndlərində (*sovxozun partiya təşkilatı katibi*), həm də qonşu Düzkənd sovxozunda *(sovxoz direktoru)* müxtəlif vəzifələrdə işləmişdir.



Ailənin ortancıl oğlu **Bəylər Qədirov** *(1968-2011-ci illər)* həmyerlilərinin xatirində sakit, mehriban və işgüzar bir şəxs kimi qalmışdır.



Osman Qədirov (*1921-1997-ci illər)* və həyat yoldaşı **Kişmiş xanım** *(1928-2013-cü illər)* zəhmətkeş bir ailə kimi daima təsərrüfat işləri ilə məşğul olmuş və Nəcifə, Vahid və İlham kimi tərbiyəli övlad böyütmüşlər.






Vahid, Nəcifə və İlham

Ailə 1989-cu il deportasiyasında Qazaxıstanda yaşayan oğlunun yanınına köçmək məcburiyyətində qalmışdır.

Ailənin böyük oğlu Vahid Qədirov ali təhsilli inşaatçı-mühəndis kimi təyinatını Qazaxıstan Respublikasının Alma-Ata şəhərinə almış və hazırda da orada yaşayır.



Muxtar Qədirov *(03.01.1939-20.09.2005-ci illər)* həyatını qoyunçuluq peşəsinə həsr etmiş və ömrünün sonuna qədər də həyat yoldaşı **Piruzə xanımla** (*21.11.1938-30.08.2015-ci illər*) böyük bir ailəyə rəhbərlik edərək ömür-gün sürmüşlər.



Övladları: Qızılgül, Rəsul, Mübariz, Akif, Mahir, Rasim, Humay, Mahal, Səfurə.



Ailənin böyük oğlu Rəsul Qədirov Rusiyanın Komsomolskiyna Amure şəhərində Politexnik İnstitutunun sənaye və mühəndislik ixtisasını, ailənin kiçik oğlu Mahal Qədirov isə Bakı Biznes Universitetinin iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasını bitirmiş (o da Qarabağ müharibəsinin iştirakçısı kimi vətəninin müstəqilliyi uğrunda döyüşmüşdür), qızı Səfurə isə orta ixtisas təhsillidir.

Qızılgül Qədirova ailənin böyük qızı idi. Orta məktəbi bir sinifdə başa vurmuşduq. Çox mehriban və qayğıkeş bir sinif yoldaşı kimi həmişə xatırlanır. Allah rəhmət eləsin.





Rasim Qədirov (O həm də Qarabağ müharibəsi **qazisidir**) Bakı-Asiya Universitetinin ümumi iqtisadiyyat ixtisasını bitirmiş və hazırda əhalinin əmək və sosial müdafiəsi sahəsində çalışan dövlət qulluqçusudur.



Piruzə, Mürəstə və Nabat xanım mehriban qonşuluq illərində. 1973-cü il

Qazax Alılar tayfası

Bu tayfa **Alı kişinin** adı ilə bağlıdlr. Alı kişi o vaxtlar Azərbaycanın Qazax mahalına köç edən qarapapaq (*tərəkəmə*) kökənli türklərdən olmuşdur. O, sonradan indiki Gürcüstan Respublikasının Borçalı mahalında yaşamış, doğum yeri ilə əlaqədar olaraq "*Qazax Alı*" deyə çağırılmışdır. Alı kişinin Bəkir, Oruc, Hüseyn, Ələsgər adlı övladları olmuşdur.

Ali kişinin böyük oğlu **Orucun** övladları Mustafa və İsa olub. İsa sovet hökuməti qurulanda Türkiyəyə gedib və geri dönə bilməmiş, ailəsi Borçalıda qalmışdır. O, Türkiyədə yenidən ailə quraraq ömrünün sonuna qədər də orada yaşamışdır.

Oruc kişinin ikinci oğlu Mustafadan Həmid, Məmməd, Həmzə, Musa *(Həmzə və Musa Türkiyəyə köç edib)* adlı uşaqlar dünyaya gəlmiş və böyük oğlu **Həmid Mustafa oğlu** Gürcüstan Respublikasının *(Borçalı mahalı)* Qəmərli kəndindən Qərbi Azərbaycana – Ağbaba



Həmid kişi xanımı Nabatla

mahalının Ellərоyuğu kəndinə köç etmişdir. Ellərоyuğunu özünə əbədi yurd seçən Həmid kişinin Hacıkərim, Mehralı, Əsli, Mehriban, Tükəzban adlı övladları bu kənddə dünyaya gəlmiş və burada da yaşamışlar. Məhz buna görə də bu tayfanın soyadı babalarının adını daşıyaraq ***Mustafayev*** kimi rəsmiləşmişdir.

Sonralar Stalin repressiyası rejimi tərəfindən təqiblərə məruz qalan Həmid kişi sürgün edilmiş və ona doğma kəndinə qayıtmaq qadağan edilmişdir. O, 2-ci dəfə Gürcüstanın Başkeçid rayonunun Suqala kəndində ailə qurmuş və bu evlilikdən Bəsti və Tamara adlı qızları dünyaya gəlmişdir. Həmid kişi həyatının sonuna qədər də bu kənddə yaşamışdır.




Ailənin böyük oğlu **Hacıkərim Həmid oğlu Mustafayev** 1925-ci ildə Ellərоyuğuda doğulmuş və 1989-cu il deportasiyasına qədər orada yaşamış və oradan da qaçqın düşərək Azərbaycan Respublikasının Şamaxı rayonunun Qızmeydan kəndində məskunlaşmışdır. 1998-ci ildə Qızmeydan kəndində də vəfat etmişdir.

Hacıkərim kişinin arvadı **Şəkər Məmməd qızı** Ağbaba mahalının Balıqlı kəndindən – Elləzovlar nəsilindəndir. O da 2008-ci ildə Qızmeydanda vəfat etmişdir.

Şəkər xanımın anası **Salatın nənə** kənddə hamıya xeyirxahlıq etmiş və ucqar dağ kəndində, həkim xidmətindən mərhum soydaşlarımızın, kəndimizdən pər-

vazlanan insanların dünyaya - sağlam insan kimi həyata gəlməsində el həkimi – *həvəçi* kimi xidmət göstərmişdir.



Hacıkərim kişinin çoxuşaqlı ailəsi – **Fahralı,** Rövşən, Şair, Zibeydə, Familə, Elmira, Qüdrət, Nazimə, Təhminə adlı övladları olub.



Mehralı Həmid oğlu Mustafayev 1935-ci ildə Ağbaba mahalının Elləroyuğu kəndində doğulmuş, 1988-ci ilə qədər bu kənddə yaşamışdır. 1988-ci ildə o da soydaşları kimi məcburi köç həyatı yaşamışdır. Ağbaba mahalından qaçqın düşərək Bakı şəhərində bütün ailə üzvləri ilə birlikdə məskunlaşmış və 2006-cı ildə isə Bakı şəhərində həyata vida etmişdir.



Arvadı **Hilal xanım** *(1944-2020-ci illər)* da Qazax Alılar tayfasından Mehralı kişinin əmisi Məmməd kişinin qızıdır. O, Gürcüstanın Baçkeçid rayonunun Qəmərli kəndində anadan olmuşdur.

Ailə Şakir, Elbəyi, Sərrac, Mehrac, Zakir, Faiq, Mürvət, Kifayət, Səfayət, Faiq (*Qarabağ şəhididir*) adlı övladlardan ibarətdir.

Mehralı kişinin kiçik oğlu **Faiq Mustafayev** Azərbaycanımızın müstəqilliyi uğrunda aparılan Birinci Qarabağ Müharibəsində şəhid olaraq ailəsinə və el-obasına başucalığı gətirmişdir.



Ailənin digər oğulu **Sərrac Mustafayev** də Birinci Qarabağ döyüşlərində tank (alay) komandiri *(milli qəhrəman Abert Aqaranovun tankı)* olmuş və qazidir.

Son illər kənddə olan yeganə dükanın *(mağaza)* işlədilməsi Sərraca həvalə edilmiş və o, artıq deportasiyanın ilk günlərindən təqibləri hiss etməyə başlamışdı. Onun mağazanın qabağındakı işıq dirəyinə Türkiyə-Azərbaycan qardaşlığının nümunəsi olaraq özü hazırladığı türk bayrağını asaraq kəndi tərk etməsi bir qəhrəmanlıq nümunəsi kimi yaddaşlarda qalmışdır.

Ailənin ortancıl oğlu Mehrac Mehralı oğlu da Qarabağ müharibəsi iştirakçısıdır.



Mehralı kişinin oğulları

Gözəldərəlilər (*Mürsəlovlar ailəsi)*

Ailənin böyüyü **Mürsəlov Abbas Əsəd oğlu** 1908-ci ildə İrəvan quberniyasının Ələyəz (*Abaran)* qəzasının Gözəldərə kəndində anadan olub. Erməni təqibləri nəticəsində 1918-ci ildə ucqar dağ kəndlərinə üz tutan Abbas kişi ailəsi ilə birlikdə Ağbaba mahalının Ellərоyuğu kəndini seçərək ömrünün sonunadək burada yaşayır.

O, 1943-cü ildə Böyük Vətən Müharibəsində həlak olub.

Arvadı Hacıyeva Səkinə Məhəmmədəli qızı 1910 -cu ildə Şöreyel mahalının Qaraçanta *(Əzizbəyov)* kəndində anadan olub, 1990-cı ildə vəfat edib.

Ailənin iki övladı olub: Qulu və Zöhrə.



Mürsəlov Qulu Abbas oğlu 1936-cı ildə Amasiya rayonunun Ellərоyuğu kəndində anadan olub, 1943-cü ildə ibtidai sinifə qonşu Güllücə kəndindəki məktəbə getsə də, orta təhsilini Güllübulaq kəndində başa vurmuşdur. Əmək fəaliyyətinə 1954-cü ildə Ellərоyuğuda klub müdiri kimi başlamışdır.

1955-ci ildə Rusiyanın Arxangelski şəhərində 3 il sovet ordusu sıralarında xidmət etdikdən sonra İrəvanda Ali Partiya Məktəbinə daxil olmuşdur. 1959-cu ildə Quzukənddə partiya təşkilat katibi kimi əmək fəaliyyətini davam etdirmiş, 1963-cü ildən 1972-ci ilə kimi Güllücə və Ellərkənddə kolxoz sədri, daha sonra sovxoz direktoru vəzifələrində işləmişdir. 1966-cı ildə Moskva şəhərində Ali Partiya Məktəbini yüksək qiymətlə başa vurmuşdur.

1972-ci ildən 1988-ci ilə kimi Qönçəli (*Qoncalı)* sovxozunun direktoru vəzifəsində işləmişdir. O da həmyerliləri kimi 1989-cu il deportasiyasına məruz qalaraq Azərbaycana üz tutmuş və Bakı şəhərinin Əmircan qəsəbəsində məskunlaşmışdır. Əmək fəaliyyətini Bakıda neft emalı sahəsində davam etdirən Qulu Mürsəlov müxtəlif vəzifələrdə işləmişdir.



Mürsəlov Qulu və xanımı Minə xanım qohumları ilə birlikdə

Onun İpək, Giləxanım, Səadət, Gülxar, Torun, Qızbəs, Polad, Oqtay və Azərdən ibarət böyük bir ailəsi olmuş, onlar da Bakı və ətraf kəndlərdə məskunlaşmışlar. Aşağıdakı övladları deportasiyadan sonra Bakı şəhərində təhsil almış və hazırda müxtəlif sahələrdə işləyirlər:

Mürsəlova Torun Qulu qızı – *orta ixtisas, tibb bacısı;* Mürsəlova Qızbəs Qulu qızı – *ali təhsil, müəllim;* Mürsəlova Gülxar Qulu qızı – *orta ixtisas, tibb bacısı;* Mürsəlov Oktay Qulu oğlu – *ali təhsil, kimya mühəndisliyi.*

Qulu Mürsəlov 2021-ci ildə Bakı şəhərində vəfat edib.

Cabbarovlar ailəsi



Ailənin başçısı **Abdulla Alı oğlu Cabbarov** 1927-ci ildə Ağbaba mahalının Güllücə kəndində anadan olub. Kənddə müxtəlif işlərdə çalışan Abdulla Cabbarov 1970-ci ildə qonşu Ellərkənd məktəbində işə dəvət alır və ailəsi ilə birlikdə bu kənddə daimi məskunlaşırlar. Bacısı (*Müşgünaz*) və onun uşaqlarının da (*Rəsul və Yasın)* bu kənddə yaşaması Abdulla Cabbarovu bu kəndə daha çox bağlayır və ömrünün qalan hissəsini də burda yaşayaraq, müəllimlik fəaliyyəti ilə məşğul olur.

Pedaqoji fəaliyyətə orta təhsillə başlayan Abdulla Cabbarov Sonradan Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda (*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası)* qiyabi yolla ali təhsil almış, kənd məktəbində uzun illər dərs hissə müdiri vəzifəsində işləyərək cavanların maariflənməsi işində xüsusi fayda vermişdir. Hamı onu sevir və ona xüsusi hörmət edirdi.



Onun Firuzə, Rövşən, **Səyyad** və Sabir kimi övladları da bu kənddə böyüyərək formalaşmışdır. Ailənin iki övladı – Səyyad və Sabir kənddə yaşamış və Səyyad sovxozun baş mühasibi, Sabir isə doğma kəndindəki məktəbdə atası ilə çiyin-çiyinə müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Qızı Firuzə qonşu Güllücə

kəndinə ərə getmiş və orda tibb bacısı kimi çalışmış, Rövşən isə Gürcüstan Respublikasında yaşamağı seçmişdir.



Sabir müəllim şagirdləri ilə. 1985-ci il

Ailə öz həmyerliləri kimi 1989-cu il deportasiyasının qurbanlarından olmuş və doğma Azərbaycana üz tutmuşdur. Bakının Lökbatan qəsəbəsində məskunlaşan Abdulla müəllim burada da doğma peşəsindən uzaqlaşmamış və qəsəbədəki orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirmişdir.

O, 2002-ci ilin 26 sentyabrında dünyasını dəyişmişdir.

Övladları Firuzə, Səyyad və Sabir hazırda Bakıda, Rövşən isə Xaçmaz rayonunda yaşayır. Övladları ilə daima fəxr edən Abdulla müəllimin bu gün ruhu şaddır ki, övladları ailənin ənənələrini yaşadırlar.

Dəmirçilər tayfası




Bayramov Kərim Abdulla oğlunun *(1908-1982-ci illər)* ulu babası Bayram kişi Türkiyənin Qars vilayətində yaşamış və oğlu Abdulla oradan erməni təqibləri nəticəsində köçərək Gürcüstan Respublikasının Başkeçid rayonunun *(Dmanisi)* Səfərli kəndinə, sonra isə Ağbabaya üz tutmuşdur. Onlar ***Dəmirçilər*** tayfası kimi çağırılırdılar. Hazırda Türkiyədə onların böyük tayfa olaraq qohumları yaşayır və ailənin kiçik oğlu rəhmətlik Həmid son illər onlarla əlaqə yaratmağa müvəffəq olmuşdur.

Kənddə ***"Abdullanın bulağı"*** hidronimi də var idi. Kərim kişi kənddə **Gülsüm xanımla** *(1910-1994-cü illər)* evlənərək ömürlərinin sonuna qədər də bu kənddə yaşamışlar.



Övladları – Cavad, Validə, Müşgünaz və Həmid. Bunlardan yalnız həyatda olanı Müşgünaz xanımdır. Qalanları isə rəhmətə gedib.







Bayramovlar ailəsi



Kənddə kiçiksaylı tayfalardan olan **Bayramov Aslan Xəlil oğlunun** *(1936-2007-ci illər)* başçılıq etdiyi ailənin yaşayış yeri kənddə Dərə məhəlləsi olmuşdur. Ailənin böyükləri olan Xəlil və Əliyar kişi bu kənddə yaşamış və sonrakı nəsil də onların ocağını yandırmaqda davam etmişlər. Bu ailənin digər qohumları Gürcüstan Respublikasının Marneuli rayonunun Hətəmlər kəndində yaşayırdılar. Elə bu qardaşların da ötən əsrin əvvəllərində erməni təqibləri nəticəsində Ağbaba mahalına üz tutduqları deyilir.

Əliyar kişinin arvadı Nabat da Simuzər adlı qızı ilə 1989-cu il deportasiyasına qədər kənddə yaşamışlar.

Xəlil kişinin (*həyat yoldaşı Müşgünaz*) **övladları:** Aslan, Sənəm.

Aslan kişi kənddə zəhmətkeş bir insan kimi hamının hörmətini qazanmış, eyni zamanda qohumları Gülənaz və Güləbatın bacılarına da himayədarlıq etmişdir.



Zəhmətkeş və mehriban qonşu olan Aslan kişi həyat yoldaşı **Bahar xanımla** *(1937-2022-ci illər)* birlikdə Vidadi, Əli, Selmixan, Bəhman, Alim, Yusif, Qətibə, Əlviyyə adlı zəhmətsevər, el-oba qayğısı çəkən övladlar böyütmüşlər.

Övladları da ataları kimi halal zəhmətlə yaşamağa üstünlük verərək maldarlıq və qoyunçuluqla məşğul olmuşlar. Bakıda daima məskunlaşan ailə hazırda Sabunçu rayonunun Muxtarov qəsəbəsində yaşayır.

Lətifovlar ailəsi



Amasiya rayonunun qonşu Çivinli kəndindən 1965-ci ildə Ellərkəndə köçən və burada evlənərək 1989-cu il deportasiyasına qədər də burada yaşayan **Kollektiv kişi** (*1935-1994-cü illər)* yurd-yuvasından qaçqın düşərək Bakıya gəlmiş və ömrünün sonuna qədər həyat yoldaşı



Simuzər xanımla *(1938-2022-ci illər)* burada yaşamışdır. O, çox zəhmətkeş insan kimi daima əl əməyi ilə dolanmış və çox uşaqlı bir ailəyə rəhbərlik etmişdir.

Övladları: Ülkər, Tahir, İsa, Ədalət, Mahirə, Müşviqə, Zöhrab, Müslət.



Ailənin kiçik oğlu **Müslət Lətifov** 1992-1993-cü illərdə I Qarabağ döyüşlərində Ağdərədə vuruşmuş və ağır zədə alaraq hərbi hospitala düşmüşdür. Müalicə alan Müslət 2-ci dəfə könüllü olaraq döyüşlərə qatılaraq 27.01.1994-cü ildə yenidən yaralanmışdır. O, II qrup əlil, **Qarabağ qazisidir**.

Tayfalararası qohumluq əlaqələri

Kəndimiz ailələrin sayına görə kiçik olsa da, amma əhalinin istər məşğuliyyəti, istərsə də əldə etdikləri nailiyyətlər o qədər uğurlu olmuşdur ki, artıq insanlar bir-birinə təkcə qonşu kimi yox, həm də eldə-obada xatir-hörmət, şan-şöhrət, nüfuz sahibi kimi də hörmət qoyar və bunu da yeni qohumluqla reallaşdırmağa çalışar, belə ali dəyərlərlə bir-birinə bağlanaraq, yeni-yeni qohumluq əlaqələri yaratmağa can atardılar. Tayfalararası belə doğma, xoş və mehriban ünsiyyət münasibətləri nəticəsində ailələr qaynayıb-qarışar, nəticədə yeni-yeni qohumluq əlaqələri *(kirvəlik, qudalıq*) yaranardı. Məhz ailələrdə belə tərbiyə ilə böyüyən gənc nəsil böyükləri tərəfindən əsası qoyulan kirvəliyi *"cavanlaşdırar*", elə öz gözləri önündəcə böyüyən, yetişən qızlarla ailə qurararaq yeni qohumlar tapardılar. Kiçik bir kənddə hamı bir-biri ilə qohumlaşmışdı. Bəlkə onun nəticəsi idi ki, kənddə xasiyyət-xaraktercə eyni və ya bir-birinə yaxın olan ailələr üstünlük təşkil edirdi.

Kirvəlik nədir? ***Kirvə*** sözünün leksik mənasına görə uşaq sünnət olunarkən onu tutan adama deyilir və yaxın adama *(kişiyə*) müraciət mənasında işlədilir. Yəni, *həmin uşağın kirvəsi.*

Kirvəliyin bir qohumluq forması kimi hansı millətlərdə mövcud olması və ya kimə aid olması haqqında da müxtəlif fikirlər var. Belə ki, bəzi araşdırmaçılar bu adətin qədim ərəb tayfalarından gəldiyini söyləyirlər. Amma yaxın tarixlərdə bunun qonşuluğumuzda yayan gürcü və ermənilərdə, eyni zamanda yəhudilərdə də işlədildiyinin şahidi olurduq. Ancaq kirvəlik bir adət kimi (*sünnət olunma mərasimi)* müsəlman millətinə xas ol-

muşdur (*Amma diqqətdə saxlamaq lazımdır ki, kirvəlik islamla bağlı deyil və İslamda isə nə Hz. Peyğəmbərdən (s), nə də Əhli-beytindən (ə) bu göstəriş buyurulmayıb)*.

Uzun illərdən bəri müsəlmanların müəyyən qrupları arasında kirvəlik adəti mövcud olmuş və kirvə adı həmin ailələrdə hörmətli tutulmuşdur. Məsələn, kürdlər və ələvilərdə, Gürcüstanda yaşayan türklərdə bu adət geniş yayılmışdır.

"Kirvə" anlayışının hardan gəldiyi məlum olmasa da, bu bəllidir ki, kirvə nə islamda buyurulub, nə də türklərdə olub, məsələn, Orta Asiyada yaşayan türkmən, qırğız, özbək türklərində kirvəlik tamamilə yoxdur.

Azərbaycanda isə, xüsusilə cənub bölgəsində bu adət demək olar yox dərəcəsindədir, hətta ölkənin şimal hissəsində də azdır.

Kirvəlik Ağbabada, həm də Ellәryoğuda da çox yayılaraq, ənənə şəkili almış müqəddəs bir qohumluq idi. Adamlar kirvə üçün hörmətli, qədirbilən, abır-həyalı insanları seçərdilər və belə kirvələr də həmişə başqalarına nümunə göstərilər, örnək olardı. Kirvəlik tək həmin iki ailəni yox, bütün tayfanı əhatə edər və bu kirvəlikdə bağlanan hamı bir-birini *"kirvə"* deyə çağırardı. Uzun illərdən yaddaşlarda yaşayan "*kirvə qızı ilə evlənmək olmaz", "kirvə kirvənin damının üstünə çıxmaz ki, başına torpaq tökülər"* və s. kimi sözlər də bu qohumluğun tarixi olduğunu bir daha təsdiq edir. Belə ki, əvvəllər evlər torpaqdan olar, üstləri ***çumpuzla*** (*otun torpaqda daha möhkəm kök salan və kəsildikdə bir-birindən aralanmayan, parçalanmayan və kəsilmiş formasında qalan hissəsinə deyilir*) döşənərdi. Bu da çox əski dünyanın yaşayış tərzi idi (*hazırda da bu cür vasitələrdən ucqar kənd yerlərində yenə istifadə olunur*).

Qudalıq (*düngürlük)*

Quda – gəlin ilə oğlanın ata-analarının bir-birinə olan qohumluq münasibəti mənasında işlədilib və tərcüməsi qırğız dilində *"kəbin"* deməkdir. Bu sözdən yararlanaraq "*kəbin qohumları*" kimi daha geniş mənada kəbin əsasında yaranmış qohumlara deyilmişdir**.**

Azərbaycan dilində də quda bəy və gəlinin evlənməsi nəticəsində onların valideynlərini birləşdirən qohumluq əlaqəsini ifadə edir.

Kəndimizdə bu qohumluq əlaqəsinə xüsusi önəm verilər və bu, tayfaları bir-biri ilə yaxınlaşmasına, daha sıx qohumluq əlaqəsi yaratmağa xidmət edərdi. Amma onu qeyd edim ki, kənddə bu qohumluq quda yox – daha çox kəndimizin şivə sözü kimi ***"düngür"*** şəkilində işlədilərək, demək olar ki, hamının ümumişlək sözünə çevirilmişdir. *"Düngür*" sözünün bizim dialektə hardan gəlməyini araşdıranda belə qənaətə gəlinir ki, bu söz qədim türk kökənli olub, Türkiyə Türkcəsi Ağızları Sözlüyündə ***düngür*** – evlənənlərin ana və babaları mənasında yer almışdır. Hazırda türk xalqlarının dilində bu söz ***"dünür"*** kimi işlədilməkdədir.

Tək-tək ailələri çıxmaqla kənddə əksər tayfalar bir-biri ilə qız alıb, qız verərək düngür olmuşdular. Belə qohumluqlar bəzən iki gəncin bir-birinə olan sevgiləri əsasında, bəzən də ailələr arasındakı mehribanlıq, xatir-hörmət əsasında baş tutardı. Sanki böyüklər bu izdivacla aralarındakı ünsiyyətin tarixini uzadır, daha da möhkəmlənidirirdilər. Məsələn, Qazax Alılar tayfasının başçısı Həmid kişi ilə Orciyalıların ağsaqqallarından olan Xəmməd kişi fərdilik dövrlərində tək öküzlərini birləşdirərək *"**modyam**" (şərik)* olmuş, ömürlərinin sonuna

qədər də əkin tarlalalarını birlikdə əkmiş, bir-birilərinə dayaq olmuşdular. Bu münasibətlər o qədər etibarlı və səmimi olmuşdur ki, neçə illər sonra ailənin böyük oğlu Hacıkərim kişi oğlu Fahralını evləndirəndə dostu Xəmməd kişinin nəvəsini – Dünyadər kişinin qızı Maxlüqəni seçmişdir. Bununla da, babalarının arzu-istəklərinin, bir-birilərinə olan etibarının bu gün də yaşadığının təsdiqi kimi həyata keçirmişlər. Belə hallar kənddə olmuş və ailələri *(gəncləri)* bir-birinə daha möhkəm tellərlə bağlayan etibarlı vasitə kimi sonralar da yaşamışdır.

Bir haşiyə çıxaraq onu qeyd edə bilərəm ki, kəndimiz kiçik və ucqar bir dağ kəndi olsa da, bütün millimənəvi dəyərlər qorunub saxlanılar, adət-ənənələrə əməl edilərdi. Xüsusilə kənd toyları çox təmtaraqlı keçirilərdi. *Gəlinköçdü, qabaqkəsmə, atlıların müjdə yastığını aparması* kimi səhnələr hələ də danışılır, xatırlanır.



Kəndimizin zəhmətkeşləri. 1978

"KİÇİK AKADEMİYA" – ELLƏROYUĞU (*ELLƏRKƏND)* 8-İLLİK MƏKTƏBİ

Qərbi Azərbaycanda, xüsusilə İrəvanda milli maarifçilik mühitinin inkişafı əsasən XIX əsrin əvvəllərinə təsadüf edir. Bu dövrdə Cənubi Qafqazda baş verən siyasi proseslər Qərbi Azərbaycanda da milli təhsilin təməlini qoydu. Bu vaxta qədər ölkənin müxtəlif bölgələrində insanların yeganə təhsil almaq üçün üz tutduğu məktəb (*mollaxana)* və ibtidai mədrəsələr uzun müddət azərbaycanlıların yeganə təhsil ocaqları olmuşdur. Ağbaba mahalında da belə məktəblər fəaliyyət göstərmiş və onlarda dini təhsillə yanaşı, dünyəvi elmlər də öyrədilmişdi. Belə məktəblərdə xalqımızın görkəmli nümayəndələri təhsil almışlar. Sovet hakimiyyətinin ilk illərində belə məktəb (*mollaxana)* və mədrəsələr tədricən milli təhsil məkanlarına çevrilməyə başladı. Çünki əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələrdə verilən dini təhsil cəmiyyətin mədəni inkişafına nail ola bilməmişdi. Odur ki, Cənubi Qafqazda baş verən bu proseslər digər bölgələr kimi Ağbaba mahalında da təhsil və məktəb sahəsində ilk addımların atılmağına səbəb oldu. Heç vaxt ucqar yerlərdə yaşayan xalqların maarifləmənəsi qayğısını çəkməyən çar hökumətindən fərqli olaraq sovet hakimiyyətinin ilk illərindən başlayaraq kəndlərdə yeni ibtidai məktəblər fəaliyyət göstərdi. Düzdür, bu mütərəqqi addımın sədaları ucqar yerlərə gec çatsa da, prinsipcə bu hərəkat başlamışdır. Nəhayət, 1925-ci ildə İrəvanda Nərimanov adına Türk texnikumu (pedaqoji məktəb) fəaliyyətə başlamışdır. 1935-ci ildə isə ucqar kəndlərdəki pedaqoji kadrların çatışmazlığını nə-

zərə alan hökumət Gümrü (*Leninakan*) şəhərində Qiyabi Pedaqoji Müəllimlər İnstitutunu bitirən 31 nəfəri işləmək üçün yerlərə göndərdi. 1937-ci ildə isə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin açılması ilə qismən də olsa kəndlərimizdə müəllimə olan ehtiyac ödənilmiş oldu. Həmin institutun məzunları Ağbabanın kəndlərində fəaliyyətə başlayan ilk pedaqoji təhsilli kadrlar idi.

Sovet hakimiyyətinin ilk illərində Qərbi Azərbaycanda 1922-1923-cü illərdə 36, 1924-cü ildə 62, 1929-1930-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərib. Həmin dövrdə 113 azərbaycandilli məktəbəqədər təhsil müəssisəsi də mövcud olub. 1981-1982-ci tədris ilində Qərbi Azərbaycanda 155, 1986-1987-ci tədris ilində isə 206 azərbaycandilli məktəb fəaliyyət göstərib.

Ağbaba mahalının ən ucqar yaşayış məskəni olan Ellərоyuğuda da ziyalılarımız yetişdi və onlar müəllimlik fəaliyyətinə başladılar. Məhz Daşdanov Daşdan və Elləzov Kərim kəndin ilk ziyalıları kimi öz kəndləri ilə yanaşı, qonşu Çivinli, Quzukənd, Öksüz, Balıxlı kəndlərdə də müəllimlik etmişlər. Daşdanov Ağabəy Balabəy oğlunun (*1922-ci il doğumlu)* öz dəsti-xətti 1968-ci ilin 17 sentyabrında yazdığı və bu günə qədər də ona məxsus sandıqda saxlanılan tərcümeyi halında göstərilir ki, o, 1929/30-cu tədris ilində Ellərоyuğu *(Ellərkənd)* ibtidai məktəbinin I sinfinə qəbul olunmuş və 1932/33-cü tədris ilində həmin məktəbin IV sinfini qurtararaq qonşu Güllücə kənd məktəbinin V sinfində təhsilini davam etdirmişdir. Deməli, 1929-1930-cu illərdə kənddə ibtidai məktəb mövcud olmuşdur. Yaşlı nəsilin nümayəndələrinin söylədiklərinə görə, həmin illərdə bu məktəbdə Daşdanov Daşdan və Elləzov Kərim müəllimlik etmişdir. 1939-cu

ildə onlar müharibəyə (*Fin müharibəsi)* getdiyinə görə qonşu Güllücə kənd orta məktəbinin 7-ci sinfini bitirən İmdad Alıyev bu məktəbə işə alınır. Elə həmin ilin sonunda Süleyman Həsənov da məktəbə işə götürülərək onlar birlikdə pedaqoji fəaliyyət göstərirlər.

1940-cı ildə müharibədə yaralanmış Ağabəy Daşdanov ordundan təxris olunaraq kəndə qayıtmış və doğma kəndlərində müəllimlik fəaliyyətinə başlamışdır.

1930-cu ildə əsası qoyulan bu ibtidai məktəb 1968-ci ildə 8-illik məktəbə çevrilmiş və yerləşdiyi ***Hırın oğlu Abbasın*** şəxsi evindən kənddə o dövr üçün müasir hesab edilən yeni tikilmiş bir mərtəbəli binaya köçərək, 1989-cu il deportasiyasına qədər də həmin binada fəaliyyət göstərmişdir.

Orta təhsilləri ilə müəllimlik fəaliyyətinə başlayan bu fədakar insanların kənd əhalisinin maariflənməsində çox böyük xidmətləri olmuşdur. Sonralar İsmayıl Qədirov və Abdulla Cabbarov kimi müəllimlərin məktəbimizdə



Kənd müəllimləri məktəbin qarşısında
1986-cı il

fəaliyyət göstərməsi ilə, sözün əsl mənasında, bu kiçik məktəb "**Kiçik Akademiya"ya** çevrilmişdi. Oxumağa həvəs o qədər artmışdı ki, bu, kənddəki tayfalar, ailələr arasında bilik yarışına çevrilmişdi sanki. Hər gün axşam dərsdən sonra şagirdlərin gündəlik müvəffəqiyyəti radio vasitəsi ilə elan edilər və hər bir ailə də uşağının dərsdəki uğuru ilə sevinərdi. Bunun nəticəsi idi ki, bu məktəbi qurtarıb qonşu Güllücə, Təpəkənd və Amasiya məktəblərində orta təhsilini davam etdirənlərin həmişə xoş sədası gələrdi. Hər il məzunlardan ali təhsil alaraq xoş əhval-ruhiyyə ilə kəndimizə qayıdanların sayı ildə-ilə artırdı. Məktəb yaşı o dövrə düşən hamının ilk müəllimi, ona ilk dəfə qələm tutmağı öyrədəni məhz bu müəllimlər olmuşdur. Xaraktercə mətin, intizamı möhkəm olan məktəbin direktoru Süleyman Həsənovun *(O, uzun illər məktəbin direktoru olmuşdur*) xüsusi idarəetmə bacarığı və müəllimlərin peşəkarlığı sayəsində kəndimizdə təhsil almayan, hər hansı bir sənətə yiyələnməyən qalmamışdı. 72 evlik kiçik bir kənddən 60-dan çox ali və orta ixtisas təhsillinin olması böyük uğur idi (*siyahı əlavə olunur).*

Öz yetirmələri olan – Uğurlu Abbasov (*o, axırıncı illərdə məktəbin direktoru olmuşdur)*, Nuru Balakişiyev, Məhərrəm Balakişiyev, Şahbaz Balakişiyev, Nizami Daşdanov, Minayə Daşdanova, İnci Daşdanova, Salman Daşdanov, Allahverən Qədirov, Xanım Alıyeva, Cavanşir Qədirov, Sabir Cabbarov, Abbasəli Rüstəmov, Səmayə Xəlilova, son illər isə Knyaz və Xalid Balakişiyevlər, Vahid və Zahid Xəlilov qardaşları, Xalidə Heybətova, Şirin Kərimova, kəndin öz kadrları olmayan dövrlərdə qonşu kəndlərdən cəlb olunan Telman Mustafayev (*Sultanabad),* Abbasqulu Əmirov (*Təpəköy*), Yavər Məmmədov (*Göllü)*, Rəşid İsgəndərov *(Balıxlı),* Telman

İsmayılov (*Balıxlı),* Yaşar Abbasov (*Güllücə)*, Məleykə Qasımova *(Gürcüstan Respublikası, Marneuli rayonu),* Ələddin Hüseynov *(Güllücə),* Larisa Bayramova *(Rusiya, Rostov şəhəri),* Yaşar Həsənov *(Azərbaycan, Balakən rayonu)* kimi gənc müəllimlərlə çiyin-çiyinə çalışaraq, kəndin inkişafındakı uğurlarda payı olan bu ağsaqqal müəllimlər ən yüksək ada layiqdirlər və həmişə də xatirələri uca tutulacaqdır.

Kəndimiz məktəb təhsili sahəsində özünəməxsus inkişaf dövrü keçmişdir. Müəllim kəndin görən gözü, danışan dili, düşünən beyini olub həmişə. Ona görə də kəndin inkişafı ilə bağlı hər hansı bir problemin həllində müəllimlər həmişə önə çıxar, fikir söyləyərdilər. Kəndimizdə də belə olub. Kəndin bərbad yolları, kəndə içməli suyun çəkilməməsi, kəndin abadlaşdırılmaması kimi problemli işlərdə müəllimlərimiz danışar, rayon qəzetinə *("Əmək"qəzeti)* yazılar göndərməklə problemləri rayon rəhbərlərinin nəzərinə çatdırardılar. Ona görə də müəllimlər kəndimizdə, həm də nüfuz sahibi idilər.







Süleyman Rüstəm oğlu Həsənov 1925-ci ildə Ağbaba mahalının Ellərоyuğu kəndində anadan olmuş və kənddə məktəb olmadığından qonşu kənddə orta təhsil almışdır. 1930-cu illərin əvvəllərində fəaliyyətə başlayan kənd ibtidai məktəbinin ilk müəllimlərindən olan Süleyman müəllim sonra həmin məktəbdə *(1939/40-cı tədris ilindən)* həmyerliləri İmdad Alıyev və Ağabəy Daşdanovla birlikdə bu məktəbin ilk fədailəri olaraq, həmkəndlilərinin maariflənməsi uğrunda fəaliyyətə *(O, həm də məktəbin müdiri olmuşdur)* başlayıblar.

Məktəb sonralar 8-illik məktəbə çevrilmiş və o, 1985-ci ilə qədər bu məktəbin direktoru vəzifəsində çalışmışdır.

Süleyman müəllim müharibə dövründə indiki Bakı Dövlət Universitetinə qəbul olunsa da, çoxsaylı ailəni saxlamaqda yaranmış problemlərə görə təhsilini yarımçıq qoymuşdur. 50-ci illərdə də təkrar ali təhsil həvəsinə düşən Süleyman Həsənov bu dəfə də müharibədən sonrakı aclıq və səfalət dövrünün ağır zərbələrinə dözməyərək təhsilini yenə də yarımçıq saxlamışdır. Nəhayət, öz müqəddəs amalı uğrunda çalışan Süleyman müəllim 1971-ci ildə – 46 yaşında V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (*ADPU)* İbtidai təhsil fakültəsinə qəbul olunaraq qiyabi yolla ali təhsilini başa vurmuşdur.


O, uzun müddət yerli icra orqanlarının deputatı olmuş, həmişə müəllim və ağsaqqal kimi kənd əhalisinin hörmətini qazanmışdır.

1985-ci ildə təqaüdə çıxan Süleyman müəllim də digərləri kimi erməni cəlladlarının təzyiqi ilə 1989-cu ildə öz ata-baba yurdundan qaçqın düşərək Bakı şəhərində məskunlaşmışdır.

Gülxanım, Abbasəli və Ələmdar adlı övladları var.

O, 2005-ci ildə Bakıda vəfat etmişdir.

Allah rəhmət eləsin.



İmdad Mikayıl oğlu Alıyev 1925-ci ildə Ağbaba mahalının Ellərоyuğu kəndində anadan olmuş və kənddə məktəb olmadığından qonşu Güllücə kəndində orta təhsil almışdır. 1930-cu illərin əvvəlində fəaliyyətə başlayan kənd ibtidai məktəbinin ilk müəllimlərindən olan olan İmdad müəllim həmin məktəbdə (*1939/40-cı tədris ilindən)* həmyerliləri Ağabəy Daşdanov və Süleyman Həsənovla birlikdə həmkəndlilərinin maariflənməsi uğrunda pedaqoji fəaliyyət göstəriblər.

Məktəb sonralar 8-illik məktəbə çevrilmiş və o, 1984-cü ilədək bu məktəbdə öz yetirmələri ilə çiyin-çiyinə çalışaraq pedaqoji fəaliyyətini davam etdirmişdir.

Kəndimizin çoxsaylı ziyalılarının hamısı ilk təhsilini bu məktəbdə almış və əksəriyyətinə də o, dərs demişdir.

Hamının sevib, həm də saydığı İmdad müəllim 1987-ci ildə Ellərkənddə rəhmətə getmiş və onun qəbri də ata-baba yurdu kimi doğmalarının yolunu gözləyir.

İmdad müəllimin ailəsi 1989-cu il deportasiyasında doğma Azərbaycana pənah gətirərək Abşeron

rayonunun Ceyranbatan qəsəbəsində daimi məskunlaşmışdır.

Allah rəhmət eləsin.



Ağabəy Balabəy oğlu Daşdanov 1922-ci ildə Ağbaba mahalının Ellərоyuğu kəndində anadan olmuşdur. 1929-30-cu dərs ilində kənddəki ibtidai məktəbin 1-ci sinfinə daxil olub, 1932-33-cü dərs ilində Güllücə kənd 7-illik məktəbinin 5 sinfində təhsilini davam etdirmiş və 1935-36-cı dərs ilində Güllücə kənd 7-illik məktəbini bitirərək 1936-37-ci dərs ilində Amasiya rayon orta məktəbinin 8-ci sinfinə qəbul olunmuşdur. O, 1939-40-cı dərs ilində həmin məktəbin X sinfini bitirmiş və elə həmin ildə də müharibəyə çağırılan Ağabəy Daşdanov döyüşlərdə ağır yaralanaraq ordudan təxris olunmuşdur. 1941-1943-cü illərdə Ellərоyuğu kənd ibtidai məktəbində müəllim və müdir işləmişdir.

1943/47-ci dərs illərində Çivinli kənd ibtidai məktəbində müəllim, 1947/48, 1948/49-cu dərs illərində Güllücə orta məktəbində müəllim, 1960/61, 1961/62, 1962/63-cü dərs illərində Öksüz kənd ibtidai məktəbində müdir, 1963/64, 1964/65, 1965/66-cı dərs illərində Güllücə kənd 8-illik məktəbində müəllim, 1967/68-ci dərs ilindən isə Ellərkənd ibtidai məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir.

Böyük Vətən Müharibəsi əlili kimi həyatı boyu rus-alman savaşının ağrı-acısını kürəyində gəzdirən Ağa-

bəy müəllim heç vaxt pedaqoji fəaliyyətini yarımçıq qoymamış və 1982-ci ilədək (*təqaüdə çıxma dövrü)* həmin məktəbdə müəllimlik etmişdir.

Ağabəy Daşdanov 1989-cu il deportasiyası nəticəsində ata-baba yurdundan qovulmuş və Bakı şəhərinə pənah gətirərək ömrünün sonuna qədər Bayıl qəsəbəsində ailəsi ilə birlikdə yaşamışdır.

O, 1997-ci ildə Bakıda vəfat etmişdir.

Allah rəhmət eləsin.



İsmayıl Qərib oğlu Qədirov 1933-cü ildə Ağbaba mahalının Elləroyuğu kəndində anadan olmuşdur. İlk təhsilini doğma kəndindəki ibtidai məktəbdə alan İsmayıl Qədirov orta təhsil üçün qonşu kənddəki orta məktəbə getmişdir. Orta təhsil alan gənc İsmayılı o dövrdə mahalda müəllimlik peşəsinə olan ehtiyacı nəzərə alaraq qonşu Çivinli kəndindəki orta məktəbə ibtidai sinif müəllimi təyin edirlər. Bir neçə il o məktəbdə işləyən İsmayıl müəllim 1970-ci ildə öz kəndlərindəki 8-illik məktəbdə ibtidai sinif müəllimi kimi fəaliyyətini davam etdirmişdir.

İsmayıl müəllim sözün əsl mənasında mehriban qonşu, gözəl insan kimi hamının hörmətini qazanmışdır. 1989-cu il deportasiyasında o da hamı kimi qaçqınlıq həyatına düçar olaraq Bakı şəhərinə üz tutur və ailəsi ilə birlikdə Suraxanı qəsəbəsində daimi məskunlaşır.

O, 2010-cu ilin fevral ayının 2-də Bakı şəhərində vəfat etmişdir. Allah rəhmət eləsin.



Abdulla Alı oğlu Cabbarov

1927-ci ildə Ağbaba mahalının Güllücə kəndində anadan olub. Öz kəndlərində orta təhsilini başa vurduqdan sonra 1946-cı ildə ordu sıralarına çağırılıb və Vətənə borcunu ödəyərək kəndinə qayıdıb. Kənddə müxtəlif işlərdə çalışan Abdulla Cabbarov qonşu Ellərkənd məktəbində işə dəvət alır və sonralar ailəsi ilə birlikdə bu kənddə daimi məskunlaşırlar. Kənddə müəllimlik fəaliyyəti ilə məşğul olaraq, eyni zamanda ali təhsil almaq arzusunu da reallaşdırır. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirərək arzusuna çatır.

Abdulla müəllim kənd məktəbində uzun illər dərs hissə müdiri vəzifəsində işləyərək cavanların maariflənməsi işində xüsusi fayda vermişdir. Hamı onu sevir və ona xüsusi hörmət edirdi.

Abdulla müəllim də 1989-cu il deportasiyasının qurbanlarından olmuş və ailəsi ilə birlikdə doğma Azərbaycana üz tutmuşdur. Bakının Lökbatan qəsəbəsində məskunlaşan Abdulla müəllim burada da doğma peşəsindən uzaqlaşmamış və qəsəbədəki orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirmişdir.

O, 2002-ci ilin 26 sentyabrında dünyasını dəyişmişdir.

Allah rəhmət eləsin.



Uğurlu Əziz oğlu Abbasov 1951-ci ilin iyul ayının 21-də Amasiya rayonunun Ellərkəndində fəhlə ailəsində anadan olmuşdur.

O, 1957-ci ildə kənddəki ibtidai məktəbin birinci sinfinə qəbul olunmuş, ibtidai sinfi bitirdikdən sonra Güllücə kənd səkkiz illik məktəbində təhsilini davam etdirmiş və sonra 1968-ci ildə Təpəkənd məktəbində orta təhsilini başa vurmuşdur.

1969-1971-ci illərdə həqiqi hərbi xidmətdə olmuş, 1973-cü ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun *(ADPU)* tarix fakültəsinə daxil olmuş, 1978-ci ildə həmin institutu bitirərək tarix müəllimi ixtisasına yiyələnmişdir.

1973-cü ildən pedaqoji fəaliyyətə başlayaraq əvvəlcə Çivinli səkkiz illik məktəbində tarix müəllimi, sonradan Güllücə kənd orta məktəbində tarix müəllimi işləmişdir. 1987-ci ildən Ellərkənddəki səkkiz illik məktəbində tarix müəllimi işləmiş və 1988-ci ildən isə məktəbin direktoru olmuşdur. 1989-cu ildə erməni faşistlərinin təcavüzü nəticəsində öz doğma yurdundan qaçqın düşərək Bakı şəhəri Nəsimi rayonunda məskunlaşmış, elə həmin ildən də Nəsimi rayonu 152 nömrəli məktəbdə pedaqoji fəaliyyətə başlamışdır.

1991-ci ildən Nəsimi Rayon Təhsil Şöbəsində metodist və inspektor kimi fəaliyyət göstərmişdir. 2006-cı ildən isə Bakı Şəhəri üzrə Təhsil İdarəsində baş məsləhətçi kimi fəaliyyətə başlamış, təqaüdə çıxana kimi həmin vəzifədə işləmişdir.

İşlədiyi müddətdə əməyi yüksək qiymətləndirilərək "baş müəllim", "metodist müəllim", "Azər-

baycan Respublikasının qabaqcıl təhsil işçisi", "ilin müəllimi", "ilin inspektoru" və sair adlara layiq görülmüşdür.

O, hazırda Bakı şəhərində yaşayır və təqaüddədir.



Allahverən Alı oğlu Qədirov 1950-ci ildə Amasiya rayonunun Ellərkəndində anadan olmuşdur. Orta təhsilini qonşu Gürcüstan Respublikasının Marneuli rayonunda rus dilində alan Allahverən ali təhsil üçün Özbəkistan Respublikasının Səmərqənd Dövlət Universitetinə üz tutur. Universitetin tarix fakültəsində rus dilində ali təhsilini başa vuran Allahverən Qədirov pedaqoji fəaliyyətinə elə öz kəndlərindəki məktəbdə rus dili müəllimi kimi başlayır. Səmərəli fəaliyyətinə görə onu Rayon Partiya Komitəsində təlimatçı vəzifəsinə irəli çəkirlər. Bir neçə il bu vəzifədə işləyən Allahverən Qədirov 1985-ci ildə kəndlərindəki doğma məktəbə direktor təyin edilərək, 1989-cu il deportasiyasına qədər də həmin vəzifədə işləmişdir.

Bakı şəhərində daimi məskunlaşan Allahverən müəllim burada da öz sevimli peşəsini uzun müddət Xəzər Rayon Təhsil Şöbəsində metodist kimi davam etdirmişdir.

Hamının xatirində mehriban insan kimi yaşayan Allahverən Qədirov 23 yanvar 2021-ci il tarixdə Bakı şəhərində vəfat etmişdir.

Allah rəhmət eləsin.



Məhərrəm Şəmməd oğlu Balakişiyev 1958-ci ilin 1 oktyabrında Amasiya rayonunun Ellərkəndində anadan olmuşdur. Səkkizillik təhsilini doğma kəndlərində alan Məhərrəm rayon mərkəzindəki orta məktəbə üz tutur və rayonda mükəmməl təhsil verməsi ilə seçilən orta məktəbdə oxuyur. O, oxuduğu müddətdə daima öz üzərində işləyən və müəllimlərinin diqqətini özünə çəkməyi bacaran bir şagird kimi fərqlənmişdir (*Sonralar ona dərs deyən müəllimlərin evimizdə qonaq olarkən Məhərrəm haqqında necə ağızdolusu danışdıqlarının şahidi olmuşam).*

Hələ məktəb illərindən riyaziyyat fənninə olan maraq və istəyi Məhərrəmi Bakı şəhərindəki V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna (*ADPU)* gətirdi. Yüksək balla İnstituta qəbul olunan Məhərrəm elə ilk kursdan sonuncu kursa qədər də sinif nümayəndəsi oldu, hamının sevimlisinə çevrildi.

Məzun dövründə Məhərrəm yalnız bir amal uğrunda düşünür, çalışırdı: doğulub boya-başa çatdığı doğma kəndlərində müəllim işləyərək, eloğlularının maariflənməsinə xidmət etmək. Bu istək və arzu ilə Ellərkənd 8-illik məktəbinə riyaziyyat müəllimi kimi təyinat aldı. Deportasiya illərinə qədər bu kənddə müəllimlik fəaliyyəti ilə məşğul olan Məhərrəm müəllimin əməyi dövlət tərəfindən də yüksək qiymətləndirildi: O, 1985-ci ildə rayonda ilk dəfə SSRİ Maarif Nazirinin əmri ilə "**SSRİ maarif əlaçısı**" döş nişanı ilə mükafatlandırıldı.

Zəhmətkeş bir ailənin əməyinə, o ailədə yetişən övlada bundan yüksək mükafat nə ola bilərdi?


УДОСТОВЕРЕНИЕ № 30387

Тов. Балакишиев

Магеррам Шалият оглы

награжден значком

„ОТЛИЧНИК ПРОСВЕЩЕНИЯ СССР"

Министр просвещения СССР

Председатель ЦК профсоюза работников просвещения, высшей школы и научных учреждений

гор. Москва. Решение № 269/163 от 11.12. 1985 г.

1989-cu ildə erməni təcavüzünə məruz qalan Məhərrəm Balakişiyev ailəsi ilə birlikdə əvvəlcə Azərbaycanın Qax rayonunun Ağyazı kəndinə, 1992-ci ildə isə Bakı şəhərinə köçdü. Bakı şəhərində öz gələcək taleyini əhalinin sosial müdafiəsinə həsr edən Məhərrəm müəllim 2016-cı ilə qədər Bakı şəhərindəki rayon əhalinin sosial müdafiəsi mərkəzlərində müfəttiş, baş mühasib, mərkəz direktoru və nəhayət Azərbaycan Respublikası Əhalinin Əmək və Sosial Müdafiəsi Nazirliyinin Mərkəzi Aparatında Daxili nəzarət şöbəsinin müdiri vəzifələrində işləmişdir.

O, hazırda təqaüddədir və Bakı şəhərində yaşayır.



Nizami Əbdürrəhman oğlu Daşdanov 1953-cü il avqust ayının 20-də Amasiya rayonunun Ellərkəndində anadan olmuşdur. O, 1960-cı ildə doğma kəndindəki məktəbin I sinfinə qəbul olunmuş və 1970-ci ildə Amasiya kəndindəki orta məktəbi bitirmişdir. Həmin il Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi filialının filologiya fakültəsinə daxil olmuş və erməni təqibləri nəticəsində təhsilini yarımçıq qoymaq məcburiyyətində qalmışdır. 1972-1975-ci illərdə sovet ordusunun hərbi dəniz qüvvələrinin Sevestapol donanmasında hərbi xidmətdə olmuşdur**.**

Nizami Daşdanov 1977-1982-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (*ADPU*) tarix fakültəsində təhsil almışdır.

1973-1980-ci illərdə qonşu Güllücə kənd məktəbində ibtidai hərbi hazırlıq ixtisası üzrə müəllim, sonra isə pedaqoji fəaliyyətini doğma kəndlərində davam etdirərək 1980-1988-ci illərdə Ellərkənd məktəbində tarix müəllimi işləmişdir.

1989-cu il deportasiyası ilə əlaqədar o da ata-baba yurdundan qaçqın düşmüş və Sumqayıt şəhərində məskunlaşmışdır. 1988-2007-ci illərdə Sumqayıt şəhər 14 nömrəli orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmiş, əvvəlcə ixtisasına uyğun olaraq tarix müəllimi, sonra isə həmin məktəbdə tərbiyə işləri üzrə direktor müavini işləmişdir.

05 iyun 2007-ci ildə dünyasını dəyişmişdir.

Allah rəhmət eləsin.



Abbasəli Süleyman oğlu Rüstəmov 1952-ci ildə Amasiya rayonunun Ellərkəndində dünyaya göz açmış, ilk təhsilini doğma kəndindəki məktəbdə alaraq, o vaxt kənddə orta məktəb olmadığına görə o da həmyaşıdları kimi qonşu kənddəki məktəbə orta təhsil dalınca getmişdir. 1976-cı ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (*ADPU)* Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirmişdir.

1971-1978-ci illərdə Ellərkənd 8-illik məktəbində müəllimlik fəaliyyətinə başlayan Abbasəli müəllim 1978-ci ildə Rusiyanın Rostov şəhərinə - qohumlarının yanına köçmüşdür. 1989-cu il Qarabağ hadisələri zamanı deportasiya olunmuş ailəsini tək qoymayan Abbasəli Rüstəmov da 1992-ci ildə Bakıya köçmüş və doğmaları ilə bir yerdə yaşamağı üstün tutmuşdur.

Hazırda o, Abşeron rayonununun Ceyranbatan qəsəbəsində yaşayır və təqaüddədir.

Abbasəli müəllim həm də doğma el-obasını, qaçqınlıq illərini, vətən həsrətini, el-obanın adətlərini və yurdunun təbiətinin gözəlliyini tərənüm edən çoxsaylı şeirlərin müəllifidir.



Abbasqulu Əli oğlu Əmirov 1948-ci il avqustun 15-də Ağbaba mahalının Təpəkəndində anadan olmuşdur. 1955-1956-cı tədris ilində Təpəkənd səkkizillik məktəbinin birinci sinfinə daxil olmuş, 1962-1963-cü tədris ilində həmin məktəbin səkkizinci sinfini bitirmişdir. 1963-1964-cü tədris ilində Güllübulaq kənd orta məktəbinin 9-cu sinfində oxumuş, 1965-1966-cı tədris ilində isə Amasiya rayonundakı orta məktəbi bitirmişdir. 1967-ci ildə ordu sıralarında hərbi qulluqda olmuşdur.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin (*BDU)* filologiya fakültəsinə daxil olmuş, 1976-cı ildə həmin fakültəni bitirmişdir.

1970-ci ildə pedaqoji fəaliyyətə Ellərkənd səkkizillik məktəbində başlamışdır. 1973-cü ildən Güllücə kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyətini davam etdirmişdir. 1978-ci ildən Təpəkənd orta məktəbində fəaliyyətini davam etdirən Abbasqulu Əmirov səmərəli fəaliyyətinə görə 1983-cü ildə "baş müəllim" adına layiq görülmüşdür.

Məlum Qarabağ hadisələrindən sonra Azərbaycanın Mingəçevir şəhərinə köçmək məcburiyyətində qalan Abbasqulu Əmirov pedaqoji fəaliyyətini orada da davam etdirmişdir. Əvvəl türk kollecində, sonra isə şəhər liseyində müəllim işləmişdir. 2011-ci ildən təqaüddədir.

Abbasqulu Əmirovun dedikləri: "Pedaqoji fəaliyyətimə Ellərkənd səkkizillik məktəbində başlamaq mənim sonrakı fəaliyyətimə müsbət təsir göstərdi. Sağlam bir kollektivə düşdüm. Dayaq durdular, yol göstərdilər. Həqiqəti desəm, müəllim peşəsini mənə sevdirdilər.

O kollektivi unutmadım. İndi də gözəl xatirə kimi yaddaşımda iz buraxıb.

Bədii yaradıcılığımda bir şeirimi də o illərdən bir yadigar kimi heç vaxt unutmayacağım Ellərkəndə həsr etmişəm".



Yavər Şuar oğlu Məmmədov 1949-cu ildə Amasya rayonunun Göllü kəndində anadan olmuşdur. O, 1969-cu ildə rayon mərkəzindəki məktəbdə orta təhsil almış və 1971-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Elə həmin ildən də Ellərkənd 8-illik məktəbinə fizika-riyaziyyat müəllimi kimi işə təyinat almış və 1978-ci ildə doğma kəndlərinə – Göllü orta məktəbinə dəyişirilərək pedaqoji fəaliyyətini orada davam etdirmişdir.

Yavər Məmmədov təlim-tərbiyə işində yüksək nailiyyətlərinə görə 1984-cü ildə SSRİ Marif Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

1989-cu il deportasiyasına məruz qalan Yavər Məmmədov Sumqayıt şəhər 23 nömrəli tam məktəbində pedaqoji fəaliyyətini davam etdirir. Təqaüdə çıxana qədər bu məktəbdə işləyən Yavər Məmmədov kollektivdə böyük nüfuz qazanmış, dəfələrlə şəhər təhsil şöbəsinin və məktəb direktorunun fəxri fərmanları ilə mükafatlandırılmışdır.

Ellərkənd məktəbindəki pedaqoji fəaliyyətini daima xatırlayan və yüksək qiymətləndirən Yavər müəl-


lim bu gün də öz yetirmələri ilə fəxr edir və həmin illəri fəaliyyətinin uğurlu illəri hesab edir.

İnci Ağabəy qızı Daşdanova 1956-cı ildə Amasiya rayonunun Ellərkəndində müəllim ailəsində anadan olmuşdur. İlk təhsilini doğma kəndlərindəki 8-illik məktəbdə alan İnci orta təhsil üçün qonşu Güllücə kənd orta məktəbini seçir.



Orta təhsilini başa vuran İnci Daşdanova 1974-cü ildə Bakı şəhərindəki V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda *(ADPU)* oxumaq həvəsinin dalınca Bakıya gələrək sənədlərini həmin ali məktəbin ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsinə verir və yüksək balla ora daxil olur. 1979-cu ildə ali təhsil alaraq müəllimlik fəaliyyətinə doğma kəndlərindəki məktəbdə başlayır. Sonralar İnci Daşdanova ailə qurması ilə əlaqədar olaraq qonşu Göllü kəndinə köçərək ordakı orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirir. 1989-cu ildə deportasiya nəticəsində qaçqın düşən İnci Daşdanova ailəsi ilə birlikdə Bakı şəhərinə gələrək Bakının Zabrat qəsəbəsində məskunlaşır.

Pedaqoji fəaliyyətini Hövsan qəsəbəsindəki 270 nömrəli tam orta məktəbdə davam etdirən İnci Daşdanova hazırda təqaüddədir.



Minayə Ağabəy qızı Daşdanova 1954-cü ildə Amasiya rayonunun Ellərkəndində müəllim ailəsində dünyaya göz açmışdır. O, hələ uşaq yaşlarında atası kimi müəllim olmaq, ucqar dağ kəndində xalqımızın övladlarına xalqını, vətənini sevməyi öyrətmək istəmişdi. 1971-ci ildə Bakıya gələrək V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (*ADPU*) tarix fakültəsinə daxil olan Minayə xanım ali təhsil alaraq doğma kəndlərinə tarix müəllimi kimi qayıtmışdır. Doğma kəndlərində pedaqoji fəaliyyətə başlayan Minayə xanım sonra ailə qurması ilə əlaqədar olaraq qonşu Göllü kəndində müəllimlik fəaliyyətini davam etdirmişdir. Məlum hadisələr zamanı – 1988-ci ilin dekabr ayında doğma ata-baba yurdundan qovularaq, Azərbaycan Respublikasının Sumqayıt şəhərinə pənah gətirmiş və elə orada da işlə təmin edilərək 1989-cu ildə Sumqayıt şəhərindəki 9 nömrəli məktəbdə pedaqoji fəaliyyətini davam etdirmiş və sonradan 16 nömrəli məktəbdə də müəllim işləmişdir.

İşlədiyi müddətdə o, ədalətli, obyektiv bir müəllim olaraq vətənpərvərlik tərbiyəsini şagirdlərə aşılamış və hazırda onun şagirdləri ali təhsilli gənclər kimi respublikanın müxtəlif sahələrində çalışmaqdadırlar. Müəllimin ən böyük mükafatı da məhz budur.

O, hazırda təqaüddədir.



Xanım Kazım qızı Alıyeva 1955-ci ilin aprel ayının 14-də Amasiya rayonunun Ellərkəndində kəndin ilk mexanizatorlarından olan Kazım kişinin ailəsində doğulub boya-başa çatan yeganə övladı idi. İlk təhsilini elə öz kəndlərində alan Xanım orta təhsil üçün rayon mərkəzindəki orta məktəbə üz tutur. Orta təhsilini müvəffəqiyyətlə başa vuran Xanım Alıyeva valideynlərinin istəyi ilə müəllim olmaq üçün Bakı şəhərindəki V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna (*ADPU*) gəlir və ibtidai təhsilin pedaqogikası və medodikası ixtisasına yiyələnərək doğma kəndinə ibtidadi sinif müəllimi kimi qayıdır. 1989-cu il deportasiyasına qədər kənd məktəbində pedaqoji fəaliyyətlə məşğul olan Xanım müəllimə sözün əsl mənasında yaxşı müəllim, mehriban insan idi.

Bakı şəhərini özünə əbədi vətən seçən Xanım Alıyeva burada da özünün sevimli peşəsindən əl çəkmədən pedaqoji fəaliyyətini davam etdirir. Çox heyf ki, amansız ölüm onu çox erkən – 2009-cu ildə, ömrünün yetkin çağında həm valideynlərinin, həm də xatirini əziz tutduqları müəllim yoldaşlarının arasından apardı.

Allah rəhmət eləsin.



Xalidə Əsbəndi qızı Heybətova Həsənovlar ailəsinin üzvü olaraq Amasiya rayonunun Ellərkənd məktəbində müəllim işləmiş və mənsub olduğu ailəsi kimi çoxsaylı kənd ziyalılarının yetişdirilməsində böyük əmək sərf etmişdir.

O, 1954-cü ildə Azərbaycan Respublikasının Quba rayonunun Alpan kəndində anadan olmuşdur. 1971-ci ildə həmin kənddə orta məktəbi bitirmiş və elə həmin ildə də V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun *(ADPU)* riyaziyyat fakültəsinə qəbul olmuşdur. 1975-ci ildə ali təhsil almış və təyinat üzrə Alpan kənd orta məktəbində riyziyyat müəllimi işləmişdir. 1976-cı ildə ailə həyatı quraraq Ellərkəndə köçmüşdür. 1976-1981-ci illərdə həmin kənd məktəbində riyaziyyat müəllimi işləmişdir. Pedaqoji fəaliyyəti dövründə ixtisasını yaxşı bilən, kollektivdə dərin hörmət qazanmış bir müəllim kimi, həm də sevə-sevə dərs dediyi şagirdlərin də sevimlisinə çevrilmişdir.

1982-ci ildə ailə şəraiti ilə əlaqədar Bakı şəhərinə köçmüş və burada da pedaqoji fəaliyyətini davam etdirmişdir.

O, hazırda təqaüddədir.



Şirin Əhməd qızı Kərimova 1952-ci ildə Gürcüstan Respublikasında anadan olmuşdur. 1959-1969-cu illərdə orta təhsil almış, 1969-1973-cü illərdə isə Azərbaycan Pedaqoji İnstitutunun (*ADPU)* filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. O, 1973-cü ildən pedaqoji fəaliyyətə başlamışdır. 1976-cı ildən ailə qurması ilə əlaqədar Ellərkəndə gəlmiş və Ellərkənd 8-illik məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir.

1989-cu ildə erməni təcavüzünə məruz qalan ailələrdən biri də Şirin Kərimovanın ailəsi olmuş və o da ailəsi ilə birlikdə Bakı şəhərinə pənah gətirmişdir. O, Bakı şəhərində pedaqoji fəaliyyətini 35 nömrəli tam orta məktəbdə davam etdirmişdir.

Hazırda təqaüddədir. İşlədiyi müddətdə dəfələrlə bir sıra fəxri fərman və diplomlarla təltif olunmuşdur.



Səmayə Heydər qızı İbrahimova (Xəlilova) 1956-cı ildə Amasiya rayonunun Ellərkəndində anadan olmuşdur. 1963-1971-ci illərdə Ellərkənd 8-illik məktəbində təhsil almış, 1972-1976-cı illərdə Şəki şəhərindəki Pedaqoji Texnikumu fərqlənmə diplomu ilə bitirərək ali təhsil arzusu ilə Bakı şəhərinə üz tutmuş və 1979-1985-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun (*ADPU)* filologiya fakültəsində oxuyaraq Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisasına yiyələnmişdir.

1976-1979-cu illərdə Ellərkəndində ilk əmək fəaliyyətinə müəllim kimi başlamışdır.

1979-cu ildə ailə həyatı quraraq Azərbaycanın Şəki şəhərinə köçmüş və elə həmin dövrdən də pedaqoji fəaliyyətini davam etdirmişdir.

Hazırda təqaüddədir. İşlədiyi müddətdə səmərəli fəaliyyətinə görə müxtəlif fəxri fərman və diplomlarla təltif olunmuşdur.



Salman Ağabəy oğlu Daşdanov 1958-ci ildə Amasiya rayonunun Ellərkəndində müəllim ailəsində doğulmuş və ilk təhsilini doğma kəndlərindəki 8-illik məktəbdə almışdır. Orta təhsil almaq üçün rayon mərkəzindəki orta məktəbdə oxumaq həvəsini nəzərə alan valideynləri bu uzaqlığı nəzərə almadan onu həmin məktəbə qoymuşdular. Orta təhsilini müvəffəqiyyətlə başa vuran Salman uşaqlıqdan beyninə hakim kəsilən riyaziyyat müəllimi olmaq arzusunun reallaşması üçün Bakı şəhərinə – V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna *(ADPU)* gəlir və elə həmin ildə də imtahan verərək riyaziyyat fakültəsinə daxil olur. Təyinat vaxtı respublikanın ən ucqar rayonunda müəllimlik etmək istəyini nəzərə alaraq onu Kəlbəcər rayonunun Yanşaq kəndinə göndərirlər. Müəllim kimi pedaqoji fəaliyyətə başlayan Salman Daşdanov sonra doğma kəndinə – Ellərkəndə qayıtmağa qərar verir və kənddəki məktəbdə müəllim kimi fəaliyyətini davam etdirir. O, eyni zamanda bədii

yaradıcılıqla da məşğul olaraq rayon qəzetində (“*Əmək” qəzeti*) vaxtaşırı ədəbi-bədii, publisistik yazılarla çıxış edir.

1989-cu ildə mənfur düşmənlərin təcavüzü nəticəsində o da ata-baba yurdundan qaçqın düşərək Bakı şəhərinə pənah gətirir. İlk dövrlərdə müxtəlif vəzifələrdə işləyən Salman Daşdanov sonralar bir kiçik sahibkar kimi fəaliyyət göstərməyə üstünlük verir. Hazırda sahibkarlıq fəaliyyətini davam etdirən Salman Daşdanov həmyerlilərinin nəzərində alicənab və xeyriyyəçi bir şəxs kimi tanınır.



Xalid Güləhməd oğlu Balakişiyev 1960-cı ilin yanvar ayının 11-də Amasiya rayonunun Ellərkəndində mexanizator ailəsində anadan olmuşdur. O, 6 yaşında, yəni 1966-cı ildə həmin kəndin 8-illik məktəbində 1-ci sinfə qəbul olunmuş və 1974-1976-cı illərdə isə Amasiya rayon məktəbində 10-cu sinfi əla qiymətlərlə bitirərək humanitar elmlərə dair xüsusi tərifnaməyə layiq görülmüşdür.

1978-80-ci illərdə həqiqi hərbi xidmətdə olmuş və çavuş rütbəsinə qədər yüksəlmişdir.

1982-87-ci illərdə Bakıda V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (*ADPU*) tarix fakültəsində təhsil alaraq tarix müəllimi ixtisasına yiyələnmiş və 1985-ci ilin sentyabr ayından qonşu Qarabulaq kəndində pedaqoji fəaliyyətə başlamış, sonralar doğma kəndlərində də müəllim işləmişdir. 1989-cu ilin məlum deportasiya

hadisələri ilə əlaqədar olaraq o da öz doğma yurdundan qaçqın düşmüşdür.

Xalid müəllim hazırda Azərbaycanın Şamaxı rayonundakı Qızmeydan kəndində daimi məskunlaşmış və elə həmin kənddəki məktəbdə də tədris işləri üzrə direktor müavini vəzifəsində işləyir. Hazırda yaşadığı kənddə ilk Azərbaycan sektorunun (*məktəb rus məktəbi olmuşdur)* aşılması üçün böyük fədakarlıq göstərmiş və məktəbdə hər iki dildə təhsil verilməsinə nail olmuşdur. O, kənddə bir ziyalı, fəal ictimaiyyətçi və qayğıkeş qonşu kimi dərin hörmət və ehtirama layiqdir.



Cavanşir Alı oğlu Qədirov 1961-ci ildə Amasiya rayonunun Ellərkəndində anadan olmuşdur. İlk təhsilini doğma kəndlərindəki 8-illik məktəbdə alan Cavanşir qonşu Güllücə kənd məktəbində orta təhsilini başa vuraraq V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun *(ADPU)* riyaziyyat fakültəsinə daxil olmuşdur. Ali təhsil alan Cavanşir Qədirov ilk pedaqoji fəaliyyətinə qonşu Quzukənd orta məktəbində riyaziyyat müəllimi kimi başlamış və sonradan doğma kəndlərinə köçürülərək 1989-cu il deportasiyasına qədər də Ellərkənd 8-illik məktəbində işləmişdir.

Bakı şəhərinin Zabrat qəsəbəsində daimi məskunlaşan Cavanşir Qədirov müxtəlif sahələrdə işləyərək fəaliyyətini davam etdirir.



Sabir Abdulla oğlu Cabbarov 1957-ci ilin oktyabr ayında Amasiya rayonunun Güllücə kəndində müəllim ailəsində anadan olmuş, 1965-ci ildə ailəsinin qonşu Ellərkəndinə köçməsi ilə əlaqədar olraq həmin kənddəki məktəbin birinci sinfinə qəbul olunmuşdur. Orta təhsilini qonşu Güllücə kəndində başa vuran Sabir hərbi xidmətini başa vurduqdan sonra ali təhsil almaq arzusu onu V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna *(ADPU)* gətirmiş və 1984-cü ildə institutun kimya-biologiya fakültəsini bitirərək doğma kəndlərində pedaqoji fəaliyyətə başlamışdır.

1989-cu il deportasiyası nəticəsində evlərindən zorla qovulan həmkəndliləri kimi Sabir müəllimin ailəsi də Bakıya pənah gətirmiş və o, Zabrat qəsəbəsində məskunlaşmışdır. Qəsəbədəki 192 nömrəli orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirən Sabir müəllim hazırda təqaüddədir.



Knyaz Şəmməd oğlu Balakişiyev 1961-ci ildə Amasiya rayonunun Ellərkəndində fəhlə ailəsində dünyaya göz açmışdır. O, ilk təhsilini doğma kəndlərindəki 8-illik məktəbdə alaraq orta təhsil üçün qonşu Güllücə kənd məktəbinə üz tutmuş və orta təhsilini orada başa vurmuşdur.

Hərbi xidməti başa vurduqdan sonra ali təhsil almaq arzusuna düşən Knyaz Balakişiyev sənədlərini Azərbaycan Dövlət Universitetinə *(BDU)* verərək Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisasına yiyələnir. İlk pedaqoji fəaliyyətinə qonşu Güllücə kənd orta məktəbində başlayan Knyaz sonra fəaliyyətini doğma kəndlərindəki məktəbdə davam etdirmişdir.

1989-cu il deportasiyası nəticəsində o da Bakı şəhərinə pənah gətirmiş və sevimli peşəsini burada davam etdirmişdir. O, hazırda Bakının Mehdiabad qəsəbəsindəki orta məktəbdə müəllim işləyir.

Ellərkənddə 1989-cu il deportasiyasına qədər yaşayıb fəaliyyət göstərən

ZİYALILARIMIZ

1. Abbasov Uğurlu Əziz oğlu – *ali təhsil, müəllim*
2. Abbasov İsmayıl Heydər oğlu – *ali təhsil, müəllim*
3. Allahverdiyev Allahverdi Xıdır oğlu – *orta ixtisas, kənd sovet sədri*
4. Allahverdiyeva Bənövşə Allahverdi qızı – *ali təhsil, müəllim*
5. Allahverdiyev İlqar Allahverdi oğlu – *ali təhsil, texnik*
6. Alıyev Rza David oğlu – *ali təhsil, süd emalı*
7. Alıyev Məcnun David oğlu – *orta ixtisas, anbar müdiri*
8. Alıyev Səyyad Abdulla oğlu – *ali təhsil, baş mühasib*
9. Alıyev İmdad Mikayıl oğlu – *orta təhsil, müəllim*
10. Alıyev Novruz İmdad oğlu – *ali təhsil, polis polkovniki*
11. Alıyeva Xanım Kazım qızı – *ali təhsil, müəllim*
12. Alıyev Ziyəddin Qasım oğlu – *orta ixtisas, mühasib*
13. Balakişiyev Məhərrəm Şəmməd oğlu – *ali təhsil, müəllim*

14. Balakişiyev Şahbaz Şəmməd oğlu – *ali təhsil, müəllim, filologiya üzrə fəlsəfə doktoru*
15. Balakişiyev Knyaz Şəmməd oğlu – *ali təhsil, müəllim*
16. Balakişiyev İlyas Şəmməd oğlu – *ali təhsil, inşaat mühəndisi*
17. Balakişiyev Mehman Şəmməd oğlu – *ali təhsil, müəllim*
18. Balakişiyev Nuru Aydın oğlu – *ali təhsil, müəllim, kimya üzrə fəlsəfə doktoru*
19. Balakişiyeva Sürəyya Aydın qızı – *ali təhsil, müəllim*
20. Balakişiyeva Bənövşə Aydın qızı – *orta ixtisas, mühasib*
21. Balakişiyev Dünyamalı Xəmməd oğlu – *orta ixtisas, ferma müdiri*
22. Balakişiyev Xalid Güləhməd oğlu – *ali təhsil, müəllim*
23. Balabəyov Telman Ağabəy oğlu – *ali təhsil, müəllim*
24. Qədirov Allahverən Alı oğlu – *ali təhsil, məktəb direktoru*
25. Qədirov Cavanşir Alı oğlu – *ali təhsil, müəllim*
26. Qədirov İsmayıl Qərib oğlu – *orta təhsil, müəllim*
27. Qədirov Vaqif İsmayıl oğlu – *ali təhsil, sovxoz direktoru*
28. Qədirov Vahid Osman oğlu – *ali təhsil, insaat mühəndisi*

29. Qədirov Rəsul Muxtar oğlu – *ali təhsil, mühəndis*
30. Daşdanov Ağabəy Balabəy oğlu – *orta təhsil, müəllim*
31. Daşdanov Salman Ağabəy oğlu – *ali təhsil, müəllim*
32. Daşdanova Minayə Ağabəy qızı – *ali təhsil, müəllim*
33. Daşdanova İnci Ağabəy qızı – *ali təhsil, müəllim*
34. Daşdanov Nizami Əbdürrəhman oğlu – *ali təhsil, müəllim*
35. Daşdanova Qızdarxan Əbdürrəhman qızı – *ali təhsil, müəllim*
36. Daşdanova Gülümzər Əbdürrəhman qızı – *ali təhsil, bağça müəllimi*
37. Daşdanov Cavanşir Əbdürrəhman oğlu – *orta ixtisas, briqadir*
38. Cabbarov Abdulla Alı oğlu – *ali təhsil, müəllim*
39. Cabbarov Sabir Abdulla oğlu – *ali təhsil, müəllim*
40. Həsənov Süleyman Rüstəm oğlu – *ali təhsil, müəllim*
41. Həsənov Ələmdar Süleyman oğlu – *ali təhsil, müəllim, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
42. Rüstəmov Abbasəli Süleyman oğlu – *ali təhsil, müəllim*

43. Xəlilov Vahid Əziz oğlu – *ali təhsil, müəllim, tarix üzrə fəlsəfə doktoru*
44. Xəlilov Zahid Əziz oğlu – *ali təhsil, müəllim, şair-publisist*
45. Xəlilov Adilxan Əziz oğlu – *ali təhsil, mühəndis*
46. Xəlilov Buludxan Əziz oğlu – *ali təhsil, müəllim, filologiya elmləri doktoru, professor*
47. Xəlilova Səmayə Heydər qızı – *ali təhsil, müəllim*
48. Xəlilov Sabir Heydər oğlu – *ali təhsil, inşaat mühəndisi*
49. Kərimova Şirin Əhməd qızı – *ali təhsil, müəllim*
50. Mikayılov Murad İmdad oğlu – *orta ixtisas, aqronom*
51. Mürsəlov Qulu Abbas oğlu – *ali təhsil, sovxoz direktoru*
52. Mürsəlova Giləxanım Qulu qızı – *orta ixtisas, tibb bacısı*
53. Mürsəlova Səadət Qulu qızı – *ali təhsil, müəllim*
54. Mürsəlova İpək Qulu qızı – *orta ixtisas, kitabxanaçı*
55. Mustafayev Rövşən Hacıkərim oğlu – *orta ixtisas, klub müdiri*
56. Məmmədov Lətif Mahmud oğlu – *orta ixtisas, baş mühasib*

57. Məmmədov Umud Lətif oğlu – *ali təhsil, energetika*
58. Gülməmmədov İsgəndər Bəxtiyar oğlu – *(Aşıq İsgəndər Ağbabalı – el aşığı)*
59. Gülməmmədov Mürtəza İsgəndər oğlu – *ali təhsil, hərbiçi*
60. İdrisov İsmixan Mürvələd oğlu – *ali təhsil, müəllim*
61. İdrisov Bəylər Şahvələd oğlu – *ali təhsil, hərbiçi polkovnik*
62. İdrisov Alxan Şahvələd oğlu – *orta ixtisas, baytar həkimi*

Qərbi Azərbaycan kökənli (*Ellərоyuğu doğumlu*) gənclərimizin 1989-cu il deportasiyasından sonrakı inkişafı

1. Abbasova Sitarə Uğurlu qızı – *ali təhsil, müəllim*
2. Abbasov Elburus Uğurlu oğlu – *ali təhsil, müəllim*
3. Abbasova İlhamə Uğurlu qızı – *ali təhsil, müəllim*
4. Abbasov Surxay Uğurlu oğlu – *ali təhsil, neft-kimya*
5. Allahverdiyev Çingiz Allahverdi oğlu - *ali təhsil, özəl sektor*
6. Alıyev Ziyatxan Qasım oğlu - *ali təhsil, polis polkovnik - leytenantı*
7. Alıyev Natiq Elbəyi oğlu - *ali təhsil, jurnalist*
8. Aliyev Namiq Elbəyi oğlu - *orta ixtisas, polis*
9. Alıyev Azər Məcnun oğlu - *orta ixtisas, rabitəçi*
10. Balakişiyev Etibar Şahbaz oğlu - *ali təhsil, polis polkovnik- leytenantı*
11. Balakişiyev Elçin Şahbaz oğlu - *ali təhsil, hüquqşünaslıq*
12. Balakişiyev Vüsal Şahbaz oğlu - *ali təhsil, iqtisadiyyatın idarəedilməsi*
13. Balakişiyev Elməddin Knyaz oğlu - *ali təhsil, mühasibat uçotu və audit*
14. Balakişiyeva Əfsanə Knyaz qızı - *orta ixtisas, ibtidai təhsil*
15. Balakişiyev Arzu Xalid oğlu - *orta ixtisas, yanğın təhlükəsizliyi mühəndisi*

16. Balakişiyeva Məlahət Dünyamalı qızı - *ali təhsil, texnoloji maşınlar və avadanlıqlar*
17. Balakişiyev Habil Dünyamalı oğlu - *ali təhsil, neft maşınları mühəndisi,* ***Qarabağ şəhidi***
18. Balakişiyeva Solmaz Dünyadər qızı - *orta ixtisas, tibb bacısı*
19. Balakişiyeva Xatirə Dünyadər qızı - *orta ixtisas, tibb bacısı*
20. Bəxtiyarov Ədalət Xurşud oğlu - *orta ixtisas, kənd təsərrüfatı mütəxəssisi*
21. Bəxtiyarov Dilqəm Xurşud oğlu - *ali təhsil, hərbiçi polkovnik*
22. Bayramov Şair Həmzə oğlu - *orta ixtisas, kənd təsərrüfatı mütəxəssisi*
23. Qədirov Rasim Muxtar oğlu - *ali təhsil, ümumi iqtisadiyyat*
24. Qədirov Mahal Muxtar oğlu - *ali təhsil, iqtisadiyyatın hüquqi tənzimlənməsi*
25. Qədirova Səfurə Muxtar qızı - *orta ixtisas, texnik-texnoloq*
26. Qədirov Sönər İsmayıl oğlu – *ali təhsil, peşə təlimi və xüsusi texniki fənlər*
27. Qədirov Eşqin Vaqif oğlu - *ali təhsil, hüquqşünaslıq*
28. Qədirov Turqay Vaqif oğlu - *ali təhsil, hüquqşünaslıq*
29. Qədirova Pərvanə Vaqif qızı - *ali təhsil, müəllim*
30. Qədirov Araz Cavanşir oğlu - *ali təhsil, biologiya-gigiyena*

31. Daşdanov Rauf Nizami oğlu - *ali təhsil, iqtisadiyyat və idarəetmə*
32. Daşdanov Füzuli Nizami oğlu - *orta ixtisas, mühasibat uçotu və audit*
33. Daşdanova Natiqə Əbdürrəhman qızı - *ali təhsil, muzey işi*
34. Xəlilov Məzahir Əziz oğlu - *ali təhsil, xüsusi şöbə*
35. Xəlilov Daşqın Vahid oğlu - *ali təhsil, hüquqşünaslıq, polis zabiti*
36. Xəlilova Səbinə Vahid qızı - *ali təhsil, müəllim*
37. Xəlilov Eşqin Vahid oğlu - *ali təhsil, maliyyə*
38. Gülməmmədov Kamandar Əjdər oğlu - *ali təhsil, kimya texnoloqu*
39. Gülməmmədov Ruslan Əjdər oğlu - *ali təhsil, kimya texnoloqu*
40. Gülməmmədova Nazilə Müzəffər qızı - *ali təhsil, müəllim*
41. Gülməmmədov Rauf Müzəffər oğlu - *ali təhsil, gömrük işi*
42. Gülməmmədov Elmin Müzəffər oğlu - *ali təhsil, avtonəqliyyat*
43. Gülməmmədov Seymur Cümşüd oğlu - *ali təhsil, kulturoloq*
44. Gülməmmədov Qafqaz Cümşüd oğlu - *ali təhsil, mühasibat uçotu və audit*
45. Mikayılov Alqayıt Murad oğlu - *ali təhsil, avtonəqliyyat, polis mayoru*
46. Mikayılova Dürdanə Murad qızı - *ali təhsil, müəllim*

47. Mikayılov İntiqam Novruz oğlu - *ali təhsil, gömrük işi, polis kapitanı*
48. Mikayılov Tofik Novruz oğlu - *ali təhsil, idman - futbolçu*
49. Əliyev Elnur Rza oğlu - *ali təhsil, idarəetmə*
50. Cabbarov Samir Sabir oğlu - *ali təhsil, yanğın təhlükəsizliyi mühəndisi*
51. İdrisov Əli Alxan oğlu - *ali təhsil, neft-qaz sənayesi*
52. Cəfərov Hüsəməddin Nəbi oğlu - *ali təhsil, müəllim*
53. Mürsəlova Qızbəs Qulu qızı - *ali təhsil, müəllim*
54. Mürsəlova Torun Qulu qızı - *orta ixtisas, tibb bacısı*
55. Mürsəlov Oktay Qulu oğlu - *ali təhsil,* neft emalı
56. Mustafayeva Rəqsanə Sərrac qızı - *ali təhsil, iqtisadçı*
57. Namazova Vəsilə Uğurlu qızı - *ali təhsil, müəllim*
58. Hümmətov İgid Mirzə oğlu - *ali təhsil, texniki sistemlərdə avtomatika və idarəetmə*
59. Hüseynova İnarə Mamed qızı - *ali təhsil, iqtisadçı*
60. Hüseynov Natiq Bayram oğlu - *ali təhsil, energetika*
61. Hüseynova Nüşabə Mamed qızı - *ali təhsil, müəllim*
62. Hüseynova Sevgili Mamed qızı - *ali təhsil, iqtisadçı*

KƏNDİMİZİN MƏŞHURLARI



Aşıq İsgəndər Ağbabalı mahalın hamı tərəfindən sevilən və mükəmməl saz-söz ustası – yaradıcı və ifaçı aşığı kimi öz adını Ağbaba mahalının məşhurları sırasına yazmışdır.

Gülməmmədov İsgəndər Bəxtiyar oğlu 1925-ci ildə Ağbaba mahalının Ellərоyuğu kəndində anadan olmuşdur. O, hələ uşaqlıqdan sazın-sözün sehrinə düşmüş, taleyini bu sənət dünyasına bağlamışdır. Usdadı el arasında "Kor Nəsib" kimi tanınan, güllübulaqlı Aşıq Nəsib nəinki Çıldırın,



eləcə də Şərqi Anadolunun azman aşıqlarından sayılmışdır.

Aşıq İsgəndər Ağbabalı 33 dastanı, 40-dan çox dastan – rəvayəti sinədən söyləyərdi. O, Çıldır aşıq havalarını – "Summanı", "Çalpapaq", "Xoşdamağı", "Ağbabayi", "Şenlik Mirzəcanısı", "Qurdoğlu", "Çıldırı", "Çuxur obası", "Dərbədəri", "Konyalı", "Diyarbəkiri", "Otalı qızı", "Güləndamı","Ağbaba zarıncısı", "Sörəyeli", "Dəli hicranı" və s. sevə-sevə ifa etmiş və təkmilləşdirmişdir.

Aşıq İsgəndər Ağbabalı 1992-ci ildə Şəmkirdə dünyasını dəyişmişdir.

Aşıq İsgəndər Ağbabalının Qəzənfər, Paşa, Lətif və oğlu Aşıq Faxfur Ağbabalı kimi şəyirdləri (*yetirmələri)* ustadlarının sənətini sevə-sevə davam etdirmişlər.

Ağbaba dağları kimi uca

Ağbabanın qoynundan ayrılıb hansı səmtə üz tutsan, istər yaxın olsun, istərsə də uzaq, Ağbabanın adını çəkən kimi hər kəsin fikrinə Ağbaba dağları, bu dağların sinəsində şırıl-şırıl çağlayan çeşmələr, ətirli gül-çiçəklər gələr. Və Ağbaba torpağının şöhrətləndirdiyi Aşıq İsgəndər Ağbabalı, onun dadlı-duzlu söhbətləri yada düşər. Tək bircə dəfə kifayətdir ki, ustad sənətkarın sazının səsinə qulaq asasan və səs ömürlük qulaqlarından çəkilməyəcək, hara getsən, harada olsan Aşıq İsgəndər Ağbabalının çaldığı saz havaları pərdə-pərdə dinəcək, ruhuna hopacaqdır.

Aşıq İsgəndər Ağbabalı qırx ildən çoxdur ki, aşıqlıq edir. Onun el yığnaqlarında keçirdiyi məclislər,

söylədiyi məzəli-şirin əhvalatlar, çeşid-çeşid nəğmələr elimizin-obamızın bu sinədəftərinin şöhrətini çox-çox uzaqlara yayıb. İnsan nə qədər dastan, nağıl bilərmiş, nə qədər aşıq mahnılarını, ustadnamələri, bayatıları sinəsində saxlayarmış... Aşıq İsgəndər Ağbabalının söhbətlərinə qulaq asdıqca heç vaxt bu fikir məndən əl çəkməyib və mən ömrünün qocalıq dağlarını yaşayan ustad sənətkarın yaddaşının möhkəmliyinə, hafizəsinin itiliyinə heyran qalmışam.

Aşıq İsgəndər Ağbabalını Göyçə, Borçalı, Tovuz aşıqları arasında tanımayan yoxdur. Dədə Şenliyin ən ləyaqətli davamçılarından sayılan ustad sənətkar bu gün sazı köksünə sıxıb məclisə çıxanda inanırsan ki, Dədə Şenliyin sazı-sözü illər ötsə də, əsrlər keçsə də oba-oba, oymaq-oymaq, ulus-ulus dolaşacaq. Və bizlərə əsrlərin o tayından gələn bir sehrkar səslə kimliyimizi pıçıldayacaq.

Aşığın sazda çaldığı "Summani", "Köşə başı", Şenliyin "Çuxuroba"sı, "Xoş damağı", "Dəli hicrani" və s. kimi havalar bu gün az-az aşıqlar tərəfindən ifa olunur. Daha doğrusu, bu havaları hər aşıq çala bilmir və şübhəsiz, bunların ən mahir ifaçısı Aşıq İsgəndər Ağbabalıdır.

Aşıq İsgəndər Ağbabalı Azərbaycanın, Gürcüstanın ən məşhur aşıqları ilə məclislər keçirib, el şənliklərində iştirak edib. Onun Aşıq Hüseyn Saraclı, Aşıq Kamandar, Aşıq Əmrah kimi ustad sənətkarlarla keçirdiyi məclislər uzun müddət söylənilib, dillərdə dolaşıb. Aşıq İsgəndər Ağbabalı elimizin-obamızın mənəvi söz xəzinəsini yaşadan sənətkarlardandır. İkinci bir tərəfdən aşığın özü də aşıq şerinin çeşid-çeşid növlərində əsərlər yaradır, yaratdıqlarını müxtəlif havalarda çalıb-oxuyur. Aşıq İsgəndər Ağbabalı Ağbabada məşhur olan, ağba-

balıların xüsusi şövqlə qulaq asdıqları "Summani", "Diyarbəkiri" kimi havaları yüksək sənətkarlıqla ifa edir, bu havalardakı coşğunluğu, kədəri, sevinci məharətlə dinləyicilərə çatdırır. Aşığı Azərbaycanda da tanıyır və sevirlər. O, 1986-cı ildə Bakıda keçirilən Azərbaycan aşıqlarının sonuncu qurultayının dəvətçisi olmuşdur. Aşıq keçən il Bakıda keçirilən "Göyçə günü"ndə də fəal iştirak etmiş və çıxışları hörmətlə qarşılanmışdır. Aşığın haqqında müxtəlif vaxtlarda mətbuatda yazılar çap olunmuşdur. Ancaq bütün bunlar azdır, çox azdır, dəryadan bir damladır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu məşhur el aşığının səsi və çaldığı havalar hələ lentə köçürülməyib. Əlbəttə, bunu rayon miqyasında həyata keçirmək çətindir. Ancaq bizə elə gəlir ki, rayon mədəniyyət şöbəsi təşəbbüs göstərsə, bu xeyirxah işin öhdəsindən gələ bilər. Çünki bayaq da dediyimiz kimi o, bəzi aşıq havalarının bəlkə də yeganə bilicisidir.

"Yaralı Mahmud", "Təbriz oğlu" dastanlarına, "Abbas və Gülgəz" dastanının Ağbaba variantına Aşıq İsgəndər Ağbabalının ifasında qulaq asanda, onun nə qədər dərin biliyə, geniş məlumata sahib olduğu inkar görünər. Aşığın özünün bağladığı "Şah İsgəndər", "Aybəniz Gündoğan" dastanları dəyərli sənət nümunələridir.

Oktyabrın 4-də Balıqlı kənd klubunda Aşıq İsgəndər Ağbabalının keçirdiyi məclis əsl el şənliyi idi. O gecə böyükdən-kiçiyə hamı ağsaqqal aşığın məclisinə yığılmışdı və onun söhbətlərinə diqqətlə qulaq asırdı. Dönə-dönə alqışlanan Aşıq İsgəndər Ağbabalı Dədə Şenlik qoşmalarını, gəraylılarını oxuyub söylədikcə, mənə elə gəlirdi ki, o, mizrabı sazın simlərinə yox, ürəyinin tellərinə vurur. Ona görə də bu havalar adamı valeh edir, ruhunu yerindən oynadır, qəlbini ehtizaza gətirir.

...O gecə yarıdan keçənədək Balıqlıda işıqlar sönmədi. Balıqlı camaatı Dədə Şenliyin ağbabalı varisinin sazının-sözünün sehrinə bələnmişdi. O gecə ürəklər duyğulu, könüllər dolu idi. Və camaat klubdan çıxanda hamı öz ürəyində bir dünya işıq, bir dünya od aparırdı öz ocaqlarına.

Avtandil Məmmədov,
"Əmək" qəzeti,
17 noyabr, 1988-ci il

Aşıq İsgəndər Ağbabalının şeirlərində söz qrupları

Böyük sənətkar, ozan-aşıq sənətinin davamçılarından biri Aşıq İsgəndər Ağbabalı 1925-ci ildə Ağbaba elinin Ellərkəndində anadan olmuşdur. Hələ uşaq yaşlarında o, sazın-sözün sehrinə düşərək taleyini bu sənətə bağlamışdır. Çıldır, Qars, Axsqa və Borçalıda ustad aşıq kimi tanınan güllübulaqlı Aşıq Nəsibin şəyirdi olmuşdur. Sazın-sözün sirrini həm ondan öyrənmiş, həm də Qafqaz, İran və Türkiyədə məşhur olan Aşıq Şenlik irsindən, onun qoyub getdiyi ənənələrdən faydalanmışdır. O, 40-dan çox dastanı sinədəftər bilirdi. Aşığın yaddaşında çox aşığın çala bilmədiyi saz havaları vardır. O, bu havaları çox məharətlə və özünəməxsus tərzdə çalardı. O, "Summanı", "Çalpapaq", "Xoşdamağı", "Çıldır çuxurobası", "Aşıroğlu", "Dəli Hicrani", "Ağbaba zarıncısı", "Şörəyelli", "Otalı" və s. aşıq havalarının misilsiz ifaçısı idi. Nə yazıq ki, 1989-cu ildə Aşıq İsgəndər də başqa soydaşları kimi yurd-yuvasından didərgin düşdü. Şəmkirə pənah gətirdi

və 1992-ci ildə vətən, yurd həsrəti ilə dünyasını dəyişdi. Özü yazdığı bir bayatıda belə deyir:

Qəfil tutuldu bərə
Çəkdi məni qəm kirə.
Oldum qaçqın, didərgin,
Yolum düşdü Şəmkirə.

Aşıq İsgəndərin çox zəngin yaradıcılığı vardır. Onun şeirlərinə nəzər saldıqda görürük ki, o, gəraylı, qoşma və bayatılarında Azərbaycan dilinin müxtəlif söz qruplarından çox bacarıqla istifadə edərək gözəl, poetik biçimli ifadələr yaratmışdır. Bu baxımdan onun qoşmalarında işlədilən onomostik vahidlər xüsusi yer tutur. Ağbabanın yer-yurd adlarını çox məharətlə söylədiyi şeirin canına hopdurulmuş və gözəl üslubi bir məqam yaratmışdır. Ağbaba oronimi və Arpagöl hidronimi vasitəsilə yer-yurd həsrətini obrazlı şəkildə təsvir etmişdir. Onun "Gətirin" qoşması bu baxımdan maraq doğurur:

Ölürəm ay ellər, dərd yıxıb məni
Yurdumdan nişanə tapın gətirin.
Ağbaba dağının yayda başından
Qarından, buzundan çapın gətirin.

Ətrini, iyini çiçəyin, gülün
Sərin havasını o Arpagölün
Xətir-hörmətini o ağır elin
Söz ilə güldəstə yapın gətirin.

Aşığın bu misralarında gözümüzün qabağında əzəməti ilə ucalan, yayda belə başından qarı əskik olmayan Ağbaba dağı, onun sərin yaylaqları, buz bulaqları, enişi, yoxuşu, çənlimi, qayası, daşı canlanır. Ağbabanın aynası olan Arpa gölün ləpələrinin pıçıltısı eşidilir. Gölün ortasında adada yuva quran qağayıların səsi gəlir.

Yaz aylarında gül-çiçəyə bələnən kəndlərin təbiəti göz önündə canlanır, gülün-çiçəyin ətrini duyursan.

1988-ci ilin axırında söylədiyi "Görünməz" qoşmasında isə Ağbaba kəndlərinin ermənilər tərəfindən boşaldılması, xalqın deportasiyası, yerli əhalinin qaçqın düşməsi gözümüzün önündə sinema lenti kimi canlanır:

Necoldu Ellərkənd – soyuqbulaqlı?
Çivinli, Quzukənd – sərin yaylaqlı.
Güllücə, Balıqlı əziz qonaqlı
O keçən dövranlar hanı görünməz.

Öysüz, Qarabulaq dağın döşündə,
Şurabad, Təpəköy gölün başında.
Yeniyol, Göllüyə yolun düşəndə,
Salamlar alanlar hanı görünməz.

Çaybasar, Düzkəndlə durubdur qoşa
İbiş-Qönçəliyə edək tamaşa.
İşdir Mağaracığa bir yolun düşə,
Məclisi quranlar hanı görünməz.

Daşkörpü, Oxçoğlu o şirin dilli,
Güllübulaq kəndi... bağçalı, güllü..,
Qaraçanta kəndi... alt yanı yollu,
Gözəllər, ceyranlar hanı görünməz.

Göstərilən misralarda aşıq çox ustalıqla, sənətkar yanğısı ilə Ellərkənd, Çivinli, Quzukənd, Güllücə, Balıqlı, Oğsuz, Qarabulaq, İbiş, Qönçəli, Şurabad, Təpəköy, Yeniyol, Göllü, Çaybasar, Dürkənd, Daşkörpü, Oxçoğlu, Güllübulaq, Mağaracıq, Qaraçanta toponimlərini – yaşayış məntəqəsi adlarını qoşmada işlədərək həm bir emosiya yaratmış, həm də toponimlərin üslubi imkanlarından

istifadə edərək erməni daşnaklarının vəhşiliyini göstərmişdir. Bu adlar bizim yaddaşımızdır. Bu qoşma vasitəsilə oğuz ellərinin adları gələcək nəsilərə yaddaş kimi çatdırılacaqdır.

Aşıq İsgəndərin gəraylı və qoşmalarında yurd sevgisi, yurd həsrəti və s. ictimai-siyasi hadisələr geniş və poetik bir dillə tərənnüm olunur. Xalq ifadələri, etnoqrafik leksikanın maraqlı nümunələri sayılan dialektizmlərdən istifadə edərək o, şeirlərində xəlqilik yaratmış və koloriti daha da gücləndirmişdir:

Aydırdabel, tesibaldır
İsgəndəri tanı, aldır,
Aşığı az dilə saldır,
Bu gələn xəfci, bu gələn.

Bedasıl arvadı alan kimsələr
Canım azzara salan kimsələr.

Danışmaz o *qadı-qadı,*
Çünki əsildən-əsildi.

Boşalıb qollarım, titrəyir əlim,
Baxıram pozulub huş *birər-birər.*

Qanmadı sözümü bircə
Üzdən arıq, boydan *xırca.*

Göstərilən misralarda Agbaba şivəsində xalq danışıq dili üçün xarakterik olan dırdabel, tesibaldır, bedasil, qadı-qadı, birər-birər, xəfci, xırca və s. dialektizmlər işlədilmişdir. Nitq hissəsi kimi sifət olan tesibaldır (əyriqıç), dırdabel (donqar), bedasıl (həyasız), xırca (balacaboy), xefci (süddəyişən) və zərf olan qadi-qadi (yekə-yekə), birər-birər (bir-bir) sözlərinin mənası ancaq ağbaba kəndlərində başa düşülürdü. Bu gün də Azərbaycanın müxtəlif yerlərində qaçqın kimi yaşayan yaşlı ağbabalıların nitqində bu sözlər işlənməkdədir.

Başqa şeirlərində də kəndlərdə isim və feil kimi işlənən sözlərə çox rast gəlinir. Həmin sözlər Qars vilayətində yaşayanların dilində bu gün də işlənir.

Qurut hanı,
Göy çeçil, qurut hanı?

İmanını pula satmış Kırnazlığı **əzbər olan.**
Sözlə ***şenlənir*** *xanam,*
Ya Rəsul, səndən Mədəd***!***

Salıfdı ***cınqırı*** qoluna,
Alıfdı yolu əlinə.

Paxıllıq çoxunu *yandırıb* yaxır,
Nə olsun axırda açılar ***paxır***.

Mantara, parçı yanında***,***
Arvaddı kişi donunda.

Bulğurdan çəkməsə düşüb yadıma,
Üstündə bir qədər qaz əti olsun.

On dörd evə baxdım kömək eylədim ,
Şirin sözlə hər bir yanı ***boyladım***.

Bululun, yığının yeri göründü,
Lodanın hündürü yadıma düşdü.

Əmbə kamil olduğunnan,
Danışmaz o ***qadı-qadı.***

Saciçi. qavırma, yağ ilə düymək
Ağbaba təndiri yadıma düşdü.

İstər ***lateyir*** de, istər kuyə bas
Çəkdim səni sözlə mən dara çirkin.

Nümunə kimi göstərilən misralarda qurud çeçil//cəcil (kələf pendir), cınqır (su qabı-vedrə), çəkməcə (təndirin içində qazanda bişirilən yemək-bulqur və ətlə hazırlanır), saciçi, qavırma, düymək (yemək adları), loda (iri ot topları), əmbə (amma), lateyr (ləqəb), mantar (ölçü qabı), parç (dolça), bulqur (qaynadılmış ağ buğda), kırnaz (lovğa), şenlenmək (çoxalmaq), yuvalaxla (topla), boyladım (söylədim) kimi say, zərf, isim və eləcə də feillər Ağbaba şivəsi üçün xarakterik sözlərdir. Boyladım feili "Kitabi-Dədə Qorqud" dastanında da işlənmişdir.

Ağbabanın füsünkar yaylaqlarında bitən yabanı bitki adları – fitnonimlər (qımı, lilpar, yarpız və s.) aşığın şeirlərində əks olunub və bölgənin faunası nəzərimizdə canlanır: lilparın gözəlliyini, qımının şirinliyini, yarpızın ətrini hiss edirik:

Qımızı, lilparı, yarpız çiçəyi,
İnsana can verən yerdi o yerlər.

Bəzən aşıq tənqid etdiyi hədəfi daha qabarıq
vermək üçün varvarizmlərdən də istifadə edir:
İki ildə Rus olub,
Nənəyə «babuşqa» deyir..
Noldu bizim cavana,
Kündələrə «kusqa» deyir.
Unudufdu qaz sözünü,
Qazlara «induşqa» deyir.
Parç istəmir su içəndə,
Fincana da çaşqa deyir.
Köynək çıxıbdı yadından,
Ona da «rubaşka» deyir.
Ata, anası sevinsin,
Yaxşı bilir uruscanı,
Kimə «Vitya», kimə «Vasya»
Kimiyə də «Yasqa» deyir.

Gördüyümüz kimi, aşıq iki il əsgərlik çəkən və ana dilimizi əcnəbi sözlərlə (babuşqa, kusqa, induşqa, çaşqa, Vitya, Vasqa, Yasqa) korlayan cavan oğlana kinayə ilə gülür. Bu, bir sarkazmdır.

Bunlardan başqa, xalq deyimləri də Aşıq İsgəndərin yaradıcılığında yetərincə işlənmişdir. Məsələn: canına sinmək, dərddən kösöyü çıxmaq, qəm girə çəkmək, şadlıq daşını atmaq, qəmdən ocaq çatmaq, qurd düdüyü çalmaq, paxırı açılmaq və s.

Göstərilən misalların sayını artırmaq da olar. Bu sahədə geniş tədqiqat işi aparılsa, aşığın da ruhu şad olar. Bu tədqiqatların aparılması, xüsusilə aşığı yaxından tanıyan ağbabalı ziyalılarının mənəvi borcu olmalıdır.

Aslan Bayramov,
tədqiqatçı-alim,
Sumqayıt, 2010

El aşığı – Aşıq İsgəndər Ağbabalı

"Bir qəlbin tarixi bir xalqın tarixi qədər zəngindir", – deyib dahilər. Zaman sübut edir ki, bəzən bir insanı tanımaqla böyük bir el-obanın, onun mənsub olduğu cəmiyyətin xüsusiyyətləri ilə tanış ola bilirsən. Bəzən də adı, şərəfi tarixlərə düşən, dillərdə dastan olan ulular, igidlər doğulduqları, böyüyüb boya-başa çatdıqları yurdun, torpağın, mahalın adını əbədiləşdirməklə yanaşı, onun salnaməçisinə də çevrilirlər. O el-oba, o mahal haqqında nəyi öyrənmək istəsən, nədən halı olmaq istəsən o şəxslərin keçdiyi həyat yolunu vərəqləməklə istədiyinə nail ola bilirsən. Necə ki, haqqında söz açacağım **Aşıq İsgəndər Ağbabalı** kimi. O həm adında, həm də illərlə ona yol yoldaşlığı edən sazında-sözündə yaşatdı bu obanı. Ağbaba igid-ərənləri, ziyalıları ilə tanıdıldığı kimi bu böyük sənətkarın səsində-sözündə də eşidildi, sevildi. Beləcə, Ağbaba bu gün tanınır, sevilir, xatırlanır, həm də hünər, fəxr yerimiz olaraq...

Qərbi Azərbaycanın – qədim Oğuz elinin ən ucqar yaşayış məntəqəsi olmaqla bərabər, həm də səfalı, dağ qürurlu igid-ərənlərin, sazlı-sözlü insanların yaşayış yeri olan Ağbaba mahalı bu mənada hələ tam öyrənilməyən, açılmamış neçə-neçə səhifələri olan bir tarixi-salnamədir. Tarixən tranzit rolunu oynayan bu yaşayış məntəqəsi bir yurd yeri olmaqla bərabər, həm də qonşu ölkə xalqlarının həyat yolu olmuşdur. Bəzi tarixi mənbələrə görə, Dədə Qorqud igidlərinin izləri də var bu məmləkətdə... Koroğlu adını yaşadan qala da öz əzəməti ilə ucalırdı son illərə qədər...

Ağbaba mahalı relyefcə tamam fərqli idi. Coğrafi regionuna görə bir tərəfdən Türkiyənin Qars vilayəti ilə

həmsərhəd olsa da, digər tərəfdən Borçalının bir hissəsi ilə əhatə olunmuşdu. İlin 4 fəsli özünü bütün xüsusiyyətləri ilə göstərirdi bu diyarda – əzəmətli qışı, soyuğu-qarı, mülayim yazı, isti yayı, qızıl payızı ilə. Bəlkə bu xüsusiyyətlərdən irəli gəlirdi ki, bu təbiətin qoynunda yaşayıb-böyüyən insanlar da təbiətcə beləcə – ilin hər fəslinə, həyatın hər üzünə hazır yetişirdilər – qışın soyuğuna da, yayın istisinə də... Beləcə onlar da mərd, dözümlü, yetkin, cəsur, oxumuş, savadlı olurdular. Elə bu təbiətin sərt qanunlarının yetirməsi idi ki, neçə illər qonşu olduğumuz mənfur ermənilərin hər əzabına mərdliklə dözərək **dil içində dil, din içində din** yaşatmışdıq bu mahalda. Ana dilində məktəblərimiz, mətbuatımız *("Əmək" qəzeti),* yaxşı və keyfiyyətli təhsilin nəticəsi olan savadlı müəllimlər, ixtisaslı kadrlar, alimlər, yazarlar yetişirdi bu diyarda.

Qərbi Azərbaycanda yaranmış folklor nümunələrinin bir hissəsi kimi Ağbaba folkloru da ümumi Azərbaycan folklorunun formalaşmasında əvəzsiz sənət nümunələri olmuşdur. Bu folklorun yaranmasında, toplanılmasında, tədqiq edilməsində əməyi olanlardan biri də Aşıq İsgəndər Ağbabalı idi. Son dövrlərdə milli-mənəvi dəyərlərimizin ən ulusu olan qopuzumuz-sazımız onun sayəsində çox ehtiramla qorunub-saxlanılır, hörmətlə dinlənilirdi. Toy-büsatımız, məclislər, görüşlər aşıqsız-sazsız – Aşıq İsgəndər Ağbabalısız olmazdı.

Kimdir Aşıq İsgəndər Ağbabalı? Ağbaba mahalında o, hamının qəlbində böyük sənətkar, köhnə havaları, dastanları yaxşı bilən bir el aşığı kimi qalıb və qalacaqdır. ***"El aşığı"*** deyirəm ona görə ki, o, sözün əsl mənasında ömür-gününü, həyat-fəaliyyətini eli içində – Ellərkəndində keçirmişdir. Dünyanın hansı yerinə dəvət olunsa,

hara gəzməyə getsə də yenə kəndinə qayıdar, el-obasının heç bir bayramını sazsız-sözsüz qoymazdı. Telli sazı sinəsində meydanda ustadlarından eşitdiklərini, özünün yazıb-yaratdıqlarını xoş avazla ifa edər, uzun qış gecələrində qohum-qonşuların könlünü şadlandırardı. Ona görə da hamı onu sevər, hörmət edər, ağırlayardı.

Aşıq İsgəndər Ağbabalını sevə-sevə dinləyən, onunla həmsöhbət olan bir şəxs kimi, onda gördüyüm yüksək keyfiyyətləri onu sevənlərlə bölüşmək istəyirəm. Əvvəla Aşıq İsgəndərin – İsgəndər dayının şəxsi keyfiyyətləri haqqında.

...Çox sadə həyat tərzi keçirirdi İsgəndər dayı. Geniş əhatəsi olsa da, xətir-hörməti dövlət dairələri tərəfindən əziz tutulsa da, ömründə heç kimdən istifadə eləməz, heç kəsə əyilməzdi. Gün-güzəranı heç də başqalarından fərqlənməzdi. *"El qazancı"* ilə kifayətlənər, dəbdəbə, harınlıq sevməzdi. Dinc və heç kimə ziyanı dəyməyən mehriban, eyni zamanda səxavətli və mərhəmətli qonşu idi. Kasıba əl tutar, dara düşənin dadına çatar, ucqar bir kənddə, kiçik bir nəqliyyat vasitəsilə gecənin hansı vaxtında qapısını döysən, insanlıq və qonşuluq borcunu təmənnasız yerinə yetirər və mənzil başına çatdırardı. Uzaq Qazaxıstanda yaşayan həmyerlilərimizin toy-büsatına, yaxın Gürcüstandakı soydaşlarımızın hər dəvətinə uça-uça gedərdi həmişə. Hamının könlünü almağa çalışan, yaxşı qonşu, gözəl insan, nümunəvi ata idi İsgəndər dayı. Gözəl övladlar böyütdü: tərbiyəli, böyük-kiçik yeri bilən...

Aşıq İsgəndər Ağbabalı anadan aşıq doğulmuşdur sanki. Mən həmyaşıdlarından "*İsgəndər dayı nə vaxtdan aşıqlıq edir?",* – deyə soruşduqda "*Biz onu ağlımız kəsəndən aşıq görmüşük",* – deyirdilər. Hələ uşaqlıq dövr-

lərində bu sənətə olan marağı onu böyük sənətkarların yanında *"şəyird"* (şagird) kimi yetişdirmişdi. Sonrakı illər onun mükəmməl püxtələşdiyi illər oldu. Mən də özümü tanıyandan onu aşıq sənətini mükəmməl bilən ifaçı, həm də yaradıcı aşıq kimi tanımışam. Kimdən, hansı aşıqdan oxusa da, öz şeirlərindən deməyi unutmurdu. Yaxşı yaddaşı var idi. Sələflərinin yaradıcılığını sinədəftər deyərdi. Aşıq Şenliyin vurğunu idi. Onun bütün külliyyatından xəbərdar idi. Aşıq Şenlik Şərqi Anadoluda sevilib-seçildiyi qədər də Ağbabada da tanınırdı. Elə o böyük sənətkarın daha da tanıdılmasında və məşhurlaşmasında Aşıq İsgəndər Ağbabalı böyük əmək sərf etmişdir. Yeri gəlmişkən, məni və folklor nümunələrinin toplanıb nəşr edilməsinə marağı olan heç kəsi qapıdan qaytarmazdı. Azərbaycan Aşıqlar Birliyindən, ayrı-ayrı ali təhsil müəssisələrindən tez-tez qonaqları olurdu. Unudulmuş, işıq üzü görməyən neçə-neçə aşıq ədəbiyyatı nümunələri onun köməkliyi ilə çap olundu sonralar.

Xalq şairi Hüseyn Arifin onunla əlaqəsi, Aşıq Şenliyə aid külliyyatın çapına böyük şairin kömək etməsi üçün mənim vasitəm ilə əlaqələrin saxlanılması yaxşı yadımdadır. Hüseyn Arifin ***"Aşıq İsgəndəri qoruyun, onda hələ çapını gözləyən çox xəzinə var"*** – sözləri bu gün də qulağımda səslənir. Sonralar mən də onun əlyazma şəklində verdiyi şeirlərin çapına kömək etmiş – 1990-cı illərdə çalışdığım *"Novruz"* ədəbi-bədii qəzetində şeirlərinin işıq üzü görməsini təmin etmişəm. Bəli, Aşıq İsgəndər Ağbabalı öz ifaçılıq va yaradıcılıq fəaliyyəti ilə bərabər, həm də çap olunmayan, işıq üzü görməyən bəzi aşıq ədəbiyyatı nümunələrinin oxuculara çatdırılmasında böyük əməyi olan sənətkarlarımızdandır.

Aşıq İsgəndər yaradıcılığı həmişə aktual olmuşdur ona görə ki, o, həmişə gördüyünü, bildiyini tərənnüm edir və ona görə də onun şeirləri sadə xalqın dilindədir, günün mənzərəsini, xalqın həyat-məişətini əks etdirir. Yaşadığı Amasiya rayonunun kəndlərini, o kəndlərin xüsusiyyətlərini nəzərə almaqla elə təsvir və tərənnüm etmişdir ki, bu gün o misraları dinləməklə o ellərə səyahət edir, oraları qarış-qarış gəzirsən sanki. Çox ümidvarıq ki, gələcək nəsillər Ağbabanı məhz bu kimi sənət əsərləri ilə tanıyacaq, oraların adət-ənənələri, xüsusiyyətləri ilə tanış olacaqlar.

Aşıq İsgəndər yaradıcılığında təbiət mövzusu xüsusilə nəzər-diqqəti cəlb edir. Belə ki, o, qoynunda gəzdiyi dağların, yaradıcılığının çoxunu onların vəsfinə, tərənnümünə həsr etdiyi təbiətin gözəlliyini, əzəmətliliyini, cazibədarlığını sevə-sevə nəzmə çəkmiş və telli sazın diliylə ellərə yaymışdır. Aşığın dövrünə, xalqına, ətrafındakı hadisələrə canıyananlıqla göstərdiyi belə həssas münasibət bir daha onu sübut edir ki, o, əsl el aşığı, xalqına, vətəninə bağlı sənətkar olmuşdur.

Şahbaz Balakişiyev,
folklorşünas-alim,
Bakı şəhəri, 08 may 2015-ci il



Zahid Əziz oğlu Xəlilov

1963-cü ildə Amasiya rayonunun Ellərkəndində anadan olmuşdur. Orta məktəbi Güllücə kəndində bitirmiş və N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (*ADPU*) ali təhsil almışdır (1980-1985). O, eyni zamanda jurnalistika üzrə xüsusi kursda ixtisaslaşmışdır (1981-1983). Əmək fəaliyyətinə 1985-ci ildə qonşu Çivinli kənd orta məktəbində müəllim kimi başlamışdır. Eyni zamanda şeirləri və publisistik yazıları dövri mətbuatda müntəzəm çap edilmişdir. Amasiya rayonundakı "Ağbaba ədəbi birliyinin" üzvü olmuş və ədəbi yaradıcılığa erkən başlamışdır. İlk şeiri Amasiya rayonunda çıxan "Əmək" (1981) və ADPU-da nəşr olunan "Gənc müəllim" qəzetlərində çap olunmuşdur (1982-ci il). Şeirləri "Ədəbiyyat" qəzetində, "Azərbaycan", "Ulduz" və digər mətbuat orqanlarında vaxtaşırı çap edilir. 10-a yaxın şeirlər kitabının, bir sıra publisistik yazıların və mahnı sözlərinin müəllifidir.

1992-1996-cı illərdə Nəsimi Rayon İcra Hakimiyyətində – Ərazi hakimiyyəti orqanları, ictimai idarə və birliklərlə iş üzrə şöbədə 1-ci dərəcəli təlimatçı, Mənzil sahəsinin uçotu və bölüşdürülməsi şöbəsində müfəttiş, həmin şöbənin müdiri, Rayon İcra Hakimiyyəti Başçısının müavini, Ərazi hakimiyyəti orqanları, ictimai idarə və birliklərlə iş üzrə şöbənin müdiri, 1996-1999-cu illərdə Dövlət Əmlak Komitəsinin Nəsimi rayon şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1999-2013-cü illərdə Nəsimi Rayon İcra Hakimiyyəti başçının müavini, 2013-2015-ci illərdə Nəsimi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar

məsələlər şöbəsinin müdiri, 2015-ci ildən 2020-ci ilin dekabr ayınadək Nəsimi Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində işləmişdir. 2020-ci ilin dekabr ayından Nəsimi Rayon İcra Hakimiyyəti Başçısının müavini vəzifəsində çalışır.

2013-cü ildə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 27 iyun 2013-cü il tarixli, 2978 nömrəli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. Dövlət qulluğunun müşaviridir.

"Simurq" milli mükafat fondunun təsis etdiyi "İlin şairi" (2001) və "İlin müəllifi" (2002) nominasiyalarının qalibi olmuşdur. 2013-cü ildə "Avropa Nəşr Mətbu evi" tərəfindən ən yaxşı vətənpərvər şair kimi qızıl medala layiq görülmüşdür.

2020-ci ildə "Vətənpərvərlik işində xidmətlərinə görə", 2023-cü ildə "Fədai" medalları ilə və bir neçə Fəxri fərman və diplomlarla təltif edilmişdir.

1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1993), "Araz" ali ədəbi mükafatı (1997-ci il) və "Qızıl qələm" mükafatı laureatıdır (2003).

Zahid Əzizin yaradıcılığı haqqında ürək sözləri...

"Zahid Əzizin bu yeni kitabının əlyazması ilə məni balaca qardaşım və tələbə yoldaşım (*hər ikimiz Gəncə Dövlət Universitetində təhsil aldığımız üçün ona belə deyirəm)* Sərvaz Hüseynoğlu tanış etdi. Elə "Göylər də mənim kimi, İlahi, yaman dolub, elə bil himə bənddi" misralarına gözüm sataşınca hiss etdim ki, kitaba daxil edilən şeirlər mənim əhvalımcadı. Elə bu misralar da:

Baş-ayaq eyləyib ömrü, zamanı,
Əcəlin başını qatar kişilər.

Zahidin şeirlərində bu işığın bol zərrələrini gördüm. İlk sevgi uğursuzluğunun ağrısını çəkmiş bir qələm adamı kimi, mən Zahidin ədəbi qəhrəmanın yaşamında öz taleyimi gördüm. Təəssüfümü yenidən yaşadım."Varlığın sözlə yaradılması" (Haydegger) prosesi onun poeziyasında təbii şəkildə baş verir. O, yazı prosesində çətinlik çəkmir, sadəcə, ilhamının gücü ilə "sözün közünü üfürür".

Fikrimcə, Zahid Əzizin bu kitaba daxil etdiyi şeirlər dünyaya diqqətlə nəzər salmaq, onu dərk etmək ehtiyacından yaranıb. Sevincinin və qəminin hesabını aparmaq mümkün olmayan bir gerçək və anlaşılmaz, dünyanın işlərinə əl aparmağın bir yolu da poeziyadan, ilahi Sözdən keçir. Zahid Əziz bu sözə və onun ifadə etdiyi ilahi ruha, məqama çox ehtiramlıdı."

(Xalq şairi Nəriman Həsənzadənin 2013-cü ildə istedadlı şair Zahid Əzizin "Mənim yazdıqlarım" kitabına yazdığı ön sözdən)

***

"Zahid Əziz el sənətinə, oğuz ədəbiyyatına, ozan sevgilərindən sızıb gələn aşıq şeirinə meyillidir. Elə buna görə də onun dili qoşma yatımlı, bayatı qırımlıdır."

F.Məmmədli,
şair

***

"Zahid Əzizin poetik duyumunda vətənpərvərlik hissləri çox güclüdür. O, öz poetik dünyasına hansı tərəfdən yanaşırsa yanaşsın içini göynədən, qəlbini sızladan şeyləri görür, yaşadır, poetik təfəkkürün süzgəcindən keçirib oxucuya təqdim edir."

Nizami Paşa Saraclı,
şair

***

"Zahid Əziz nədən yazır yazsın, hansı ağrıya güzgü tutur tutsun, misralarından özünəməxsus bir ətir - Ağbaba dağlarının ətri gəlir."

Salman Vilayətoğlu,
yazıçı-jurnalist

"Zahid Əzizin şeirlərinin gəlişi, yerişi-duruşu xalqımızın zəngin mənəvi qaynaqlarından baş alıb pərvazlanır."

Davud Nəsib,
şair

***

"Zahid Əzizin şeirlərindən yurd həsrəti, quzuqulağının, yemliyin, yarpızın, kəklikotunun, isti fətirin ətri gəlir."

B.Xəlilov,
filologiya elmləri doktoru, professor

***

"Zahid Əzizin yazıları da özünə bənzəyir, yəni demək istəyirəm ki, hardasa zərif, kövrək misraları olsa da, onun özününküdür, özünə məxsusdur."

Mirvarid Dilbazi,
Xalq şairi

***

"Zahid Əziz yaradıcılğı yeni söz, yeni fikirlərlə doludur."

Qəşəm Çıraqlı,
şair

***

"Zahid Əziz şeirlərində qürbətdə olan Ağbaba ellərimizi yaşadır."

Narınc Xatun,
şair

***

"Zahid Əziz hiss şairidir, qəlb şairidir, duyğu və həyat şairidir."

Qara Namazov,
filologiya elmləri doktoru, professor

***

"Zahid Əzizin şeirlərində vətəndaşlıq hissləri çox yüksəkdir."

Oqtay Rza,
şair

***

"Zahid Əziz nədən yazırsa yazsın, hər şeyə öz gözü ilə baxır, öz yolu ilə gedir."

Eldar İsmayıl,
şair, yazıçı-jurnalist

***

"Zahid Əzizin şeirlərində eldən-obadan yığa-yığa gəldiyi bir həyat fəlsəfəsi vardır."

Cavanşir Yusifli,
ədəbiyyatşünas, tənqidçi,
Azərbaycan Yazıçılar Birliyinin üzvü

***

"Heç şübhəsiz ki, kitabın öz oxucularını tapacaq. Qoşmalarda, gəraylılarda özünü daha yaxşı hiss edirsən, bu üsluba daha yaxşı bələdsən. Oxucun da bu şeirləri oxuyanda əziyyət çəkməyəcək. Sizə bu çətin və şərəfli yolda uğurlar diləyirəm".

Fikrət Qoca,
Xalq şairi

***

"İnamla deyə bilərik ki, artıq şer-sənət dünyasında Zahid Əziz zirvəsi bütün aydınlığıyla görünməkdədir. Bu zirvə insanları saflığa, təmizliyə, yaxşılığa səsləyir".

Məmməd Elli,
3 iyul 2003-cü il, Bakı şəhəri

***

"Zahid Əzizin şeirlərində sazdan gələn bir qəriblik havası, bir həzinlik duyğusu yaşayır".

Vaqif Yusifli,
tənqidçi, filologiya elmləri namizədi, 2003



Buludxan Əziz oğlu Xəlilov 1966-cı il iyulun 25-də Ellərkənddə anadan olmuşdur. İlk təhsilini doğma kəndlərində alan Buludxan qonşu Güllücə kəndində orta təhsilini başa vurduqdan sonra 1983-1990-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (*ADPU)* Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili kafedrasında laborant kimi başlamışdır. 1992-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1994-cü ilin mart ayında müsabiqə yolu ilə Müasir Azərbaycan dili kafedrasında müəllim, 1996-cı ilin may ayından dosent, 2001-ci ilin iyul ayından professor vəzifəsində çalışmışdır. 2001-ci ildən 2011-ci ilə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetində yeni yaradılmış "Dədə Qorqud" elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmiş, 2006-cı ildə filologiya fakültəsinin dekanı seçilmiş, 2011-ci ildə yenidən dekan vəzifəsinə təyin olunmuşdur. 2018-ci ilin dekabr ayından Müasir Azərbaycan dili kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Buludxan Xəlilovun Azərbaycan dili və ədəbiyyatşünaslığının inkişafında böyük xidmətləri olmuşdur. O, "Filologiya məsələlərinə dair tematik toplu"nun redaktoru idi. Müasir ədəbi-tənqidi fikrin, ədəbi irsin araşdırılmasında öz dəst-xətti ilə seçilirdi. M.F.Körpülünün "Azəri" əsərini transliterasiya edib, ön söz və şərhlərlə çap etdirmişdir (2000-ci il). Ədəbi dilin tədqi-

qinə dair bir sıra monoqrafik əsərin müəllifidir. XX əsrin 90-cı illərindən dövri mətbuatda elmi, elmi-kütləvi məqalələrlə çıxış edib.

Buludxan Xəlilovun elmi fəaliyyəti çoxsahəli, geniş və əhatəlidir. Onun 400-dən çox elmi, elmi-publisistik əsəri çap edilmişdir. Bunlardan 45-i monoqrafiya, dərslik və dərs vəsaitidir.

O, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Yazıçılar Birliyindəki İrs komissiyasının üzvü idi. 2003-2004-cü illərdə Ali Attestasiya Komissiyasının filologiya ixtisası üzrə Ekspert Şurasının üzvü olmuşdur.

Buludxan Xəlilovun elmi fəaliyyəti daima dövlətimizin qayğısı əhatəsində olmuş, 2006-cı ildə Azərbaycanda təhsil sisteminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Buludxan Xəlilov 2001-ci ildə İlin alimi nominasiyasının, 2003-cü ildə Vektor Beynəlxalq Elm Mərkəzi Mükafat Komissiyasının qərarı ilə Azərbaycanın gənc alimləri Beynəlxalq layihəsinin qalibi olmuşdur. O, 2004-cü ildə Azad Qələmlər Cəmiyyəti tərəfindən Azərbaycan dili, ədəbiyyatı və türkologiya elmlərinin tədqiqi-təbliği sahəsindəki xidmətlərinə görə "Qızıl Qələm" fəxri mükafatı laureatı seçilmiş, 2006-cı ildə "XXI əsrin ziyalısı" adına layiq görülmüşdür. 2009-cu ildə türk ədəbiyyatına xidmətləri ilə bağlı olaraq Türkiyə Cümhuriyyətinin KIBATEK Akademik ÜYESİ diplomunu almış, KIBATEK Akademik Üyesi seçilmişdir. 2006-cı ildə VII Uluslararası Türk Dili Qurultayında məruzə ilə çıxış etmişdir.

Buludxan Xəlilov iki dəfə – 1999-cu və 2004-cü illərdə Nəsimi Rayonu bələdiyyəsinə üzv seçilmiş və sosial məsələlər daimi komissiyasına sədrlik etmişdir.

2007-2008-ci tədris illərində ADPU-da "İlin müəllimi", 2011-ci və 2013-cü illərdə "İlin alimi" müsabiqəsinin qalibi olmuşdur. 2011-ci ildən Prezident təqaüdçüsüdür (*Yazıçılar Birliyinin üzvü kimi*). 2011-ci ildə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqı tərəfindən "Xalqın nüfuzlu ziyalısı" mükafatına layiq görülmüşdür. 2011-ci ildən dilçilik ixtisası üzrə Koordinasiya Şurasının, 2013-cü ildən AAK-ın filologiya ixtisası üzrə Ekspert Şurasının üzvüdür. 2014-cü ildə dilçilik ixtisası üzrə Koordinasiya Şurasının sədrinin müavini kimi fəaliyyət göstərmişdir. 2013-cü ildən "Türkologiya" jurnalının Azərbaycan dili, terminologiya üzrə sahə redaktoru olmuş, 2015-ci ilin aprel ayında isə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki seçilmişdir.

2015-ci ilin 19 mayında "Beynəlxalq Rəsul Rza" mükafatına layiq görülmüşdür.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 dekabr 2015-ci il tarixli, 450 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının yeni tərkib komissiyasına və Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 17 fevral 2016-cı il tarixli, 4/14 nömrəli qərarı ilə AMEA-nın "Türkologiya" jurnalının redaksiya heyətinə üzv seçilmişdir.

2017-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun və Dünya Gənc Türk Yazarlar Birliyinin təşkilatçılığı ilə "Bakıdan türk dünyasına" adlı layihə çərçivəsində tədbirlərə verdiyi dəstəyə görə "Onur

bəlgəsi" ilə, azərbaycanlı şair Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinə həsr olunmuş tədbirdə TÜRKSOY Genel Sekreteri Düsen Kaseinov tərəfindən "Molla Pənah Vaqif" medalı ilə təltif edilmişdir. 2018-ci ildə ADPU-nun filologiya fakültəsinin inkişafında xidmətlərinə görə rektorluq tərəfindən Fəxri Fərmanla təltif edilmişdir.

O, "Əməkdar müəllim" fəxri adı ilə, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı və bir sıra digər fəxri fərmanlar ilə təltif edilmiş, həmçinin dəfələrlə ADPU-nun fəxri fərmanlarına layiq görülmüşdür.

Öz imzaları ilə kəndimizin şöhrətini ucaldan Buludxan Xəlilov, çox təəssüf ki, 2021-ci il sentyabrın 27-də Bakı şəhərində vaxtsız vəfat etmişdir.



Ələmdar Süleyman oğlu Həsənov kəndimizin məşhurlarındandır. Belə ki, o, kənddə ilk dəfə ailimlik pilləsinə yüksələrək istər rayon miqyasında, istərsə də Azərbaycan Respublikasının elmi-tədqiqat sahəsində öz sözünü deyə bilən alimlərimizdən olmuşdur.

Ələmdar müəllim 1954-cü ilin may ayının 29-da Ellərkənddə anadan olmuşdur. 1971-ci ildə orta məktəbi bitirmiş və 1971-1975-ci illərdə kəndin ilk əyani təhsil alan sakini kimi V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (*ADPU)* riyaziyyat fakültəsini "fərqlənmə" diplomu ilə bitirmiş və doğma kəndinə riyaziyyat

müəllimi kimi qayıtmışdır. Ələmdar müəllim, həm də kəndin ilk alimlik dərəcəsi alan ziyalısı, fizika-riyaziyyat elmləri namizədidir.

Ələmdar müəllim 1975-1978-ci illərdə Amasiya rayonunun Təpəkənd orta məktəbində riyaziyyat-fizika müəllimi işləmiş, işlədiyi dövrdə erməni təqiblərini qəbul etməyən gənc müəllim gələcək karyerasının doğma Azərbaycanda olacağına inanaraq 1979-cu ildə Bakı şəhərinə köçmüş və ailəsi ilə birlikdə müəllimlik fəaliyyətini davam etdirmişdir.

O, 1980-ci ildən bu günə qədər Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Ümumi və tətbiqi riyaziyyat kafedrasının dosenti vəzifəsində çalışır və səmərəli pedaqoji fəaliyyətinə görə 2021-ci ildə Azərbaycan Respublikası Təhsil nazirinin müvafiq əmri ilə "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi *(1920-2020-ci illər)* münasibətilə Azərbaycan Respublikasının yubiley medalı" ilə təltif edilmişdir.

O, riyaziyyat üzrə çap olunmuş 6 dərs vəsaiti və 5 metodiki vəsaitin müəllifidir. 50-dən çox elmi və metodiki məqalələri respublika və respublikadan kənar elmi jurnallarda çap olunmuşdur. 10-dan çox riyaziyyat üzrə dərs kitablarının elmi redaktorudur. Bir neçə ümumittifaq (SSRİ dövründə) və respublika elmi konfranslarında məqalələrlə iştirak etmişdir.

Elm və Təhsil Nazirliyinin yubiley medalı və bir neçə universitet daxili mükafatlarına layiq görülmüşdür.



Nuru Aydın oğlu Balakişiyev 1952-ci ildə Ellərkənddə anadan olub. 1959-cu ildə doğma kəndlərindəki məktəbin 1-ci sinfinə daxil olmuş və qonşu Təpəkənd məktəbində 1969-cu ildə orta təhsil alaraq Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun (*GDU)* kimya-biologiya fakültəsinə qəbul olunmuşdur. 1973-cü ildə bu ali məktəbi bitirən Nuru Balakişiyev 1974-cü ildə Amasiya rayonunun Çivinli, sonra isə öz kəndlərindəki məktəbdə kimya-biologiya müəllimi kimi pedaqoji fəaliyət göstərmişdir.

Nuru Balakişiyev kəndimizdə ilk ali təhsil alan ziyalılarımızdandır. Onun nümunəvi pedaqoji fəaliyyəti Rayon Təhsil Şöbəsi tərəfindən yüksək qiymətləndirilərək kəndimizdə ilk dəfə o, "***baş müəllim"*** adına layiq görülmüşdür. 1988-ci ildə erməni millətçilərinin rayonumuzdakı yaratdığı qarışıqlıqlar və təqiblər nəticəsində əvvəlcə o, Qazaxıstan Respublikasındakı qohumlarının yanına pənah aparmış, sonra isə doğma Azərbaycanda (*Bakı şəhərinin Kürdəxanı qəsəbəsində)* məskunlaşmağa qərar vermişdir.

Əvvəlcə Bakı şəhəri Sabunçu rayonu 10 saylı internat məktəbində kimya-biologiya müəllimi işləyən Nuru Balakişiyev 1990-cı ildə Cəlal Əliyev adına Əkinçilik Elmi-Tədqiqat İnstitutunda tütün sahəsi və buğda sortlarının yetişdirilməsi səhəsi üzrə laborant və baş laborant, sonra apardığı elmi işlərin istiqamətinə uyğun olaraq elmi işçi vəzifəsinə keçirilmiş və ömrünün sonuna qədər də bu vəzifədə layiqincə çalışmış apardığı

tədqiqat işlərinin nəticəsi olaraq kimya üzrə fəlsəfə doktoru elmi adını almışdır.

2002-ci ilin yanvar ayının 5-də Bakı şəhərində vəfat etmişdir.

Allah rəhmət eləsin.



Şahbaz Şəmməd oğlu Balakişiyev 1960-cı ilin fevral ayının 5-də Ellərkənddə anadan olmuşdur. Kənddəki 8-illik məktəbinə qəbul olunan Şahbaz orta təhsilini qonşu Güllücə kənd orta məktəbində almış, 1977-1983-cü illərdə isə Azərbaycan Dövlət Universitetinin (*BDU)* filologiya fakültəsində təhsil alaraq Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisasına yiyələnmişdir. O, 1981-ci ildə kəndlərindəki doğma məktəbə Azərbaycan dili və ədəbiyyat müəllimi kimi işə qəbul olunmuşdur.

Bir fəal, gənc müəllim və ictimaiyyətçi kimi o, erməni təqiblərinə tez-tez məruz qaldığından 1988-ci ildə azərbaycanlıların depotasiyasının ilk qurbanlarından olmuşdur. Əvvəlcə Azərbaycanın Qax rayonununun Ağyazı kəndinə köçərək orda pedaqoji fəaliyyətlə məşğul olmuş, sonra isə Bakı şəhərində daimi məskunlaşmışdır.

Əmək fəaliyyətinə doğulduğu kənddə müəllim kimi başlamış, Bakıya köçdükdən sonra da pedaqoji işini davam etdirmişdir. Paytaxtımızdakı 250 və 151 saylı orta məktəblərdə Azərbaycan dili və ədəbiyyat müəllimi, Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda müəllim və direktor müavini, Təhsil Problemləri üzrə Respublika

Elmi-Metodik Mərkəzində baş metodist, 2001-ci ildən Təhsil Problemləri İnstitutunda "Dərslik və dərs vəsaitləri" şöbəsinin müdiri, Azərbaycan Respublikası Təhsil Nazirliyində Akkreditasiya və lisenziya şöbəsində böyük mütəxəssis vəzifələrində işləmişdir.

Fəaliyyəti dövründə ümumtəhsil məktəblərinin buraxılış sinifləri üçün "Test sualları" kitabçasının, V-XI siniflər üçün "Azərbaycan dili" fənn proqramının və Təhsil Nazirliyinin tapşırığı ilə hazırlanmış "Dərslik konsepsiyası"nın müəlliflərindən biri, bir sıra metodiki vəsaitlərin həmmüəllifi olmuşdur.

Bu fəaliyyəti nəzərə alınaraq 13 noyabr 2001-ci il tarixdə Təhsil Nazirliyi Kollegiyasının qərarı ilə Fəxri Fərmanla mükafatlandırılmışdır.

O, elmi fəaliyyətlə də məşğul olmuş və hazırda filologiya elmləri üzrə fəlsəfə doktorudur. 20-dən artıq elmi-metodiki kitabın, 30-dan çox elmi məqalənin müəllifidir.

Daima jurnalist peşəsini özünün hobbisi hesab edən Şahbaz Balakişiyev bütün pedaqoji fəaliyyəti dövrü, həm də müxtəlif kütləvi informasiya vasitələri ilə əməkdaşlıq etmiş, eyni zamanda həmin mətbuat vasitələrində çalışmışdır.

Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Müxtəlif dövri mətbuatda elmi-metodik yazılarla çıxış etmiş, 1990-1993-cü illərdə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin orqanı olan "Novruz" ədəbi-bədii qəzetində müxbir, şöbə müdiri, məsul katib işləmiş, 2000-ci ildən isə Təhsil Nazirliyinin elmi-pedaqoji, metodik orqanı olan "Sənətkar" jurnalının, eyni zamanda Azərbaycan Respublikası Bələdiyyə Qulluqçuları Həmkarlar İttifaqının orqanı olan "Bələdiyyə

həyatı” qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. 2017-ci ildən isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elmi-praktiki, metodiki orqanı olan “Peşə təhsili və insan kapitalı” jurnalının baş redaktorudur.

Jurnalistika sahəsindəki səmərəli fəailiyyətinə görə 2001-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi adına Diplomuna, 2011-ci ildə isə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqının “Qızıl Qələm mükafatı” laureatı adına layiq görülmüşdür.

Uzunmüddətli səmərəli fəaliyyətinə görə 2012-ci ildə “Qabaqcıl təhsil işçisi” döş nişanı və 2021-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Tərəqqi” medalı ilə mükafatlandırılmışdır.



Vahid Əziz oğlu Xəlilov 1956-cı ilin sentyabr ayının 18-də Ellərkənddə anadan olmuşdur. 1963-cü ildə Ellərkənd 8-illik məktəbinin 1-ci sinfinə getmiş, 1973-cü ildə qonşu Güllücə kəndində orta təhsilini başa vurmuşdur.

1974-1976-cı illərdə ordu sıralarında xidmət edən Vahid Xəlilov vətənə borcunu yerinə yetirdikdən sonra 1977-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun *(ADPU)* tarix fakültəsinə qəbul olmuş, 1982-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. 1980-ci ildə Amasiya rayonunun Çivinli kənd orta məktəbində tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlayan Vahid Xəlilov 1982-ci ildə

həmin məktəbdə tərbiyə işləri üzrə direktor müavini təyin olunmuşdur.

Səmərəli pedaqoji fəaliyyətinə görə 1983-cü ildə "Maarif əlaçısı" döş nişanına, 1987-ci ildə "baş müəllim" adına layiq görülmüşdür.

1988-ci ildə Qarabağda baş vermiş hadisələr ilə əlaqədar Bakı şəhərinə köçmüş, 1989-cu ildə Nəsimi rayonu 35 nömrəli tam orta məktəbə təlim-tərbiyə işləri üzrə direktor müavini təyin olunmuşdur. 1990-2004-cü illərdə Nəsimi rayonu 35 nömrəli tam orta məktəbdə, 2004-2023-cü illərdə isə Nəsimi rayonu 159 nömrəli tam orta məktəbdə direktor vəzifəsində işləmişdir.

Onun rəhbərlik etdiyi məktəb 2000-ci ildə məktəblilərin kimya fənni üzrə XXXIV Beynəlxalq Mendeleyev Olimpiadasında 2 şagird ilə təmsil olunmuş və onlar 2-ci, 3-cü yeri tutaraq Respublika üzrə gümüş və bürünc medala layiq görüldüyündən Vahid Xəlilov direktor kimi Azərbaycan Respublikası Təhsil Nazirliyi Tərəfindən fəxri fərmanla təltif olunmuşdur.

2009-cu ildən tarix üzrə fəlsəfə doktorudur. İşlədiyi müddətdə daim mətbuatda çoxlu sayda elmi-pedaqoji məqalələri çap olunmuş, təlim-tərbiyəyə həsr olunmuş bir sıra televiziya verlişlərində ekspert kimi iştirak etmişdir.

1998-ci ildə Bakı şəhəri üzrə pedaqoji mühazirələrdə fərqləndiyinə görə 3-cü dərəcəli, 1999-cu ildə 2-ci dərəcəli diploma layiq görülmüş, 2000-ci ildə X-XI siniflər üzrə ümumi tarix dərsliklərinin rəyçisi olmuşdur.

Vahid Xəlilov 2000-ci ildə Respublika pedaqoji mühazirələrində 1-ci yer tutduğuna görə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 1-ci dərəcəli diploma layiq görülmüşdür.

2002-ci ildə "Qabaqcıl təhsil işçisi" adına layiq görülmüş, 2006-cı ildə "İlin məktəb direktoru" fəxri adı ilə təltif olunmuşdur.

2007-ci il gənc nəslin təlim-tərbiyəsində əldə etdiyi nailiyyətlərə və ictimai işlərdə səmərəli fəaliyyətinə görə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin diplomuna layiq görülmüş, rəhbərlik etdiyi məktəbin göstəriciləri yüksək olduğu üçün 2008-ci ildə "Yaradıcı direktor" diplomu ilə təltif olunmuşdur.

Vahid Xəlilov ölkənin ictimai-siyasi həyatında da fəal olmuş və 1993-1998-ci illərdə Nəsimi rayon Dairə Seçki Komissiyasının sədri seçilmişdir.

O, hazırda 21 saylı Nəsimi-Binəqədi Dairə Seçki Komissiyasının və Nəsimi Rayon Ağsaqqallar Şurasının üzvi kimi fəaliyyət göstərir.



Mürtəza İsgəndər oğlu Gülməmmədov hələ uşaqlıqdan hərbçi olmaq arzusunun gerçəkləşməsi yolunda yorulmadan mübarizə aparmış və SSRİ Daxili İşlər Nazirliyinin ali hərbi məktəbini bitirərək sözün əsl mənasında hərbçi-zabit kimi bütün fəaliyyəti dövründə nümunə olmuş, yaşayıb xidmət göstərdiyi Rusiya Federasiyasında hərbi hissənin komandiri vəzifəsini daşıyaraq həmişə hökumətin qayğı və diqqəti ilə əhatələnmişdir.

O, 1953-cü il iyul ayının 15-də Qərbi Azərbaycanda – Amasiya rayonunun Ellərkəndində anadan olmuşdur. Orta təhsilini – I-IV sinifləri Ellərkəndində, V-VIII sinifləri Güllücə kəndində, IX-X sinifləri isə

Təpəkənd orta məktəbində almış, 1971-ci ilin noyabrında Silahlı Qüvvələrin sıralarına çağırılaraq SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət etmişdir. O, nümunəvi xidmət göstərdiyinə görə Ukraynanın Gorlovka hərbi məktəbinə təhsil almağa göndərilir və 1972-ci ilin dekabrında məzun kimi ilk hərbi rütbəsini (Çavu.) alır. Bu hadisə onun həyatında dönüş yaradır və o, Ukrayna SSR-nin Şostka şəhərində şöbə komandiri təyin edilir. 1973-cü ildə tağım komandirinin müavini təyin edilən Mürtəza Gülməmmədova 1974-cü ildə gizir hərbi rütbəsi verilmiş, 1981-ci ildə isə Orjonikidzev Ali Məktəbini uğurla bitirərək ilk zabit rütbəsi - leytenant rütbəsi ilə mükafatlandırılmışdır. Sonrakı illərdə də Mürtəza Gülməmmədovun həyatı üzünə gülmüş və zəhmətinin bəhrəsini görmüşdür. Belə ki o, sonrakı hərbi xidmət illərində yüksək göstəricilərə və yaxşı hazırlıq nəticələrinə görə bir-birinin ardınca yüksək rütbə adlarla mükafatlandırılır. Fəaliyyəti dövründə zabit hazırlığının nəticələrinə görə 1989-1990-cı illərdə SSRİ Dövlət mükafatına layiq görülür.

Mürtəza Gülməmmədov vətəninə bağlı, doğulduğu torpağın qeyrət və təəssüfünü çəkən bir eloğlu kimi istər öz kəndlərindən, istərsə də doğma Azərbaycanımızdan ona üz tutan hər kəsə işlədiyi dövrlərdə dəstək olmuş, onların inkişafında arxa-dayaq olmuşdur. Onun yaxından köməyi nəticəsində bir çox insanlar həmin ali hərbi məktəbi bitirmiş və sonradan uğurlu kadrlarımızdan bir kimi ad-san qazanmışlar.

Mürtəzanın doğulub boya-başa çatdığı Amasiya rayonunda çıxan 1983-cü il tarixli "Əmək" qəzetinin səhifələrində Ellərkənd 8-illik məktəbinin direktoru Süleyman Həsənov "Valideynlərinin fəxri" adlı məqa-

ləsində yazırdı: *"4-cü övlad Mürtəza ailəyə daha bir başucalığı gətirmişdir. Yaxşı yadımdadır. 1971-ci ilin payızında Mürtəzanı ordu sıralarına yola salanda ailənin keyf məclisində atanın – Aşıq İsgəndər Ağbabanın sədəfli sazını dinləndirdi. Ata, necə deyərlər, söz ilə dediyini saz ilə də deyir ona uğurlar arzulayırdı. Təbiidir ki, Mürtəza da Vətənə layiq əsgər olacağına söz verdi".* Elə də oldu, Mürtəza həm ailəsinin, həm də kəndinin başını uca elədi.

Onun ailəsi – valideynləri və bütün qohumları 1988-ci ildə azərbaycanlıların depotasiyasının ilk qurbanlarından olmuşdur. Mürtəza Gülməmmədovun atası aşıq İsgəndər Ağbabalı 1992-ci il aprel ayının 24-də dünyasını dəyişərək Şəmkir şəhərində dəfn olunmuşdur. Mürtəza Gülməmmədov uzaqda yaşamasına baxmayaraq Rusiya Federasiyası Daxili İşlər Nazirliyi Qoşunlarında hər il tətilə çıxarkən qohumları, dostları ilə görüşə gələrək doğma yurdunda atasının əsərlərini, dastanlarını, şeirlərini toplayaraq "Ağbabadan ayrıldı" adlı kitab nəşr etdirmişdir. Professor Məhərrəm Qasımlının aparıcılığı ilə "Mədəniyyət" kanalında yayımlanan xalq aşığı İsgəndər Ağbabalıya həsr olunmuş verilişdə Mürtəza Gülməmmədov, kitabın baş redaktoru Avtandil Ağbaba iştirak edərək dəyərli fikirlər səsləndiriblər. Mürtəza Gülməmmədov bu gün də var qüvvəsi ilə ikinci kitabın ərsəyə gəlməsi üçün çalışır. O, 1992-ci ildə Azərbaycan Şura-

sının üzvü olub. Gülməmmədov dəfələrlə fəxri fərmanlarla təltif olunub.



Hazırda Mürtəza Gülməmmədov təqaüddə olsa da, Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasının Vladiqafqaz şəhərində "Azərbaycanlıların Konqresi" ASC-nin rəhbəri kimi orada yaşayan həmyerlilərinin qayğı və problemilə məşğul olaraq vətəni Azərbaycanla sıx əlaqə saxlayır. Onun tez-tez doğma vətənindən qonaqları olur, Azərbaycanımızdan o bölgəyə səfər edən hər kəsi o qarşılayar, diqqət göstərir, dəstək olur. Odur ki, bu gün Mürtəza Gülməmmədov xaricdə yaşayan azərbaycanlıların diaspora təşkilatlarının işində xüsusi əməyi olan soydaşımız kimi hörmətlə qarşılanır.

HƏMYERLİLƏRİMİZ II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ
(rus-alman savaşı)

İkinci Dünya Müharibəsinin başladığı ilk günlərdən Ellərkənd sakinləri də digər həmyerliləri kimi rus-alman savaşında iştirak etmişlər. Statistik məlumatlara görə, müharibəyə səfərbər olunmuş 45 nəfərdən 26-sı döyüşlərdə həlak olmuş və ya itkin düşmüşdür. Müharibədən sağ qayıdanların isə əksəriyyəti zədə alaraq ömürlərinin sonuna qədər şikəst qalmışlar.

Bu sahədə araşdırmalar aparan Ağbaba mahalının həlak olmuş və ya itkin düşmüş sakinləri haqqında məlumat toplayan ziyalımız, Qərbi Azərbaycanın cəfakeş övladı Lütfiyar Nəsibovaya təşəkkür edir və aşağıda böyük zəhmətlə ilk mənbələrdən topladığı məlumatlarını olduğu kimi dərc etməklə onun zəhmətinə dəyər verdiyimizi düşünürük.

1. Abdullayev Səməd Sadıx oğlu (1910, Amasiya r-nu, Ellərоyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 72805 №-li, 10 oktyabr 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında 1943-cü ilin oktyabrında itkin düşdüyü göstərilir.

2. Allahverdiyev Yolçu (Ovçu) Nəbi oğlu (1901, Amasiya r-nu, Ellərоyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. 13-cü fəhlə kolonunda xidmət etmişdir. Çkalov vilayət XDİK-nin Hərbi Tribunalının 8697 №-li, 23 may 1942-ci il tarixli canlı qüvvələrin itkiləri haqqında məlumatında 13 fevral 1942-

ci ildə Tribunalın hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edildiyi və islah-əmək düşərgəsinə göndərildiyi göstərilir.

3. Bayramov Bayram İdris oğlu (1922, Amasiya r-nu, Ellərоyuğu k.), 1942-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1943-cü ilin iyulunda itkin düşdüyü göstərilir.

Arxiv materialları araşdırılarkən aşkar edilmiş digər bir sənəddə – 66-cı mexanikləşdirilmiş briqada idarəsinin 12486 №-li canlı qüvvələrin itkiləri haqqında məlumatında 22 noyabr 1943-cü ildə döyüşdə həlak olduğu və Ukrayna SSR, Kirovoqrad vilayətinin Aleksandriya rayonunun Aleksandriya şəhərində dəfn olunduğu göstərilir.

4. Bayramov Əsgər İdris oğlu (1918, Amasiya r-nu, Ellərоyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında 1942-ci ilin fevralında itkin düşdüyü göstərilir.

5. Bayramov Yolçu İdris oğlu (1911/dəfn kitabında təvəllüdü – 1913/, Amasiya r-nu, Ellərоyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. 63-cü atıcı diviziyanın 266-cı atıcı alayının 20.08.1943 – 20.07.1944-cü illər ərzində dəfn olunanların uçotu kitabında (dəfn kitabında) Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında 11 oktyabr 1943-cü ildə döyüşdə həlak olduğu və Smolensk vilayəti, Krasnin rayonunun Kozlı

kəndində, 2-ci cərgədə, cənub tərəfdən birinci 12 №-li məzarda dəfn olunduğu göstərilir.

6. Daşdanov Daşdan Balabəy oğlu (1921, Amasiya r-nu, Elləroyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. Qv. Baş l-t. 105-ci qvardiyası atıcı alayında minaatan taborunun komandiri vəzifəsində xidmət etmişdir. 34-cü qvardiya atıcı diviziyasının 035415 №-li, 28 sentyabr 1944-cü il tarixli canlı qüvvələrin itkiləri haqqında məlumatında XMK-nın Baş Kadrlar İdarəsinin 30 oktyabr 1944-cü il tarixli siyahıdançıxarılma haqqında əmrində, Ermənistan Hərbi Komissarlığının 4430 №-li, 05 may 1948-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında 26 avqust 1944-cü ildə döyüşdə həlak olduğu və Rumıniyadakı Oança kəndində, 173-cü yüksəklikdə, Prut çayının sağ sahilinin cənub yamacında dəfn olunduğu göstərilir.

28 may 1944-cü ildə 31-ci qvardiya atıcı korpusunun 9/H №-li əmrinə əsasən, 08.04.1944 – 10.04.1944-cü il tarixləri arasında döyüşlərdə göstərdiyi igidliyə və qəhrəmanlığa görə, "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

7. Elləzov Aydəmir Məmməd oğlu (1910, Amasiya r-nu, Elləroyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1942-ci ilin aprelində itkin düşdüyü göstərilir.

8. Əliyev Əhməd Hümbət oğlu (1923, Amasiya r-nu, Elləroyuğu k.), 1942-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün

məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1942-ci ilin martında itkin düşdüyü göstərilir.

9. Əhmədov Hacımurad Abdulla oğlu (1909, Amasiya r-nu, Elləroyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 100700 №-li, 31 dekabr 1946-cı il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1941-ci ilin dekabrında itkin düşdüyü göstərilir.

10. Əhmədov Rasim Əbdülrəhman oğlu (1910, Amasiya r-nu, Elləroyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 100700 №-li, 31 dekabr 1946-cı il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1945-ci ilin avqustunda itkin düşdüyü göstərilir.

11. Əhmədov Şaban Dərviş oğlu (1919, Amasiya r-nu, Elləroyuğu k.), Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. 271-ci diviziya idarəsinin 14500 №-li, 17 aprel 1943-cü il tarixli canlı qüvvələrin itkiləri haqqında məlumatında 01 yanvar 1943-cü ildə Orconikidze diyarı, Mozdok rayonunun Qızıloba kəndi ərazisində itkin düşdüyü göstərilir.

Arxiv materialları araşdırılarkən aşkar edilmiş digər sənədlərdə – 3-cü Ordu Qərargahının 49028 №-li, 21 noyabr 1943-cü il, 682 №-li mobil səhra hospitalının 70060 №-li, 22 noyabr 1952-ci il tarixli canlı qüvvələrin itkiləri haqqında məlumatlarında Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 3-cü Ordunun 1018-ci atıcı alayında xidməti zamanı, 07 noyabr 1943-cü ildə döyüşdə aldığı ağır yaralardan hospitalda vəfat etdiyi və Belorusiya SSR, Moqilyov vilayəti, Krasnopol rayonunun

Qrodet kəndindəki qəbiristanlıqda dəfn olunduğu göstərilir.

12. Həsənov Həsən Rüstəm oğlu (1918, Amasiya r-nu, Elləroyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1943-cü ilin noyabrında itkin düşdüyü göstərilir.

13. Həsənov Yunis Rüstəm oğlu (1910, Amasiya r-nu, Elləroyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1942-ci ilin sentyabrında itkin düşdüyü göstərilir.

14. Hüseynov Zülfüqar Abbas oğlu (1913, Amasiya r-nu, Elləroyuğu k.), Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. 295-ci atıcı diviziyada xidmət etmişdir. 295-ci atıcı diviziya qərargahının 38145 №-li, 24 dekabr 1942-ci il tarixli canlı qüvvələrin itkiləri haqqında məlumatında 26 oktyabr 1942-ci ildə Kabardin-Balkar MASSR, Nalçik rayonunun Şaluşki kəndi ərazisində itkin düşdüyü göstərilir.

15. Xəlilov Əliyar Bayram oğlu (1911, Amasiya r-nu, Elləroyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında 1942-ci ilin sentyabrında itkin düşdüyü göstərilir.

16. İmanov Qədim Dursun oğlu (1910, Amasiya r-nu, Elləroyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li,

30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1944-cü ilin dekabrında itkin düşdüyü göstərilir.

17. İsgəndərov Qurban Məmməd oğlu (1922, Amasiya r-nu, Elləroyuğu k.), 1942-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 72805 №-li, 30 oktyabr 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1944-cü ilin yanvarında itkin düşdüyü göstərilir.

18. İsgəndərov Yaqub Binnət oğlu (1919, Amasiya r-nu, Elləroyuğu k.), Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1943-cü ilin fevralında itkin düşdüyü göstərilir.

Arxiv materialları araşdırılarkən aşkar edilmiş digər bir sənəddə – 223-cü atıcı diviziyanın 3504 №-li, 29 yanvar 1943-cü il tarixli canlı qüvvələrin itkiləri haqqında məlumatında 20 dekabr 1942-ci ildə döyüşdə həlak olduğu və Orconikidze diyarı, Mozdok rayonunun Qolovayev kəndində Voroşilov adına kolxozun ərazisində dəfn olunduğu göstərilir.

19. İsmayılov Allahverdi Zeynal oğlu (1924, Amasiya r-nu, Elləroyuğu k.), 1942-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1943-cü ilin avqustunda itkin düşdüyü göstərilir.

20. Qədirov Mustafa Qərib oğlu (1924, Amasiya r-nu, Elləroyuğu k.), 1942-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 100700 №-li, 31 dekabr 1946-cı il tarixli müharibədən sonrakı döv-

rün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1943-cü ilin martında itkin düşdüyü göstərilir.

21. Quliyev Müzəffər Mehdi oğlu (1901, Amasiya r-nu, Ellərоyuğu k.), 1942-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. 341-ci atıcı diviziyasının 1139-cu atıcı alayında xidmət etmişdir. 341-ci atıcı diviziya idarəsinin 25167 №-li, 23 sentyabr 1942-ci il tarixli və 341-ci atıcı diviziyanın nömrəsiz və tarixsiz canlı qüvvələrin itkiləri haqqında məlumatlarında 17 may 1942-ci ildə Ukrayna SSR, Xarkov vilayəti, Barvenkov rayonunun Boqdanovka kəndində itkin düşdüyü göstərilir.

22. Nəbiyev Əhməd Balakişi oğlu (1921, Amasiya r-nu, Ellərоyuğu k.), 1942-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1943-cü ilin noyabrında itkin düşdüyü göstərilir.

23. Nəbiyev Əhməd Ələsgər oğlu (1920, Amasiya r-nu, Ellərоyuğu k.), 1940-cı ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1943-cü ilin sentyabrında itkin düşdüyü göstərilir.

24. Nəbiyev Ələkbər Əbdüləli oğlu (1917, Amasiya r-nu, Ellərоyuğu k.), 1940-cı ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 66782 №-li, 24 sentyabr 1947-ci il, 12611 №-li, 15 mart 1948-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1942-ci ilin oktyabrında itkin düşdüyü göstərilir.

25. Nəbiyev Əlimuxtar Ələsgər oğlu (1910, Amasiya r-nu, Ellərоyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1942-ci ilin avqustunda itkin düşdüyü göstərilir.

Arxiv materialları araşdırılarkən aşkar edilmiş digər bir sənəddə – 1159 №-li terapevtik səhra mobil hospitalının 04.01.1944 – 13.05.1945-ci illər ərzində ölənlərin uçotu kitabında (dəfn kitabında) döyüşdə aldığı yaralardan 15 fevral 1944-cü ildə hospitalda vəfat etdiyi və Smolensk vilayətinin Krasnin rayonunun Berezina kəndindən 100 m şimal-qərbə doğru qəbiristanlıqda dəfn olunduğu göstərilir.

26. Süleymanov Şenlik Əhməd oğlu (1910, Amasiya r-nu, Ellərоyuğu k.), 1941-ci ildə Amasiya RHK-dan orduya çağırılmışdır. S.ə. Amasiya RHK-nın 47513 №-li, 30 iyun 1947-ci il tarixli müharibədən sonrakı dövrün məlumatında və Amasiya RHK-nın bildirişlərin uçotu kitabında 1942-ci ilin martında itkin düşdüyü göstərilir.

II DÜNYA MÜHARİBƏSİNİN (rus-alman savaşı) İŞTİRAKÇILARI

1. Balakişiyev Məhəmməd Balakişi oğlu
2. Balakişiyev Aydın Məmməd oğlu – *müharibə əlili*
3. Bayramov Kərim Abdulla oğlu
4. Qədirov Alı Qərib oğlu - *müharibə əlili*
5. Qədirov Osman Qərib oğlu
6. Daşdanov Ağabəy Balabəy oğlu – *müharibə əlili*
7. Həsənov Bayram Rüstəm oğlu
8. Hüseynov İsrafil Bayram oğlu
9. Xəlilov Heydər Abbas oğlu – *müharibə əlili*
10. Əhmədov Məmməd Alı oğlu
11. İsgəndərov İsgəndər Əhməd oğlu
12. Elləzov Əziz Gülməmməd oğlu
13. Elləzov Kərim Məmməd oğlu – *müharibə əlili*
14. Alıyev Mədəd Mikayıl oğlu – *arxa cəbhə*
15. Daşdanov Əbdürrəhman Balabəy oğlu – *arxa cəbhə*
16. Mustafayev Hacıkərim Həmid oğlu – *arxa cəbhə*
17. Allahverdiyev Nəbi Xıdır oğlu – *arxa cəbhə*
18. Xəlilov Əziz Abbas oğlu – *arxa cəbhə*
19. Gülməmmədov İsgəndər Bəxtiyar oğlu – *arxa cəbhə*

QARABAĞ UĞURUNDA ŞƏHİD OLANLARIMIZ



Habil Dünyamalı oğlu Balakişiyev 1974-cü ilin 5 dekabrında Ellərkənddə dünyaya göz açıb. O, hələ uşaq ikən digər ailələr kimi onlar da 1988-ci il deportasiyasına məruz qalaraq doğma yurdlarını məcburən tərk etməli olublar. Doğma ata-baba yurdlarından didərgin düşən ailə Rusiyanın Belqorod vilayətində müvəqqəti də olsa yaşamalı olur. Qohum-əqrəba həsrəti, millət nisgili onları 1990-cı ildə doğma Azərbaycana gətirir. Balaca Habil məskunlaşdıqları Bakıxanov qəsəbəsindəki 96 saylı orta məktəbə qəbul olunur və elə orta təhsilini də həmin məktəbdə başa vurur.

1992-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasına daxil olan Habil ölkəmizin başı üstünü qara buludlar alanda təhsilini yarımçıq qoyub, könüllü olaraq 1 may 1993-cü ildə Milli Qvardiyaya üz tutur. Onu "N" hərbi hissəsində kəşfiyyatçı kimi qulluğa qəbul edirlər. Kəşfiyyatçı kimi o, bir sıra mühüm əməliyyat sirlərinin qurucusu olur. Füzuli rayonunda, Yusifcanlı kəndində, Aşağı və Yuxarı Kürd Mahmudlu kəndlərində gedən ağır döyüşlərin iştirakçısı olur. Şəxsi heyəti ilə birlikdə Yusifcanlı və Balacanlı kəndlərini erməni təcavüzkarlarından azad edir. Hərbi yoldaşları onun savadlı və igid bir kəşfiyyatçı olması barədə ağızdolusu danışırlar.

...Ancaq quldur ermənilərin namərd gülləsi ondan da yan keçmədi. Bu igid kəşfiyyatçı 1994-ci ilin mart ayında Aşağı Seyidbəyli yaşayış məntəqəsinin azad

edilməsi uğrunda aparılan qanlı döyüşlərdə düşmən snayperinə tuş gələrək həyata əlvida etdi, şəhid oldu...

1994-cü ilin mart ayının 18-də cəsur kəşfiyyatçı Habil Balakişiyev "2-ci Fəxri Xiyabanda dəfn edildi. Qədirbilən dövlətimiz Habilin xatirəsini əbədiləşdirmək üçün onun adını Bakıxanov qəsəbəsindəki özünün hər gün gedib-gəldiyi küçəyə verməklə xatirəsini uca tutdu.

Allah rəhmət eləsin.




Mahir Muxtar oğlu Qədirov 1966-cı ilin noyabr ayının 15-də Ellərkənddə doğulub. Elə ilk təhsilini də doğma kənddəki 8-illik məktəbdə alıb. Təhsilini davam etdirmək üçün qonşu Güllücə kəndindəki orta məktəbə getmişdi. Yolun uzaqlığı, qarlı-boranlı günlərdə o da həmyaşıdları kimi yorulmadan, usanmadan hər gün gedərək orta təhsilini başa vurub. !988-ci ildən qaçqınlıq həyatı yaşadı ailəsi. Ermənilərin içində gənclik illərini yaşayan Mahir istər oxuduğu məktəbdə, istərsə də mənsub olduğu cəmiyyətdə cəsur, qorxmaz uşaq kimi tanınırdı. Elə mərd və qorxmazlığı da onu könüllü olaraq Qarabağın azadlığı uğrunda aparılan döyüşlərin iştirakçısına çevirdi. 1994-cü ilin aprel ayında 702 nömrəli hərbi hissədə qulluq etməyə başladı və hərbi hissənin kəşfiyyat bölümündə kəşfiyyatçı kimi qulluğunu davam etdirdi. Füzulinin azadlığı uğrunda aparılan bütün döyüşlərdə iştirak etdi. Bunu onun haqqında hərbi hissənin rəhbərliyinin ailəsinə yazdığı məktub da təsdiq edir.

...Mahir Qədirov 04 yanvar 1994-cü ildə Horadiz magistral yolunun üstündə öz kəşfiyyatçı yoldaşları ilə 30 kilometr düşmənin arxasına keçmiş və döyüş zamanı düşmənə köməyə gələn canlı qüvvənin qarşısını kəsmişlər. Əlbəyaxa döyüş zamanı düşmənlər onu əsir götürmüş və texnika ilə Horadiz qəsəbəsi istiqamətinə aparmışlar. Lakin Mahir qeyrətli döyüş yoldaşlarının səyi nəticəsində düşməndən azad ola bilmiş, əlbəyaxa döyüş zamanı düşmən süngüsü ilə yaralanaraq yerə atılmışdır. Mahir elə həmin yaradan da 06 yanvar 1994-cü ildə hərbi hospitalda şəhid olmuşdur.

Mən təsadüfən Horadiz əməliyyatında Mahirlə eyni cəbhədə vuruşmuş qonşum Eynulla Hüseynovdan onun haqqında soruşduqda Mahirin mərdliyi, qorxmadan onları yaralayaraq qaçan ermənilərin üstünə necə şığıdığını eşitdikdə fəxr etdim ki, Ellərkəndin suyunu içib, havasını udaraq böyüyən, cəsurlaşan belə oğullarımız olub. Və indi də var, həmişə də olacaq, yaşayacaq qəlblərdə, həmyerlilərinin sözündə-söhbətində.

Qədirbilən dövlətimiz Mahir Qədirovun adını yaşadığı Bakı şəhəri, Binəqədi rayonunun 3-cü keçidinə verməklə onu xalqımızın qəlbinə əbədi yazmış oldu.

Allah rəhmət eləsin.



1973-cü il mayın 15-də Amasiya kəndində anadan olan **Akif Yasın oğlu Əliyev** özünü həmişə Ellərkəndli hesab edirdi. Haqlı idi də... Onun valideynləri əslən Ellərkəndli olmuş və həmin kənddə dünyaya gəlmiş, orada da yaşamışlar. Sonralar Yasın kişi ailəsinin iş təminatını yaxşılaşdırmaq məqsədilə Amasiya kəndinə köçmüş və 1988-ci ildə o da azərbaycanlıların rayon ərazisindən kütləvi şəkildə deportasiyasınının qurbanına çevrilmişdir.

...Akif 7-ci sinifdə oxuyarkən ermənilər onları öz doğma yurdlarından qovmuşlar. O, Bakının Birinci Zabrat qəsəbəsindəki 71 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmiş və 1991-ci il noyabrın 20-də könüllülər sırasında hərbi xidmətə yollanmışdır. Pirəkəşkül qəsəbəsində üç aylıq hərbi təlimdən sonra Akif Əliyev Füzuli rayonunun Qaçar kəndində xidmətini davam etdirmişdir. Erməni işğalçılarına qarşı igidliklə vuruşan Akif Ağdərədə bir sıra hərbi əməliyyatlarda fəal iştirak etmişdi. İgid və qorxmaz döyüşçü 1992-ci il oktyabrın 7-də Ağdərə yaxınlığında qəhrəmancasına həlak olmuş və Bakıxanov qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

...Subay idi. Valideynlərinin, qohum-əqrəbanın Akif haqqında çoxlu arzuları reallaşmamış o, həyata əlvida etdi. ...Vətəni üçün. ...Millətinin xoş gələcəyi üçün. ...Adını Şəhidlər Zirvəsinə yazdıraraq gələcək nəsillərə örnək olan bir ucalığa yüksəlmək üçün.

...Anası Məryəm xala sazlı-sözlü bir ailənin qızı idi. Qardaşı Aşıq İsgəndər Ağbabalının mənsub olduğu

ocağın nümayəndəsi olmaq el-oba, oğul dərdini bayatıya çevirmişdi onun dilində:

Eləmi bala dağı
Bürüdü bala dağı.
Çəkilsə də hər bir dərd
Çəkilməz bala dağı.

...Allah heç kəsə göstərməsin, bu dağı, çəkənlər bilər bunu ağırlığını, yükünü...

Yurd itirən də mənəm,
Dərd götürən də mənəm.
Dərd bilən bilsin dedim,
Dərdbilməzə demənəm.

...Oğul itirən analar onu Vətənə qurban verməkləri ilə təsəlli tapırlar həyatda. Amma illər keçsə də, bu yaraları sağalmaz.....

Bu kəndin adı olmaz
Qənd yesən dadı olmaz.
Oğlu ölən ananın
Ağzının dadı olmaz.

Allah rəhmət eləsin.



Faiq Mehralı oğlu Mustafayev 1977-ci ilin fevral ayının 26-da Ellərkəndində dünyaya göz açmış və ilk təhsilini də doğulduğu kənddə almışdır. 1989-cu il erməni vəhşiliyinin nəticəsində deportasiya olunan ailəsi Bakı şəhərinə pənah gətirərək Bayıl qəsəbəsində məskunlaşmışdır. O, 1995-ci ildə yarımçıq qalan təhsilini qəsəbədə yerləşən 163 nömrəli məktəbdə başa vurmuşdur. Elə həmin ildə də hərbi xidmətə çağırılan Faiq Mustafayev Azərbaycan Respublikası Goranboy rayonunun Tapqaraqoyunlu kəndində yerləşən erməni işğalçıları ilə üzbəüz xəttdə – "N" saylı hərbi hissədə hərbi xidmətə başlamışdır. 3 il Vətənin müdafiəsində layiqincə xidmət etmiş, rəhbərlərinin və döyüş yoldaşlarının etimadını qazanmışdır.

Onu da qeyd edim ki, Faiqin mənsub olduğu Mustafayevlər ailəsinin daha iki oğlu – Sərrac və Mehrac Mustafayevlər də Azərbaycanımızın bu haqlı müharibəsində könüllü olaraq iştirak etmiş, ad-san qazanmışlar. Hazırda bu iki qardaş qazi kimi dövətimizin diqqət və qayğısı altındadırlar. O, 1998-ci il fevral ayının 24 də növbəti hərbi tapşırığını yerinə yetirərkən xain erməni snayper gülləsinə tuş gəlmiş və qəhrəmancasına şəhid olmuşdur. 26 fevralda – doğum günündə də 2-ci Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Göstərdiyi xidmət Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmiş və yaşadığı Bakı şəhəri, Səbail rayonu Elşən İsmayılov küçəsi, ev 47 A-da onun berelfi qoyulmuşdur.

Allah rəhmət eləsin.

KƏNDİMİZİN SAZ – SÖZ ÇƏLƏNGİ

(həmyerlilərimizin bədii yaradıcılığı)

Aşıq İsgəndər Ağbabalı

Ağbaba

Növbahar fəslində, gülşən çağında,
Yeriyir üstünə ellər, Ağbaba.
Bülbüllər səslənir solu-sağında,
Bəzənir al-yaşıl çöllər, Ağbaba.

Ağır sürülərin, ərəb atların,
Dərdlərə dərmandı hər büsatların,
O sərin suların, yağlı otların,
Əhsən deyər sana ellər, Ağbaba.

O Arpa gölündə ördəklər, qazlar,
Ətrafda dolanır gəlinlər, qızlar,
Dövr edir aşıqlar, əlində sazlar,
Açılır lal olsa dillər, Ağbaba.

Göründü gözümə Ağbaba dağı,
Unutmaz insanlar belə ocağı.
Ceşd edir gözəllər sərin bulağı,
Açılır hər yanda güllər, Ağbaba.

Aşıq İsgəndərəm, vətənim sənsən,
Ana torpağımsan, bu canım sənsən,
Əzəldən axıra gümanım sənsən,
Keçib səndən neçə yollar, Ağbaba.

Qal

(Şeir 1988-ci ilin noyabrında, azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarından qovulduqları vaxt yazılıb).

Köçürəm ay ellər, gözəl vətəndən,
Vətən, salamat qal, dağ salamat qal.
Ayrılmır ürəyim yaşıl çəməndən,
Çəmən, salamat qal, dağ, salamat qal.

Dağların döşündə açılan güllər,
Qaymağın çiçəyi, sarı sünbüllər,
Hər axşam, hər sabah ötür bülbüllər
Bülbül, salamat qal, dağ, salamat qal.

Əlləzli bulağın üstə yaylığı,
Çinli bulağının çoxdu yığnağı,
Güllüoğlu bulağının gəlir qonağı,
Qonaq, salamat qal, dağ, salamat qal.

Baldırğan, turşalax bitərdi səndə,
Yarpızın təzəsi şehli çəməndə,
Varıydı qımısı, turşusu həm də,
Turşu, salamat qal, dağ, salamat qal.

Kəndlərimiz vardı pendirli-yağlı,
Min dərdin dərmanı ballı-qaymaqlı,
Yarpızlı, lilparlı, kövsər bulaqlı,
Bulaq, salamat qal, dağ, salamat qal.

O qaçaq Usubun düşündə bəhsi,
Böyük güneydəydi tüfəngin səsi,

Aşıq İsgəndərin getdi həvəsi,
Sazım, salamat qal, dağ, salamat qal.

Hanı görünməz

Qapısı eyvanlı, virana damlar,
Səndəki o canlar hanı, görünməz?
Dağıldı qürbətə neçə insanlar,
O gözəl insanlar hanı, görünməz?

Necoldu Ellərkənd soyuq bulağı,
Çivinli, Quzukənd, sərin yaylağı,
Güllücə, Balıqlı əziz qonağı,
O gözəl dövranlar hanı, görünməz?

Öksüz, Qarabulaq dağın döşündə,
Şurabad, Təpəkənd gölün başında.
Yeniyol, Güllücə yolun düşəndə,
Salamlar alanlar hanı, görünməz?

Çaybasar Düzkəndlə durubdur qoşa,
İbiş, Qoncalıya edək tamaşa,
O Mağaracıqda oturub başda
Məclisi quranlar hanı, görünməz?

Daşkörpü, Oxçoğlu o şirin dilli,
Güllübulaq deyilən bağçalı, güllü.
Qaraçanta deyilən alt yanı yollu,
O yoldan gələnlər hanı, görünməz?

Dilə gətirməyək o Amasyanı,
Sahibsiz ki, qoyduq o qəbristanı,

İsgəndər, cəsədin od alıb yanı,
Səni saxlayanlar hanı görünməz?

Ağbaba

Yağar yağışların, qalxar dumanın,
Tökülər çaylara selin, Ağbaba.
Necə yasa döndü çayır-çəmənin,
Dağıldı qürbətə elin, Ağbaba.

Usubun məskəni bəllidir səndə,
Bülbüllər ötərdi şehli çəməndə,
O arpa gölünə durna gələndə,
Necoldu açılan gülün, Ağbaba.

Şörəyel elində seyid ocağı,
Qəmlərə batıbdır gələn qonağı,
Əfəndi üstündə yanan çırağı,
Gör necə kəsildi yolun, Ağbaba.

Yaz olanda el yaylağa gələrdi,
Dağ döşündə qoyun-quzu mələrdi,
Gözəllərin bulaqlarda gülərdi
Necə axrın oldu yalan, Ağbaba.

Mən Aşıq İsgəndər, səndə ucaldım,
Eşqə könül verdin, sazımı çaldım,
Necə ayrı düşdüm, intizar qaldım,
Kimlərdən soruşum halın, Ağbaba.

Zahid Əziz

Kəndim

1988-ci ildə başımıza yeni bəlalar gəldi. Son bir əsrdə neçənci qaçqınlıq, neçənci köçkünlük... Nələr gördük, ilahi! Qələm-kağız götürüb ürəyimdən keçənləri yazmağa macal tapmadım. Odur ki, doğulub boya-başa çatdığım, hər daşında-qayasında bir xatirəm yaşayan, doğma Ellərkəndimdən ayrılarkən ürəyimdən süzülən o andakı pıçıltıların bir sözünü belə dəyişmədən sizə təqdim edirəm.

Nə yatmısan yorğun-yorğun?
El çəkilir, oyan, kəndim.
Dağlar qəmli, güllər solğun,
Qəm-qüssəyə uyan kəndim.
Ellərkəndim, Ellərkəndim.

Çivinliyə qonaq gedək,
Əmlik kəsib, kabab edək,
Yolumuzda ballı pətək,
Dərdi-səri duyan kəndim.
Ellərkəndim, Ellərkəndim.

Göl yanında Qarabulaq
Verər sənə eldən soraq,
Belə yerdən getməz ayaq,
Bir də baxım, dayan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Quzukəndin xoş ləhcəsi,
Nə gözəldir mənzərəsi,
Hər bir yanı gül təpəsi,

Xoşbəxt olmaz yolan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Güllücədə saxla ayaq,
Tanış-biliş edər qonaq,
Dinər tarix varaq-varaq,
Olar sənə həyan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Balıqlının xoş halı var,
Dayanmasan el qınayar.
Atəşinə el-gün yanar,
Hər halımı duyan, kəndim
Ellərkəndim, Ellərkəndim.

Öksüz doğru düşüb dilə,
Nəyi varsa istər bölə,
Lap bənzəyir Çənlibelə,
Yaşa, könlü talan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Təpəkəndin cah-cəlalı,
Aşıb-daşır dövlət malı,
Dörd bir yanı al-əlvanlı
Gülüstana boyan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Çiçəklənib Sultanabad,
Həyət-baca tamam abad,
Nə gözəldir burda həyat,
Çölə-düzə boylan, kəndim.

Ellərkəndim, Ellərkəndim.

Qoncalının dərdi çoxdu,
Kolu-kosu yada oxdu,
Tanış-biliş gedib, yoxdu
Əhvalımı soran, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Ağ günlüdür Qaranamaz,
Gül-çiçəyi vaxtsız solmaz,
Gözəli tək gözəl olmaz,
Aşiq olar varan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Daşkörpünün dağları var,
İldən-ilə saxlayar qar,
Çölü-düzü yarpız, lilpar,
Bihuş olar yığan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Qaraçanta dağ qeyrətli,
Oğlu-qızı sədaqətli,
Dayanıbdır dəyanətli,
Olmaz ona batan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Mağaracıq düşməz dildən,
Keçmək olmaz belə eldən,
Yarma, bulğur, ərişтədən
Tapılarmı doyan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Oxçoğlunun ağ alması,
Şəkər dadır dağ alması,
Mərcə girən olsa naşı
Əldən düşər sayan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Çaxmaq bir gün qalxasıdır,
Şimşək kimi çaxasıdır,
Düşmənləri yıxasıdır,
Olmaz belə tufan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Güllübulaq, alim yurdu,
Nə vaxt getsən nişan-toydu,
Kimə getdim məclis qurdu,
Bu ülfətə calan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

Gəzmək gərək hər bir yanı,
Göllü, Düzkənd, İbiş hanı?
Zahid deyir Ağbabanı,
Başdan-başa dolan, kəndim.
Ellərkəndim, Ellərkəndim.

1989

Ağbabaya məktub

Salam, ay eloğlu, yaz görüm nə var
Bizim tərəflərdə, bizim dağlarda?
Açılıbmı güllər, çıxıbmı lilpar,
Mələşirmi qoyun-quzu yaylaqda?

Subaylardan kimlər toyunu etdi?
Həyətdə-bacada qalan oldumu?
Qayıda bilmədim, bayram da ötdü,
Qapı pusan, iynə salan oldumu?

Çıxıbmı yemilik, quzuqulağı,
Dağ çayı yenəmi coşub-çağlayır?
Xançoban tütəklə Kərəmsayağı,
Dəli könülləri yenə dağlayır?

Heç nə lazım deyil, payın çox olsun,
Kəklikotu, yarpız hələ bəs edər.
Darıxmışam güllər-çiçəklər üçün,
Nolar, bir udumluq dağ mehi göndər.

Üzü yaza gedən bu yeni ildə

Yenə dikilibdi gözüm dağlara,
Çoxdu deyiləsi sözüm dağlara,
Baş alıb gedəcəm üzü dağlara,
Üzü yaza gedən bu yeni ildə.

Doğma yaylaqlarda qurudum qalıb,
Qılıncım, qalxanım, əmudum qalıb,

Neçə açılası sabahım qalıb,
Üzü yaza gedən bu yeni ildə.

Elimə-obama səpiləsiyəm,
Xamlamış çöllərə əkiləsiyəm,
Viranə yurdlara tikiləsiyəm,
Üzü yaza gedən bu yeni ildə.

Ay vüsal soraqlı, müjdəli çapar,
Apar, o yerlərə sözümü apar,
Öz mənim mələyib özümü tapar,
Üzü yaza gedən bu yeni ildə.

Ağrıya-acıya gərərəm sinə,
Həsrətəm çiskinə, dumana-çənə,
Yaxın düşə bilməz əzrayıl mənə,
Üzü yaza gedən bu yeni ildə.

Daha hər nə yazsam, şən yazasıyam,
Şəhid ruhlarıyla tən yazasıyam,
Qələbə marşını mən yazasıyam,
Üzü yaza gedən bu yeni ildə.

Dağlar məni tanımadı

Nə qarşıma çıxan oldu,
Nə əlimi sıxan oldu,

Nə üzümə baxan oldu,
Dağlar məni tanımadı.

Cavan getdim, qoca gəldim,
Uca getdim, uca gəldim,
Borc eyləyib, borca gəldim,
Dağlar məni tanımadı.

Arif olan himə bənddi,
Mizrab telə, simə bənddi,
Baş açmadım kimə bənddi,
Dağlar məni tanımadı.

Gəldim dərman olmaq üçün,
Xəyallara dalmaq üçün,
Ölüb burda qalmaq üçün,
Dağlar məni tanımadı.

Çən-dumanı yorğun gördüm,
Gül-çiçəyi solğun gördüm,
Zahid Əziz, dalğın gördüm,
Dağlar səni tanımadı.

Öz yurduma, öz yuvama gedirəm

Ay vüsalım, yetər, daha ağlama,
Nisgil dolu ürəyimi dağlama,
Qaysaq tutmaz dərdlərimi bağlama,
Öz yurduma, öz yuvama gedirəm.

El-obanın dağa köçmək vaxtıdı,
Bülbüllərin bağa köçmək vaxtıdı,
Torpağımı əkib-biçmək vaxtıdı,
Öz yurduma, öz yuvama gedirəm.

O dağlara duman mənəm, çən mənəm,
O torpağa səpiləsi dən mənəm,
O el üçün, oba üçün ölənəm,
Öz yurduma, öz yuvama gedirəm.

Neçə ildir həyət-bacam bellənmir,
Şərbət sulu bulaqlarım lillənmir,
Şair könlüm lal qalıbdır, dillənmir,
Öz yurduma, öz yuvama gedirəm.

Qəribsədim, hara gedim, haraya?
Hay vermədim içimdəki haraya,
Gül olmayıb özgə tikən saraya,
Öz yurduma, öz yuvama gedirəm.

İllər məndən bac almayıb neçə ki,
Əl-ayağım qıc olmayıb neçə ki,
Zahid Əziz qocalmayıb neçə ki,
Öz yurduma, öz yuvama gedirəm.

Abbasəli Rüstəmov

Layla de

Səd-sərhəd bilməyən şirin röyalar,
İllərin həsrəti səndə qovuşar,
Mənim də dərdimə bir çarə axtar.
Təbib ol, qan verən yaramı bağla,
Baş qoyum dizinə, layla de, layla.

Büsbütöv varlığım, tək qibləgahım,
Birlikdə sevincim, qürbətdə ahım,
Doğma vətənimə qol, qucaq açım.
Qayıdım keçmişə, çatım vüsala,
Baş qoyum dizinə, layla de, layla.

Gəzim el obamın hər qarışını,
Yazını, yayını, payız-qışını,
Silmə gözlərimdən sevinc yaşını.
Dil açsın ilhamım danışım ayla,
Baş qoyum dizinə, layla de, layla.

Güneydə yemliyi duz ilə ovum,
Dovşantopuğunun qabığın soyum,
Qaymaqda qovrulmuş lilpardan doyum.
Alışıb sönməyən arzularımla,
Baş qoyum dizinə, layla de, layla.

Səhər yeməyində beçə balını,
Bənzəri olmayan mayıs yağını,
Təndir çörəyinə yaxım yaxmanı.

Ovqatım durulsun pürrəngi çayla,
Baş qoyum dizinə, layla de, layla.

Sinəmə dağ çəkən dağlarda qalım,
Zirvədən Arpagöl seyrinə dalım,
Qayalar üstündə yatacaq salım.
Yıxılsam, əzilsəm anamı hayla,
Baş qoyum dizinə, layla de, layla..

Vətənin yolları açılmayınca,
Oyanmayan bəxtim oyanmayınca,
Abbas yurd yerinə qayıtmayınca.
Oyatma yuxulayım röyalarınla,
Baş qoyum dizinə, layla de, layla.

Gedəndə apar

Vətənə həsrətəm əsən küləklər
Üz tutub gedəndə məni də apar.
Orda xatirələr, orda yurd yerim
Qaytarma dönəndə, gedəndə apar.

Gəzim izim itmiş yamaclarında,
Çobansız, sürüsüz yaylaqlarında,
Su içim qonaqsız bulaqlarında,
Qaytarma dönəndə, gedəndə apar.

Abbas nələr çəkir həsrət əlindən,
Vətənə sevgisi düşməz dilindən,
Ayrılmayım deyə doğma elimdən,
Qaytarma dönəndə, gedəndə apar.

Hardadı

Səsi qulağımda ana laylası
Yastığım döşəyim, dizi hardadı.
Gəncliyi nağıla dönən illərin
Surəti gözümdə, özü hardadı.

Vətəni ananda od alır dilim,
Ögeyi doğmamtək mən necə sevim,
Ağbaba mahalım, Ellərkənd elim,
Ocağı kül olub, közü hardadı.

Allahdan düşmənin bəlası gəlmir,
Vətənə dönüşün sədası gəlmir,
Ayna göllərinə sonası gəlmir,
Bulaqlar lillənib, gözü hardadı.

Yağı at oynadır oğuz elində,
Övlad yetişdirir Vazgen dinində,
Siranuş, Haykanuş çöl çəmənində,
Nigarın, Həcərin izi hardadı.

Abbasam deyiləm özüm özümdə,
Vətən həsrətinin yandım közündə,
Axar çaylarının suyu gözümdə,
Dağları sinəmdə, düzü hardadı.

Gəlmişəm

Gecə ərzində hər qarışını yuxumda gəzdiyim kəndimizə...

Ana vətən görüşünə gəlmişəm
Aç qollarını, çək, bağrına bas məni.
Həsrətinə qəmdən çələng hörmüşəm
Çağlayıbdı kədər məni, yas məni..

Sevənlərim dönük çıxıb əhdinə,
Öz əllərim dayanıbdı qəsdimə,
Nərd oynayıb zəri atdım bəxtimə.
Uduzdurdu neçə-neçə daş məni,
Aç qollarını, çək, bağrına bas məni.
Ana vətən görüşünə gəlmişəm.

Gəlmişəm ki, yatmış bəxtim oyana,
Sına qəddim, qayıtmaya o yana,
Məzar daşım vətənimdən boylana.
Of demərəm yurd yuvamda as məni,
Aç qollarını, çək, bağrına bas məni.
Ana vətən görüşünə gəlmişəm.

Gedərəm vallah

Vətənin tapdanmış torpağına mən,
Atamın talanmış ocağına mən,
Anamın laylalı qucağına mən,
Getmərəm demərəm, gedərəm vallah.

Çəkilsə başından boranı, qarı,
Durulsa çayları, buz bulaqları,
Məkrli qonşular açsa yolları,
Getmərəm demərəm, gedərəm vallah.

Surəti gözümdə göz yarasına,
Həsrəti qəlbimdə köz yarasına,
Söhbəti dilimdə söz yarasına,
Getmərəm demərəm, gedərəm vallah.

Güneyin döşündə çiçək dərməyə,
Göybulaq başında süfrə sərməyə,
Tikəmi dostlarla yarı bölməyə,
Getmərəm demərəm, gedərəm vallah.

Abbasam göz yaşım dönübdür selə,
Didərgin ad alıb düşmüşəm dilə,
Vətənim ölməyə çağırsa belə,
Getmərəm demərəm, gedərəm vallah.

Qalıbdı

Vətənimsən yad deyiləm yada sal
Mənim səndə cavanlığım qalıbdı.
Vida günü ayrılmışam nitqi lal
Dil deməyə neçə ağım qalıbdı.

Çöllərində ulduz kimi sayrışan,
Yel əsəndə pıçıltı ilə danışan,
Halay çəkib zirvələrdə dolaşan,
Ellərkənddə çiçək dağım qalıbdı.

Aydanımla yamaclarda gəzməyə,
Dəstə-dəstə lalə, nərgiz dərməyə,
Ayrisimin saçlarına düzməyə,
Qocalığa son sınağım qalıbdı.

Güneyində unudulmaz bir bahar,
Sevdiyimlə bağladığım düz ilqar,
İsmayılla dostluğumda etibar,
Duz-çörəkli od ocağım qalıbdı.

Sağaltamağa qaçqınlığın dağını,
Qançanağı gözlərimin ağını,
Söndürməyə sinəmdəki yanğını,
Diş donduran göy bulağım qalıbdı.

Rza Ağbabalı

Ellərkəndimiz

Ellərkəndim Ağbabada ən uca,
Əlli ev olardı saysaydın sayca,
Elin gözəliydi, güney boyunca.
Çaldaşdan dəyərdi, gözə kəndimiz
Qürur qaynağıydı bizə kəndimiz.

Torpaqdan boluydu, dağlar aşardı,
Hər yaz yaylaları dolub-daşardı,
Sayılmaz sürülər hey dolaşardı.
Sığmazdı söhbətə-sözə kəndimiz
Qürur qaynağıydı bizə kəndimiz.

Buz bulaq deyilən bizdəydi, bizdə,
Çaylar dərələrdə, çayırlar düzdə,
Gül-çiçək bitərdi hər yolda-izdə.
Gülərdi gedəndə, üzə kəndimiz
Qürur qaynağıydı bizə kəndimiz.

Çoxdu gözəlliyi, bitməz ki sayam,
Rəssam da deyiləm rəsmini yayam,
Fələk də qoymadı yaşıyam, doyam.
Həsrət etdi yola, izə kəndimiz
Qürur qaynağıydı bizə kəndimiz.

Qoynunda böyük göl, başqa yaraşıq,
Eşqi İsgəndəri eylədi aşıq,
Rzaya da deyən yetdi bir qaşıq.

Onu şair etdi sizə kəndimiz
Qürur qaynağıydı bizə kəndimiz.

Şerimdə anaların nə qədər əməkdaş olduqları da öz əksini tapır.

Dingə qoymaq adətiydi o eldə,
Məxmər kofta, gümüş kəmər də beldə,
Yamşaqsız da biri gəzməzdi çöldə.
Anam da beləydi, belə də oldu
Beləcə qocaldı, o yaşa doldu.

Səhərləri daramadan telini,
Çirməyərdi biləyini, əlini,
Oyatmazdı oğul-qızı, gəlini.

İşi silib-süpürmək, həm sağmaq oldu
Beləcə qocaldı, o yaşa doldu.

Atalar gedərdi peşələrinə,
Analar girişər ev işlərinə,
Başlardı mənsilə, bişmişlərinə.
Bax belə başlardı, belə də oldu
Beləcə qocaldı, o yaşa doldu.

Qaş almazdı, boyanmazdı, gəzməzdi,
Gəzmək qalsın, dükan-bazar bilməzdi,
Məclislərə gedib, deyib gülməzdi.
Gəzdiyi yer bizim o çəpər oldu
Beləcə qocaldı, o yaşa doldu.

Bilmədim əlləri dəmirdi, daşdı,
Basma-qalax, yappalara alışdı,
Gün doğandan, gün batana çalışdı.
Bizim analar çox zəhmətkeş oldu
Beləcə qocaldı, o yaşa doldu.

Hər gün səhərləri təndir qalardı,
Kənd yeriydi, mənsil də bol olardı,
Südü çəkər, qaymağını alardı.
Qaynamağa şoru-çeçili oldu
Beləcə qocaldı, o yaşa doldu.

Əriştə kəsərdi, dibək döyərdi,
Quruddu xəngəlini yeyən öyərdi,
Motal gözəl olur, o ki göyərdi.
Lavaşının boyu bir metr oldu
Beləcə qocaldı, o yaşa doldu

Hərdən pencər toplar, gəzər dərə-dağ,
Gah nəhrə çalxalar, əridərdi yağ,
Indikilər kimi etməzdi ax-vax.
Daş duz da əzməyə zamanı oldu
Beləcə qocaldı, o yaşa doldu

Həyat tərzi belə idi, buyuydu,
Dərdi, başı nə dövlət, nə puluydu,
Ailəsi üçün anam quluydu.
Nə bişirsə dadı bambaşqa oldu
Beləcə qocaldı, o yaşa doldu.

Çəkdiyi zəhmətlər yazmaqla bitmir,
Ana zəhmətinə, zəhmətlər yetmir,
Qarşılığını övlad vaxt tapıb etmir.

Qəribə həyatdır, qəribə yoldu
Beləcə qocaldı, o yaşa doldu.

Mənə göndər

Türkiyənin Qars vilayətinə qonaq getmiş kirvəm Məhhərrəm Balakişiyevə

Kirvə, çox gedirsən o Qars elinə
Yönünü bir bizim ellərə döndər.
O sarı gülləri doyunca iylə
Ondan bir dəstə də dər mənə göndər.

Zirvə var qar qalır belə yay boyu,
Unuda bilmirəm mən də bu huyu,

Soyudub içirəm dolabdan suyu,
Dağlarda qalıbsa, qar mənə göndər.

Burnumdan heç getmir təndirin ətri,
Çox dadlı olurdu kətəsi, fətri,
Ötərdi lavaşın boyu bir metri,
Lavaşa göy çeçil, bur mənə göndər.

Qaz ətiylə bişər çəkməcə aşı,
Dibinin qazmağı, ətindən yaxşı,
Bişirsələr, gör sən qazanı qaşı,
Nə qədər qazmağı var, mənə göndər.

Tozunda qovruldum mən bu aranın,
Dərmanı da yoxdur bizim yaranın,

Heyf bilməmişəm qədrin oranın,
Sulardan bir bardax gör mənə göndər.

Rzayam qocaldım, ürək yuxalıb,
Bəlkə də sayılı günlərim qalıb,
Nə olar kirvənin ürəyini alıb,
Qars balı karqoya ver, mənə göndər.

Abbasqulu Əmirov

Ellərkəndin

Zirvəsində əskik olmaz
Qarı, buzu Ellərkəndin.
Məcun olar süfrəsində
Əmlik quzu Ellərkəndin.

Haqq-salam itməyibdi,
Hörmət, izzət bitməyibdi,
Damağımdan getməyibdi,
Dadı, duzu Ellərkəndin.

Abbasqulu saldı yada,
Yaxşılığı verməz bada,
Məşhur idi Ağbabada,
Sazı, sözü Ellərkəndin.

Aşıq Faxfur Ağbabalı

Məndədi

Sazımı dinləyən min sehrə düşər
Qarsın havaları, sözü məndədi.
Çıldır, Axırkələk, Ağbaba birdi
O axan suaların gözü məndədi.

Yurdum əldən çıxıb, elim dağılıb,

Dəryaydım hər yana selim dağılıb,
Dərd dərd üstünə gəlib, yığılıb,
Hicranın kədəri, üzü məndədi.

Faxfuram başıma gəlib min qada,
Ömrümü dərd ilə vermişəm bada,
Çox yaxın olmuşam alova, oda,
O qəm deyilənin özü məndədi.

Ellər yeridi

Doğma yurddan köç başladı
Yeridi, ellər yeridi.
Yolda, izdə, dərddə, qəmdə
Əridi, ellər əridi.

Yana-yana aldım sazı,
Fələk belə yazdı yazı,
Çıxıb həsrətin ayazı,
Qarıdı, ellər qarıdı.

Faxfur istər saz çalmağı,
Vətənə qurban olmağı,
Ağbabadan söz salmağı,
Yeridi, ellər yeridi.

ELLƏROYUĞU VƏ YAXIN ƏRAZİLƏRDƏ İŞLƏNƏN ŞİVƏ SÖZLƏRİ

Amasiya rayonunun Ellərkəndində tayfalararası və ümumən kənd sakinlərinin danışığı ümumi rayon danışıq dilindəki dil faktları ilə köklü şəkildə fərqlənməsə də, müəyyən şivə (*məhəllə sözləri)* ancaq bu kəndin sakinlərinin dilində işlənərək xüsusi fərqlənirdi. Ellərəroyuğu şivəsinin əsas xüsusiyyətləri ilə Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrinin fonetik, qrammatik, leksik xüsusiyyətləri arasında elə ciddi fərqin olmadığını nəzərə alaraq kənddə ən çox işlədilən, eyni zamanda kəndimizə xas olan aşağıdakı şivə və məhəllə sözlərini seçmə yolu ilə nəzərinizə çatdırmağı məqsədəmüvafiq hesab edirik.

Onu da qeyd edim ki, bu kiçik sözlüyü hazırlayarkən professor Aslan Bayramovun tədqiqatlarından da yararlanmışıq.

Acıxlanmax (*f*) – hirslənmək, qəzəblənmək.
Acıx /acıx-qıcıx vermək/ (*is.*) – 1. hirs, hikkə; 2. qarşıdakını hirsləndirmək, özündən çıxartmaq.
Acəl /əcəl/ (*is.*) – ölüm vaxtının gəlməsi.
Acəlmayallax (*is.*) – təsadüfi, gözlənilməz ölüm.
Açıf-ağartmax (*f*) – sirri açmaq.
Ağöfkə /ağbağır/ (*s.*) – qorxaq, ürkək adam.
Ağırramax (*f.*) – əzizləmək, hörmət etmək.
Ağırtaxta (*s.*) – yüngüllük etməyən, təmkinli, səbrli adam.
Ağızdaşmax /dilləşmək/ (*f.*) – mübahisə etmək.
Ağzı isti olmax (*s.*) – bərkə-boşa düşməyən, çətinlik görməyən adam.
Axdalamax (*f.*) – mal-qoyunun cinsiyyət üzvünün

əzilməsi.
Aqa /lələ/ ***(is.)*** **–** ata mənasında.
Ağartı (is.) – süd məhsulları.
Alacatı ***(s.)*** **–** aravuran, araqarışdıran.
Alasavax /alatoran/ alaqarannıx / o başdan/ ***(z.)*** **–** sübh tezdən, hava işıqlanmamış, dan yeri söküləndə.
Alçax ***(s.)*** **–** hörmətsiz, ləyaqətsiz adam.
Alapörtü ***(s.)*** **–** az bişən, alaçiy, yaxşı bişməyən.
Alçı (*z.)* – aşıx oyununda aşığın dik durması.
Alışma (*is.)* – şərikli alınmış mal və ya qoyunun kəsilib bərabər miqdarda tərəzidə çəkilmədən bölüşdürülməsi.
Altdıx (*is*.) – yun corabın cırılmış alt hissəsinə sonradan toxunan təzə əlavə.
Amba /əmbə/ (*bağ.)* – amma.
Amanat ***(s.)*** **–** zəif.
Ana-üyrən /dıl-dılbax/ ***(s.)*** **–** çılpaq, paltarsız olmaq.
Anaxdar /qıfıl / /kilit/ (*is.*) – açar.
Andır /andıra qalmış / ***(s.)*** – ölü, pal-paltarı, sahibsiz bir şey.
Anşırtmaq /bəlləmək/ /anşırda bilməmək/ (*f.)* – aydınlaşdırmaq, tanımaq, müəyyənləşdirə bilməmək.
Anqırmax /böyürmək/ ***(f.)*** **–** ulağın (heyvanın) bağırması.
Ara /arabir/ (*s.*) – tək-tək hallarda, bəzi hallarda.
Arxalıx /qalınça/ (*is.*) – kişilərin geyindiyi ətəkli, yüngül paltar.
Armutboğaz /cüllütboğaz/ (*s.*) – arıq və nazik boğaz adam.

Artıx-urtux ***(s.)*** – qabda qalan artıq yemək.
Arvadağız /lalıkqa/ (*s.*) – arvad sözü ilə durub oturan, arvada sözü keçməyən kişi.
Atdandırmax (*f.*) – gəlinin atla və ya maşınla ər evinə köçürülməsi.
Atmacalamax (*f.*) – kinayə ilə söz demək, qıcıqlandırmaq.
Ayaz ***(is.)*** – şaxta.
Ayam ***(z.)*** – vaxt və dövr mənasında.
Ayna /cam/ ***(is.)*** – şüşə.
Azıtmax (*f.*) – azdırmaq, yolunu səhv göstərmək.
Azmax /qudurmaq/ ***(f.)*** – yolundan çıxmaq.
Aşxana /aşkana/ (***is.)*** – aş bişirilən yer, mətbəəx.
Aşukqa /aşukqa düşməx ***(z.)*** – səhv, yerləri səhv düşmək.
Axır/axırrıx) ***(is.)*** – mal tövləsi.
Axbun ***(is.)*** – mal peyini.
Baca-baca günü (*z.*) – Novruzun ilk günü.
Bad ***(is.)*** – təndirin divarı.
Bafat etmək (*f.*) – ölmək.
Balax (*is.)* – şalvarın ətəyi.
Balıxbeli ***(s.)*** – evin üstünün basdırılması forması.
Bambılı /banbılı/ (*s.*) – yüngül, ləyaqətsiz insan.
Bar (*s.)* – kif, ərp.
Bardax (*is.*) – saxsı su qabı.
Basabas (*s.)* – darısqallıq, qələbəlik.
Başyoldaşı /övrət/ ***(is.)*** – həyat yoldaşı, arvadı.
Bay etmək ***(f.)*** – işi yarıtmamaq.
Badya /bayda/ (***is.)*** – körəyi, əsasən, süd məhsullarını saxlamaq üçün ağzı iri kasa qab.
Basma ***(is.)*** – mal-qara peyininin təzək

hazırlamaq üçün 15-20 santimetr qalınlığında yayılıb bərkidilməsi.
Bazburut /cüssə/ (*is.*) – boy-buxun.
Beyşüyur /dunux/ *(s.)* – bişüur, şüursuz.
Beyqafıl *(z.)* – qəflətən, gözlənilmədən, birdən.
Bəbə /çağa/ *(is.)* – körpə uşaq.
Bədöylət /bədölət/ *(s.*) – ziyankar, xeyirsiz.
Bənə – bəs nə, əlbəttə.
Bərk /bərt/ (*s.*) – xəsis.
Bıyıx *(is.)* – bığ.
Bic *(s.)* – çoxbilmiş, hiyləgər.
Bir soluğa (*s.*) – bir nəfəsə.
Biryollux (*s.*) – bir dəfəlik, həmişəlik.
Bir çimçik /acacıq/ (*say)* – bir qədər, az miqdarda.
Bir dönümə *(z.)* – bir dəfəyə.
Bir hoyur (*z.)* – bir an.
Bir çıkqılı (*say*) – bir qədər.
Bir kərəm (*say)* – bir dəfə.
Bir öynə *(z.)* – gündə bir dəfə.
Bizdəmək (*f.*) – tələsdirmək.
Bəlgə /bəlgə taxmaq/ *(is.)* –1. qızın oğlana nişanlanması; 2. nişanlamaq. Qız və oğlanın razılığı ilə qızın barmağına üzük, başına yaylıq bağlayırlar, yəni nişanlayırlar.
Bərə (*is.)* – qoyunu sağmaq üçün ağac və ya daşdan hörülmüş hasar (*çəpər)*.
Bərəçi *(is.)* – qoyunları sağılan yerə tərəf səsləyib, sürən adam (*adətən, uşaqlar bərəçi olardılar).*
Boran (*s.*) – qarla birlikdə əsən şiddətli külək. Ağbaba mahalında çox boran olardı:

Hacıleyləyin boranı (*Novruza 8-9 gün qalmış),*
Xıdır Elləzin boranı *(fevralın 9-u və ya 10-nu),*
Qaranquş boranı (*Novruz ərəfəsində)* və s.
Hacıleyləyin boranına "*səkkizə gəlməz, doqquza qalmaz"* deyirdilər.
Bordax ***(s.)*** – tədarük *(kəsilmək*) üçün kökəldilmiş, bəslənilmiş heyvan.
Boğanax (*s.*) – burula-burula əsən külək.
Boğaz (*s.*) – qarnında balası olan heyvan.
Boylu (*s.*) – hamilə qadın.
Buana (*s.)* – bu yana.
Buğ ***(is.)*** – buxar.
Buğarsax (*s.*) – avara-avara, işsiz-gücsüz həmişə bir yerdə gəzən insanlar (*cavanlar).*
Bulaşıx ***(s.)*** **–** sözü-əməli düz olmayan, sözgəzdirən, araqarışdıran adam.
Bulğur (*is*.) – bişirilib qurudularaq qış üçün tədarük görülən ağ buğda.
Bulul (*is.)* **–** biçin yerindən sıra ilə topa-topa yığılmış ot.
Burux ***(s.)*** **–** xayası əzilmiş erkək toğlu.
Buruxçu (*is.*) – heyvan axtalayan adam.
Burunnamax (*s.*) – gözü götürməmək, istəməmək.
Buzoyçu (*is.*) – danaotaran.
Bürüşüx' /domuşux'/ *(s.*) – həmişə bürüşərək gəzən adam**.**
Bülöy \masat/ ***(is.)*** **–** kəsici alətləri itiləmək üçün işlədilən sivri daş.
Büvü (is.) – bibi.
Çağa /bəbə/ ***(is.)*** **–** körpə uşaq.
Çalxeyçi /çaxnaxçı/*(s.)* – sözgəzdirən, aravuran

adam.
Çalası (*is.*) – qatıq çalmaq (*hazırlamaq*) üçün maya.
Çarıx (*is.)* – mal gönündən tikilmiş ayaqqabı.
Çarpaşıx (*s.)* – dolaşıq.
Çatı (*is.*) – ipdən toxunan yoğun bağ.
Çatılamax (*f.*) – bağlamaq.
Çataxlı (*s.*) – bir-birinə bağlı, ortaq.
Çaş *(s.)* – çəpgöz.
Çaxal /çaqqal/ (*s.*) – göygöz adam.
Çəlimsiz (*s.)* – bədəncə zəif adam.
Çəm (*is.*) – üsul, qayda.
Çəngə /büküm (*say)* – bir xışma yun, bir büküm ot
Çır-çırpı (*is.*) – qırılmış kol-kos.
Çıqqılı (*s.)* – balaca.
Çılpaxlıx (*is.*) – paltar-palaz.
Çıra /çırax/ (*is.*) – şüşəsiz neft lampası.
Çirtmə (*is.*) – təpik.
Çıtdama (*is.)* – tum.
Çimbiz /cumbuz/ (*is.)* – çayırlıqdan kəsilən və bitki kökləri ilə bərkimiş torf.
Çivin /çibin/ (*is.*) – qara milçək.
Çoydar /çovdar/ (*is.*) – dənli bitki.
Çüy (*is.*) – çivi, paz.
Cadı (*is.)* – arpa unundan bişirilən çörək.
Cam /ayna/ (*is.*) – şüşə.
Cəncəl (*s.*) – çətin, davakar adam.
Cıdırrəngi (*is.*) – oyun havası.
Cıkqır /cıqqırını çıxartmamaq/ (*f.*) – səsini çıxartmamaq, sakit oturmaq.
Cılız (*s.)* – zəif, arıq.

Cılxa (*s.*) – təmiz, sümüksüz ət.
Cınqır *(is.)* – su qabı, vedrə.
Cır-cında (*is.*) – əski parçaları.
Cırı (*s.*) – çoxyeyən.
Cırtqoz /tətələbaz/ (*s.*) – lovğa, özündən deyən.
Cıvıtmax (*f.*) – ağzından qaçırmaq, xəbərçilik etmək.
Cızdax *(is.)* – yağda qızardılmış xırda ət parçası.
Cızıx *(s.)* – əl ilə çəkilmiş nazik xətt.
Ciji (*is.)* – ana.
Comart /comərd/ (*s.*) – mərd adam.
Cuna (*is.*) – tənzif.
Dalda /daldey/ (*s.*) – xəlvət.
Dalağı sancmax (*f.)* – şübhələnmək.
Dam (*is.*) – ev mənasında: ev damı, təndir damı, yan damı.
Damnançıxma *(is.)* – birillik dana.
Damazdıx (*s.)* – saxlamaq üçün seçilən ev heyvanı.
Dambat /danbat/ (*s.*) – lovğa, ədəbaz.
Dana-dolux (*s.*) – dikbaş, böyüklərə söz qaytaran cavanlar.
Dana – da, də ədatı.
Daramat vaxtı (*z.)* – tədarük vaxtı.
Davanqırma (*z.*) – ardınca, arxasınca.
Dazalax (*s.*) – keçəl.
Dəngəsər etmək (*z.*) – bezdirmək, yormaq.
Dəyə (*is.*) – biçilmiş otdan düzəldilmiş müvəqqəti alaçıq.
Dəymətüşər *(s.)* – ərköyün uşaq.
Dəlmə (*is.*) – qışda buz bağlamış yerdən su çıxartmaq üçün açılmış oytuq, deşik.

Dılğır (*s.)* – geridəqalan, mərifətsiz, el içində yerini bilməyən adam.
Dımbılı /qaqala/ (*s.*) – kiçik, balacaboy, bəstəboy adam.
Dınqılı /dıkqılı/ (*say*) – az, azacıq miqdarda.
Dırınqı *(is.)* – şənlik, musiqi.
Dınaz (*s.*) – tənə, minnət.
Dığırranmax *(z.)* – hellənmək.
Dirədöymə (*is.*) – oyun adı.
Dolamaq (*f.*) – kiməsə rişxənd etmək, onun pis əməllərini lağa qoymaq.
Don (*s.*) – soyuqqanlılıq.
Döl (*is.*) – nəsil (*heyvanlarda cins).*
Dölbaşı (*is.)* – döl vaxtı ilk doğulan quzuya deyilir.
Dunux (s.) – key (adam).
Düdüx' *(s.)* – boş-avara gəzən, yalançı, yüngül adam.
Düdəmə (*s.*) – səfeh, gic.
Düşüx' /tüşük'/ (*s.*) – yerli-yerində danışmayan, yerini bilməyən adam.
Dürzü (*s.*) – namussuz, qeyrətsiz, başqasının namusuna göz dikən.
Dürrəx' (*s.*) – ikiüzlü adam.
Dümsükləmək (*z.)* – insanı yan tərəfindən yumşaq vurmaqla diqqətini cəlb etmək, yönəltmək.
Ertə (*z.*) – səhər tezdən.
Eşik qapısı (*s.*) – həyətin və ya evin bayıra açılan birinci qapısı.
Eşik (*z.*) – bayır, həyət.

Eymənməx (*f.*) – diksinmək, qorxmaq.
Əbəjdad (*is.*) – əsl, kök.
Əfçi /həfçi/ *(s.)* – qadın işinə qarışan kişi.
Əkə (*s.*) – həyat təcrübəsi olan yaşlı adam.
Əkə-pükə (*s.*) – sayılan, el içində hörməti olan yaşlı kişi və ya qadın.
Əmlix' (*s.)* – anasını əmən quzu.
Ərincəx' /əringəc/ (*s.*) – tənbəl.
Ərinməx' *(z.)* – könülsüz, həvəzsiz olmaq.
Ərsiyə gəlməx' (*f.*) – böyümək, inkişaf etmək.
Əcələ (z.) – tez, təcili, cəld.
Əsən (*is.)* – ehsan.
Əsənnix' (*is.)* – ehsan üçün nəzərdə tutulan heyvan.
Əşşi /əşi/ (*is.*) – kişi cinsindən olan insana müraciət.
Ətqava (*is.)* – advokat, vəkil.
Ətənə (*is.*) – mal-qoyun, eləcə də at balalayandan sonra ifraz olunan ət parçası.
Əyrimçə (*s.*) – çirkin, ayaqları nazik, yöndəmsiz adam.
Əyiş-uyuş (*s.*) – əyri-üyrü.
Faraş (*s.*) – vaxtından əvvəl, erkən, tez.
Fatma nənənin qurşağı – yağışdan sonra yaranan 9 rəngli qövsi-qüzey.
Fırıx (*z.)* – pis.
Gejdənnərim (*z.*) – tezdən.
Gəbərmək *(s.*) – murdar olmaq, istifadəyə yararsız olmaq.
Gədə /gədəlix'//düdəmə/ (*s.*) – nakişi, görməmiş.

Gədə /ədə/ *(is.)* – oğlan uşağına müraciət.
Gənə (*z.*) – yenə.
Gəvəzə (*s.*) – avara, boşboğaz, boşdanışan.
Gəvəzə-gəvəzə (*z.*) – avara-avara.
Gəzərgi (*s.*) – yoluxucu xəstəlik.
Gic /gij/ /gic-gic/ (*z.*) – axmaq, axmaq-axmaq.
Gop (*is.*) – yalan, uydurma.
Gor /qavır/ (*is.*) – qəbr, qəbr yeri.
Gödən (*is.*) – mədə.
Görk olmax /haydarax olmaq/ (*f.*) – biabır olmaq.
Götrüm düşmək (f.*)* – haldan, illacdan düşmək.
Gözdüx' /açki/ *(is.)* – eynək.
Günü (*is.*) – kişinin ikinci arvadı.
Ha:n /ahan/ – bəli.
Hancarı /həncəri/ /nəncəri/ (*s.*) – necə, nə cür.
Harava /arava/ *(is.)* – araba.
Hasa (*is.)* – əsa.
Hasant (*s.*) – asan.
Hayan olmaq *(f.)* – halına acımaq, kömək etmək.
Haydarax *(s.)* – biabırçı.
Haydarax etmək (f.) – biabır etmək.
Hayxırmax (*f.*) – bəlğəm tüpürmək.
Heyvərə (*z.*) – kobud, iri kök.
Hertix' (*s.)* – həyasız qadın.
Hələkə /höləkə/ *(s.)* – tələsik.
Hətərən-pətərən (*z.*) – söyüşlü, yersiz danışan, gobud,
Həndəvər (*s.*) – ətraf.
Hay-həşir (*is.*) – səs-küy.
Həyə (is.) – 1. qızın razılığını valideynlərdən almaq. 2. bəli.

Huşdurum ***(s.)*** – huşu olmayan, ağılı az olan adam.
Hodax (*is.*) – öküz kotanını sürən uşaq.
Hopdum (*z.)* – malın hamısını bir yerdən almaq.
Hoyxurmax (*f.*) – ağzı ilə isti nəfəs verərək üfürmək.
Hoylu (is.) - dəhliz, evin çöldən giriş hissəsi nəzərdə tutulur.
Hödürsüz (*s.*) – tərbiyəsiz, qanacaqsız, mərifətsiz.
Höcət /höcətdix/ ***(s.)*** – inad, inadkarlıq.
Xafçı /xəfçi/ (*is.)* – süd dəyişən qadın.
Xam yer (*s.*) – əkilməmiş yer.
Xar olmax *(s.*) – biabır olmaq.
Xartax ***(s.)*** – saxta.
Xaşal ***(s.)*** – qarnıyoğun, yekəqarın.
Xuy (*s.*) – xasiyyət.
Xeyrət (*is.)* – ehsan.
Xeyirxon /xonaxa/ (*is.*) – xeyirxah.
Xəbis (*s.*) – paxıl.
Xərəx' (*is.)* – əkinin arasında qalan xam yer.
Xəfə (*s.)* – hava çatışmayan yer.
Xəsərrət (*is.*) – ziyan, zədə.
Xəşənəx (*s.*) – öskürək.
Xımır-xımır (*z.*) – az-az, yavaş-yavaş.
Xımsı ***(s.)*** – sirli adam.
Xıncım-xıncım (*z.)* – əzik-əzik.
Xillix' (*is.*) – yağışda geyilən yapıncının *(üst geyiminin*) başlığı.
Xıs (*is.)* – dəm qazı.
Xon açmax ***(z.)*** – qonaqlıq etmək.
Xorum (*say)* – bir büküm ot.

Xortdax (*is.*) – cinə oxşar arıq, çəlimsiz bir mifoloji varlıq.
Xuruşdu /qurddu/ (*s.*) – paxıl, araqarışdıran.
Xuygar /xuygir/ (*s.*) – hər şeydən ülkən insan *(mal və ata da aid edilir).*
İcəşməx' (*z.*) – sataşmaq.
İdim (*s.*) – görkəm, pis zahiri görünüş, pis geyim.
İdimsiz *(s.)* – kifr, çirkin, zahiri görünüşü pis olan adam.
İlitmə /əntər/ (*s.*) – 1. boş bişirilən yumurta 2. bəzi hallarda boş, halsız gəzən adamlara deyilir.
İrişməx' /qımışmax/ (f.) – yersiz hırıldamaq, şit-şit gülmək.
İsmarış (*is.*) – xəbər, sifariş.
İt xılı (*say*) – çoxlu.
Karsala /dunux/ (*s.*) – bivec, sözeşitməyən, səfeh.
Kaftar *(s.)* – çox qocalmış, vaxtı keçmiş.
Kalafa (*is.*) – sahibsiz və istifadə olunmayan yer.
Keçənnərdə /o dönəmdə/ (*z.*) – keçmiş günlərdə, o vaxtlarda.
Kəlpeysər /zırrama (*s.*) – qanmaz, ətli-canlı, gobud.
Kəm /kəm olmaq/ (*say*) – yarımçıq, qabın ağızına qədər dolmaması.
Kərdiyar *(s.)* – arpa və buğdanın qarışığı.
Kərki *(is.)* – dülgər aləti.
Kərəm (*num.söz*) – dəfə.
Kəsə (*s.*) – qısa.
Kəsix' (is.) – qız övladı.

Kir /kirri/ (*s.*) – çirk, çirkli.
Kirimiş (s.) – sakit.
Korrux çəkməx *(z.)* – maliyyə cəhətdən əziyyət çəkmək.
Köntöy (*s.)*– kobud, tərs.
Kükrəməx' (*s.*) – hirsindən titrəyən adam.
Künkün /qüzdüx'/ /qüzdüxlü/ /dırda/ /dırdalı/ *(s.*) – beldəki şiş, künkünlü adam.
Kür /partdamış/ (*z.*) – dəcəl.
Kürək (*is.)* – bel, kənd təsərrüfatı aləti.
Külfət (*is.)* – üzvlərinin sayı çox olan böyük ailə.
Qada *(is.)* – ağrı.
Qadı-qadı /yekə-yekə/ *(z.)* – lovğa-lovğa, böyük-böyük.
Qağa (*is.)* – böyük qardaş və ya əmioğluna müraciət forması.
Qahmadar /qəhmər//qahmar/ /qarrahlanmaq/ (*s.*) – tərəfdar olmaq, müdafiə etmək, kiminsə tərəfini saxlamaq, kiməsə arxalanmaq.
Qaxınc /qaxı/ /lateyir/ *(s.*) – müəyyən bir pis iş görmüş adamın eybinin üzünə vurulması.
Qanıx *(s.)* – adam tutan it.
Qanoy (*is*.) – xəndək, yarğan.
Qançır *(z.)* – bədənin hər hansı bir hissəsinin əzilərək içinə qan dolması.
Qancıx (*s.)* – dişi it.
Qantar (*is.*) – hər iki tərəfdən vedrələrin asıldığı, çiyində su daşımaq üçün alət.
Qantarğa /yüyən/ (is.) – atın sürətini azaltmaq və idarə etmək üçün ağızına verilmiş bağlantı.
Qaravəlli (s.) – məzmunsuz danışıq, yalan, uydurma.

Qarayola /gora/ (*s.*) – cəhənnəmə, gedər-gəlməzə.
Qaraçı (*s.is.*) – 1. xəsis; 2. dilənçi.
Qaradavan (*s.*) – uğursuz, xeyir gətirməyən.
Qarğın (s.) – yaz aylarında qar suyunun əriyərək birdən və gur gəlməsi.
Qarqara (*s.*) – hər hansı zədə almış və ya dişin çəkilməsindən sonra yaralanmış yerin duzlu su ilə yuyulması.
Qarayel (*s.*) – dağ yeli, şimal küləyi.
Qart *(s.)* – qoca, yaşlı, vaxtı keçmiş.
Qaroy (*s.*) – axşamtərəfi zəifgörmə.
Qaroyul (*is.*) – gözətçi.
Qarğaburnu (*is.*) – qapı cəftəsi.
Qayırmax (*f.*) – düzəltmək.
Qaşqa *(s.)* – sözü üzə və sərt deyən adam.
Qaş qaralanda (*z.*) – axşam üstü, hava qaralanda.
Qəhət /qəhətliyə çıxmaq/ (*s.*) – yoxlux, qıtlıq, tapılmamaq.
Qəleyçi (*is.*) – mis qazan, kəfkir kimi məişət əşyalarını qalaylayan sənətkar.
Qəmə /pıçax/ (*is.*) – hər iki tərəfi iti olan bıçaq.
Qənşər (s.) – qabaq, ön tərəf.
Qəşmər (*s.*) – tumarlı.
Qəttəzə (*s.*) – lap təzə.
Qığılamax (*f.*) – qoyunun və ya dovşanın peyin ifraz etməsi.
Quloyşa /qılovşa/ (*s.*) – yaltaq, ikiüzlü.
Qılıx /qılıxlanmax*/ (s.)* – yaltaq, yaltaqlanmaq, qarşıdakına xoş olsun deyə süni xoş münasibət göstərmək.
Qımcırramax (*f.*) – atmaq, tullamaq.

Qımıllamax (*f.*) – yerində tərpənmək.
Qımışmax /irişmək/ (z.) – 1. zərif gülüş, 2. şit-şit gülmək.
Qıncıx /qıncıtmax/ (*z.*) – kəsik, əzik, kiçik kəsinti.
Qırbora /şit/ (s.) – çox duzlu.
Qırışmal (*s.*) – söyüş növü.
Qırxılıx (*is.*) – qoyunu qırxmaq üçün işlədilən iri qayçı.
Qırtım (*say*) – bir az.
Qırğın (*is.*) – dava-dalaş, ölüm-itim.
Qızmax (*z.*) – hirslənmək.
Qıyımcıl (*s.*) – əli açıq, səxavətli adam.
Qısır (*s.*) – doğmayan heyvan.
Qıç /qılça/ (*is.*) – ayaq, baldır.
Qodux-modux /day-dolux/ (*s.*) – şəxsiyyətsiz adam.
Qolley (*s.*) – quyruğu kəsik it.
Qomarğa /qomarramax/ *(z.)* – mühasirə, ətrafını tutmaq, mühasirəyə almaq.
Qom (*say)* – dəstə.
Qor /köz/ (*is.)* – xırda ocaq külü.
Qoşam /oyuc/ (*say*) – ovuc.
Qulağagirən (*is.*) – gildan (*həşərat)*, əsasən yerdən basırılmış təndirin ətrafında olur.
Qunut (*is.*) – qamçı.
Qurna /qurnalı bulaq/ (*is.*) – bulaq suyu tökülən boru.
Qurum (*is.*) – sobanın hisi.
Qurama (*s.*) – yalan, uydurma.
Quzulamax (*f.)* – divarın rütubətdən ovulub tökülən suvağı.

Qüzdühlü /dırdalı/ (*s.*) – qozbel.
Lafazan (*s.*) – özündən deyən, özünü öyən (adam).
Lakqırtrı /məzələnmək/ (s.) – boş-boş danışıq, mənasız söz-söhbət.
Lateyir /qaxı/ (*s.*) – başqası haqqında yersiz və ədəbsiz sözlər.
Lavıd olmaq (*z.*) – yararsız hala düşmək.
Ləçər /hertiy/ (*s.*) – həyasız qadın.
Lədim /lədim-lədim/ (*s.*) – avara-avara, boş-bekar gəzən adam.
Ləliməx' (*z.*) – yalvarmaq.
Lələün (*s.*) – acgöz, görməmiş.
Ləpix' (*is.*) – yastı, yuxa daş.
Ləvərə (*s.*) – iri dodaq.
Ləvin-ləvin (*s.*) – növ-növ, cürbəcür.
Ləvənd (*s.*) – qoçaq, igid.
Lıg /palçıx/ /lığlığa/ (*s.*) – gilli, nəmli torpaq, bataqlıq.
Lıxçım (*say*) – dopdolu, ağzına qədər.
Lodur (*s.*) – tənbəl.
Loppbaz /lofbaz/ /gopcul/ (*s.*) – eqoist, lovğa.
Loxma (*is.*) – tikə.
Loş /loşka/ (*s.*) – tənbəl.
Löyünbəlöyün (*s.*) – cürbəcür, müxtəlif növ və formalarda.
Mağıl /ehmallı/ (*z.*) – ehtiyatla, ehmalca.
Mağmun /mağmın/ (*s.*) – fərsiz, fağır, yazıq.
Mağallax aşmax (*f.*) – irəliyə və ya geriyə doğru başüstə fırlanmaq.
Mahna /girəvə/ (*is.*) – bəhanə.
Maliyyət (*is.*) – dəyər.

Manşır (*is*.) – nişan.
Marıt / /marıtdamax/ /güdməx/ (*is.)* – pusqu, pusmaq, pusquda durmaq.
Maya (*is.)* – 1. dırnağın dibi; 2. Pendir hazırlamaq üçün məhlul.
Mayıf *(s.)* – zəif; gözdən şikəst adam.
Maymax (*s.)* – sadəlövh, ağılsız, hər sözə inanan.
Mazax /mazaxlaşmax/ (*is.*) – zarafat, zarafatlaşmaq.
Mazarrat (*s.)* – zarafatcıl.
Mazıx (*is*.) – iri quyruqlu qoyun növü.
Mazğal (is.) – tövlədə malın peyininin (*axbun)* yığıldığı yer.
Mərəkə *(is.)* – yığıncaq.
Mızmız /dız-dız/ (*s.*) – hər şeydən tez-tez küsüb ağlayan.
Mız qoymax (f.) – hər şeyə bir qulp qoyan adam.
Mığı /mığmığa/ /çivin/ (*is.*) – xırda milçək növü.
Mıncılıx *(s.)* – əzik-üzük.
Mırt /mırtdı/ (*s.*) – çirk, çirkli.
Mısmırıx /mısmırığını salmax/ *(s.*) – qaşqabaq, qaşqabağını tökmək.
Mitil (*is*.) – yorğan-döşək.
Muçux /sızanax/ *(s.)* – səpki.
Müdəm *(z.)* – həmişə, davamlı.
Modyam /modyam olmaq/ (*is*.) – ortaq, şərik; şərik olmaq.
Naçax /naçaxlamax/ (*s.*) – xəstə; xəstələnmək.
Naxoş *(s.)* – xəstə adam.
Nətarəz /nataraz/ (*s.*) – tərs, görkəmsiz adam.
Nəm-num etmək /nala-mıxa vurmaq/ (*z.)* – konkret danışmamaq.

Nəmər /peşkəş/ *(is.)* – hədiyyə, sovqat.
Nırx (*is.)* – qayda-qanun.
Nıxt /nıxtı qurumax/ (*is.*) – nitq; nitqi qurumaq, susmaq.
Nıxqız /nıxqızdıx/ *(s.)* – xəsis, əli bərk adam; xəsislik.
Niyaz /nəzir-niyaz/ (*is.)* – nəzir növü.
Obaşdannan (*z.*) – səhər tezdən.
Otkəsən (*is.*) – alət.
Öc almax /öcəşmək/ (*z.*) – heyif almaq; sataşmaq, mübahisə etmək.
Öddəh /öddəxlix/ (*s.*) – qorxaq; qorxaqlıq.
Öfkə (*is.)* – ağciyər.
Öy (*is.*) – ev.
Öylə yeməyi (*z.*) – axşam yeməyi.
Ömürbillah *(z.*) – həmişə.
Paça *(is.)* – iki ayağın arası.
Paxır /ayıf/ (*s.)* – eyib, nöqsan.
Pambılı /bambılı/ (*s.*) – yüngül xasiyyətli, hər şeyə inanan adam.
Pambax /ölüvay/ (*s.)* – əlsiz-ayaqsız, bacarıqsız adam.
Papış /çust/ (*is.*) – ayaqqabı.
Parç (*is.*) – dolça.
Partdamıya düşməx (*z.*) – xəstəlikdən ölmək.
Partoy (*s.*) – danışığında söyüş işlədən adam.
Pasax /pasaxlı/ (*s.*) – çirk; çirkli, səliqəsiz.
Patısqa (*is.)* – ağ parça.
Patava /patavalı/ (*is.*) – çəkmə geyərkən ayağa dolanan bez.
Pazax (*s.)* – çox arıq.
Pay-pülüş (*is.*) – hədiyyələr.

Perti /herti-perti / (*s.*) – yekə, yöndəmsiz, qanmaz.
Peşkir (is.) – əl-üz dəsmalı.
Pəl vurmax (*z.*) – mane olmaq.
Pəpə /əppə/ (*is.*) – çörək (*uşaq sözü).*
Pırpız (*s.*) – dağınıq, səliqəsiz saç.
Pıxmax (*f.*) – doymaq.
Pıtraq (*is.*) – yabanı ot.
Pışqa *(is.)* – kibrit.
Pişməcə (*s.*) – bükük yerlərdə istidən və sürtünmədən əmələ gələn yara.
Pitdə-pitdə (*say*) – bircə-bircə, tək-tək.
Pombul *(is.)* – kəkil, püşkül.
Postal (*is.*) – ayaqqabı.
Poşa (*s.*) – həyasız, üzlü adam.
Pota /yoğun/ (*s.*) – kök.
Potun (*is.*) – yarımboğaz ayaqqabı.
Puçur (*is.*) – günah, səhv.
Pul-pul olmaq (*s.*) – utandığından qızarmaq.
Püş (*is.*) – qoyunun quru peyini.
Raqqı /savın/ (*is.*) – əl-üz sabunu.
Sacayağı (*is.*) – sacın və ya qazanın altına qoyulan üçayaqlı dəmir.
Sağdış /soldış/ (*is.*) – evlənən qız və oğlanın toy yoldaşları.
Sal (*s.*) – yastı daş.
Sala getməx' (*s.*) – ayaqyolu xəstəliyi.
Salaxanta /sümsük/ /sümsünməx'/ (*s.*) – avara, sırtıq, gəzəyən; qapıları gəzmək.
Salıx /solux/ (*is.*) – xəbər, soraq.
Sapant (*is.)* – daş atmaq üçün işlədilən alət.
Saşma /sacma/ /*is.*) – təzəyin kiçik qırıntısı.

Savırğa (*is.*) – qabırğa.
Sayır /sayrılıx/ (*s.*) – xəstə, xəstəlik.
Sazdamax (*z.*) – hazırlamaq.
Sazax *(s.)* – soyuq, şaxtalı külək.
Sevə /peç/ *(is.)* – soba.
Sədəf (*is.*) – düymə.
Səfər (*num. söz)* – dəfə.
Səmə /səmə-səmə yerimək/ (*z.*) – boş-bekar, avara gəzmək.
Səngiməx (*s.*) – zəifləmək.
Sərsəm *(s.)* – bivec, ağılsız.
Səy *(s.)* – ağıldan kəm.
Səyəllənməx (*z.*) – başı fırlanmaq, gicəlləmək.
Sıcax (*s.*) – isti.
Sırt (*z.*) – arxa.
Sırtıx (*s.*) – boş-boşuna deyib gülən, arsız adam.
Sıra /novat/ (*say*) – növbə.
Sımarış (*is.*) – xəbər.
Sızqı (*s.*) – zəif axan su.
Şıdırğı (s.) – güclü, aravermeyən yağış.
Sırımaq *(z.)* – hər hansı əşyanı işə keçirtmək.
Sicilləmə (*s.*) – uzunçuluq.
Siftə *(z.)* – ilk dəfə.
Simsar (*is.*) – qohum-əqraba.
Simic *(s.)* – xəsis.
Sinəx' (*is.*) – milçək.
Sinirmək (*z.*) – həzm etmək.
Sitəm (*z.*) – zülm, əziyyət.
Solux *(is.)* – nəfəs.
Soluğu gen – səbrli.
Sortuxlamax (*f.*) – əmmək.
Sortux (*say*) – bir udum.

Soysur (*s.)* – adama yovuşmaz, soyuq adam.
Soysuz (*s.*) – köksüz, əslsiz-nəslsiz adam.
Soyxa /soxa/ (*s.*) – miras şey.
Sucuxmax (*s.*) – günahını (*suçunu*) hiss etdirmək.
Suç (*is.*) – günah.
Sudurğa *(s.)* – bayılma xəstəliyi.
Suruğvat (*s.*) – yaddaşsız, yaddaşı zəif, unutqan adam.
Suyu axmaq (*s.*) – tamah salmaq.
Suyux (*s.*) – 1. hər şeyə tamah salan, acgöz; 2. iradəsiz, tez yola gələn adam.
Südəcər (*s.*) – doqquz aydan bir doğulan uşaqlar.
Sürmə (*is.)* – 1. cəftə; 2. gözə vurulan kosmetik məhlul.
Sütül *(s.)* – cavan.
Süstənməx *(z.)* – bəzənmək, özünə sığal vermək.
Şadara (*is.*) – taxılın sar-samanını əliyib çıxarmaq üçün işlədilən iri gözləri olan əl aləti.
Şamarta (*is.)* – səs-küy.
Şapalax /şillə/ *(is.)* – sillə.
Şennix' (*is.*) – camaat, yığınaq, toplum.
Şen olsun – həmişə evdə var-dövlət, şənlik olsun.
Şey /zad/ (*is.*) – insanların unutduğu və ya işlətməkdə çətinlik çəkdiyi zaman ilk köməyinə gələn ifadə.
Şələ (*s.*) – arxada aparılan iri ot bağlaması.
Şəngi (*is.*) – balaca it.
Şərxata /şarxata/ /şələ-şülə/ – nadinc, dəcəl, sözü ilə əməli bir olmayan adam.
Şərqavışan /axşamüstü/ (*z.*) – qaranlıq düşən vaxt.
Şətəl (*s.)* – xatakar.

Şəvədə /şəvədəyə qoymaq/ (*s.*) – məsxərə, rişxənd; lağa qoymaq.
Şortu *(s.)* – həyasız, açıq-saçıq geyinən.
Şümür *(s.)* – 1. göygöz; 2. insafsız.
Şümşət (s.) – hamar, sürüşkən.
Şüvən /şivən/ (*is.)* – ah-nalə, ağlaşma.
Taxça (*is.)* – evin divarında hazırlanmış boş yer.
Tarım (*s.*) – bərk, möhkəm.
Tava (*is.*) – balaca qazan.
Tavot (*s.*) – fərq.
Ten /tenni/ (*s.)* – nəm, yaş; nəmli.
Teşt /lahanka/ *(is.)* – ləyən.
Tələf olmaq (*z.*) – ölmək.
Təhnə (is.) – ağacdan düzəldilmiş iri qab.
Tənzif (*is.)* – cuna.
Tənə /tənəli söz/ (*is.)* – 1. sırğa; 2. tikanlı ifadələr.
Tənbəki /təmbəki/ *(is.)* – tütün.
Təntiməx' (*z.*) – tələsmək, özünü itirmək.
Təpələmə (*say*) – dolu.
Təpər (*s.*) – dözüm, davam.
Təpiməx' (*z.*) – qurumaq.
Təpinməx' (*z.*) – acıqlanmaq, üstünə hirslənmək.
Təsif (*is.*) – qeyrət.
Təzək /kərmə/ (*is.)* – mal-heyvanın peyinindən hazırlanan və yanacaq kimi istifadə edilən məhsul.
Tərəx' (*is.*) – qab qacaq düzmək üçün divara bərkidilən taxta.
Tımoy /səlim*/ (s.)* – qrip xəstəliyi.
Tıncıxmax *(s.*) – bezmək, darıxmaq.
Tilişkə /qamqalax/ (*is.*) – ağacın və ya taxtanın iti yonqusu.

Toxanba ***(s.)*** **–** kinayə, rişxənd.
Tomarı (*say)* – top, çox, bütövlükdə, hamısı.
Topuş /popuş/ (*s.*) – kök, sifəti yumru uşaq.
Alatoran ***(z.)*** **–** alaqaranlıq.
Toxlux ***(s.)*** **–** ac olmamaq.
Tova /tovalatma etmək/ (*is.*) – tövbə, tövbə etmək.
Törəlçə (*s.*) – həyasız, ərköyün, pisdən törəyən.
Tövr (*s.*) – cür.
Tulamazdamaq (*f.)*– atmaq, tullamaq.
Tutumcul (*s.*) – qənaətcil.
Tutuşdurmaq ***(z.)*** **–** müqayisə etmək.
Tuş (*is.)* – yuxu.
Tülküsufat /tülküyoysunnu/ (*s.*) – hiyləgər.
Tünnüx' *(s.)* **–** qarışıqlıq.
Tütyə (*is.)* – mis qab.
Ura yeri ***(z.)*** **–** yığılmış bostan bitkilərinin yeri.
Urğan /urğun/ ***(is.)*** **–** kəndir.
Urcah olmax (*z.*) – rast gəlmək.
Urvat /urvatdı/ (*s.)* – ədəb, mərifət; hörmətli.
Ustufla (*z.*) – ehmalca, yavaşca.
Uyuşmax (*z.*) – keyimək.
Ün ***(is.)*** **–** səs, səda.
Ürgə /üryə/ (*is.*) – 3 yaşa qədər olan erkək at.
Ütələx' /teztab/ /ütələnmək/ (*s.*) – 1. tələsik; 2. tələsmək, vurnuxmaq.
Üşütmə (s.) – soyuqdəymə.
Üz (*is.)* – qaymaq.
Üzbəsufat (*s.*) – üzbəüz.
Üzəngi (*is.)* – at yəhərində qıç qoymaq yeri.
Üzdəməx' (f,) – yorğan-döşəyə üz çəkmək.

Vasvası (*s.*) – çox danışan, zəhlətökən adam.
Vayına oturmax – ölməyini görmək (*qarğış).*
Veran/veranxana/ (*s.*) – xaraba, xarabalıq.
Vərəvurd etmək – götür-qoy etmək, düşünmək.
Vız keçməx' – hədəfdən uzaqlaşmaq.
Yadırğamax (*s.)* – unutmaq.
Yağı /kafir/ (*is.*) – düşmən.
Yağır (s.) – insan və heyvanlarda sürtünmədən əmələ gələn yara.
Yaxı (*is.)* – yumurtanın sarısı və ağının unla qarışdırılaraq sınıq işlərində işlədilməsi.
Yaxalıx (*is.*) – köynək.
Yaxanmax /yaxalanmaq/ (*f.*) – yuyunmaq.
Yalax (*s.)* – ikiüzlü, yaltaq.
Yalama (*is.)* – daş duz.
Yalınqat (*s.*) – 1. bir qatlı hörgü;
2. yüngül geyinmək.
Yançax (*is.*) – heyvanın böyürü, yan tərəfi.
Yançı (*is.)* – qış vaxtı (*döl vaxtı*) heyvan fermalarında çoban köməkçiləri.
Yanpörtü (*z.)* – yanakı, çəpəki, əyri.
Yarımənsil /yarıməhsul/ (*s.*) – məhsulun itkiyə verilməsi.
Yassar *(s.)* – çirkin, gobud.
Yaşdaş *(s.)* – həmyaşıd.
Yavanı /yavana/ (*s.)* – başlı-başına, sahibsiz.
Yava /yaba/ *(s., is.)* – 1. kobud, qanmaz;
2. ot yığmaq üçün alət.
Yayxana-yayxana *(s.)* – nazlana-nazlana.
Yaylıx (*is.*) – cib dəsmalı.
Yazı (*is.*) – çöl.
Yeə /yə:/ (*is.)* – sahib.

Yekə /iri/ ***(s.)*** – böyük.
Yekəxana ***(s.)*** **–** lovğa, eqoist.
Yekinməx' (*z.*) – yerindən qalxmağa cəhd etmək.
Yekələnməx' /şişməx'/ (*z.*) – özünü böyütmək, lovğalanmaq.
Yel ***(is.)*** – 1. külək; 2. revmatizm xəstəliyi.
Yelli /yeyin/ (*z.*) – cəld, tez, sürətli.
Yelin (*is.*) – dişi heyvanın süd vəzləri olan hissə.
Yelinnəməx' (*s.)*– doğum ərəfəsində heyvanın yelinin şişməsi, süddən kəsilməsi.
Yelən (*is.*) – kəlağay, paltar, yorğan və digər şeylərin ətəyinə, qırağına salınan haşiyə.
Yelbeyin (*s.)* – ağılsız, hər şeyə inanan, yüngül adam.
Yemşəx' /yaşmax/ (*is.*) – ağıza çəkilən örtük.
Yetix olmax (*f.)* – öyrənmək, bələd olmaq.
Yeyax (*z.*) – piyada, ayaqla getmək.
Yeznə (is.) – kürəkən.
Yərənnix' /yərənnih/ / yərənnix etməx'/ (*z.*) – zarafat, zarafat etmək.
Yığval /yıvğal/ (*is.*) – bəxt, tale.
Yığnax ***(is.)*** **–** məclis.
Yolçu ***(s.)*** **–** dilənçi.
Yovuşmax (*z.*) – mənəvi yaxınlıq.
Yoz (*is.)* – cavan mal-qara.
Yön (*s.*) – tərəf.
Yönübəri (*s.*) – xəstənin sağalmasının əlaməti.
Yumax ***(is.)*** **–** iri ip sarığı.
Zağa (*is.*) – mağara.
Zaha ***(s.)*** **–** təzə uşaq doğmuş qadın.
Zağar (*s.*) – boyda balaca və tərbiyəsiz adam.

Zatıqırıx (*s.*) – əsilsiz, nəsilsiz adam.

Zəvzəməx' (*z.*) – yalvarmaq.

Zəvzəx' (*s.*) – danışığını bilməyən, çoxdanışan.
Zəzə (*is.*) – anaya deyilən ad.
Zığ (*is.*) – 1. gözə yığılan çirk; 2. palçıq.
Zırpı *(s.)* – iri gövdəli, nəhəng.
Zırrama *(s.)* – qanmaz, qanacaqsız.
Zing (*is.*) – mal-qoyun ətinin qol-bud və oma hissəsi.

Zınrıx' (*s.*) – qaranlıq.

Zirəx' (*s.*) – cəld, qoçaq.
Ziv getməx (*f.*) – sürüşmək.
Zoddu (s.) – güclü, qüvvətli.
Zukqum (*s.*) – acı, zəhər.
Züryət *(is.)* – övlad.

Lüğətin hazırlanmasında A.Bayramov və A. Bayramovanın "Azərbaycan dilinin Ağbaba şivəsi" (Bakı, "Elm və təhsil" nəşriyyatı, 2020, səh.2. 221. 234) kitabından istifadə edilmişdir.

KƏNDİMİZİN MİKROTOPONİMLƏRİ

Yer adları

AĞBABA – toponiminin etimalogiyası haqqında filologiya elmləri doktoru, professor A.Ağbaba yazır: "Ağbaba toponiminin tərkibindəki "*ağ*" sözünün ən uca, yüksək mənasında işlənməsi ehtimal ki, buranın Ağbaba yaylasının coğrafi mövqeyi dəniz səviyyəsindən xeyli yüksəkdə yerləşməsi və qarlı uca dağlarla əhatə olunması ilə əlaqədardır. Düzdür, burada müəyyən qədər həqiqət vardır. Bildiyimiz kimi, əsgi türklər uca dağlara dədə, baba\ Babadağ, Qarababa, Sarı baba, Hacıxəlil baba, Bağırbaba və s.\ demişlər. Ancaq dağlara baba deyilməsi, həm də onların zirvəsindəki övliyaların, müqəddəslərin ziyarətgahları ilə əlaqədardır. Buradakı "*baba*" sözündə hörmət, ululuq, müqəddəslik çalarları vardır.

Ağbaba, həm də qartalın bir növü olan quşun adıdır. Bu quş oğuzların Kayı//Qayı tayfasının onqonudur. Onqonun tayfa adına keçməsi, sonra da toponimləşməsi bir sistem kimi mövcuddur. Krım, Bolqarıstan, Türkiyə və Cənubi Azərbaycanda da Ağbaba toponimləri yayılmışdır.

ELLƏROYUĞU (ELLƏRKƏND) – Amasiya rayonunun ən ucqar kəndlərindən biri olmuşdur. Türkiyə, Ermənistan və Gürcüstan sərhədlərinin kəsişdiyi yerdə və dəniz səviyyəsindən 2140 metr yüksəklikdəki çoğrafi məkanda yerləşir.

TİKMƏDAŞ – Ellərkəndin şimalında böyük qayalığın adıdır. Hündür və sıldırım qayaların bir-birinə birləşməsi tikişə oxşadığı üçün Tikmədaş adlandırmışlar.

BÖYÜK GÜNEY – Ellərkəndin şimal-şərqində yerləşir və qonşu Güllücə kəndi ilə sərhəddəki Qalaça dağına qədər uzanan dağlar silsiləsinin adıdır.

KALLOY – Ellərkəndin şimal hissəsində – erməni yaylaları ilə sərhəd ərazidə yerləşən sahənin adı.

CÜT TƏPƏLƏR – Ellərkəndin şimal hissəsində bir-birinə paralel yerləşən iki kiçik dağ – təpələrin adı.

ÇELLİ TƏPƏ – Ellərkəndin şimal-qərbində, qoynunda kəndin müəyyən aileləri ev tikmiş təpə adı. Təpənin ətrafı çilli (*otun seyrək bitdiyi sahələr)* olduğuna görə el içində belə adlanırdı.

SÖYÜN KİŞİNİN TƏPƏSİ – Ellərkəndin şərqində kəndin sakini olan Söyün kişinin adını daşıyan təpə adı.

ƏLLƏZOĞLUNUN ARXACI – Ellərkəndin şimalında, Kalloy dağlarına gedən yolun solunda malqaranın saxlanıldığı yerə deyilir.

MİNGÖLLƏR – Ellərkəndin şimal-qərbində Ermənistan, Gürcüstan və Türkiyənin sərhəd zolaqlarının kəsişdiyi yerdə kiçik göllər qrupunun adı. Türkiyə sərhəddinə yaxındır.

AĞILLAR – Ellərkəndin şimal-şərqindəki Böyük Güney dağının qoynunda yan-yana olan qoyun arxaclarının adıdır. Ağıl (lar) mal-qara, qoyun-quzu yatağını bildirir.

QARA ARXAC – Ellərkəndin şərqində, qonşu Güllücə kəndinin şimalındakı dağda olan qoyun arxacının adı. Arxacın ətrafı iri qayalarla əhatə olunmuşdur.

QALAÇA – Ellərkəndlə qonşu Güllücə kəndinin sərhədindəki dağın və oradakı qədim qalanın adı. Zirvədəki qalanın hasarı və hasar içərisində qəbiristanlıq

da mövcud idi. Qəbiristanlıqdakı at və qoçheykəlli qədim qəbirlərə əsasən deyə bilərik ki, onlar Oğuz qalalarıdır.

DƏRİNDƏRƏ – Quzukəndin şimal-qərbindən başlayıb, ətrafı dağlarla əhatə olunan, Ermənistan, Gürcüstan və Türkiyə sərhədlərinin kəsişdiyi yerədək uzanan (*21 km)* və Ellərkəndlə də həmsərhəd olan dərənin adı. Müxtəlif rayonların yaylaq yerləri həmin dərə boyu yerləşirdi.

ƏLLƏZDİNİN DƏRƏSİ – Ellərkəndin qərbində, qonşu Çivinli kəndinin isə şərqində – iki kəndin sərhədində yerləşən dərə ad idi.

ƏLLƏZOĞLUYURDU – Ellərkəndin qərbində, qonşu Çivinli kəndinin isə şərqində, Elləzoğlu (*onlar Ellərkənddə yaşamışlar)* tayfasına mənsub olan qədim yaylaq adı. Elləzoğlular tayfası 1920-ci illərdə qonşu Türkiyəyə mühacirət etmişdir.

ƏSGƏRİN DƏRƏSİ – Ellərkəndin cənub-qərbində, zastava *(hərbi məntəqələr)* yolunun üstündə yerləşən dərəyə deyərdilər.

ÇƏTİNDƏRƏ – Ellərkənddən başlayıb, şimal-qərbə tərəf uzanan dərənin adı.

ƏFƏNDİNİN QAYABAŞISI – Ellərkəndin şimal-qərbindəki qayalığa deyərdilər. Keçmişdə əfəndilər adlı tayfanın ərazisində olduğu üçün Əfəndinin qayabaşısı demişlər.

GÜRCÜ ARXACI – Ellərkəndin şimal-şərqində olan arxacın adı. Qarayazı və Qaraçöpdən gələn türklərin mal-qoyun sürüləri bu yatağın ətrafındakı otlaqlarda yaylayardı.

ÖRTÜLÜ QAYA – Ellərkənddə qayalıq adı. Şimal tərəfdə olan bu qayalığın üst tərəfi irəli çıxdığı üçün Örtülü demişlər.

TAXCAQAYA – Ellərkəndin şimalındakı qayalığın adı idi.

USUFÖLƏN – Ellərkəndin şimal-şərqindəki qayalığın adı idi. 1912-ci ildə Ağbabalı Qaçaq Usubun burada kazaklar tərəfindən güllə ilə vurulduğu söylənilir.

DAVİDQIRAN – Ellərkəndin şimal-qərbində Cüt təpələr deyilən dağların yaxınlığında əkin yeri. Kənd sakini David kişinin xam sahəni əl kotanı (*öküzlərin qoşularaq işlətdiyi kənd təsərrüfatı alətinin adı)* vasitəsilə qıraraq əkin tarlasına çevirdiyi yer.

ŞÜKÜRQIRAN – Ellərkəndin şimalında Cüt təpələr deyilən dağların sonunda əkin yeri. Kənd sakini Şükür kişinin xam sahəni əl kotanı (*öküzlərin qoşularaq işlətdiyi kənd təsərrüfatı alətinin adı)* vasitəsilə qıraraq əkin tarlasına çevirdiyi yer.

MOLLANIN XIRMANI – Kəndin mollası olmuş Səyyad kişinin fərdi təsərrüfatına məxsus, ilin payız fəslində – məhsulun yığım dövründə taxılın yığıldığı yer.

MARAL QAYASI – Kəndin yuxarı - şimal tərəfində iri və yumru (*aval*) formada daş. Deyilənlərə görə, qədim dövrlərdə marallar günəşli havada bu qayanın kölgəsinə yığışarlarmış.

QAYABAŞI – Qonşu Quzukəndlə sərhəddə iri qaya parçalarından ibarət sıldırımlı yer adıdır.

HAÇAÇINQIL – Ellərkəndin şimalında başı haça olan çınqıllı dağın adı.

DOLAMA YOL – Ellərkəndin şimal-şərqində Böyük Güney dağının köksündən dağların arxa tərəfinə getmək üçün çəkilən yol.

ÇAYIRLIQ – Əsasən sulu yerlərdə bitən, bol və sıx otu olan sahələrə deyilir. Ellərkəndin ətrafında belə çayırlar çox idi.

DÜZ ÇAYIR – Ellərkəndlə qonşu Güllücə kəndinin sərhədində yerləşən düzənlik – çayırlıq.

ÖMƏRİN ÇAYIRI – Ellərkəndin qərbində sonralar kənddən elliklə köçmüş tayfanın bir nümayəndəsi olan Ömər kişinin adına çayırlıq.

DƏRƏ ÇAYIRI – Ellərkəndin qərbində böyük ərazini əhatə edən düzənlik – çayırlıq. Hər tərəfi dağlarla əhatə olunduğundan ortada – dərədə yerləşdiyinə görə belə adlanır.

BALAKİŞİNİN ÇAYIRI – Ellərkəndin qərbində – Dərə çayırı deyilən ərazidə kəndin imkanlı şəxslərindən olan Balakişiyə məxsus sahə – çayırlıq.

QUQURUN YERİ – Ellərkəndin qərbində – Dərə çayırı deyilən ərazidə qonşu Çivinli kəndinin ərazisinə yaxın əkin sahəsi. Sahə sonralar erməni təqibləri nəticəsində Türkiyəyə köçən Ququr kişiyə məxsus olduğundan belə adlanırdı.

DÖYÜRÜŞÜN ÇAYIRI – Ellərkəndin şimal-qərbində – zastava yolunun altında olan və Döyürüş ağaya məxsus çayırlıq.

DÖYÜRÜŞÜN BULAĞI – Ellərkəndin şimal-qərbində – zastava yolunun altında olan və Döyürüş ağaya məxsus çayırlıqda yerləşdiyinə görə belə adlanır.

AXIRKƏLƏK BULAĞI – Ellərkəndin şimal-şərqində – Gürcüstanın Axırkələk şəhərinə gedən yolun üstündə bulaq adı.

QIRMIZIBULAQ – Ellərkəndin cənub-şərqində – qonşu Güllücə kəndinin ərazisi ilə sərhəddə yerləşən və qırmızı daş suxurları arasından qaynayıb çıxan bulağın adı. Adətən kəndə gətirilən gəlinləri yazın gözəl bir günündə qohumları ora çıxarıb, süfrə açar, şənlik düzəldər və beləliklə də, gəlinə "*ayaq açdı*" edərdilər.

QURNALI BULAQ – Ellərkəndin şərqində – Söyün kişinin təpəsinin arxasında bulaq adı. Bulağın suyu qədimlərdə daşdan yonulmuş boruşəkilli novdan tökülürdü. Burda "*qurna"* sözü boru mənasını bildirir.

DƏYİRMANÇAY – Ellərkənddən Güllücüyə doğru axan bulaq sularından ibarət olan çayın adı. Çayın qırağında bir neçə dəyirman yeri qalmaqda idi.

ƏLLƏZOĞLU BULAĞI – Ellərkəndin cənub-qərbindəki bulaqlardan birinin adı idi. Kəndin qədim sakini olan Əlləzoğullarına aid biçənəklərdə yerləşdiyi üçün belə adlandırılırdı.

ZORUQ – Ellərkəndin şimalında otu zor *(çətin)* biçilən biçənəkdəki bulağın adı. Elə biçənəyə də Zoruq deyilmişdir.

CİL USUBUN BULAĞI – Ellərkəndin qərbində, Cil Usub adlanan yayladakı məşhur bulağın adı. Bulaq birinci hərbi zastavaya gedən yolun sağ tərəfindədir.

ABDULLANIN BULAĞI – Ellərkəndin şimal-şərqində Böyük Güney dağının ətəyində yerləşir və kəndin qədim sakinlərindən olan Abdulla kişinin adını daşıyır**.**

İMANQULUNUN BULAĞI – Kəndin cənub hissəsində – İmanqulunun təpəsi deyilən kiçik dağın altından çıxan gur sulu bulaq. Bulaq və ərazi kənddən Türkiyəyə köçən tayfanının adını daşıyır.

BALAKİŞİNİN BULAĞI – Ellərkəndin qərbində – Dərə çayırı deyilən ərazidə kəndin imkanlı şəxslərindən olan Balakişiyə məxsus sahədə – çayırlıqda yerləşən bulaq adı.

QARA BULAQ – Ellərkəndin şərqində – Böyük Güney dağ silsiləsinin ətəyində gur və qara sulu bulaq adı. Bu bulağın suyu yayda sərin, qış fəsilində isti olurdu.

ABBASIN BULAĞI – Ellərkəndin şərqində – Hırın oğlu Abbasa məxsus çayırlıqda yerləşdiyinə görə belə adlanırdı.

GÜLLÜOĞLUNUN BULAĞI – Ellərkəndlə qonşu Güllücə kəndinin sərhədində və Düz çayır deyilən ərazidə gur sulu bulaq adı. Bulaq Güllüoğlulara məxsus ərazidə yerləşdiyinə görə belə adlanırdı.

CİNLİ BULAQ – Ellərkəndin qərbində – qonşu Çivinli kəndinin ərazisi ilə sərhəddə, böyük bir qayalığın altından çıxan soyuq və gur sulu bulaq. Lap qədim dövrlərdə bulağın ətrafında müəyyən qüvvələrin (*cin, əcinnə və s.)* göründüyü deyildiyinə görə belə adlanırdı.

SOYUQ BULAQ – Ellərkəndin şimalında – Ağıllar deyilən ərazinin yaxınlığında, Böyük Güney dağ silsiləsinin başlanğıcında suyu çox soyuq olan bulaq adı.

GÖY BULAQ – Ellərkəndin şərqində – Dolama Yolun üstündə dibi göy suxarılarından olduğuna görə belə adlandırılan bulaq adı.

SARININ BULAĞI – Ellərkəndin "*otay"* deyilən hissəsində Sarının təpəsinin altından çıxan və Orciyalı tayfasından olan Sarı kişinin ərazisində yerləşən bulaq.

QARAÇI BULAĞI – Ellərkəndin şimal-şərqində – Böyük Güneyin ətəyində və Dolama Yolun başlanğıcında yerləşən bulaq adı. Əvvəllər bulağın başında qaraçıların çox olması ilə belə adlandırılmışdır.

ASLANAĞA BULAĞI – Ellərkəndinin şimal hissəsində dağların qoynunda bulaq.

Xörək adları

Biş-düş hazırlamaq – evlərdə xörək bişirməyə el içində verilən ad.

Acıtmax – əvvəlcədən növbəti çörək bişirmək üçün götürülmüş acı xəmrənin xəmrə qatıb acıdılması.

Acıxəmrə (acıxamra) – Çörək bişirilən zaman acıdılaraq saxlanılan xəmir mayası.

Urva – xəmiri kündələmək üçün işlədilən un.

Yaxmaş – bal və kərə yağın çörəyin üzərinə yaxılması.

Acıtma (kökə) – təndirin külündə bişirilən əppək (*çörək*).

Təpitmə – xamrasız çörək.

Lavaş (yuxa) – təndirdə və ya sac üstündə bişirilir və nazik olur, irəfətədə təndirə yapılan yuxa çörəyə deyilir.

İrəfətə – çörəyi təndirə yapmaq üçün alət.

Fətir – təndirdə və ya sac üstündə bişirilən lavaşın bir az qalın formasına deyilir.

Lalanqa – İnək, qoyun və digər sağmal ev heyvanlarının doğuşdan sonrakı ilk südündən hazırlanmış nazik çörək növü.

Əppəkaşı – kənd yerlərində adətən könə, boyat çörəklərdən içinə yumurta vurularaq hazırlanan sulu xörək.

Kətə – müxtəlif növləri olmaqla, əsasən içi şirin, yağlı və ya göyərtidən də hazırlanmış qənnadı növü.

Ağartı – süd məhsulu.

Ağız – inək, qoyun və digər sağmal ev heyvanlarının doğuşdan sonrakı ilk südü.

Ayran – nəhrə çalxalanandan sonra yağdan qalan ağartı.

Ayran aşı – ayrandan hazırlanmış göyərtili xörək.

Südlü aş – süd və düyüdən hazırlanmış xörək.

Atdama /atlama/ – qatıq və sudan hazırlanmış sərinləşdirici içki.

Qaymax – Süd maşınından çəkilən zaman südün yağlı hissəsindən alınan məhsul.

Şırat – Süd maşınından çəkilən zaman südün yağı alınmış hissəsindən alınan məhsul, qaymağı süd maşını ilə çəkilmiş üzsüz süd.

Şor – Südün qaynadılaraq çürüdülmüş hissəsindən alınan məhsul.

Çeçil – süd maşınında çəkilən zaman südün tamam yağı alınmış hissəsindən – şıratdan hazırlanan məhsul.

Nor (lor) – pendirin suyunun yenidən qaynadılıb ağartı alınması, süddən pendir hazırlanan zaman yerdə qalan az və incə məhsul.

Qatıq – **s**üdün bişirilərək müəyyən maya ilə hazırlanan məhsulu.

Pendir – süddən bişirilərək alınan məhsul.

Motal pendiri – qoyun dərisinin içəri hissəsinə *(bəzi bölgələrdə dərinin çöl hissəsini yundan təmizləyərək (qırxaraq) həmin hissəyə)* bəzən ayrıca, bəzən də çeçillə qarışıdılaraq yetişməsinə (*dəyməsi)* görə hazırlanan pendir növü.

Qurud – qatıqdan yumru (*aval*) şəkilinə salınaraq hazırlanan və qurudularaq əsasən qış aylarında istifadə edilən məhsulun adı.

Dovğa – ayran və ya qatıqdan göyərti, düyü və noxud qatılaraq hazırlanan xörək növü.

Çalası – qatıq mayası.

Çanax – 1. pendir növü; 2. gildən hazırlanmış kiçik qazan.

Baş-əyax (kəlləpaça) – əsasən qoyunun baş və ayaq hissələrindən hazırlanmış xörək.

Xaş – malın ayaq hissələrindən hazırlanmış xörək.

Kabab – əsasən qoyun və keçi ətlərindən köz üzərində hazırlanmış xörək.

Sacüstü – ət və ya içalatın sacda vam odun üzərində bişirilməsi.

Yayma – sacda bişirilən yuxa.

Bozartma – ətin qazanda içinə müəyyən əlavələr etməklə hazırlanmış xörək növü.

Xaşlama (pöttəmə) – ətin qazanda heç bir əlavələr qatılmadan hazırlanmış xörək növü.

Dolma – ətin, əsasən, kələm və ya üzüm yarpağına bükülərək bişirilmiş forması.

Yalançı dolma – kələmin içinə ət əvəzinə, müəyyən paxlalar əlavə etməklə bişirilən xörək növü.

Çəkməcə – qoyun və ya ev quşlarının yağlı hissəsinin təndirin içində – közdə yarma ilə bişirilən xörək növü.

Küftə – çəkilmiş ətdən hazırlanmış xörək növü.

Aş – əvəlik aşı, bulğur aşı, süd aşı.

Umac – xəmirin ovulub dəmlənməsi.

Əvəlik plovu – düyü və əvəlikdən hazırlanan plov.

Höl – kəpək və ya undan hazırlanmış duru mal yemi.

Sıxma – çuğundur yarpağı bitkilərinin suda bişirilərək yağ və yumurta ilə qızardılması.

Əriştə – bir qrup qadının əl ilə undan hazırlanmış xəmirin yoğrularaq nazik şəkildə hazırlanıb qurudulması və sonra isə ocaq üstündə qovrulmuş forması.

Plov – adətən əriştədən hazırlanmış aş növü.

Ərdək – xəmirin xırda və kvadrat şəkilində qızardılaraq ayran aşında işlədilən məhsul, yağda qızardılmış kiçik xəmir parçaları.

Pişi – xəmirdən hazırlanmış fətirin yağda qızardılmış forması.

Qayğanaq – yumurtanın yağda qızardılaraq bişmiş forması.

Əzmə – kartofun bişirilib əzilməsi.

Hədix' – yemək adı, adətən uşağın ilk dişi təzə çıxan zaman bişirilərdi.

Həlim – düyünün çox qaynadılmış forması.

Közləmə – kartofun ocağın közündə bütöv və qabıqlı şəkildə bişmiş forması.

Xaşıl – yarmanın bişirilərək üstünə sarımsaqlı qatıq və əridilmiş yağ tökülərək hazırlanmış forması.

Xəngəl – xəmirdən hazırlanmış xörək növü. Xəngəl zamanı kənddə adətən qatıq, qurud və soğanın yağda qızardılmış förmasından istifadə edilərdi.

Hörrə – unun qovrularaq suda bişirilmiş forması. Bu xörək növü tez başa gəlməyinə və mədə-bağırsaqlarda yumşaq həll olunduğuna görə tez-tez istifadə edilərdi.

Göbələk – əsasən heyvan arxaclarının ətrafında yabanı bitər və onun istifadəyə yararsız növləri də olardı.

Qovurğa – buğdanın ocaq üstündə qovurulmasından alınan məhsul.

Qovud – qovurğanın kirkirə daşlarında üyüdülmüş forması. Kirə daşı iki hissədən – alt və üst ağır çevrə şəkilli daşlardan ibarət idi. Üst daşın ağırlığı əl ilə fırlan-

dıqda hər iki daşın arasına tökülən qovurğanı əzərək üyüdərdi.

Kələm turşusu – kələmin ağac çəlləklərdə qoyularaq turşudulmuş forması.

Qımı turşusu – əsasən əkin tarlalarında yaz aylarında bitən bitki növündən hazırlanmış turşu növü.

Çaşır turşusu – əsasən dağ ətəklərində və bulaq kənarlarında bitən bitki növündən hazırlanmış turşu növü.

Qazayağı turşusu – əsasən əkin tarlalarında yaz aylarında bitən bitki növündən hazırlanmış turşu növü.

Bitki adları

Acıqıcı (acıqıjı) – vəzəriyə oxşayan bitki növü. Onu acqarına yemək qurdu tökürdü. Ağbaba folklorunda da belə bir oxşama nəzərə çarpır.

Acı tərə – vəzəriyə oxşayan və əsasən bulaq kənarlarında bitən, nisbətən acı olan bitki.

Adoyul – əkin tarlalarında bitən və yeyilən köklü meyvə – qımının toxumu.

Tetroyul – əkin tarlalarında bitən, adoyula nisbətən böyük və yeyilən köklü meyvə.

Lilpar – əsasən bulaq kənarlarında, sulu yerlərdə bitər və onu yumurta ilə qovurduqda dadlı xörək alınardı.

Yarpız – əsasən bulaqların ətrafında və sulu yerlərdə bitən xoş ətirli bitki növü.

Cacıx – yeməli, yabanı bitki.

Çaşır – əsasən dağ ətəklərində və bulaq kənarlarında bitən bitki növü. Ondan yaxşı turşu hazırlanardı.

Qımı – əsasən əkin tarlalarında yaz aylarında bitən bitki növü. Ondan xörəklə bərabər, həm də turşu da hazırlanardı.

Qaz ayağı – əsasən əkin tarlalarında yaz aylarında bitən bitki növü.

Şalğam – turp.

Yemlik – əsasən yaşayış evlərinin ətrafında, eyni zamanda təpələrdə də bitərdi. Onun özəlliyi o idi ki, onu yerdən qoparanda südə bənzər maye gəlirdi. Ən çox istifadə olunan incə yarpaq bitki növü idi. Çiy şəkildə yeyilərdi.

Quşəppəyi – bu bitki də əsasən evlərin ətrafında daha çox bitərdi. O da ondan irəli gəlirdi ki, mal-heyvan peyininin təsiri nəticəsində çox olurdu. Çiy şəkildə yeyilən incə yarpaqlı bitki idi.

Unnuca – adətən, üstü şifer olmayan yaşayış evlərinin və ya axırların (*tövlə)* bacalarının (*pəncərə)* ətrafında çox bitən incə və yumşaq bitki növü. Bu da ondan irəli gəlirdi ki, içəridən gələn isti hava onun burda yetişməsinə kömək edirdi.

Gicitikan – əsasən yaşayış məskənlərinə yaxın, çəpərlərin (*hasar)* ətrafında, bəzi hallarda da tərk edilmiş yurd yerlərində çox bitərdi. İstifadə edildikdə əli dalayan (*qıcıqlandırmaq)* bitki idi. Həm çiy şəkilində, həm də bişirilərək istifadə edilərdi. Gicitikan kətəsinin isə xüsusi dadı var idi.

Qanqal (mədik) – əsasən yabanı bitki kimi isifadəsiz, kolluq yerlərdə bitir və qabığı soyularaq yeyilirdi.

Bağa yarpağı – boz rəngdə olan bu bitki müalicə məqsədilə işlədilər və yeyilməzdi. İnsanın hər hansı bir bədən hissəsi kəsildikdə və ya zədə aldıqda bağa yarpağını həmin hissəyə qoymaqla onu müalicə etmək mümkün olurdu.

Toppuz – əsasən dağ ətəyi və təpələrdə bitən, yuxarı hissəsi topa bənzəyən bu bitkinin həmin baş hissəsini qırmaqla, orda yerləşən dadlı hissəni yemək olurdu.

Qantəpər – bu bitki müalicə əhəmiyyətli bitki kimi əsasən çöllük yerlərdə bitir və çay kimi dəmlənərək istifadə olunurdu.

Dəvədabanı /düyədabanı/ – yabanı bitki.

Xatınbarmağı – əsasən dağ yamaclarında bitən incəyarpaqlı kimi məişətdə ondan yumurta ilə qovurularaq xörək hazırlanardı.

Quzuqulağı – əsasən əkin tarlalarının ətrafında bitən enliyarpaqlı bitki kimi məişətdə ondan xörək hazırlanardı.

Qoyun qulağı – əsasən dağ ətəklərində bitən enliyarpaqlı bitki kimi məişətdə ondan xörək hazırlanardı.

Turşalax – adətən qayalıq ətrafında və ya yamaclarda bitər və turş dadı verən bitki kimi çiy şəklində yeyilərdi.

Dovşan topuğu – forması dovşanın ayaqlarına bənzəyirdi deyə belə adlanan bitki kimi adətən yamaclarda və ya təpələrdə bitər, çiy şəklində qabığı soyularaq yeyilərdi.

Əvəlik – əkin tarlalarında, evlərin ətrafında, çəpərlərin *(hasar)* dibində bitər və həm xörək kimi istəfadə edilər, həm də soyuqdəymə zamanı (boğaz ağrıları zamanı da istifadə edilir) müalicəvi əhəmiyyətə malik idi.

İtburnu – kolluqlarda bitər və burunu irəli çıxardı. Tikanlı olar, əsasən qırmızı və narıncı rəngdə meyvə kimi ondan müalicə əhəmiyyətli olaraq dəmlənib içilərdi.

Quşburnu – kolluqlarda bitər və aval formada, əsasən qırmızı və narıncı rəngdə meyvədir. Ondan müalicə əhəmiyyətli meyvə kimi əsasən dəmlənib içilərdi.

Oymadərən – yeməli bitki.

Dəlibanda – təbii yabanı bitki. Bandanın deşikli özəyi olurdu.

Baldırğan – əsasən bulaqların başında bitər, yumuru boru şəkilində, içi boş olan və yeyilməyən yabanı dərman bitkisi. Ondan ancaq uşaqlar oyuncaq kimi istifadə edərdilər.

Xına daşı – daşların üstündə bitən xırda dənəli, ot örtüyünə bənzər hissələrini su ilə isladaraq qarışdırdıqda təbii xına alınaırdı. Ona görə də daşlar belə alınardı.

Kəklik otu – Xırda və incə yarpaqlı bitki kimi dağ yamaclarında, təpələrdə çox bitən xoş ətirli bitki növü kimi dəmlənərək içilər və müalicəvi əhəmiyyəti vardır.

Danaqıran gülü – yaz aylarının ilk günlərində, qar əriyən zaman ən tez yetişən bitki – gül növü. Deyilənlərə görə, onu təzə danalara (*buzov*) vermək və ya göstərmək olmazdı.

Alax – taxılın arasında və ya bostanda bitən artıq ot, ələf.

Atalması – yoncanın bir növü.

Gülül – taxılın içində bitən paxlalı, yağlı və yeməli bitki.

Sözlüyün hazırlanmasında professor Aslan Bayramovun "Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel, və Pəmbək bölgələrinin yer-yurda dları (mononimlər) kitabından (Sumqayıt nəşriyyatı, 1996, səh. 1. 125. 180) istifadə edilmişdir.

YADDAQALAN VƏ MARAQLI XATİRƏLƏR

Kəndimizin özəlliklərindən biri də insanların sözlü-söhbətli, hadisələrə müxtəlif prizmadan – özlərinəməxsus yanaşmalarının olmasıdır. Belə söhbətlərin bəzilərinin canlı şahidi olduğum üçün indi də onlar yadıma düşəndə dodaqlarım qaçır, ruhum təzələnir...

...Kəndimizin adət-ənənələri ta qədimdən bu günümüzə qədər yaşayaraq, öz milli xüsusiyyətlərini saxlamaqdadır. İllər, əsrlər öncə olan adətlər bu gün də yaşayır. Belə adətlərdən biri də toy günü gəlin bəy evinə təzə ayaqbasanda onun "*oturmaması*" səhnəsidir. Oturmayan gəlin bunun müqabilində bəyin yaxınlarından nəmər (*hədiyyə)* gözləyərdi. Bu adətə uyğun olaraq da bəyin qohumları gücü çatandan söz verər və əməl də edərdilər.

Sizə canlı şahidi olduğum bir toy günündən danışacam. Kirvəm Mirzə evlənirdi. Adətə görə, gəlini ata evindən yeni evə – bəyin evinə gətirər və *"gəlin otumur"*adlı maraqlı səhnə yaradılardı. İndi də elə oldu. Gəlinin yengəsi elan etdi ki, gəlin oturmur. Qohum-əqrəba nəmər söz verdi, dilək etdi, bəziləri bunu nağdlaşdırdı da. Amma gəlin "*inadkarlıq"* edərək oturmaq istəmirdi. Qohum-əqrəbadan yalnız cavan bir oğlan, bəyin qardaşı Rza qalmışdı. Onu çağırdılar ki, bəs gəlin oturmur. Hamı nəmər verib, tək sən qalıbsan, səni gözləyirik.

Rza kirvə çox təmkin və hazırcavablıqla: ***"Narahat olmayın, axırda yorulub özü oturacaq",-*** deyə vəziyyətdən çıxmağı bacardı...

* * *

...Mehralı Mustafayev kəndimizin yaşlı adamlarından hesab edilirdi və mənim də həmişə hörmət etdiyim insan idi. Allah rəhmət eləsin, indi dünyasını dəyişib. Xasiyyətcə çox sakit idi, yüz sözdən birinə cavab verərdi həmişə. Amma verdiyi cavab da "*insanın bu tərəfindən batıb, o tərəfindən çıxardı".* Heç tam orta təhsili olmayan bu adamın bəzən elə düşündürücü cavabları olardı ki... Bunu, bəzən təsadüfən deyər, bəzən də insanları güldürmək və ya *"yaralamaq"* üçün də edərdi.

Kənd həyatının gündəlik iş qayğıları məni Mehralı dayı ilə iş yoldaşı etdi bir müddət. Atam Şəmməd kişi də bizə rəhbərlik edirdi. Bir dəfə atam mənim və Mehralı dayının işə az can yandırdığını görüb onu danlamağa başladı ki, "*Bu necə işləməkdi?. Yoldaşlarınız işləyir, siz isə dala qalırsınız".*

Mehralı dayı özünəməxsus rahatlıqla: ***" Nə olsun, ay Şəmməd kirvə. Onsuz da Güləhməd (sovxozun kassiri) ayın sonunda hamıya eyni cür maaş gətirəcək".***

* * *

...Nəbi əmim (*Allahverdiyev)* kənddə qoruqçu işləyirdi. Çobanların da sovxozda ən çox sevmədiyi adam qoruqçular idi. Çünki ac heyvanları sovxozun sahələrinə buraxmasan heyvanlar qarınları doyana qədər çobanlara əziyyət verərdi. Onlar da canlarını dinc saxlamaq üçün fürsət düşən kimi sovxozun qorux (*qoruq)* yerlərindən istifadə edərdilər.

Mehralı dayı da qoyun sürüsünün ona çox əziyyət verdiyini görüb, heyvanı buraxır Kalloydakı tarlaya. Özü

də oturur bir daşın üstündə və gözlərini də dikir Nəbi əmimin həmişə gəldiyi yola. Nəbi əmim də tərslikdən bu dəfə kənd tərəfdən yox, Əmirxanın yaylası (*ermənilərin yaylaq yeri*) tərəfdən gəlir. Görür ki, heyvan qoruğu basıb. Hay-həşir salır, söyür, qışqırır. Mehralı dayı çox sakit tərzdə və heç nə olmamış kimi: ***"Ay rəhmətliyin oğlu, mən nə bilim ki, bu gün sən bu tərəfdən gələcəksən",-*** deyir....

* * *

...Osman Qədirovun evi qonşu Güllücə kəndinə və ya fermalara gedən yolun üstündə olduğundan hamı kimi mən də həmişə o yoldan istifadə edərdim. Yanvar ayının ən çətin keçən günləri idi. Qar dizə kimi, yollar bağlı, onsuz da "*günlü günlərdə gəlməyən rayon avtobusunun*" belə havada işləmək ehtimalı sıfıra bərabər idi. Mən vacib iş üçün Güllücəyə getməliydim. Elə Osman dayıgilin qapısını təzəcə keçmişdim ki, qabaqda bir nəfərin çox çətinliklə yeridiyini gördüm. Yaxınlaşanda Osman dayının olduğunu görüb çox təəccübləndim: *"Ay Osman dayı, belə havada hara gedirsən? Nə vacib işin var ki, yola çıxıbsan?"*,- deyə soruşdum. O, qonşu Qarabulaq kəndində vaxtı ilə yaxın qonşusu olan (*əvvəlki illərdə orada yaşamışdılar)* Aşurun öldüyünü deyib, ora mütləq getməli olduğunu söylədi. Mən onun yaşlı və bir az da nasaz olduğunu nəzərə alaraq israrla geri qayıtmasını istədim. Cavabında o: ***"Adama deməzlər ki, arvadım öldü gəlmədin, oğlum öldü gəlmədin. İndi də özüm öldüm yenə gəlmədin",-*** deyərək yoluna davam etdi.

* * *

...Yaxşı yadımdadır. Qış aylarında yaşadığımız kəndin ən böyük pboblemi çoxlu qar yağması nəticəsində yolların bağlanması, kənd yollarında nəqliyyat vasitələrinin işləyə bilməməsi idi. Bu problemi işıqlandırmaq üçün Amasiya Rayon Partiya Komitəsinin orqanı olan və iki dildə – Azərbaycan və erməni dillərində çap olunan "Əmək" qəzetinə (*baş redaktor rəhmətlik Kərim Əsgərov idi*) bir felyotonsayağı yazı göndərmişdim. Baş redaktor bütün təzyiqləri göz önünə alaraq o yazını çap etdi. Yazı rayonun mərkəzi dairələrində böyük rezonans doğurmuşdu. Kənd sovet sədri mənim Rayon İcraiyyə Komitəsinin sədri Murad Akopyanın qəbuluna çağırıldığımı söylədi. Səhərisi günü çox çətinliklə rayon mərkəzinə getdim. Murad Akopyanın ilk sözü *"Bu yazını sən kimin tapşırığı ilə yazıbsan və niyə?"* oldu. Hətta həyasızcasına "*Bəyəm sizin yollar bağlıdır ki*,"- dedi. Və mənə qəribə gəldi ki, ispolkomin sədri bu məsələlərdən xəbərsizdir. Mən rixşəndlə ona *"Mən indi də belə çətin vəziyyətdə rayona gəlmişəm",*- dedim. O, əsəbiləşərək stolun üstündəki telefonu mənə atmaq istədi *(çünki onların sözünün qabağında söz eşitməyə vərdiş etməmişdilər).* Onun mənə yana-yana dediyi sözləri hələ də qulaqlarımdadır: "Bəyənmirsən get öz ölkəndə yaşa. Səni kimsə burda zorla saxlamır ki..." Və məni hədələyərək otaqdan qovdu.

Səhərisi gün sovxozumuzun direktoru məni yanına çağıraraq *"Bir də belə şeylər etmə",*- deyə tənbeh etdi. Baxın, sovetlər ölkəsinin o günlərində ermənilər öz gələcək planları ilə yaşayır və bizə "*yol"* da göstərərək ata-baba yurdumuzdan getməyimizi istəyirdilər.

* * *

...Kəndimizin peşəkar sürücülərindən olan rəhmətlik Abuzər dayı ilə yol yoldaşı olduğumuz bir əhvalatı danışmaqla onu xatırlamaq istəyirəm. Təzə ailə qurmuşdum və buna görə də ailənin ehtiyaclarını ödəmək üçün kənddən 70 kilometr uzaqlıqda yerləşən *Gümrü (*Leninakan*)* şəhərinə getməyə tez-tez ehtiyac yaranardı. Şəxsi maşınımız olmadığından o vaxtlar sovxoz maşınlarından istifadə etməli olurduq. Abuzər dayı da "*dönərgəsi yaxın*" və mehriban insan olduğundan hamı kimi mən də bəzən onun maşını ilə şəhərə getməyin xahişini edərdim. Bir dəfə – 1982-ci ildə maşınların sovxoza kəpək gətirməli olduğunu eşitdikdə Abuzər dayıya məni də aparmasını xahiş etdim. Razılaşdıq və "o başdan" (*səhər tezdən*) şəhərə yola düşdük. O, sovxozun işini gördükdən, mən də ailəmizin ehtiyaclarını aldıqdan sonra geri qayıtmağa başladıq. Şəhərin yuxarı hissəsində o dövr üçün bütün sovetlər ölkəsinin şəhərlərinə xarakterik olan meydan – Lenin meydanı var idi. Abuzər dayı maşını orada saxladı və yaxınlıqdakı qastronoma (*mağazaya*) kolbasa-çörək almaq üçün getdi (*Onu tanıyanlar yaxşı bilirdi ki, Abuzər dayı kolbasa yemədən şəhərdən çıxmazdı. Həm də əvvəlcə kolbasanı yeyər, sonra da üstündən çörəyi yeyərdi. Deyirdi ki, onsuz da "orda" (mədədə) qarışacaqlar).* Mən də bu vaxtdan səmərəli istifadə edərək meydanı dolaşdım. Belə meydanlarda o dövrlərdə, adətən, SSRİ MK Siyasi Bürosunun namizəd və üzvlərinin portretləri vurulardı. Təsadüfən həmin vaxt da fəhlələr meydandakı portretlərdə dəyişikliklər etmək üçün əllərindəki portreti divardakı ilə dəyişirdilər. Çünki həmin ilə qədər ulu öndərimiz Heydər Əliyev Siyasi Büronun

üzvlüyünə namizəd idi. Mən də bu günlərdə eşitdiyim və hamının sevincinə səbəb olan Azərbaycanımızın fəxri Heydər Əliyevin Siyasi Büronun üzvlüyünə qəbul olunmasını bildiyimdən çox diqqətlə bu prosesi izləyirdim və Heydər Əliyevin portretini fəhlənin əlində gördüm. Fəhlə yuxarıda nərdivanda duran erməni həmkarına bu portreti də dəyişməyi dedi. Yuxarıdakı fəhlə portretə baxdı və "*mən bu türkün portretini asmayacağam",*- deyə imtina etdi. Bu, o dövr üçün büyük siyasi səhv idi və erməni millətçisi bunu hesablamadan açıqca imtina edirdi. Mən özümü saxlaya bilmədim və ermənіyə *"sən aşağı düş, bu işi mən görərəm*",- dedim. Ləhcəmdən mənim türk (*onlar bizə həmişə "türk" deyirdilər)* olduğumu anlayan erməni məni söyərək təhqir etməyə başladı. Mən ona məhəl qoymayaraq aşağıda portreti tutan ermənіnin köməyi ilə o portreti divara vurdum. Abuzər dayı o vaxt qayıtdı ki, 3 erməni *(yalnız biri məni onlardan qorumağa çalışırdı)* mənimlə qovğa (dava-dalaş) edir. Abuzər dayı nəhəng, boyda hündür, canlı-cüssəli adam idi. Onun "*müdaxiləsindən"* sonra ermənlər mənim "*yaxamı"* buraxdılar. O da yaxşı yadımdadır ki, biz o səfərdən ac qayıtdıq və Abuzər dayının aldığı kolbasa-çörək də elə meydanda ayaqlar altında qaldı. Yolda mənim əsəbiləşdiyimi, bunun yolverilməz olduğunu deyərək *"özümdən çıxdığımı"* görən Abuzər dayı mənə təsəlli verərək: "*Darıxma müəllim, o ayaqlar altında tapdaladıqları çörək onları tutacaq bir gün"*,- dedi.

Bir müddət sonra Leninakan şəhəri zəlzələdən dağıldı, tar-mar oldu, o tapdalanan çörək onları tutdu da...

* * *

...Babam Nəbiyev Məhəmməd ömür-gününü çobanlıqda keçirmiş bir şəxs idi. İşini çox sevən, zəhmətkeş və dövətin malına da həmişə sahib çıxan idi. Qoyunçuluğu özünə sevimli peşə hesab edən bu adam sürüdə olan hər heyvanı tanıyar, hər birinin yaşına qədər söyləyərdi. Hətta onu sınamaq üçün bir qoyunu sürüdən götürüb gizlətmiş və ondan "*Sürüdə olmayan qoyun hansıdır?,* - deyə soruşmuşdular. Kənd camaatının dediyinə görə, babam hansı heyvanın sürüdən ayrıldığını tapmışdır.

O vaxtlar belə yazılmayan qanunlar mövcud idi: sovxoz rəhbərliyi tez-tez ya özünə, ya da rayon rəhbərliyi üçün erkək heyvan hədiyyə etmək istəyəndə heç vaxt babamın yanına getməzdilər. Bilirdilər ki, hay-həşir salacaq, onları kor-peşiman qaytaracaq, verməyəcək (O, peşəsinə, dövlət malına bu qədər sədaqətli idi).

Babam, eyni zamanda çox "təvəkkülə" (*sadəlövh*) adam olub. Deyilənlərə inanar, razılaşardı. Onu aldatmaq da asan olurdu bəzən.

...Babamın özü mənə danışardı ki, kolxoz dövründə qardaşımoğlu Qurbanla bir sürüyə çobanlıq edirdik. Bu Qurban həmişə mənə *"Ay əmi, bu gün sənin növbəndir"*,- deyə həmişə növbəsindən yayınardı. Bu hadisə bir müddət çəkir. Artıq bunlara dözməyən babam Qurban dayımı yanına çağıraraq *"Qurban, hər gün məndən, hər gün məndən zor olar. Bir gün səndən, bir gün məndən xoş olar"*,- deyərək onu qoyun növbəsinə göndərir. Sonralar babamın bu sözləri kənddə zərb-məsəl kimi çox işlədilirdi.

...Babamın işinə və dövlət malına belə ciddi yanaşması rayon rəhbərliyinin diqqətini çəkmiş və hələ 1969-cu ildə o dövr üçün qiymətli və əlçatmaz bir hədiyyə – böyük radio-qəbuledici ilə mükafatlandırılmışdır. O səhnəni yaxşı xatırlayıram. Hədiyyəni sovxozun direktoru Jojik Məmmədov gətirmişdi.

- ***Xatirələr Şahbaz Balakişiyevin dilindən söylənilmişdir.***

QƏRBİ AZƏRBAYCANIN TARİXİ TOPONİMLƏRİ

İravan-İrəvan
Zəngibasar-Masis
Göyçə-Sevan
Qafan-Kapan
Gorus-Goris
Qarakilsə-Sisian
Meğri-Megri
Basarkeçər-Vardenis
Qırmızıkənd-Çemberek
Karvansaray-İcevan
Tovuzqala-Berd
Barana-Noyemberyan
Sərdarabad-Armavir
Ellər-Abovyan
Aşağı Axta-Razdan
Baş Abaran-Aparan
Cəlaloğlu-Stepanavan
Ərtik-Artik
Yuxarı Talin-Tsaxkadzor
Zod-Sotk
Avşar-Vedi
Arazdəyən-Yerasx
Ağbaba-Amasiya
Böyük Qarakilsə-Kirovakan
Hamamlı-Spitak
Alagöz-Araqats
Gümrü-Gümri
Alaverdi-Allahverdi
Qəmərli-Artaşat
Üçkilsə-Eçmiadzin
Molla Göyçə-Maralik
Axta-Razdan
Dilican-Dilijan
Aşağı Qaranlıq-Martuni
Əzizbəyov-Vayk
Keşişkənd-Yoğoqnadzor
Səfolar-Cermuk
Əştərək-Aştarak
Güllüdərə-Tumanyan
Kəvər-Kamə
Qızıl Qoç-Qukasyan
Soylan-Vayk
Kotanlı-Karmraşen
Cul-Artavan
Kabud-Kapuyt

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. **A.Bayramov.** Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (mononimləri). "Sumqayıt" nəşriyyatı, 1996, 250 s.
2. **A.Bayramov, A.Bayramova.** Azərbaycan dilinin Ağbaba şivəsi. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2020, 628 s.
3. **A.Ağbaba.** Ağbaba-Çıldır aşıq mühiti. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012, 372 s.
4. **Aşıq İsgəndər Ağbabalı.** Sazda fırtına-sözdə ümmanam (tərtib edənlər M.Gülməmmədov və A.Ağbaba). 1-ci cild, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2011, 320 s.
5. **N.Mustafayev.** Ağbaba və Şörəyeldə Dədə Qorqud izləri. "Dədə Qorqud" jurnalı, ADPU-nun nəşri, №2, 2002.
6. **N.Mustafayev. 1918-1920-ci illərdə** Ağbaba və Şörəyel nahiyələrində ermənilərin törətdikləri soyqırımı. "Xalq qəzeti", 31 mart, 1 aprel 2012-ci il, №68-69.
7. **L.Nəsibov.** Ağbaba-Şörəyel II dünya savaşında (Həlak olanlar və itkin düşənlər). Bakı, "LN" nəşriyyatı, 2023, s.92-102.
8. **Dinqəm Dinar** (Ağbaba etnoqrafiyası və folklorundan örnəklər). Tərtib edəni Tacir Səmimi. Bakı, "Nurlan" nəşriyyatı, 2006.

İ N F O R M A T O R L A R

1. Alıyev Qasım Cəbrayıl oğlu – 92 yaş
2. Gülməmmədov Müzəffər Əziz oğlu – 76 yaş
3. Alıyev Rza David oğlu – 72 yaş
4. Mikayılov Murad İmdad oğlu – 74 yaş
5. Alıyev Səməd Cəbrayıl oğlu – 84 yaş
6. Alıyeva Qızılgül David qızı – 67 yaş
7. Alıyev Sürəddin Qasım oğlu – 68 yaş
8. Balakişiyeva Şirin Alı qızı – 66 yaş
9. Həsənov Ələmdar Süleyman oğlu – 70 yaş
10. Alıyev Ələddin Qasım oğlu – 65 yaş
11. Balakişiyev Xalid Güləhməd oğlu – 64 yaş
12. Qədirov Rasim Muxtar oğlu – 56 yaş
13. Mustafayev Zakir Mehralı oğlu – 53 yaş
14. Ramazanov Ramil İntizam oğlu - 22 yaş
15. Cəfərov Hüsəməddin Nəbi oğlu – 54 yaş
16. İdrisova Təranə Mürvələd qızı - 52 yaş
17. Balakişiyeva Məlahət Dünyamalı qızı- 52 yaş
18. Allahverdiyev Şahmar Arif oğlu – 34 yaş

Kitabın nəşrindəki maliyyə dəstəyinə görə həmyerlilərimiz Mürtəza Gülməmmədov, Elburus Məmmədov, Ruslan Gülməmmədov və Oktay Mürsəlova təşəkkür edirik.

Müəllif hüququ qorunur.
Kitabın satışı qadağandır.

BURAXILIŞA MƏSUL:
Afaq Xanpaşayeva

BƏDİİ REDAKTORLAR:
Əfsanə Zülfüqarova
Rəna Rüstəmova

TEXNİKİ REDAKTORLAR:
Elcan Balakişiyev
Kəmalə Bayramova

KORREKTORLAR:
Lalə Niyazqızı
Pərvanə İbrahimova

KOMPÜTER TƏRTİBATÇISI:
Ziya Balakişiyev

FOTO İŞLƏRİ:
Sabir Cabbarov

TƏŞKİLATÇILAR:
Hüsəməddin Cəfərov
Zakir Mustafayev

Çapa imzalanmışdır: 05.05.2024
Kağız formatı: 60x90 1/16
Çap vərəqi 18,5.
Sifariş 24. Tiraj: 200 ədəd

"Peşə təhsili və insan kapitalı"
jurnalı redaksiyasında yığılıb və
"Letterpress" MMC-nin mətbəəsində çap olunub.